AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ

AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

# İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında

# HESABAT

*Hesabat ATMU Elmi Şurasının*
*08.12.2023-cü il tarixli iclasının*
*3 saylı qərarı ilə təsdiq edilmişdir*

*Tarix: 11.12.2023*

*İmza:* ____________
*(müəssisənin rəhbəri)*

**M.Y**

BAKI-2023

# Mündəricat


Mündəricat....................................................................................................2

I. Giriş....................................................................................................3

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar....................................................................................................3

2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki....................................................................................................4

3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti....................................................................................................6

II. Təhsil müəssisəsinin özünütəhlili....................................................................................................10

4. Özünütəhlil qiymətləndirməsinin icmalı....................................................................................................10

1. STRATEJİ İNKİŞAF....................................................................................................10

2. KEYFİYYƏT TƏMİNATI....................................................................................................17

3. TƏLİM VƏ TƏDRİS....................................................................................................18

4. ELMİ TƏDQİQAT....................................................................................................66

5. İDARƏETMƏ SİSTEMİ....................................................................................................79

6. İNFRASTRUKTUR....................................................................................................94

7. BEYNƏLMİLƏLLƏŞMƏ....................................................................................................98

5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri....................................................................................................107

6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər....................................................................................................109

III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər....................................................................................................113

# I.Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| **Ali təhsil müəssisəsinin adı** | Azərbaycan Turizm və Menecment Universiteti |
| **Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti** | AR Təhsil Nazirliyinin Akkreditasiya şurasının 22 dekabr 2017-ci il tarixli 448 nömrəli qərarı ilə 5 il müddətinə |
| **Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla)** | Dövlət qeydiyyatı № (VÖEN) 1500817681 |
| **Ali təhsil müəssisəsinin rəhbəri** | Mədətov İlham İsa oğlu |
| **Fakültələrin sayı** | 3 |
| **Kafedraların sayı** | 8 |
| **Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı** | 11 |
| **Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı** | 17 |
| **Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı** | 16 |
| **Ali təhsil müəssisəsinin təhsilalan kontingenti** | 2230 |
| **Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı** | 91 |
| **Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı** | 75 |
| **Müəssisənin elektron ünvanı və əlaqə telefonu** | info@atmu.edu.az<br>(+99412) 564 42 33, 564 68 45<br>Fax: (+99412) 564 42 34 |
| **Müəssisənin hüquqi ünvanı** | Koroğlu Rəhimov küçəsi 822/23 |
| **Müəssisənin faktiki ünvanı** | Koroğlu Rəhimov küçəsi 822/23 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| | | **Sədr:** | |
| 1. | Mədətov İlham İsa oğlu | ATMU-nun rektoru | i.madatov@atmu.edu.az |
| | | **Sədr müavini:** | |
| 2. | Bağırov Zaur Siyavuş oğlu | Tədris işləri üzrə prorektor | z.bagirov@atmu.edu.az |
| 3. | Əliyeva İranə Məmməd qızı | Elm və inkişaf məsələləri üzrə prorektor | irana.a@atmu.edu.az |
| 4. | Aslanlı Araz Azad oğlu | Strateji inkişaf üzrə prorektor | a.aslanli@atmu.edu.az |
| | | **Katib:** | |
| 5. | Bağırlı Sara Hikmət qızı | Keyfiyyət təminatı şöbəsinin müdiri vəzifəsini icra edən | s.bagirli@atmu.edu.az |
| | | **Üzvlər:** | |
| 6. | Cabbarlı Fərid İlham oğlu | Təhsil məsələləri üzrə rektor müşaviri | f.cabbarli@atmu.edu.az |
| 7. | Məhərrəmov Samir Müseyib oğlu | Rektor köməkçisi | s.maharramov@atmu.edu.az |
| 8. | Həsənova Firuzə İlqar qızı | Dövlət Turizm Agentliyinin Təhsil və təlim sektorunun aparıcı məsləhətçisi | firuza.hasanova@tourism.gov.az |
| 9. | Nəsirli Nəsirulla Beytulla oğlu | Elm və innovasiyalar şöbəsinin müdiri | n.nasirli@atmu.edu.az |
| 10. | Mehtiyev Nazim Yusif oğlu | Maliyyə-plan şöbəsinin müdiri | n.mehtiyev@atmu.edu.az |
| 11. | Eldarova Həcər Elxan qızı | Tədris-metodiki şöbənin müdiri | h.eldarova@atmu.edu.az |
| 12. | Bilalov Bahadur Ənvər oğlu | Turizm və qonaqpərvərlik fakültəsinin dekanı | b.bilalov@atmu.edu.az |
| 13. | Nəzərov Vüqar Mehrəli oğlu | Biznes idarəçiliyi fakültəsinin dekanı | v.nazarov@atmu.edu.az |
| 14. | Allahverdiyev Kənan Hüseyn oğlu | Sosial menecment fakültəsinin dekanı | k.allahverdiyev@atmu.edu.az |
| 15. | Təhməzov Hakim Cabbar oğlu | Xidmət şöbəsinin müdiri | h.tahmazov@atmu.edu.az |
| 16. | Abbasova Ayan Şahid qızı | İnsan resursları şöbəsinin müdiri | a.abbasova@atmu.edu.az |
| 17. | Musa Orxan İsmayıl oğlu | Beynəlxalq əlaqələr şöbəsinin müdiri | o.musa@atmu.edu.az |
| 18. | Bağırlı Aynur Hikmət qızı | Ümumi şöbənin müdiri | a.bagirli@atmu.edu.az |
| 19. | Əliyeva Elnurə Mübariz qızı | Karyera və kommunikasiya şöbəsinin baş mütəxəssisi | e.aliyeva@atmu.edu.az |
| 20. | Qaraşova Elnarə Ədalət qızı | Kitabxana-informasiya mərkəzinin sistem inzibatçısı | e.qarashova@atmu.edu.az |
| 21. | Bağırlı Hüseyn Rafail oğlu | İnformasiya texnologiyaları şöbəsinin müdiri | h.bagirli@atmu.edu.az |
| 22. | Kərimov Aydın Məmməd oğlu | Daxili nəzarət üzrə məsul şəxs/hüquqşünas | a.karimov@atmu.edu.az |
| 23. | Abdullayev Samir Qurban oğlu | Tələbə Gənclər Təşkilatının sədri | abdullayev.samir.2001@atmu.edu.az |
| 24. | Süleymanov Rəşad Rəfail oğlu | Tələbə Elmi Cəmiyyətinin sədri | suleymanov.rashad.2001@atmu.edu.az |

## Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1. | Mədətov İlham İsa oğlu | Komissiyanın işinə rəhbərlik |
| 2. | Bağırov Zaur Siyavuş oğlu | Təlim və tədris istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri |
| 3. | Əliyeva İranə Məmməd qızı | Elm-tədqiqat istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri |
| 4. | Aslanlı Araz Azad oğlu | Strategiya və keyfiyyət istiqamətləri üzrə üzrə özünütəhlil qrupunun rəhbəri |
| 5. | Cabbarlı Fərid İlham oğlu | Təhsil və qiymətləndimə məsələləri üzrə özünütəhlil qrupunun üzvü |
| 6. | Məhərrəmov Samir Müseyib oğlu | İnfrastruktur və idarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri |
| 7. | Həsənova Firuzə İlqar qızı | Dövlət Turizm Agentliyi üzrə əlaqələndirici şəxs |
| 8. | Nəsirli Nəsirulla Beytulla oğlu | Elmi-tədqiqat, idarəetmə istiqamətləri üzrə özünütəhlil qruplarının üzvü |
| 9. | Mehtiyev Nazim Yusif oğlu | Maliyyə istiqaməti üzrə özünütəhlil qrupunun rəhbəri |
| 10. | Eldarova Həcər Elxan qızı | Təlim və tədris istiqaməti və İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 11. | Bağırlı Aynur Hikmət qızı | İdarəetmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü, sənəd dövriyyəsi məsələləri üzrə özünütəhlil qrupunun rəhbəri |
| 12. | Bilalov Bahadur Ənvər oğlu | Turizm və qonaqpərvərlik fakültəsi üzrə özünütəhlil qrupunun üzvü |
| 13. | Nəzərov Vüqar Mehrəli oğlu | Biznes idarəçiliyi fakültəsi üzrə özünütəhlil qrupunun üzvü |
| 14. | Allahverdiyev Kənan Hüseyn oğlu | Sosial menecment fakültəsi üzrə özünütəhlil qrupunun üzvü |
| 15. | Təhməzov Hakim Cabbar oğlu | İnfrastruktur məsələləri üzrə özünütəhlil qrupunun üzvü |
| 16. | Abbasova Ayan Şahid qızı | İnsan resurslarının idarəedilməsi üzrə özünütəhlil qrupunun üzvü |
| 17. | Musa Orxan İsmayıl oğlu | Beynəlmiləlləşmə istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 18. | Bağırlı Sara Hikmət qızı | Keyfiyyət təminatı və strategiya istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 19. | Əliyeva Elnurə Mübariz qızı | Karyera, kommunikasiya və təcrübə məsələləri üzrə özünütəhlil qrupunun üzvü |
| 20. | Qaraşova Elnarə Ədalət qızı | Kitabxana-informasiya məsələləri üzrə özünütəhlil qrupunun üzvü |
| 21. | Bağırlı Hüseyn Rafail oğlu | İnformasiya texnologiyaları üzrə özünütəhlil qrupunun üzvü |
| 22. | Kərimov Aydın Məmməd oğlu | Daxili məsələlər və insan resurslarının idarəedilməsi istiqaməti üzrə özünütəhlil qrupunun üzvü |
| 23. | Abdullayev Samir Qurban oğlu | Tələbələrlə iş üzrə özünütəhlil qrupunun üzvü |
| 24. | Süleymanov Rəşad Rəfail oğlu | Tələbələrlə iş üzrə özünütəhlil qrupunun üzvü |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Azərbaycan Turizm və Menecment Universitetində (ATMU) sonuncu akkreditasiya Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin 02 iyun 2016-cı il tarixli (02 saylı) Əmrinə əsasən yaradılmış komissiya tərəfindən həyata keçirilmişdir. Komissiya öz işini bitirdikdən sonra Yekun Hesabat hazırlamışdır. ATMU həmin hesabatda göstərilən nəticə və təklifləri qiymətləndirərək sonrakı fəaliyyətində nəzərə almışdır. Yekun Hesabatda qeyd olunmuş irad və təkliflərlə əlaqədar ATMU-da görülmüş tədbirlər aşağıda ətraflı təsvir olunmuşdur.

**Təklif 1.** Müəssisənin fəaliyyətinin normativ-hüquqi təminatının müasir tələblərə cavab verməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin uyğun bölmələri tərəfindən ATMU-ya Lisenziyanın və sertifikatın verilməsi barədə qərar qəbul edilməsi təklif olunur.

Təkliflə bağlı qeyd etməliyik ki, "Təhsil haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 24 aprel 2020-ci il tarixli 58-VIQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar Azərbaycan Respublikasında dövlət təhsil müəssisələrinin fəaliyyət göstərmələri üçün lisenziya alınması tələbi ləğv olunmuşdur.

**İrad 1.** Komissiya Elmi Şurasının işində tənqid ruhunun olmadığını, müzakirəyə çıxarılan məsələlər haqqında əvvəlcədən arayış hazırlanmadığını, xüsusən də fakültələr, kafedralar və digər struktur bölmələrin fəaliyyəti ilə bağlı məsələlərin müzakirəsinin deklarativ xarakter daşıdığını, nöqsanların aşkarlanması, onların aradan qaldırılması, konkret məsul şəxslərin fəaliyyətlərinin araşdırılması ilə bağlı müzakirələrin yox dərəcəsində olduğunu qeyd etmişdir.

Məlumat üçün bildiririk ki, ATMU-nun Elmi Şurasında mütəmadi olaraq bütün struktur bölmələrin fəaliyyətləri müzakirə edilərək onlara müvafiq tapşırıqlar verilir və aşkarlanan nöqsanların aradan qaldırılması üçün tədbirlər görülür. Lakin akkreditasiyadan əvvəlki dövrdə bir sıra hallarda Elmi Şurada baş verən müzakirələr və edilmiş çıxışlar təfsilatı ilə protokollarda öz əksini tapmırdı. 2017-2018-ci tədris ilindən etibarən Akkreditasiya Komissiyasının iradı nəzərə alınmış və Elmi Şuranın protokolları tələb olunan qaydada tərtib edilmişdir. Digər tərəfdən Elmi Şuranın gündəliyinə çıxarılan məsələlər barəsində müvafiq materiallar və arayışlar hazırlanır, Elmi Şuranın iclasından bir neçə gün əvvəl gündəliklə birlikdə tanış olmaları üçün üzvlərə göndərilir.

**İrad 2.** Qış və yay imtahan sessiyalarının nəticələrinin, yekun dövlət imtahanları, buraxılış işləri və magistr dissertasiyalarının müdafiələrinin müzakirələri yetərli səviyyədə aparılmır.

ATMU-da qış və yay imtahan sessiyalarının nəticələrinin müzakirələri müvafiq fakültələrin Elmi Şuralarında və kafedraların iclaslarında təşkil olunur və aşkar olunmuş məsələlərlə əlaqədar fakültə dekanlıqları tərəfindən kafedralara zəruri tapşırıqlar verilir. ATMU-nun Elmi Şurasında isə fakültə dekanlarının hesabat xarakterli məruzələri dinlənilərək müzakirə edilir. Eyni zamanda, Tədris-metodiki şöbə imtahan nəticələri barədə ümumiləşdirilmiş məlumatları Elmi Şura üzvlərinə təqdim edir, imtahan sessiyası ilə bağlı yaradılmış Apellyasiya Komissiyası sədrinin hesabatı dinlənilir və buna müvafiq olaraq Elmi Şura lazımi tədbirlərin görülməsi barəsində tapşırıq verir. Bununla bağlı məlumatlar (o cümlədən, Apellyasiya Komissiyasının hesabatına aid məlumatlar) universitetin Elmi Şurasının protokollarına daxil edilir. Digər tərəfdən təhsilalanlar arasında “Fənnin qiymətləndirilmə sorğusu” keçirilməsi və professor-müəllim heyətinin fəaliyyətinin qiymətləndirilməsi vasitəsilə akademik heyət üzvlərinin fəaliyyəti davamlı diqqət mərkəzində saxlanılır.

**İrad 3.** 2015/16-cı tədris ilinin qış imtahan sessiyasının nəticələrinə görə ayrı-ayrı fakültələr üzrə müvəffəqiyyət və keyfiyyət göstəriciləri aşağı olmuşdur.

Bəhs olunan göstəricilərin aşağı olması kontekstində, xüsusilə, sözügedən fakültələrdə təhsil alan tələbələr arasında “əlaçı” tələbələrin olmaması və bununla əlaqədar “əlaçı guşəsi”nin yoxluğu vurğulanmışdır. Məlumat üçün bildirməliyik ki, ötən müddət ərzində ATMU-nun bütün fakültələrində tələbələrin müvəffəqiyyət və keyfiyyət göstəricilərində müsbət dinamika mövcud olmuşdur. Daha ətraflı məlumat Qoşma 1-də qeyd olunmuşdur.

**İrad 4.** ATMU-da tədris planları uyğun ixtisasların dövlət standartının tələblərinə tam uyğun deyildir, belə ki, universitetin qoşulduğu beynəlxalq təhsil proqramlarının digər iştirakçıları Avropa standartları əsasında təhsil verdiklərindən Azərbaycanın təhsil standartlarını qəbul edilməz sayılır.

ATMU-nun tərəfdaş olduğu beynəlxalq təhsil layihələri ali təhsil sahəsində mövcud olan beynəlxalq standartlara və Azərbaycan Respublikasının təhsil qanunvericiliyinin tələblərinə uyğun qaydada həyata keçirilir. Misal olaraq, 2020-ci ildə bakalavriat səviyyəsində ali təhsilin dövlət standartlarının yenilənməsi ilə əlaqədar Boloniya prosesinin tələblərinin səmərəli tətbiqi və dövlət sənədlərinin icrasına nəzarətin gücləndirilməsi məqsədilə müvafiq komissiyasının yaradılması məsələləri ATMU-nun Elmi Şurasının 16 oktyabr 2020-ci il tarixli iclasında müzakirə edilmiş və “Dövlət sənədlərinin icrasına nəzarət” məqsədilə komissiyanın yaradılması qərarı alınaraq Elmi Şuranın həmin tarixli 1 nömrəli protokolunda öz əksini tapmışdır.

**İrad 5.** Uyğun ixtisaslar üzrə dövlət standartlarında məsul şəxslərin imzalarına rast gəlinmədi. Təhsil standartlarının və planlarının hazırlanması uyğun komissiyaların yaradılması ilə Təhsil Nazirliyinin Təhsil Problemləri İnstitunun iştirakı ilə həyata keçirilməli və ali təhsil müəssisələrinə təsdiq edilmiş standartlar və tədris planları göndərilməlidir. Bu standartlar Azərbaycanın inteqrasiya etdiyi Avropa təhsil standartlarına mümükün qədər uyğun olmalıdır.

Ali təhsilin dövlət standartının və proqramının hazırlanması ilə bağlı təklifin ünvanı Təhsil Nazirliyi olsa da, bu sahədə görülmüş bir sıra digər tədbirləri diqqətinizə çatdırmaq istərdik. Qeyd etmək istərdik ki, ATMU “Turizm işinin təşkili” və “Turizm bələdçiliyi” ixtisasları üzrə bakalavr səviyyəsində ali təhsilin yeni dövlət standartı və proqramının hazırlanmasında fəal iştirak etmişdir. Sözügedən sənədlərin məzmunu ilə əlaqədar təkliflər ATMU-nun məsul şəxslərinin və Dövlət Turizm Agentliyinin müvafiq nümayəndələrinin (o cümlədən, sənaye təmsilçilərinin) birgə iştirakı ilə hazırlanmışdır. Təkliflər hazırlanarkən beynəlxalq təcrübə öyrənilmiş və sənayenin mövcud və gələcək ehtiyacları nəzərə alınmışdır.

Bundan başqa, dövlət tədris standartları ilə bağlı Azərbaycan Turizm və Menecment Universitetində kadr hazırlığı aparılan ixtisaslar üzrə tədris planlarında olan fənlərin və onların proqramlarının məzmununun dövlət təhsil standartlarının tələblərinə uyğunluğu təmin edilmiş, eyni zamanda fənlərə ayrılmış saatların miqdarı tədris planlarına uyğun olaraq bölünmüşdür. Dərs bölgüsündə müvafiq səlahiyyətli şəxslərin imzaları mövcuddur.

ATMU-nun struktur bölmələrində ölkədə qəbul olunan dövlət təhsil standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğun olaraq təhsil pillələri üzrə keyfiyyət göstəricilərinin yüksəldilməsi, müvafiq təhlillər əsasında təkliflərin hazırlanması və həyata keçirilməsinə əməli və metodiki dəstəyi və nəzarəti təmin etmək məqsədilə 2018-ci ildə Tədqiqat və İnkişaf şöbəsinin əsasında Keyfiyyət təminatı və akkreditasiya şöbəsi yaradılmışdır. Şöbənin fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə şöbə 2021-ci ildə restrukturizasiya olunaraq adı yenilənmiş (mövcud adı Keyfiyyət təminatı şöbəsidir) və şöbənin səlahiyyətləri artırılmışdır.

Bundan başqa, Dövlət Turizm Agentliyinin dəstəyi və BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən “Azərbaycan Turizm və Menecment Universitetinin Potensialının Artırılması” adlı layihə çərçivəsində 2020-ci ildə “Turizm və otelçilik” ixtisası üzrə bakalavr və magistr proqramlarının idarəedilməsinin keyfiyyəti təkmilləşdirilmiş, hər iki proqram Birləşmiş Millətlər Ümumdünya Turizm Təşkilatının nüfuzlu “UNWTO.TedQual” keyfiyyət sertifikatına, 2019-cu ildə “Turizm və qonaqpərvərlik” fakültəsinin fəaliyyəti isə ISO 9001:2015 – Keyfiyyət İdarəetmə Sistemi uyğunluq sertifikatına layiq görülmüşdür.

Digər tərəfdən təhsilalanların təcrübələri (istehsalat, elmi-tədqiqat və pedaqoji)

mövcud qaydalara əsasən təşkil edilir. Tələbə və məzunlarla iş prosesinin səmərəliliyinin artırılması məqsədilə 2018-ci ildə ATMU-nun Karyera və kommunikasiya şöbəsi yaradılmışdır. Həmin ildən etibarən bakalavriatura səviyyəsi üzrə təhsilalanların istehsalat təcrübəsi bu şöbə tərəfindən təşkil olunur. Təcrübənin təşkili ilə bağlı "İstehsalat təcrübəsi haqqında Əsasnamə" mövcuddur. Təcrübəyə dair tələbələrin ilk, yekun hesabatları, onların təcrübə müəssisəsi və ATMU tərəfindən qiymətəndirilməsinə dair sənədlər müvafiq şöbədə saxlanılır. Magistratura səviyyəsində elmi-tədqiqat və pedaqoji təcrübələrin təşkili ixtisaslar üzrə kafedralara həvalə edilmişdir.

**İrad 6.** Azərbaycan Turizm və Menecment Universitetində 050811 – Nəqliyyat servisi (nəqliyyat növləri üzrə) və 060804 – "Nəqliyyat servisi" (nəqliyyat növləri uzrə-"Aviasiya nəqliyyatında servis xidmətinin təşkili" (əyani) və "Dəmiryolu nəqliyyatında servis xidmətinin təşkili" (əyani)) bakalavriat və magistratura səviyyələrində mütəxəssis hazırlığının "İnformasiya texnologiyaları və təbiət elmləri" kafedrasına həvalə edilməsi məqsədəuyğun hesab edilməmiş və kafedranın adı ilə ixtisasın adındakı uyğunsuzluq göstərilmişdir.

Ötən akkreditasiya zamanı göstərilən irad nəzərə alınaraq kafedranın adının "Nəqliyyat, İnformasiya kommunikasiya texnologiyaları və təbiət elmləri" adlandırılması məsələsi kafedranın 02 mart 2018-ci il tarixində keçirilən iclasında müzakirə olunmuş və qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, ATMU-da "Nəqliyyatda servis" ixtisası üzrə kadr hazırlığına başlanarkən əsas məqsədi turizm sektorunda nəqliyyat xidmətinin keyfiyyətli təşkilini həyata keçirə bilən peşəkar mütəxəssisləri yetişdirmək idi. Lakin sözügedən ixtisas üzrə təhsil proqramının məzmunu daha çox texniki səriştələrə malik peşəkarların hazırlanmasına xidmət etdiyi üçün həmin ixtisasa tələbə qəbulunun dayandırılması barəsində qərar qəbul edilmiş və 2021/2022-ci tədris ilində tələbə qəbul planında ixtisasa yer ayrılmamışdır. Hazırda həmin ixtisas üzrə bakalavriatura pilləsində II kursda 8, III kursda 24, IV kursda 26 olmaqla ümumilikdə 58 nəfər tələbə təhsil alır. Bu sahə üzrə kafedrada 5 müəllim fəaliyyət göstərir. Onların hamısının elmi dərəcəsi mövcuddur və 3 nəfərin dosent elmi adı var.

**İrad 7.** Universitetin bir sıra kafedralarında dərs yükünün əsas hissəsi kənardan dəvət olunmuş əvəzçi və əmək haqqı saathesabı qaydada ödənilən müəllimlər tərəfindən yerinə yetirilir.

Bildirmək istəyirik ki, ATMU-da dərs yükünün əsas hissəsinin universitetimizdə daimi əsaslarla fəaliyyət göstərən pedaqoji heyətə verilməsi istiqamətində müsbət irəliləyiş əldə edilmişdir. Belə ki, hazırda dərs yükünün 68% ATMU əməkdaşlarının payına düşür.

Bununla belə, qeyd etmək yerinə düşər ki, ATMU-da Turizm işinin təşkili, Turizm bələdçisi, Menecment kimi ixtisaslar mövcuddur ki, kadr hazırlığı aparılan həmin ixtisaslarda sahə mütəxəssislərinin sənayedən cəlbi təlim nəticələri baxımından daha effektiv nəticə verir. Belə ki, ATMU-nun istiqamətləndiyi əsas ixtisaslar bilavasitə sənayə ilə əlaqəlidir və sözügedən sahələrdə ixtisaslaşmış pedaqoji heyətin sayı kifayət deyil. Qeyd olunan məhdudiyyət nəticəsində sənayenin ehtiyaclarına uyğun kadrları hazırlamaq çətin olduğundan, ixtisaslı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi qaçılmazdır. Şübhəsiz ki, sənaye nümayəndələrinin əsas iş yerlərinə əlavə olaraq ali təhsil müəssisəsində tam ştat və ya 0,5 ştat dərs yükü ilə pedaqoji fəaliyyətlə məşğul olması bir çox hallarda mümkün olmur. Həmçinin, ATMU məzunlarının doktorantura pilləsi üzrə təhsillərini davam etdirmələrinə stimul yaradılması və onların universitetdə pedaqoji fəaliyyətə cəlb olunması əsas məqsədlərimizdən biridir. Xüsusilə, turizm profilli ixtisaslarda təcrübəli tədris peşəkarları yetişdikcə ATMU özünün ixtisaslı professor-müəllim heyətinə olan ehtiyacını daha yaxşı qarşılayacaqdır. Hazırda təkcə 21 sayda ATMU məzununun əsas iş yeri universitetin özüdür. Bundan əlavə, hər il ATMU məzunları saathesabı qaydada pedaqoji fəaliyyətə cəlb olunurlar.

**İrad 8.** Elmi-tədqiqat sahəsində bir sıra çatışmazlıqlar müşahidə olunmuşdur.

ATMU-da elmi-tədqiqat işlərinin keyfiyyətinin artırılması (istər təhsilalanların, istərsə də professor-müəllim heyətinin bu sahədə fəaliyyətinin yaxşılaşdırılması) məqsədilə 2018-ci ildə Elm və innovasiyalar şöbəsi yaradılmışdır. Şöbənin fəaliyyət göstərdiyi müddət ərzində,

2019-cu ildə 6-sı qrifli olmaqla 29 fənn proqramı, 7 dərs vəsaiti, 2020-ci ildə 138 fənn proqramı, 12 dərs vəsaiti, 2021-ci ildə isə 46 fənn proqramı və 1 dərs vəsaiti çap olunmuşdur. Bununla yanaşı, ATMU-da ildə dörd dəfə olmaqla "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı nəşr olunur. Belə ki, 2016-cı ildə biri magistrlar, biri konfrans üçün xüsusi buraxılış olmaqla 6, 2017-ci ildə biri magistrlar, biri konfrans üçün xüsusi buraxılış olmaqla 6, 2018-ci ildə biri magistrlar üçün xüsusi buraxılış olmaqla 5, 2019-cu ildə 4, 2020-ci ildə 4 (2-3 say birlikdə), 2021-ci ildə 4 (3-4 say birlikdə) olmaqla ümumilikdə 29 sayda "Turizm və qonaqpərvərlik tədqiqatları" jurnalı çap edilmişdir. Universitetin əsas elmi nəşri olan qeyd olunmuş beynəlxalq jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə İqtisad elmləri, Tarix elmləri və Sənətşünaslıq üzrə (6219.01-Kulturologiya və onun ümumi məsələləri; 6220.01-Muzeyşünaslıq) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı"na daxil edilmişdir.

Eyni zamanda qeyd etməliyik ki, təhsilalanların, pedaqoji və inzibati heyətin elmi tədqiqat işlərinə cəlbi və elmi fəaliyyətlərinin dəstəklənməsi məqsədilə hər il ATMU-da "İdarəetmədə multikultural dəyərlər" və "Müasir dövrdə idarəetmənin effektivliyi" adlı iki davamlı elmi-praktiki konfrans keçirilir. Bundan başqa, kafedraların təşəbbüsü ilə aprel-may aylarında ümummilli lider Heydər Əliyevin anadan olmasının il dönümünə həsr olunan konfrans keçirilir. Keçirilən konfranslara dair materiallar çap olunaraq iştirakçılara verilir və ATMU-nun Kitabxana İnformasiya Mərkəzində saxlanılır. Ümumilikdə 2016-2021-ci illər ərzində 12 konfrans keçirilmişdir. Digər tərəfdən, ATMU-da doktorantura pilləsi üzrə təhsil alan 12 nəfər tədqiqatçı elmi işini müdafiə edərək fəlsəfə doktoru adına layiq görülmüşdür ki, onlardan 7 nəfəri hazırda ATMU-da çalışır.

Bununla yanaşı, ötən dövr ərzində ATMU-nun Kitabxana İnformasiya Mərkəzi çoxsaylı tədris-metodik vəsaitlərlə təmin edilmişdir. Belə ki, 2016-ci ildən bugünədək ATMU-nun Kitabxana İnformasiya Mərkəzinə 9265 kitab, 2738 kitabça daxil olmuşdur.

**İrad 9.** ATMU-nun maddi-texniki bazası müasir tələblərə və sanitar normalara cavab vermir (ATMU-nun maddi-texniki bazasının zəif olması və ikinci tədris binasının başqa bir ünvanda yerləşməsi qeyd olunan iradlar sırasındandır).

Maddi texniki bazanın zəifliyinin (tələb olunan ərazi və texniki vasitələrinin normadan az olması) aradan qaldırılması məqdəsilə yeni tədris binası alınmışdır, hazırda əsaslı təmir ilə bağlı layihələndirmə işləri aparılır. Bina tam təmir olunduqdan sonra universitetin ikinci tədris binasının yerləşdiyi əraziyə köçürülməsi nəzərdə tutulur. Digər tərəfədən, ikinci tədris binası digər ünvanda yerləşsə də, əsas bina ilə yaxın olduqları üçün, ciddi nöqsanlara yol açmır. Eyni zamanda ikinci tədris binası bütövlükdə bir fakültəyə xidmət etdiyindən tədris prosesinə də maneə törətmir.

Digər tərəfdən ikinci tədris binasında fəaliyyət göstərən ATMU əməkdaşları da universitetin idarəedilməsində, ictimai-sosial həyatında bütün digər əməkdaşlar kimi iştirak edir. Belə ki, həmin binada yerləşən Sosial menecment fakültəsinin dekanı, eləcə də, üç kafedra müdiri ATMU Elmi Şurasının üzvləridir. Əsas bina ilə ikinci binadakı əməkdaşlar arasında daimi əlaqə mövcuddur, həmçinin, tədris binaları arasında səmərəli kommunikasiyanın qurulması məqsədilə avtomobil istifadəyə verilmişdir. Bununla yanaşı, bütün fakültələr üzrə imtahan sessiyaları ikinci tədris binasında keçirilir. Eləcə də, təhsilalanlarla bağlı istənilən mədəni-kütləvi, intellektual və ictimai tədbirlərə bütün fakültələrin tələbələri cəlb edilir.

Beləliklə, 2016-cı ilin akkreditasiyasından sonrakı dövrdə Akkreditasiya Komissiyasının irad və təklifləri nəzərə alınaraq ATMU-da bir sıra dəyişiklər edilmişdir.

## II. Təhsil müəssisəsinin özünütəhlili

### 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

Azərbaycan Turizm və Menecment Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14 noyabr 2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 14 sentyabr 2023-cü il 1 saylı qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

### 1. STRATEJİ İNKİŞAF

#### *1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

***1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti***

ATMU-nun 2022-2026-cı illər üzrə cari strategiyasının hazırlanması üçün ATMU rektorunun 19 may 2021-ci il tarixli 113 saylı əmri ilə tərkibində səlahiyyətlərin bölgüsü göstərilməklə komissiya yaradılmışdır. Sonrakı mərhələlərdə strategiyanın hazırlanması üçün təhsilalanlar, məzunlar arasında sorğu keçirilmiş, strukturların rəyləri toplanmışdır. Maraqlı tərəflər müəyyənləşdirilmiş, SWOT və PESTEL təhlillər aparılmış, strategiyanın tərtibatı qaydası, SMART məqsədlər müəyyənləşdirilməklə ATMU Elmi Şurasının 15 iyul 2022-ci il tarixli, 07 saylı protokolu ilə ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyası təsdiqlənmişdir:
(atmu.edu.az/upload/files/2023/02/07//-f55cadb9167576685789467699810491130.pdf).

Strategiyada universitetin missiyası, hədəf, məqsədləri öz əksini tapmışdır. Strategiyanın icrası illər üzrə fəaliyyət planları hazırlanmaqla həyata keçirilir. Bu məqsədlə 2023-cü il üzrə Strateji inkişaf planının icrasına dair fəaliyyət planı hazırlanmışdır:
(https://atmu.edu.az/upload/files/2023/02/13//-0de5d1a01676275647760124193109939 83.pdf).

Cari tədris ilindən etibarən hər bir strukturun iş planında məhz strategiyadakı məqsədlərə uyğun məsələlər ayrılıqda əks olunmuşdur.

***1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu***

ATMU-nun əsas missiyası – beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevrilməkdir. ATMU-nun hədəfi – missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaqdır. Missiya və hədəfə müvafiq olaraq strategiyada 12 məqsəd müəyyənləşdirilmişdir:

| Missiya | Hədəf | Məqsəd |
|---|---|---|
| ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirmək | Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq | 1.ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi |
| | | 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması |
| | | 3. Təhsilin məzmununun müasirləşdirilməsi |
| | | 4.Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi |
| | | 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması |
| | | 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi |
| | | 7. Rəqəmsal transformasiya |
| | | 8. Ali təhsilin beynəlmiləlləşməsi |
| | | 9. Ömürboyu təhsil prinsipi əsasında Universitetin təhsil xidmətlərinin diversifikasiyası |
| | | 10.Uzunmüddətli maliyyə dayanıqlığının möhkəmləndirilməsi |
| | | 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması |
| | | 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması |

***1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu***

ATMU-nun strateji baxışı aşağıdakılardır:

- ATMU-nun beynəlxalq səviyyədə rəqabət qabiliyyətli ali təhsil müəssisəsinə çevrilməsi, xüsusilə turizm və menecment sahəsində təhsil, təlim və araşdırma üzrə regionumuzun və dünyanın qabaqcıl ali təhsil müəssisələri arasında yer tutması, ölkəmizin milli dəyərlərə malik və beynəlxalq standartlara cavab verən kadr potensialının mütəmadi gücləndirilməsi prosesinə töhfə verməsi;
- Bu məqsədlərə nail olunması üçün mütəmadi olaraq ATMU-nun maddi-texniki bazanın təkmilləşdirilməsi, mövcud əməkdaşların bilik və bacarıqlarının yüksəldilməsi, eləcə də heyətdə təhsil və araşdırma sahəsində mütərəqqi beynəlxalq təcrübəyə malik mütəxəssislərin artırılması və beynəlxalq əməkdaşlığın fasiləsiz olaraq genişləndirilməsi.

Strategiya hazırlanarkən formalaşdırılan komissiyanın tərkibinə daxili maraqlı tərəflər kimi ATMU-nun professor-müəllim və inzibati heyətindən üzvlər, təhsilalanlar, xarici maraqlı tərəflər kimi isə dövlət və özəl sektordan, o cümlədən ATMU-nun profilinə uyğun əmək bazarından nümayəndələr də daxil edilmişdir. Belə ki, strateji baxışın formalaşdırılmasında əmək bazarının tələblərinin nəzərə alınması məqsədilə AR Dövlət Turizm Agentliyi, Azərbaycan Hotel Assosasiyası, Azərbaycan Turizm Agentlikləri Assosasiyası, Azərbaycan Turizm Bələdçiləri Assosasiyasının nümayəndləri də komissiyada təmsil olunmuşdur.

Qeyd edək ki, ATMU-nun professor-müəllim heyəti arasında da əmək bazarı nümayəndələri mövcuddur, onların kadr ehtiyatı ilə bağlı rəyləri də mütəmadi toplanılır.

Həmçinin, Strategiyanın 3-cü məqsədində (Təhsilin məzmununun müasirləşdirilməsi) təhsil proqramları və ixtisasların əmək bazarının tələblərinə uyğun yenilənməsi məsələləri öz əksini tapmışdır:

| Məqsəd | Niyyət | Strategiya | Uğurun göstəricisi |
|---|---|---|---|
| **Təhsilin məzmununun müasirləş-dirilməsi** | Təhsilin məzmunu tələbələrin şəxsi və peşəkar transformasiyasına imkan verməli, onlara layiqli vətəndaş və peşəkar mütəxəssis kimi yetişmələri üçün tələb olunan səriştə və dəyərləri aşılamalıdır. Təhsilin məzmunu müasir inellektual meyllərə uyğun olaraq mütəmadi yenilənməli, beynəlxalq və yerli əmək bazarının dəyişən gözləntilərinə və ehtiyaclarına cavab verməlidir. Biliyin yaradılması prosesi əsas maraqlı tərəflərin – təhsilalanların, tədqiqatçıların, işəgötürənlərin və təhsilverənlərin müntəzəm əməkdaşlığına, qarşılıqlı fikir və təcrübə mübadiləsinə əsaslanmalıdır. Tələbəyə müstəqil öyrənmə səriştələri aşılayan təlim üsulları və yanaşmalarının tətbiqi genişləndirilməlidir. | -Mövcud ixtisaslar üzrə ali təhsil proqramlarının məzmununun beynəlxalq təcrübə və əmək bazarının tələbləri nəzərə alınmaqla müntəzəm qaydada yenilənməsi<br>-Universitetin strateji inkişaf məqsədləri ilə uzlaşan və əmək bazarının dəyişən ehtiyaclarını qarşılamağa imkan verən yeni ixtisasların təşkili<br>-“Gələcəyin səriştələri” kimi bilinən, beynəlxalq əmək bazarında sürətlə aktuallıq qazanan yüksək əqli, texnoloji, sosial və emosional bacarıqların mövcud təhsil proqramlarına inteqrasiya edilməsi<br>-Təhsil proqramlarının keyfiyyətinin artırılması<br>-Xarici və yerli mütəxəssislərin həmmüəllifliyi ilə yeni tədris-metodik vəsaitlərin, təlim resurslarının hazırlanması və onların məzmununun davamlı təkmilləşdirilməsi<br>-Nüfuzlu beynəlxalq nəşrlərin Azərbaycan dilinə tərcümə olunması<br>-Tədris, təlim və qiymətləndirmə üzrə qabaqcıl təcrübələri öyrənən yeni pedaqoji yanaşmaların müəssisə daxilində tətbiqini və yayılmasını sürətləndirmək<br>-Kitabxana fondunun tədris prosesinin ehtiyacları nəzərə alınmaqla yenilənməsi<br>-Beynəlxalq elmi bazalara çıxışın təmin edilməsi və istifadənin təşviq olunması | -Proqrama daxil olan ixtisas-peşə hazırlığı fənlərinin məzmunu və onların mənimsəmə nəticələri<br>-Məzmunu yenilənmiş fənn proqramları, sillabuslar<br>-Nəşr olunmuş metodiki-vəsait və digər təlim resursları |

***1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu***

ATMU-nun fəaliyyəti onun Nizamnaməsi ilə tənzimlənir (https://e-qanun.az/framework/51162) və Universitetin bütün fəaliyyət istiqamətlərində, o cümlədən Strategiyanın qurulmasında Nizamnamədəki müvafiq vəzifə və istiqamətlər nəzərə alınır.

Digər tərəfdən, ATMU strategiyası, o cümlədən idarəetmə, kadr potensialının formalaşdırılması, təhsilin məzmununun müasirləşdirilməsi, təhsilalanların mənimsəmə səviyyəsinin yüksəldilməsi, infrastruktur, elmi-tədqiqat, rəqəmsallaşma, beynəlmiləlləşmə, uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi, brendləşmə, maraqlı tərəflərlə əməkdaşlıq və s. kimi istiqamətləri əhatə edən 12 məqsəddən ibarətdir. Hər bir məqsədə uyğun niyyət, strategiya və gözlənilən uğur öz əksini tapmışdır (https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf).

Strategiyada prioritetlər hər bir məqsədə uyğun "strategiyalar" başlığı altında qeyd edilmişdir. Onların hər birinə dair görüləcək tədbirlər, icrası və prioritet şəklində qeyd edilməsi fəaliyyət planında öz əksini tapmışdır (https://atmu.edu.az/upload/files/2023/02/13//-0de5d1a0167627564776012419310993983.pdf). Nümunə kimi aşağıdakı cədvələ baxmaq olar (Digər prioritetlərə linkə keçid edərək baxmaq olar):

| Hədəf | Məqsəd | Prioritet və ya strategiya |
|---|---|---|
| Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq | ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi (1-ci məqsəd) | -Universitetin uzunmüddətli strateji inkişafını təmin etməyə imkan verən təşkilati strukturun formalaşdırılması<br>-ATMU-nun (o cümlədən, onun struktur bölmələrinin) fəaliyyətini tənzimləyən daxili qaydaların sistemləşdirilməsi və məzmun keyfiyyətinin artırılması<br>-Universitetdə keyfiyyət təminatı sisteminin formalaşdırılması<br>-Tələbə, professor-müəllim heyəti və digər maraqlı tərəflərin məmnuniyyət səviyyəsinin yüksəldilməsi<br>-Qərarvermə, o cümlədən resursların bölgüsünün strateji planlaşdırmaya uyğun aparılması<br>-Tələbə təmsilçiliyi institutlarının təkmilləşdirilməsi<br>-Keyfiyyət təminatı siyasətin hazırlanması |

Strategiyanın əsas məqsədlərinə müvafiq olaraq, müxtəlif istiqamətlərdə sənədlər hazırlanmışdır ki, bunlara Keyfiyyət təminatı siyasəti sənədi, Elmi-tədqiqat strategiyası, Beynəlmilləşmə siyasəti və s. aid edilə bilər. Bununla yanaşı, mövcud sənədlər təkmilləşdirilərək və ya yenisi hazırlanaraq 45 müxtəlif prosedurdan ibarət "Azərbaycan Turizm və Menecment Universitetinin tənzimlənməsinə dair Daxili qaydalar və prosedurlar" toplusu formalaşdırılmışdır.

***1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi***

Qeyd olunduğu kimi, strategiyanın əsas strateji istiqamətlərinə yönəlmiş 12 məqsəd müəyyənləşib və hər bir məqsədin mahiyyətini göstərən niyyət göstərilib. Daha sonra buna müvafiq olaraq müxtəlif məsələlər strategiya şəklində öz əksini tapıb. Hər bir məqsədin nəticəsi kimi uğurun göstəriciləri qeyd olunmaqla gözlənilən nəticə təqdim olunub.

| Strateji baxış | Hədəf | Məqsəd | Uğurun göstəricisi |
|---|---|---|---|
| ATMU-nun beynəlxalq səviyyədə rəqabət qabiliyyətli ali təhsil müəssisəsinə çevrilməsi, xüsusilə turizm və menecment sahəsində təhsil, təlim və araşdırma üzrə regionumuzun və dünyanın qabaqcıl ali təhsil müəssisələri arasında yer tutması, ölkəmizin milli tələblərə və beynəlxalq standartlara cavab verən kadr potensialının davamlı gücləndirilməsi prosesinə töhfə verilməsi;<br>Bu məqsədlərə çatılması üçün mütəmadi olaraq ATMU-nun maddi-texniki şəraitinin təkmilləşdirilməsi, mövcud heyətin bilik və | Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq | 1.ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi | Təşkilatı struktur, keyfiyyət təminatı sistemi, təşkilatdaxili qaydalar və təlimatlar, təşkilatdaxili proseslər, Tələbə təcrübəsi, Heyət üzvləri və maraqlı tərəflərin məmnunluq səviyyəsi |
| | | 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması | -ATMU-nun ştatında olan akademik heyət üzvləri arasında (1) elmi dərəcəsi/elmi adı olan (2) nüfuzlu ali təhsil müəssisələrində təhsil almış, (3) sənaye təcrübəsi olan mütəxəssislərin payı<br>-Xarici dilləri və xarici dillərdə tədris edən akademik heyət üzvləri arasında beynəlxalq sertifikasiyadan keçmiş mütəxəssislərin payı<br>-İnzibati və akademik heyət üzvlərinin xarici dil biliyi səviyyəsi; Müvafiq rəqəmsal səriştələrə yiyələnmiş akademik heyət üzvlərinin sayı |
| | | 3. Təhsilin məzmununun müasirləşdirilməsi | -Proqrama daxil olan ixtisas-peşə hazırlığı fənlərinin məzmunu və onların mənimsəmə nəticələri<br>-Məzmunu yenilənmiş fənn proqramları, sillabuslar<br>-Nəşr olunmuş metodiki-vəsait və digər təlim resursları |

| | | | |
|---|---|---|---|
| bacarıqlarının yüksəldilməsi, heyətin təhsil və araşdırma sahəsində mütərəqqi beynəlxalq təcrübəyə malik kadrlarla yenilənməsi və beynəlxalq əməkdaşlığın fasiləsiz olaraq genişləndirilməsi | | 4.Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi | -Tələbələrin Ümumi Orta Müvəffəqiyyət Göstəricisi<br>-Tələbə məmnuniyyəti (dövri olaraq aparılan sorğular və digər qiymətləndirmə üsulları vasitəsilə tələbələrin xidmətdən razılıq səviyyəsinin ölçülməsi nəzərdə tutulur)<br>-Məzunların məşğulluq səviyyəsi |
| | | 5. Zəruri maddi-texniki bazanın və infrastrukturun yaradılması | -Zəruri infrastruktur<br>-Sahibkarlıq fəaliyyəti |
| | | 6. Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi | -"Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda əsərləri dərc olunmuş heyət üzvlərinin sayı/ dərc olunan məqalə sayı<br>-Elmi dərəcəsi və elmi adı olan heyət üzvlərinin sayı<br>-Beynəlxalq tədqiqat layihələrində tədqiqatçı qismində iştirak edən heyət üzvlərinin sayı |
| | | 7. Rəqəmsal transformasiya | -Universitetdə göstərilən xidmətlərin elektronlaşma faizi<br>-Müvafiq rəqəmsal səriştələrə malik heyət üzvlərinin sayı<br>-Müvafiq ixtisas proqramlarında əksini tapmış rəqəmsal səriştələr (mənimsəmə nəticələri əsasında) |
| | | 8. Ali təhsilin beynəlmiləlləşməsi | -İkili diplom proqramlarının sayı (fərqli ixtisaslar nəzərə alınmaqla) /bu proqramlarda təhsil alan tələbələrin sayı<br>-Mübadilə proqramlarında iştirak edən heyət üzvlərinin/tələbələrin sayı<br>-ATMU-da təhsil alan əcnəbi tələbələrin sayı<br>-ATMU-nun beynəlxalq reytinq sistemlərində yeri<br>-Beynəlxalq akkreditasiyadan keçmiş təhsil proqramlarının sayı |
| | | 9. Ömürboyu təhsil prinsipi əsasında universitetin təhsil xidmətlərinin diversifikasiyası | -Təhsil xidmətləri portfoliosu<br>-Universitetdə təhsil alan əcnəbi tələbə sayı |
| | | 10.Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi | -Gəlirlərin/maliyyə mənbələrinin artım dinamikası<br>-Maliyyə idarəetmə sistemi |
| | | 11. Universitetin ortaq vizyona və dəyərlərə əsaslanan brendinin yaradılması | -Rebrendinq<br>-Marketinq tədbirləri |
| | | 12. Maraqlı tərəflərlə məhsuldar əməkdaşlıqların qurulması | -İşəgötürənlərlə/sənaye ilə birgə proqramlar<br>-Sifariş əsasında tədqiqat məzmunlu və digər layihələr<br>-Məzunların məşğulluq dinamikası<br>-Məzun şəbəkəsi |

***1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması***

ATMU Strategiyasında qarşıya qoyulan məsələlərin həyata keçirilməsi üçün illik fəaliyyət planlarının icra edilməsi nəzərdə tutulmuş və əhatə etdiyi illər üzrə fəaliyyət planı hazırlanmışdır. Hazırda 2023-cü təqvim ili üzrə fəaliyyətin icrası aparılmaqdadır.

Fəaliyyət planı cədvəl formasında olmaqla özündə aşağıdakı başlıqlara dair məlumatları əhatə edir:

- İşin icrası üçün müəyyən edilən ay;
- Prioritetlər;
- Tədbirlər;
- Nəticə göstəriciləri;
- Əsas icraçı;
- Digər icraçılar;
- Məqsəd.

Bununla yanaşı, cari tədris ilindən etibarən hər bir strukturun iş planında "strategiyanın icrasına dair" hissə müəyyənləşdirilmişdir (https://atmu.edu.az/upload/files/2023/01/18//-09c6c37816740386284144706141089398 5.pdf).

***1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi***

Strategiya üzrə məsələlərin icrası illər üzrə vahid fəaliyyət planı ilə yanaşı, cari tədris ilindən etibarən hər bir strukturun iş planında öz əksini tapmışdır. Strategiyanın 2023-cü il üzrə fəaliyyət planında “nəticə göstəriciləri” hissəsində nəzərdə tutulan fəaliyyətin icrasının qiymətləndirilməsi üçün kəmiyyət və keyfiyyət göstəriciləri müəyyən edilmişdir: https://atmu.edu.az/upload/files/2023/01/18//-09c6c378167403862841447061410893985.pdf

Nümunə kimi, aşağıdakı cədvələ baxmaq olar:

| Ay | Prioritetlər | Tədbirlər | Nəticə göstəriciləri | Əsas icraçı | Digər icraçılar | Məqsəd |
|---|---|---|---|---|---|---|
| **İyun** | 8.8. Beynəlxalq səviyyədə tanınan mütəxəssislərin qatıldığı elmi-tədqiqat tədbirlərinin təşkili | 8.8.1. Həm ATMU tərəfindən, həm də digər yerli və xarici müəssisələr tərəfindən təşkil edilən elmi-tədqiqat tədbirlərinin illik ümumi qrafikinin hazırlanması | - ATMU tərəfindən İldə ən azı 2 beynəlxalq elmi-tədqiqat tədbirin təşkili<br>- Hər kafedra üzrə beynəlxalq elmi-tədqiqat tədbirlərində iştirak edən müəllimlərin sayı ümümi sayında ən azı 30% təşkil edilməsi | Elm və innovasiya şöbəsi | Beynəlxalq əlaqələr şöbəsi<br><br>Kafedralar | Məqsəd 8. Ali təhsilin beynəlmiləlləşməsi |
| **Dekabr** | 4.7. Tələbələrə davamlı və keyfiyyətli psixoloji dəstəyin göstərilməsi | 4.7.1. Psixoloji dəstək xidmətinin təşkili | Psixoloji dəstək xidmətinə dair əsasnamənin hazırlanması | Karyera və kommunikasiya şöbəsi | Keyfiyyət təminatı şöbəsi | Məqsəd 4. Tələbələrin təhsil aldıqları ixtisas proqramı üzrə mənimsəmə səviyyəsinin yüksəldilməsi |

***1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti***

Strategiyanın illik fəaliyyət planında görüləcək tədbirlərə uyğun icraçılar (insan resursları) öz əksini tapıb. Maliyyə və infrastruktur ayrılması isə müvafiq məsələlərin icrası zamanı göstərilir (məsələn, psixoloji xidmətin yaradılması üçün, infrastruktur ayrılıb, psixoloq fəaliyyətə başlayıb – bu, müvafiq təqdimat, əsasnamə, əmək haqqı ödənişlərində öz əksini tapıb (http://atmu.edu.az/upload/files/2023/02/13//-0de5d1a016762756477601241931099398 3.pdf).

***1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti***

ATMU Strategiyasında illər üzrə nəzərdə tutulan fəaliyyət planına uyğun olaraq tədbirlərin icrası üçün maliyyə vəsaitlərinin ayrılması büdcə planlaşdırılmasında proqnozlaşdırılır. Bu zaman büdcədə proqnozlaşdırma xərc maddələri üzrə təsnifatlaşdırılır. Məsələn, aşağıdakı cədvəldə nəzərdə tutulan tədbirlər büdcə planlaşmasında “elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait” şəklində göstərilmişdir:

| Ay | Prioritetlər | Tədbirlər | Nəticə göstəriciləri | Əsas icraçı | Digər icraçılar | Məqsəd |
|---|---|---|---|---|---|---|
| **İyul** | 6.9. Antiplagiat və akademik dürüstlük siyasətin formalaşdırılması | 6.9.1. Antiplagiat və akademik dürüstlük siyasətini əks etdirən sənədin hazırlanması və universitet ictimayyətin məlumatlandırılması | Antiplagiat və akademik dürüstlük siyasəti | Elm və innovasiya şöbəsi | Keyfiyyət təminatı şöbəsi | Məqsəd 6. Elmitədqiqat və innovasiya potensialının gücləndirilməsi |

| **Maliyyə təminatı (AZN)** | | | | | | |
|---|---|---|---|---|---|---|
| **№** | **Təhsil müəssisəsinin maliyyə təminatı** | **2018** | **2019** | **2020** | **2021** | **2022** |
| **7** | Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait | 3000 | 3000 | 4788 | 4998 | 4586 |

***1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti***

Sosial məsuliyyət (Universitetin cəmiyyətin ədalətli inkişafına töhfəsi diqqət mərkəzində saxlanılmalıdır) ATMU-nun "Keyfiyyət təminatı dəyərləri"ndən biri kimi Strategiyada öz əksini tapmışdır.

Həmçinin, indikatorda qeyd edilən məqamlar Strategiyanın 2.6 – "Heyət üzvlərinin sosial-iqtisadi və psixoloji rifahını yüksəltməyə təminat sisteminin formalaşması", 3.3 – "Gələcəyin səriştələri kimi bilinən, beynəlxalq əmək bazarında sürətlə aktuallıq qazanan yüksək əqli, texnoloji, sosial və emosional bacarıqların mövcud təhsil proqramlarına inteqrasiya edilməsi", 6.1. – "Elmi-tədqiqat fəaliyyətinin institusional inkişafının təmin edilməsi məqsədilə universitetin nəzdində interdisiplinar elmi-tədqiqat mərkəzinin yaradılması", 6.9 – ""Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda akademik heyət üzvlərinin dərc olunan məqalələrinin sayının artırılması (o cümlədən, ATMU əməkdaşlarının beynəlxalq və yerli tərəfdaş universitetlərin tədqiqatçıları ilə birgə araşdırılmalarının təşviq olunması), 10.4 – "ATMU-nun ianə fondunun yaradılması", 10.6 – Həmkarlaq İttifaqı üçün toplanmış vəsaitin səmərəli idarəedilməsi ilə əlaqədar siyasətin formalaşdırılması", 11.3 – "Ortaq təcrübələrin formalaşması üçün müxtəliq rəsmi və qeyri-rəsmi fəaliyyətlər vasitəsilə tələbə, əməkdaşlar və akademik heyətin bir araya gətirilməsi, onlara sosiallaşma imkanı verilməsi", 12.1.4 – "Dövlətin və sənayenin ehtiyacları nəzərə alınaraq birgə tədqiqat layihələrinin həyata keçirilməsi" bəndlərində öz əksini tapmışdır.

***1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması***

Cari strategiyanın əvvəlində "2018-2021-ci illərdə ATMU-da həyata keçirilmiş strateji fəaliyyətlərin icmalı" barədə məlumat verilmişdir. Burada əvvəlki strategiyanın istiqamətlərinə uyğun görülmüş işlər barədə qısa məlumat yer almışdır: (https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf).

***1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması***

Strategiyanın hazırlanmasından əvvəl SWOT və PESTEL təhlillər aparılmışdır. Belə ki, ATMU-nun profilinin biznes və sənaye ilə sıx əməkdaşlığa imkan verməsi; tədris binalarının Bakının əlverişli ərazilərində yerləşməsi; ölkədə turizm sahəsi üzrə ixtisaslaşmış kadrların ali təhsil müəssisəsinə cəlb olunması; beynəlxalq əlaqələrin çoxşaxəli olması; 3 dildə təhsil verən ali təhsil müəssisəsi olması kimi güclü tərəflərlə yanaşı, onun tələbə təşkilatlarının ali təhsil müəssisəsində gedən proseslərdə iştirakçılılığının az olması, infrastrukturun zəif olması, məzunlarla əlaqənin və bu işin koordinasiyasının yetərli səviyyədə olmaması və s. kimi zəif tərəflər də Strategiyanın hazırlanması zamanı nəzərə alınmışdır.

Bununla yanaşı, turizm sahəsinə dövlət dəstəyinin daimi artması, bu sahədə fəaliyyət göstərən əsas ali təhsil müəssisəsi olan ATMU-nun perspektivlərini genişləndirməsi, ixtisaslaşmış universitetlərə üstünlük verilməsi, ali təhsilin idarə edilməsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsinin ATMU-da tələbəyönümlü tədris üçün yaratdığı əlverişli mühit imkanları nəzərə alınmışdır.

Strategiya hazırlanarkən SWOT təhlillə yanaşı, PESTEL təhlil aparılmış, azad olunmuş ərazilərin turizm potensialının öyrənilməsinin ATMU-ya həvalə oluna bilməsi kimi siyasi, əmək bazarında universitet tərəfindən hazırlanan kadrlara tələbatın dəyişməsi kimi iqtisadi, ATMU-nun inzibati, akademik və texniki heyətinin maddi ehtiyaclarının dövrün tələblərinə uyğun artması kimi sosial, növbəti 5 il ərzində mövcud olan üçün ATMU-nun maddi və kadr və potensial texnoloji imkanların istifadəsi resurslarının uyğun vəziyyətə gətirilməsi kimi texnoloji, iqlim dəyişikliyinin turizm sənayesinə proporsional təsirinə uyğun olaraq müvafiq sahənin prioritet olmaması və ya bu sahə üzrə hazırlanan kadrlara ehtiyacın azalması kimi ekoloji, Təlim və tədris prosesini tənzimləyən normativ hüquqi bazada olan dəyişikliklərin sinxron olaraq ali təhsil müəssisəsində tətbiqi üçün adaptiv mühitin formalaşdırılması kimi hüquqi məsələlər də nəzərə alınmışdır.

***1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti***

Strategiyanın hazırlanması üçün ATMU rektoru tərəfindən 19 may 2021-ci il tarixində "2022-2026-cı illər üzrə ATMU-nun Strategiyasının hazırlanması üçün komissiyanın yaradılması" haqqında 113 nömrəli əmr imzalanmışdır. Komissiyanın tərkibində istiqamətlər üzrə vəzifələrin bölgüsü göstərilmiş və sənayə nümayəndələrinin (Dövlət Turizm Agentliyi, Azərbaycan Hotel

Assosasiyası, Azərbaycan Turizm Agentlikləri Assosasiyası, Azərbaycan Turizm Bələdçiləri Assosasiyası), təhsilalanların təmsilçiliyi təmin olunmuşdur.

***1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi***

"2022-2026-cı illər üzrə ATMU-nun Strategiyasının hazırlanması üçün komissiyanın yaradılması" haqqında əmrdə komissiya üzvlərinin tərkibi struktur bölmələr üzrə verilmişdir. Eyni zamanda illərə müvafiq olaraq fəaliyyət planında iş bölgüsü strukturlar üzrə aparılmışdır: (https://atmu.edu.az/upload/files/2023/02/13//-0de5d1a0167627564776012419310993983.pdf).

Həmçinin, fəaliyyət planında hər bir məqsədin icrası üçün nəzərdə tutulan tədbirlər, onlara uyğun əsas və köməkçi icraçılar müəyyən edilmişdir:

| Ay | Prioritetlər | Tədbirlər | Nəticə göstəriciləri | Əsas icraçı | Digər icraçılar | Məqsəd |
|---|---|---|---|---|---|---|
| **Mart** | 2.3. Vəzifə təlimatlarının yenilənməsi, müvafiq struktur bölmələri və işçilər arasında vəzifə və səlahiyyətlərin səmərəli bölünməsi | 2.3.3. Bütün vəzifələr üçün vəzifə təlimatların hazırlanması, təsdiq olunması və məcmu formasına gətirilməsi | Vəzifə təlimatların məcmusu | İnsan resursları şöbəsi | Hüquqşünas Ümumi şöbə | Məqsəd 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması |
| **Aprel** | 1.2. ATMU-nun (o cümlədən, onun struktur bölmələrinin) fəaliyyətini tənzimləyən daxili qaydaların sistemləşdirilməsi və məzmun keyfiyyətinin artırılması | 1.2.1. ATMU fəaliyyətini tənzi mləyən cari daxili qaydaların yekun versiyalarının cəmləşdiyi reyestrin hazırlanması, sənədlərin təhlili və ehtiyacların müəyyənləşdirilməsi | Sənədlərin təhlil nəticəsi (hesabat | Ümumi şöbə | Keyfiyyət təminatı şöbəs | Məqsəd 1. ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi |

***1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi***

***1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırması vəziyyəti***

Strategiyanın icrası təqvim illərinə görə fəaliyyət planı qurulmaqla həyata keçirilir. Bu səbəbdən 2023-cü ilin sonunda strukturların strategiyaya dair hesabatları təqdim ediləcəkdir. Həmçinin, bütün strukturların Dövlət Turizm Agentliyinə təqdim edilən ümumi illik hesabatları, eləcə də, təqvim illəri üzrə hesabatları mövcuddur və onların strategiyaya uyğunluğu yoxlanılmaqla, məlumat hazırlanmışdır.

***1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti***

2022-2023-cü tədris ili üzrə strukturların ümumi illik hesabatlarında strategiyaya dair bəzi məsələlər öz əksini tapmışdır. Strategiyanın icrası təqvim ili üzrə nəzərdə tutulduğundan hesabatlılıq yarım illər üzrə aparılmış, 2023-cü təqvim ilinin ilk yarım il hesabatı verilmiş, cari ilin sonunda strategiyanın növbəti yarım illik hesabatının verilməsi planlaşdırılmışdır.

Həmçinin, təqvim ilinin sonunda yekun hesabatın Elmi Şurada struktur bölmələr üzrə illik dinlənilməsi və müzakirəsi nəzərdə tutlmuşdur.

***1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti***

Strategiyanın icrasına dair məsələlərin izlənilməsi və monitorinqi strukturların iş planları və hesabatlarına müvafiq olaraq aparılır. Bununla yanaşı, strukturların strategiyanın icrasına dair fəaliyyətlərinin izlənilməsi üçün "Strategiyanın monitorinq planı" adlı sənəd hazırlanmışdır (24 may 2023-cü il). Cari ilin ilk altı ayı üzrə Strategiyanın monitorinqi aparılmış və yarımillik hesabat təqdim edilmişdir. Təqvim ilinin sonunda isə Strategiyanın icrasına dair illik monitorinqin aparılması və yekun hesabatın Elmi Şuraya təqdim edilməsi nəzərdə tutlmuşdur.

***1.2.4 SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti***

SİP-in icrasına dair məsələlərin izlənilməsi strukturların iş planları və Strategiyaya dair yarımillik, illik hesabatlara müvafiq olaraq aparılır, daha sonra Elmi Şurada dinlənilir. Cari ilin ilk

altı ayı üzrə Strategiyanın monitorinqi aparılmış və yarımillik hesabat Elmi Şuraya təqdim edilməklə müzakirə edilmişdir. Strategiyanın illik monitorinqinin aparılması cari ilin sonuna nəzərdə tutulmuşdur.

***1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti***

Strategiyanın fəaliyyət planı illik olduğundan onun icrasına dair yekun hesabatın ilin sonunda verilməyi nəzərdə tutulmuşdur. Yalnız müvafiq hesabat təqdim olunduqdan sonra aparılmış monitorinq nəticələrinə əsasən Strategiyanın icrasına dair həllini tapmayan məsələlərlə bağlı tədbirlər planının hazırlanması və ya onların növbəti təqvim ili üzrə fəaliyyət planına əlavə edilməsi nəzərdə tutulmuşdur.

Monitorinqin yekunununa dair hesabatın maraqlı tərəflər üçün əlçatanlığının korporativ e-mail və canlı görüşlər həmçinin, Universitetin rəsmi veb-saytı vasitəsilə təmin edilməyi nəzərdə tutulmuşdur.

## 2. KEYFİYYƏT TƏMİNATI

### *2.1 Keyfiyyət təminatı siyasəti*

***2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı***

ATMU-da ilk Keyfiyyət Siyasəti sənədi 2018-ci ildə İSO 9001:2015 auditinin keçirilməsi zamanı hazırlanmışdır. Lakin, 2022-ci ilin payızında Ali Təhsil Müəssisələrinin akkreditasiyası meyarları yeni formada təsdiqləndikdən sonra, onun təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Çünki, mövcud sənəd meyarların indikatorunda tələb edilən Keyfiyyət Siyasətinə dair məsələləri tam əhatə etmirdi.

Yeni Keyfiyyət siyasəti sənədi ATMU Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli iclası ilə təsdiqlənmiş və maraqlı tərəflərin də iştirakı təmin edilmişdir. Bununla yanaşı, təsdiqə qədərki müzakirələrdə də maraqlı tərəflərin iştirakı təmin edilmişdir (https://atmu.edu.az/upload/files/2023/11/21//-dc91cc9b170055428331149517410786128.pdf).

***2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti***

Keyfiyyət təminatı Siyasəti sənədində ATMU-nun tarixi, idarəçiliyi, missiyası, gələcəyə baxışı, hədəf və məqsədləri, dəyərləri, bilik mənbəyi, keyfiyyət mədəniyyəti, keyfiyyət siyasətinin əhatə dairəsi, prinsipləri, keyfiyyət təminatı sisteminin sxem təsviri, resursların idarəedilməsi kimi məsələlər öz əksini tapmışdır. Keyfiyyət siyasətinin əsas prinsipləri ATMU strategiyasında qarşıya qoyulan məqsədləri əsas tutmaqla hazırlanıb və icrasına bütün strukturların cəlb edilməsi nəzərdə tutulmuşdur:
(http://atmu.edu.az/upload/files/2023/10/06//-35a0f196169659259688314850011103579.pdf).

***2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi***

Keyfiyyət siyasəti sənədi təsdiqləndikdən sonra rəsmi veb-sayta yerləşdirilmişdir, sosial media hesabları, korporativ e-maillər, ATMU daxili elektron monitorlar vasitəsilə də maraqlı tərəflərə çatdırılmışdır. Eyni zamanda Keyfyyət siyasəti bəyannaməsi də ATMU-nun rəsmi saytında öz əksini tapmışdır:
(http://atmu.edu.az/upload/files/2023/10/06//-35a0f196169659259688314850011103579.pdf,
http://atmu.edu.az/upload/files/2023/10/06//-ec1c5914169659264096606593410611431.pdf).

***2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)***

Keyfiyyət təminatı Siyasəti sənədində (http://atmu.edu.az/upload/files/2023/10/06//-35a0f196169659259688314850011103579.pdf) ATMU-nun tarixi, idarəçiliyi, missiyası, gələcəyə baxışı, hədəf və məqsədləri, dəyərləri, bilik mənbəyi, keyfiyyət mədəniyyəti, keyfiyyət siyasətinin əhatə dairəsi, prinsipləri, keyfiyyət təminatı sisteminin sxem təsviri, resursların idarəedilməsi kimi məsələlər öz əksini tapmışdır. O cümlədən, sözügedən başlıqların daxilində idarəetmədə kollegial orqanlar, strategiya, fakültələr, tədris-köməkçi strukturlar, tərəfdaşlıq və beynəlxalq əlaqələr, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və hesabatlılığı prinsipi barədə məlumatlar göstərilmişdir.

Keyfiyyət təminatı Siyasəti sənədinin səkkizinci bəndi “ATMU-da Keyfiyyət siyasətinin əhatə dairəsi və prinsipləri”ni özündə ehtiva edir. Burada sözügedən indikatorla bağlı aşağıdakı prinsiplər öz əksini tapıb:

- Təhsilalanların ali təhsillə yanaşı, sənayenin (əmək bazarının) tələblərinə uyğun, yüksək keyfiyyətdə yetişdirilməsi rnəqsədilə təhsil proqramlarının daimi təkmilləşdirilməsi və optimallaşdırılması;
- Təhsilalanların, təhsilverənlərin, eləcə də, bütün ATMU heyətinin təhsil mühitinin səmərəliliyinin arıtırılması məqsədilə təhsil, maliyyə resurslarının artırılması, infrastrukturun təkmilləşdirilməsi və tədricən beynəlxalq standartlara çatdırılması;
- Keyfiyyət idarəetmə sisteminə bütün strukturların cəlb edilməsi və hər bir fərdin məsuliyyət daşıması;
- Təhsilalanların və təhsilverənlərin keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və hesabatlılığı.

### *2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

***2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)***

ATMU-da keyfiyyət təminatına dair Komissiyanın ilk əsasnaməsi 2012-ci ildə yaradılmış, iş planı hazırlanmışdır. Bundan əlavə, yeni meyarlar əsasında həmin komissiyanın əsasnaməsinin təkmilləşdirilməsinə, komissiya üzvlərinin və səlahiyyətlərinin müəyyənləşdirilməsinə ehtiyac olduğundan, Komissiyanın əsasnaməsi artıq yenidən işlənməklə və 14 sentyabr 2023-cü il tarixində Elmi Şurada təsdiq olununmuşdur. Komissiyanın fəaliyyət planı mövcuddur, yeni fəaliyyətə başladığından hesabatlılığı hesabat dövründə təmin ediləcəkdir.

Daxili keyfiyyət təminatı məsələlərinin tənzimlənməsi məqsədilə 2017-ci ildən etibarən Keyfiyyət təminatı şöbəsi fəaliyyət göstərir. Şöbə ATMU rektorunun 29 dekabr 2017-ci il tarixli, 196K saylı əmri ilə Keyfiyyət təminatı və akkreditasiya adı ilə yaradılmış, daha sonra rektorun 15 sentyabr 2021-ci il, 98K saylı əmri ilə Keyfiyyət təminatı şöbəsi adı ilə yenilənmişdir. ATMU-da daxili və xarici audit (İSO 9001:2015, İSO 21001:2018, TedQual), akkreditasiya, rəy sorğularının keçirilməsi və s. məsələləri şöbə tərəfindən koordinasiya edilir. Strukturun əsasnaməsi (https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-esasname), iş planı (https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-ish-plani), dövri hesabatları mövcuddur.

***2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması***

ATMU-nun Keyfiyyət Təminatı Komissiyasının əsasnaməsi əsasında fəaliyyət planı hazırlanmış, tərkibi müəyyən edilmişdir. Komissiyanın tərkibində maraqlı tərəflər ATMU strukturlarından, sənayedən, təhsilalanlardan nümayəndələrin, eyni zamanda psixoloqun təmsilçiliyi təmin edilmişdir.

***2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti***

ATMU-nun Keyfiyyət Təminatı Komissiyasının əsasnaməsinə müvafiq olaraq fəaliyyət planında ATMU Strategiyasında nəzərdə tutulan məqsədlərə dair bənd qeyd olunmuşdur. Keyfiyyət təminatı komissiyasının illik iş planında "Strategiyada qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsinin izlənilməsi" adlı proses nəzərdə tutulmuşdur. Bununla yanaşı, bütün strukturların illik iş planlarına "strategiyanın icrasına dair" bənd ayrılmaqla onunla bağlı görüləcək işlər öz əksini tapmışdır. (nümunə: https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-ish-plani)

***2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması***

ATMU-da daxili keyfiyyət təminatı sisteminin tətbiqində PİNT (planlaşdırma, icra, nəzarət və tədbir gör) modelindən istifadə edilməsi nəzərdə tutulur:




**Keyfiyyət təminatı sistemi *( PDCA modelinə əsasən hazırlanıb)***

Keyfiyyət siyasəti sənədində də müvafiq sxem öz əksini tapmışdır. ATMU-da strukturların fəaliyyəti iş planlarına əsasən aparılır, onların icrası dövri hesabatlarından izlənilir. Fəaliyyətlərin izlənilməsi illik iş planı və hesabatların monitorinqi ilə aparılır. Prosesin tənzimlənməsi Keyfiyyət komissiyasının fəaliyyət planı və Keyfiyyət təminatı şöbəsinin illik iş planları əsasında həyata keçirilir.

***2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması***

Sistemin tətbiqində rəhbərlik, keyfiyyət komissiyası, bütün struktur vahidlər, fakültələr, tələbə təşkilatları, maraqlı tərəflər iştirak edir və proses Keyfiyyət təminatı şöbəsi vasitəsilə koordinasiya edilir. Bu zaman strukturlararası əlaqə aşağıdakı kimidir:




**Keyfiyyət təminatı sistemində strukturlararası əlaqə**

Həmçinin, ATMU-da strukturların illik iş planlarında "icraçı" sütununda səlahiyyət bölgüsü strukturlar üzrə öz əksini tapmışdır (http://atmu.edu.az/upload/files/2023/11/02//-bf5d232e16989275811489314951068616l.pdf).

Nümunə kimi, Keyfiyyət təminatı şöbəsinin 2023/2024-cü tədris ili üzrə iş planının aşağıdakı strukturu göstərilə bilər:

| № | Görülən işin məzmunu | İcra müddəti | İcraçı | Nəticənin qiymətləndirilməsi üçün əsaslar | Qeyd |
|---|---|---|---|---|---|
| 1 | ATMU-nun struktur bölmələrinin illik iş Planlarının Strateji inkişaf planına uyğun qurulmasının qiymətləndirilməsi | Sentyabr, 2023 | Rektorluqla birlikdə | Hesabat, iş planları | |

***2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti***

Keyfiyyət təminatı üzrə Komissiyanın fəaliyyət planında təhsil proqramlarının qiymətləndirilməsi mexanizminin formalaşdırılması və onun təşkili işinə dəstək göstərilməsi, ATMU-da daxili auditin nəticələrinə dair təkliflərin irəli sürülməsi, tədrisin keyfiyyətinin artırılması üçün təhsilalanlar arasında aparılan sorğuların nəticələrinin təhlil edilərək tövsiyyələrin verilməsi, tədris prosesinin qiymətləndirilməsinin aparılmasına dəstək göstərilməsi və s. kimi məsələlər görülməli işlər arasında qeyd olunub. Bundan başqa, Keyfiyyət təminatı şöbəsinin illik iş planı müxtəlif fəaliyyətlərin icrasını əhatə edir: https://atmu.edu.az/upload/files/2023/11/02//-bf5d232e16989275811489314951068616l.pdf.

***2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması***

ATMU-da da daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması və əməkdaşlarının daxili qaydalarla tanış edilməsi məqsədilə 2021-ci ilin sentyabrında "Orientasiya seminarı" keçirilmişdir. 2022/2023-cü tədris ilindən etibarən ATMU-da bütün strukturlar üzrə daxili qaydaları tənzimləyən prosedur sənədlər hazırlanmış, həmin sənədlər toplanaraq ümumi "Qaydalar və prosedurlar toplusu" halına gətirilmişdir (https://atmu.edu.az/az/normativ-senedler).

Həmçinin, hər il təhsilalanlar üçün "Tələbənin məlumat kitabçası" hazırlanır və çap edilir. Eyni zamanda "Azərbaycan Turizm və Menecment Universitetinin daxili fəaliyyət qaydaları", "Azərbaycan Turizm və Menecment Universitetinin işçilərinin etik davranış qaydaları" adlı kitabçalar mövcuddur. Prosesin tənzimlənməsi məqsədilə müxtəlif illərdə Keyfiyyət təminatı şöbəsi tərəfindən akademik, inzibati heyətin təkmilləşdirilməsi üçün müxtəlif istiqamətlərdə təlimlər keçirilmişdir ki, bunlara aşağıdakıları nümunə göstərmək olar:

1. Orientasiya seminarı (akademik heyət üçün), 2021, sentyabr, KTŞ;
2. İSO 9001:2015 standartının tətbiqinə dair təlim, 2021, sentyabr, KTŞ;
3. "Sillabusların dizaynı, təlim nəticələrinin yazılması və qiymətləndirilməsi qaydaları" adlı təlim, 2022, mart, TKTA, KTŞ;
4. Yeni akkreditasiya qaydaları barədə təqdimat, 2022, mart, KTŞ;
5. ATMU-da prosedur sənədlərin hazırlanması adlı təlim, 2023, aprel, KTŞ;
6. Peşəkar kadrların hazırlanmasında hotel sənayesi tələbatının araşdırılması adlı fokus qrup görüşü, 2022, aprel, KTŞ;
7. Sənaye nümayəndələri və müəllimlər arasında təlim görüşü (MOOC platformasının ətraflı izahı), 2023, aprel, KTŞ;
8. Təlim prosesində və nəticələrin qiymətləndirilməsində Blum taksonomiyasından istifadə edilməsi adlı praktiki seminar, 2023, iyun, KTŞ;
9. "İnstitusional (və ya proqram) akkreditasiyası zamanı Özünütəhlilin aparılması və hesabatının tərtibi qaydaları adlı təlim, 2023, oktyabr, TKTA, KTŞ;
10. "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndimə meyarları" adlı təlim, 2023, oktyabr, TKTA, KTŞ;
11. "Təlim prosesinin monitorinqi qaydaları" barədə təlim, 2023, noyabr, KTŞ;

Keyfiyyət təminatı şöbəsi sözügedən qaydalar toplusunun hazırlanmasında iştirak etmiş, digər strukturlara dəstək olmaqla yanaşı, şöbə daxili müxtəlif prosedur sənədlərin hazırlanmasını həyata keçirmişdir. Bunlara nümunə kimi İşçi tədris proqramının təlimatı, forma və nümunəsi, Blum taksonomiyasının tətbiqinə dair akademik heyət üçün təlimat, Təlim prosesinin monitorinqinin təşkili qaydaları, Rəy sorğularının təşkili proseduru, Strateji bəyannamə, Keyfiyyət təminatı siyasəti və onun Bəyannaməsi, Məlumatların mediada paylaşılmasına dair təlimat, Risk və imkanların idarəedilməsi proseduru, ATMU-da islahedici tədbirlər proseduru, ATMU-da daxili audit proseduru, İxtisas üzrə kompetensiya xəritəsinin hazırlanmasına dair təlimat və s. göstərilə bilər: http://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-senedler.

***2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi***

ATMU-da audit prosesi hər biri ildə minimum bir dəfə olmaqla daxili və xarici formada həyata keçirilir. Bu proses ISO 9001:2015, ISO 21001:2018 standartlarının tələblərinə müvafiq aparılır. Belə ki, ATMU-nun Turizm və qonaqpərvərlik fakültəsi 2019-cu ildə İSO 9001:2015 – Keyfiyyət idarəetmə sistemi standartı üzrə sertifikatı əldə etmişdir. 2023-cü ilin yanvar ayında həmin standart üzrə təkrar sertifikatlaşmadan keçərək sertifikat müddətinin daha üç il müddətinə uzadılmasına nail olmuşdur (https://atmu.edu.az/az/web/post/849, https://atmu.edu.az/az/web/post/684).

2023-cü ilin mayında ATMU-nun Turizm və qonaqpərvərlik, Sosial menecment fakültələrində İSO 21001:2018 – Təhsilin idarəedilməsi standartı üzrə audit keçirilmiş və sertifikat əldə edilmişdir. ATMU-da həmin standartların tələblərinə uyğun olaraq daxili audit keçirilir. Bu proses daxili audit planı, gündəliyi, auditin keçirilməsi və sonda uyğunsuzluqlar cədvəli ilə ona müvafiq tədbirlər planı hazırlamaqla tənzimlənir.

Bununla yanaşı, cari ildən etibarən strukturların iş planları və hesabatları Keyfiyyət təminatı şöbəsində toplanılır, onların strategiyada qoyulan məqsədlərə uyğunluğu, eləcə də, iş planında nəzərdə tutulan məsələlərin icra edilməsi yoxlanılır. Ötən tədris ilinin yekunlarına dair hesabat hazırlanmışdır, strategiyaya uyğunluğun yoxlanılması məqsədilə hesabatlılığın təmininin növbəti

ildə təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda, ATMU-nun strukturlar üzrə illik hesabatları Dövlət Turizm Agentliyi və müvafiq formalar toplanmaqla Elm və Təhsil Nazirliyinə göndərilir. Əlavə olaraq, iş planına müvafiq olaraq fənn proqramları, işçi tədris proqramlarının (sillabus) təhlil edilməklə təkmilləşdirilmiş, strukturlar üzrə prosedur sənədlərin hazırlanmasına dəstək göstərilmişdir. Digər tərəfdən Keyfiyyət təminatı şöbəsi tərəfindən təhsilalanların münasibətinin öyrənilməsi üçün onlar arasında "Fənnin qiymətləndirilməsi sorğusu", rəsmi sayt, sosial media və KİV-də paylaşımlara dair məmnunluğun ölçülməsi məqsədilə "İctimaiyyətin məlumatlandıirlması" sorğusu, "ATMU-da Tələbə və müəllim məmnuniyyəti" sorğuları, Karyera və kommunikasiya şöbəsi tərəfindən "İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu", "İstehsalat təcrübəsi müəssisəsi üzrə işlə təmin olunması sorğusu", "ATMU məzunlarının təhsil səviyyəsindən məmnunluq sorğusu", "Peşəkar inkişaf imkanları haqqında sorğu" adlı sorğular keçirilir və nəticələri təhlil edilərək Elmi Şurada hesabat verilir. Bunlarla yanaşı, cari tədris ilindən etibarən "Təlim prosesinin monitorinqinin təşkili qaydaları"na müvafiq olaraq şöbənin koordinasiyası ilə tədris prosesinin monitorinqi aparılır (https://atmu.edu.az/upload/files/2023/11/21//-fa60438a170055406186997979410627162.pdf).

***2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti***

Cari akkreditasiya meyarları üzrə 2022/2023-cü tədris ilinin sonunda – avqust ayında strukturların ümumi fəaliyyəti ilə bağlı Özünütəhlil Hesabatı hazırlanmışdır. Özünütəhlilin aparılmasındakı məqsəd mövcud çatışmazlıqların müəyyən edilməsi və buna müvafiq tədbirlərin görülməsi olmuşdur. Hesabat məhz cari akkreditasiya meyarlarına müvafiq vəziyyəti əhatə etməklə hazırlanmış, növbəti mərhələdə strukturlarda təkmilləşdirmə aparılmışdır. Bununla yanaşı, ATMU İSO 9001:2015, İSO 21001:2018, TedQual sertifikatlaşmalarından keçərkən tələblərə müvafiq vaxtaşırı təhlilllər aparılır. Bu kimi daxili və xarici auditləri nəticəsində uyğunsuzluqlar və onların aradan qaldırılması üçün tədbirlər planı hazırlanmaqla icra edilir.

***2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti***

ATMU-da əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair fəaliyyət planı tərtib edilməklə şöbələrlə görüşlər keçirilmiş, məsələlərin icra vəziyyəti ilə əlaqədar yoxlama sənədi hazırlanmışdır. Azərbaycan Turizm və Menecment Universitetində 2016-cı ildə keçirilmiş Akkreditasiyanın Yekun Hesabatında qeyd olunmuş nəticə və təkliflərə dair hesabat TKTA-ya təqdim edilmişdir.

***2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti***

ATMU-da təhsilalanların rəylərinin öyrənilməsi məqsədilə ildə iki dəfə hər semestrin sonunda "Fənnin qiymətləndirilməsi sorğusu" keçirilir. Bununla yanaşı, müxtəlif strukturlar tərəfindən təcrübəçi tələbələrlə sorğular, müəssisələrdə təcrübə haqqında sorğular, strateji planlaşdırma ilə əlaqədar maraqlı tərəflərlə (tələbə, məzun, akademik heyət) sorğular, təhsil proqramları ilə əlaqədar sorğular, imtahanların təşkili ilə əlaqədar sorğular keçirilir.

Keyfiyyət təminatı şöbəsi tərəfindən təhsilalanların rəyinin öyrənilməsi üçün onlar arasında "Fənnin qiymətləndirilməsi sorğusu", rəsmi sayt, sosial media və KİV-də paylaşımlara dair məmnunluğun ölçülməsi məqsədilə "İctimaiyyətin məlumatlandırılması" sorğusu, Ehtiyacların müəyyənləşdirilməsi sorğusu", "ATMU-da Tələbə və müəllim məmnuniyyəti" sorğuları, Karyera və kommunikasiya şöbəsi tərəfindən "İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu", "İstehsalat təcrübəsi müəssisəsi üzrə işlə təmin olunması sorğusu", "ATMU məzunlarının təhsil səviyyəsindən məmnunluq sorğusu", "Peşəkar inkişaf imkanları haqqında sorğu" adlı sorğular keçirilir və nəticələri təhlil edilərək hesabat verilir.

***2.3 Keyfiyyət təminatı mədəniyyəti***

***2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması***

ATMU-da qərarların qəbulu Elmi Şura vasitəsilə təsdiqlənir, bu şurada rəhbərliklə yanaşı, Keyfiyyət təminatı şöbəsi nümayəndəsi də iştirak etməklə daxili proseslər barədə məlumatlı olur.

Digər tərəfdən strukturların iş planları və illik hesabatları (DTA-ya təqdim edilən) şöbədə toplandığından məlumatlılıq təmin edilir. Akademik və inzibati heyətlə əlaqə korporativ e-maillər vasitəsilə aparılır. Həmçinin, Keyfiyyət təminatı üzrə Komissiyanın tərkibində bütün strukturlardan nümayəndələrin təmsilçiliyi təmin edilir. Bu məlumatlılıq, nəzarət və kommunikasiyanın qurulmasına dəstək olur.

Strukturlararsı sənəd dövriyyəsi Elektron Sənəd Dövriyyəsi vasitəsilə Ümumi şöbə tərəfindən tənzimlənməklə icra edilir. Müvafiq platformada proseslər strukturlardaxili razılaşmadan keçdiyi və rəhbərliyin bu prosesi izləmə səlahiyyətinin olduğu üçün sənəd dövriyyəsi üzrə də kommunikasiya şəbəkəsi optimal tənzimlənir.

***2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması***

Strukturlarda keyfiyyətin müşahidəsi sorğular, daxili audit, tədris prosesinin qiymətləndirilməsi və ehtiyacların müəyyən edilməsi ilə aparılır. Nəticədə təlimlərin təşkili, daxili prosedurların hazırlanması, müxtəlif xidmətlərin (psixoloji xidmət) təşkili, praktiki (əyani) dərslərin keçirilməsinə dəstək göstərilir. Əsas maraqlı tərəf kimi təhsilalanların məmnunluğunun ölçülməsi, əmək bazarının rəyinin öyrənilməsi üçün sorğular keçirilir. Sorğularla yanaşı, əmək bazarı nümayəndələri ilə fokus qrup görüşlər (“Peşəkar kadrların hazırlanmasında hotel sənayesinin gözləntiləri” kimi) keçirilir. ATMU-nun ümumi strateji hədəflərinə nail olmaq üçün strukturların iş planlarında həmin məqsədlər öz əksini tapır və hesabatlılıq təmin edilir.

ATMU-da keyfiyyət mədəniyyəti əməkdaşların yalnız öz işlərinin deyil, bütün heyət üzvlərinin işinin keyfiyyətinin qayğısına qalmaq, keyfiyyətin təminatına yönəlmiş fəaliyyətlər həyata keçirmək və onun səviyyəsinin artırılması istiqamətində digər addımları özündə ehtiva edir. Bu məqsədlə idarə heyəti keyfiyyət mədəniyyətinin təkmilləşməsi üçün daim təlimlər, görüşlər təşkil edir. Keyfiyyət mədəniyyəti ATMU-da rəhbərlikdən akademik heyətədək vəzifəsindən asılı olmadan bütün əməkdaşlara təsir göstərən ortaq dəyər və normaların formalaşdırdığı keyfiyyətyönümlü mexanizm kimi mənimsənilmişdir.

Həmçinin, ATMU-da keyfiyyət mədəniyyəti maraqlı tərəflərin məmnunluğunun artırılmasına təsir göstərən dəyər kimi qiymətləndirilir. Keyfiyyət mədəniyyətinə əsaslanan dəyərlər Universitetin əməkdaşlarının və struktur bölmələrinin fəaliyyətini tənzimləyən əsas prinsiplərə çevrilmək, universitetin məqsəd və hədəflərinə nail olmasına xidmət etməklə, özündə şəffaflıq, hesabatlılıq, inklüzivlik, maraqlı tərəflərin məmnunluğu kimi prinsipləri ehtiva edir: https://atmu.edu.az/upload/files/2023/11/21//-dc91cc9b17005542833114951741078612 8.pdf.

***2.3.3 Keyfiyyətin təmin olunmasında ATM rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər***

Keyfiyyət təminatı ilə bağlı görüləcək bütün işlər əvvəlcədən Elmi Şurada müzakirə edilməklə həyata keçirilir. Bu mənada rəhbərliyin töhfəsi mövcud məsələ ilə bağlı razılığının verilməsi və ya təkmilləşdirilməsi istiqamətində tövsiyələrin, göstərişlərin verilməsindən və müvafiq prosesin gedişinə nəzarətdən ibarətdir.

Bu eyni zamanda, ATMU strategiyasında qarşıya qoyulan məqsədlərdən biri olan “ATMU-da idarəetmənin səmərəliliyinin yüksəldilməsi”nə nail olunmasına da dəstək olur (Məqsəd 1). Sözügedən məqsədə nail olunması üçün ATMU daxili qaydalar toplusunun hazırlanması buna nümunədir (https://atmu.edu.az/az/normativ-senedler).

***2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti***

ATMU-da akademik və inzibati heyət arasında əlaqə korporativ e-maillər vasitəsilə aparılır. Onların ehtiyaclarının müəyyənləşməsi üçün “Ehtiyacların müəyyənləşdirilməsi sorğusu”, eləcə də təhsilalanlar arasında “Fənnin qiymətləndirilməsi sorğuları”, “İctimaiyyətin məlumatlandıırlması” sorğusu, “ATMU-da Tələbə və müəllim məmnuniyyəti” sorğularının təşkili Keyfiyyət təminatı şöbəsi tərəfindən aparılır. Keyfiyyət Təminatı Şöbəsinin təşəbbüsü və təşkilatçılığı ilə müxtəlif istiqamətli təlimlər (cari hesabatın 2.2.7-ci indikatoru), auditlər keçirilir (2.2.8-ci indikator). İstər təhsilalanların, istər təhsilverənlərin, istərsə də inzibati heyətin fəaliyyətinə, uğurlarına dair məlumatlar, eləcə də, bütün lazımi informasiyalar Universitetin rəsmi saytında və rəsmi sosial şəbəkələrində ictimaiyyətə çatdırılır.

Digər tərəfdən, strukturlar arasına sənəd dövriyyəsini sənədlərin scan edilərək emaillər vasitəsilə göndərilməsi ATMU-nun Ümumi şöbəsi tərəfindən həyata keçirilir. Ümumi şöbə

sənədlərin qəbulu, qeydiyyatı, rektora dərkənar yazılması üçün təqdimi və müvafiq strukturlara paylanılmasını təmin edir. Sənədlərin icra vəziyyəti ilə maraqlanır, icra prosesinin vaxtında təmin edilməsinə nəzarət edir.

Həmçinin, ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının məqsədlərindən olan idarəetmənin səmərəliliyinin yüksəldilməsi, Universitetin ortaq vizyona, dəyərlərə əsaslanan brendinin yaradılması və digər məqsədlərə nail olunması üçün strukturlararası koordinasiyanın təkmilləşdirilməsi işi aparılır.

## 3. TƏLİM VƏ TƏDRİS

### *3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

***3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti***

ATMU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin "hər tədris ili üçün ayrı-ayrı ixtisaslar üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, digər nazirlik, komitə və təşkilatların tabeliyində olan ali təhsil səviyyələrinə tələbə qəbulu"nun təsdiq edilməsi haqqında Sərəncamına "Tələbə qəbulu üzrə proqnoz yerlərinin layihəsinin hazırlanması" daxili Qaydalara (https://atmu.edu.az/az/senedler-tedris-metodiki-sobe) əsasən tənzimlənir. Belə ki, Universitetdə Rektoryanı Şuranın 30 aprel 2018-ci il tarixli iclasında struktur rəhbərlərindən ibarət komissiya yaradılması təklif edilmiş, 07 sentyabr 2018-ci il tarixli iclasında tələbə qəbulu proqnozlarının hazırlanması üçün struktur rəhbərlərindən və əmək bazarı nümayəndələrindən ibarət Komissiya yaradılmış və proqnozların hazırlanma mərhələlərinin sxemi təsdiqlənmişdir.

Qeyd olunan sxemə əsasən ATMU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin (ixtisas proqramının təlim nəticələrinin fənlərə uyğunluğu, məzunların ümumi və peşə kompetensiyalarının proqramın təhsil proqramına uyğunluğu, Tədris planlarının və digər formaların (2, 3, 4, 5) təhsil proqramının strukturuna uyğunluğu, tədris və öyrənmə mühitinin təşkili, tədris və öyrənmə metodlarının uyğunluğu, tələbəyönümlü qiymətləndirmə üsulları, infrastruktur və kadr potensialı, yekun qiymətləndirmə, kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi və s. ödənilməsi vəziyyəti araşdırılır, ehtiyac olduqda müvafiq qərarlar qəbul olunur.

Hər il avqust-sentyabr aylarında ATMU-nun Elmi Şurasında müzakirələr aparılaraq proqnozların təsdiqlənməsi üçün AR Dövlət Turizm Agentliyinə və AR Elm və Təhsil Nazirliyinə sirkulyar məktublar ünvanlanır.

***3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti***

ATMU-nun Elmi Şurasında tələbə qəbulu proqnozlarının təsdiqlənməsindən öncə əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi və proqnozları hazırlayan Komissiyanın işinin səmərəliliyinin təmin edilməsi üçün müvafiq strukturlar iş bölgüsünə əsasən aşağıdakı hesabatları komissiyaya təqdim edilir:

- Respublika və ATMU üzrə qəbul dinamikasının son 5 tədris ili üçün vəziyyəti (Tədris-metodiki şöbə);
- tələbə qəbulu sifarişi üçün ixtisasların SWOT və PESTEL analizi (ixtisas kafedraları);
- tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti (Karyera-kommunikasiya şöbəsi);
- əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti (Karyera-kommunikasiya şöbəsi);
- abituriyentləri universitetə cəlb etmək məqsədilə təbliğat və təşviqat işlərinin vəziyyəti (Karyera-kommunikasiya şöbəsi);
- maddi-texniki təchizatının (tədrisin yönümünə uyğun təcrübə otaqları və laboratoriyalar, 15-25, 50 və 100 nəfərlik auditoriya fondu, sanitar qovşaqlar, isidilmə və ventilyasiya sistemləri, yeməkxana, akt zalı, elektron təchizat məlumatları və s.) mövcud vəziyyəti (Xidmət şöbəsi);
- kitabxana (kitabxana və oxucu yerləri, elektron məlumat bazası, e-kitabxana və s.) resursları bazası (Kitabxana-informasiya mərkəzi) və s.




**ATMU-da Bakalavriatura pilləsi üzrə son 5 tədris illəri üçün tələbə qəbulu nəticələri (faizlə)**




**ATMU-da Magistratura pilləsi üzrə son 5 tədris illəri üçün tələbə qəbulu nəticələri (faizlə)**

ATMU-da tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi nəticəsində son 5 tədris ilində qəbul göstəriciləri yuxarıdakı qrafiklərdə əks olunmuş, 2023-2024-cü tədris ili üçün bakalavriatura üzrə 100 %, magistratura üzrə 98 % nəticə əldə edilmişdir.

***3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti***

Universitetdə tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşması üçün Rektoryanı Şuranın qərarı ilə yaradılmış komissiyada əmək bazarı nümayəndələrinin də təmsilçiliyinin olması nəzərdə tutulmuşdur. Qeyd olunan nümayəndələr AR Dövlət Turizm Agentliyini, müxtəlif otel şəbəkələrini, turoperator və səyahət agentliklərini, assosasiyaları, digər dövlət və özəl sektorları təmsil edirlər ("Bakı turizm-ekskursiya" MMC, "Azərbaycan Otəllər və Restoranlar" Assosasiyası, -"New Baku" oteli, "Millenium" turizm şirkəti, "Səyahət' turizm şirkəti və s.).

Həmçinin, müxtəlif zamanlarda ATMU-nun təşkil etdiyi karyera günlərində, əmək bazarı nümayəndələri ilə işgüzar toplantılarda tələbələrin ixtisas kompetensiaları müzakirə olunur, lazım gələrsə, həmin qurumlarda tələbələr təcrübəyə, təlimlərə cəlb olunur, ixtisas proqramlarının monitorinqi aparılarkən Universitetin təyin etdiyi seçmə fənlər qrupuna əmək bazarının tələblərini ödəyən fənlər daxil edilir. Digər tərəfdən istehsalat və elmi-tədqiqat təcrübələrinə göndərilən tələbələrin nəticələri əmək bazarı nümayəndələri ilə müzakirə olunaraq onlardan geri dönüşlər (feedback) alınaraq növbəti tədris ilinin proqnozunda həmin ixtisaslar üzrə ayrılacaq tələbə yerləri müzakirə olunur.

***3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti***

ATMU-ya qəbul olunan subbakalavrların əvvəlki təhsilinin və kreditlərinin tanınması AR Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydalarının təsdiq edilməsi" haqqında 20 may 2019-cu il tarixli 230 saylı Qərarının (https://e-qanun.az/framework/42399) 5-ci bəndinə əsasən tənzimlənir və Elmi Şuranın 14 sentyabr 2022-ci il tarixli Qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması" Qaydalarına uyğun həyata keçirilir (https://atmu.edu.az/upload/files/2023/10/31//-f3f1b7fc16987531727004885291006978 4.pdf).

Belə ki, daxili prosedur qaydalara əsasən subbakalavr ATM-ə qəbul olduğu gündən 5 iş günü müddətində fənn uyğunlaşdırma cədvəlləri hazırlanır. Bu zaman fənlərin kreditləri, onların kompetensiyaları dekanlıq, kafedra və fakültə Tədris-metodiki Şurası tərəfindən təsdiqlənir və nəticəyə uyğun olaraq tələbələrin fərdi tədris planları (Forma 4) tələbələrin iştirakı ilə akademik məsləhətçilər (tyutorlar) tərəfindən hazırlanır (bu zaman tələbənin istəyi ilə fənni yenidən dinləmək imkanı da yaradıla bilir).

Universitetə qəbul olunan əlavə (ikinci) təhsil tələbələrinin əvvəlki təhsilinin və kreditlərinin tanınması AR Nazirlər Kabinetinin "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydasının təsdiq edilməsi" haqqında 06 sentyabr 2010-cu il tarixli 163 saylı Qərarının (https://e-qanun.az/framework/20045) 5-ci bəndinə əsasən bakalavr pilləsi üçün mövcud olan təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı təhsil proqramı ilə yeni ixtisasın təhsil proqramı arasındakı fərq nəzərə alınmaqla fərdi tədris planları (Forma 4) əsasında aparılır. ATMU-ya köçürülən və bərpa olunan tələbələrin əvvəlki təhsilinin və kreditlərinin nəzərə alınması isə AR Təhsil Nazirliyinin Kollegiyasının "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində təhsilalanların köçürülməsi, xaric edilməsi, bərpa

olunması və akademik məzuniyyət götürülməsinə dair Qaydaların təsdiq edilməsi barədə" 15 noyabr 2017-ci il tarixli 5/2 saylı Qərara (https://e-qanun.az/framework/37146) əsasən tənzimlənir.

### *3.2 Təhsil proqramları*

#### *3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi*

ATMU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı"na (https://e-qanun.az/framework/41438), 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na (https://e-qanun.az/framework/21781), 2012-ci il 15 mart tarixli 65 saylı Qərarı ilə təsdiq edilmiş Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na (https://e-qanun.az/framework/23253) və 2018-ci il 18 iyul tarixli 311 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin (https://e-qanun.az/framework/39622) səviyyələrinə uyğun olaraq hazırda hər 3 səviyyədə (6-bakalavriatura, 7-magistrtatura, 8-doktorantura (fəlsəfə doktoru və elmlər doktoru) kadr hazırlığı aparılır. Belə ki, hazırda Universitetin profilinə uyğun AR Təhsil Nazirliyinin **bakalavriatura** (əyani, qiyabi) səviyyəsi üzrə F-386 nömrəli əmri ilə təsdiq edilmiş Təhsil proqramları üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 13 ixtisas olmaqla, **magistratura** səviyyəsi üzrə mövcud 10 ixtisas qrupunun 5-i üzrə 10 ixtisas, 13 ixtisaslaşma, **MBA proqramı** üzrə "Biznesin idarə edilməsi" ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 4 istiqamət, **doktorantura** (əyani, qiyabi) və **dissertantura** səviyyəsi üzrə mövcud 25 elm sahəsinin 8-i üzrə 14 ixtisas olmaqla kadr hazırlığı həyata keçirilir:

**ATMU-da bakalavriatura səviyyəsi üzrə kadr hazırlığının aparıldığı ixtisaslar (2020/2021-2023/2024-cü tədris illəri)**

| № | İxtisas qrupu | № | İxtisasın şifri | İxtisasın adı | Şöbə |
|---|---|---|---|---|---|
| 1. | 2. Humanitar və sosial | 1. | 050201 | Beynəlxalq münasibətlər | əyani |
| | | 2. | 050215 | Tərcümə (ingilis dili – Azərbaycan dili) | əyani |
| 2. | 3. Mədəniyyət və incəsənət | 3. | 050310 | Muzey, arxiv işi və abidələrin qorunması | əyani, qiyabi |
| 3. | 4. İqtisadiyyat və idarəetmə | 4. | 050404 | Dövlət və bələdiyyə idarəetməsi | əyani |
| | | 5. | 050406 | Maliyyə | əyani |
| | | 6. | 050407 | Marketinq | əyani |
| | | 7. | 050408 | Menecment | əyani |
| | | 8. | 050409 | Mühasibat | əyani |
| 4. | 6. Texniki və texnoloji | 9. | 050635 | Qida mühəndisliyi | əyani, qiyabi |
| 5. | 8. Səhiyyə, rifah və xidmət | 10. | 050806 | Nəqliyyatda servis (nəqliyyat növləri üzrə) | əyani |
| | | 11. | 050807 | Sosial iş | əyani, qiyabi |
| | | 12. | 050809 | Turizm bələdçiliyi | əyani, qiyabi |
| | | 13. | 050810 | Turizm işinin təşkili* | əyani, qiyabi |

*** Müvafiq ixtisas üzrə üç tədris dilində (Azərbaycan, rus, ingilis) kadr hazırlığı həyata keçirilir.**

**ATMU-da magistratura səviyyəsi üzrə kadr hazırlığının aparıldığı ixtisaslaşmalar (2022/2023-2023/2024-cü tədris illəri)**

| № | İxtisas qrupu | İxtisasın şifri | İxtisasın adı | № | İxtisaslaşmanın adı |
|---|---|---|---|---|---|
| 1. | 2. Humanitar və sosial | 060213 | Beynəlxalq münasibətlər | 1. | Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi |
| | | 060216 | Dövlət və ictimai münasibətlər | 2. | İctimai siyasət |
| 2. | 3.Mədəniyyət və incəsənət | 060301 | Muzeyşünaslıq, arxiv və abidələrin qorunması | 3. | Muzeyşünaslıq*<br>Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi |
| 3. | 4.İqtisadiyyat və idarəetmə | 060403 | Maliyyə | 4. | Maliyyə nəzarəti və audit<br>Maliyyə menecmenti |
| | | 060404 | İqtisadiyyat | 5. | Turizmin iqtisadiyyatı |
| | | 060407 | Menecment | 6. | Menecment (sahələr üzrə) |
| | | 060409 | Biznesin idarə edilməsi (MBA proqramı) | 7. | Biznesin təşkili və idarə edilməsi:<br>- Turizm və otelçiliyin idarə edilməsi üzrə;<br>- Bank və sığortanın idarə edilməsi üzrə;<br>- Sosial işin texnologiyası üzrə;<br>- Ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi üzrə |
| 4. | 6. Texniki və texnoloji | 060642 | Qida məhsulları mühəndisliyi | 8. | Qida təhlükəsizliyi |
| 5. | 8. Səhiyyə, rifah və xidmət | 060803 | Turizm və otelçilik | 9. | Turizm işi* |
| | | | | 10. | Otelçilik |
| | | | | 11. | Beynəlxalq turizm və ölkəşünaslıq* |
| | | 060805 | Sosial iş | 12. | Əhalinin sosial müdafiəsi |
| | | | | 13. | Əhalinin əmək və həyat şəraitinin yaxşılaşdırılması |

*** Müvafiq ixtisaslaşmalar üzrə iki tədris dilində (Azərbaycan, ingilis) kadr hazırlığı həyata keçirilir.**

**ATMU-da doktorantura (dissertantura) üzrə kadr hazırlığının aparıldığı ixtisaslar (2020/2021-2023/2024-cü tədris illəri)**

| № | Elm sahələri | № | İxtisasın şifri | İxtisasın adı |
|---|---|---|---|---|
| **1.** | 53. İqtisad elmləri | **1.** | 5304.01 | İqtisadi fəaliyyət növləri |
| | | **2.** | 5308.01 | Ümumi iqtisadiyyat |
| | | **3.** | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması |
| | | **4.** | 5312.01 | Sahə iqtisadiyyatı |
| **2.** | 54. Coğrafiya | **5.** | 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası |
| **3.** | 56. Hüquq elmləri | **6.** | 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları |
| **4.** | 57. Filologiya elmləri | **7.** | 5708.01 | German dilləri |
| **5.** | 58. Pedaqogika | **8.** | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması |
| **6.** | 59. Siyasi elmlər | **9.** | 5901.01 | Beynəlxalq münasibətlər |
| | | **10.** | 5909.01 | Dövlət idarəçiliyi |
| **7.** | 62. Sənətşüşaslıq | **11.** | 6219.01 | Kulturologiya və onun ümumi məsələləri |
| | | **12.** | 6220.01 | Muzeyşünaslıq |
| **8.** | 63. Sosiologiya | **13.** | 6307.01 | Sosial dəyişiklik və inkişaf |
| | | **14.** | 6310.01 | Sosial problemlər |

Həmçinin, ATMU-da ali təhsil pillələrində qazanılmış kompetensiyaların (səriştələrin) yeniləşdirilməsini, təkmilləşdirilməsini və şaxələndirilməsini təmin edən əlavə təhsil üzrə də (mövcud bakalavr ixtisasları üzrə) kadr hazırlığı həyata keçirilir.

Yuxarıda göstərilənlərə əsasən qeyd etmək olar ki, ATMU-da kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi Universitetin profilinə uyğun 6-7-8-ci səviyyələr üzrə optimal həyata keçirilməkdədir.

### *3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti.*

Universitetdə tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun, həmçinin yeni hazırlanan təhsil proqramlarının və ya mövcud proqramlara dəyişikliklər edilməsi barədə təkliflərin hazırlanması prosesində əsasən aşağıdakı məsələlərə diqqət yetirilir:

- Sürətlə inkişaf edən informasiya texnologiyalarının, qlobal proseslərin istiqamətinə uyğunluğu nəzərə alınması;
- Təhsil nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılması sisteminin təşkili;
- Mövcud proqramın və təklif olunan yeni proqramın Azərbaycan Respublikası Təhsil Nazirliyi Dövlət Standartlarına və Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlara və təlimatlara (1.2. Proqramların tərtibi və təsdiq olunması) cavab verməsi;
- Proqramın ali təhsil üzrə milli kvalifikasiya çərçivəsinə, Avropa ali təhsil məkanının kvalifikasiya çərçivəsinə uyğun olması;
- Proqramların Universitetin məqsəd və strategiyasına uyğun tərtib olunması;
- Təklif olunan ixtisasın hökümət tərəfindən təsdiq olunmuş ixtisaslar siyahısında olması;
- Proqramlar tərtib olunarkən onların qarşısına qoyulan tələblər (məqsədlər);
- Əmək bazarının ixtisasa olan tələbatı;
- Proqramın fənn bölümləri və bölümlər daixilində fənlərin məntiqi uzlaşması və ardıcıllığı;
- Proqramın öyrənilmə nəticələri (Təlim nəticələri-təhsilalanın nələri bildiyi, təlim prosesini bitirdikdə nəyi edə biləcəyini göstərən bilik, bacarıq vərdişlər), onların əldə edilməsi yolları, dəstəkləyici komponentlər;
- Qiymətləndirmə üsulları, qiymətləndirmənin diaqnostik, formativ, summativ aspektləri;
- İxtisaslı kadr hazırlığına olan tələbdə regionda və beynəlxalq aləmdə baş verən dəyişikliklərin nəzərə alınması;
- Proqramın məzmununun ixtisas üzrə son tədqiqatlar nəzərə alınmaqla yenilənmə vəziyyəti;
- İşə götürənlərin rəy və təklifləri;
- Proqramların hazırlanmasında Universitetin imkanlarının, maddi-texniki bazasının, kitabxana resurslarının və digər xidmətlərin nəzərə alınması və s.;
- Beynəlxalq və yerli təcrübə, sahədəki ən qabaqcıl proqramlar ilə müqayisə;
- Sahədə mövcud olan keyfiyyət standartları və universitetin resursları və s.

Həmçinin ATMU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun təmin edilməsi üçün tələbələrin istehsalat və elmi-tədqiqat təcrübələri prosesində iştirak etdikləri əmək bazarı müəssisələri tərəfindən alınan rəylər dəyərləndirilir, məzun olan tələbələrlə yiyələndikləri peşə kompetensiyalarına dair sorğular aparılır.

***3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti***

ATMU-da kadr hazırlığı aparılan ixtisasların müvafiq səviyyələr üzrə (6, 7, 8) üzrə Milli Kvalifikasiyalar Reyestrinə uyğunluğu tam təmin olunmuşdur. Belə ki, ixtisaslar üzrə təhsil proqramlarının tələblərinə uyğun olaraq ixtisas üzrə məzunun kompetensiyaları, ixtisasın çərçivəsi, fənlər üzrə təlim və öyrənmə metodları, qiymətləndirmə üsulları, təlim nəticələri, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanları müəyyənləşdirilərək kadr hazırlığı həyata keçirilir. Bununla yanaşı, maraqlı tərəflər üçün məzunların əldə etdiyi bilik və bacarıqlar, eləcə də təlim nəticələrinin əlçatanlığı müxtəlif üsullarla (rəsmi sayt, sosial şəbəkələr, korporativ maillər, yaddaş kitabçaları və s.) təmin edilir.

***3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu.***

Universitetdə təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğunun təmin edilməsi məqsədilə “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Qanunvericiliyində nəzərdə tutulan vahid tələblərə uyğun fəaliyyət göstərmə, insan resurslarının rəqabətqabiliyyətliliyinin və mobilliyinin artırılması yolu ilə təhsilalanların və işçilərin milli və beynəlxalq mobilliyinin dəstəklənməsi, təhsil və təlim sahələrində həyata keçirilən islahatların ardıcıllığının təmin edilməsi ATMU-nun Strateji məqsədlərinə uyğun tənzimlənmişdir. Müvafiq tələblərin vacibliyi Universitetdaxili bütün strukturlar fəaliyyətlərində nəzərə alır, ixtisaslar üzrə kvalifikasiyaların keyfiyyətinin təmin olunmasında iştirak edir. Həmçinin ATMU-da keyfiyyətin daxili təminatı sistemi yaradılmış, müxtəlif istiqamətlərdə (“Azərbaycan Turizm və Menecment Universitetində Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları”, “Təlim prosesinin monitorinqi qaydaları”, Akademik Heyətinin Təkmilləşdirilməsi Proseduru və s.) keyfiyyətin qiymətləndirilməsi meyarları təsdiqlənmişdir.

***3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu***

Universitetdə tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğunun təmin edilməsi məqsədilə ixtisaslar üzrə kompetensiya xəritələri, fənlərin təlim nəticələrinin proqramın təlim nəticələrinə (ümumi və peşə kompetensiyaları ayrılıqda nəzərə alınmaqla) uyğunluğunun matrisi hazırlanmışdır (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111). Təhsil proqramlarının əlavələri olan:

1. Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri;
2. Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi;
3. Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları cədvəlləri bütün ixtisaslar üzrə hazırlanmış və əlçatanlığı rəsmi internet saytda təmin olunmuşdur (https://atmu.edu.az/az/senedler-tedris-metodiki-sobe).

İxtisaslar üzrə tədris olunan bütün fənlərin təlim nəticələri sillabuslarda öz əksini tapır.

***3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu.***

“Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il 75 saylı Qərarının (https://e-qanun.az/framework/19531) 8.7-ci bəndinə və 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.2.2.-ci bəndinə əsasən Universitetdə tələbələrin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Tələbələrin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistrlik dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabər olmaqla Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə tam uyğundur. Təhsil proqramlarına uyğun hazırlanmış tədris planlarında da (Forma 1) dərs saatlarının bölgüsü AKTTS prinsiplərinə uyğunlaşdırılmışdır (atmu.edu.az/az/tedris-metodiki-sobe-senedler-tedris-planlari-bakalavr).

### *3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu*

ATMU-da tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il 75 saylı Qərarının (https://e-qanun.az/framework/19531) 8.4. bəndinə və Azərbaycan Respublikası Təhsil Nazirliyinin müxtəlif ixtisas qrupları üçün təsdiq etdiyi təhsil proqramlarının 3.-cü bəndinə əsasən tənzimlənir. Belə ki, təhsil proqramlarının tələblərinə əsasən bakalavriatura ixtisasları üzrə tərtib olunan Tədris planlarında ümumi fənlər, ixtisas fənləri, ali təhsil müəssisəsi tərəfindən təyin olunan fənlər, təcrübə və yekun attestasiya işləri, magistratura ixtisasları üzrə isə ixtisas (ixtisaslaşma) fənləri bölümü və elmi-tədqiqat işləri bölümü ayrılmış, kreditlər TP-da göstərilmiş şəkildə tənzimlənmişdir. "Ali təhsil müəssisəsi tərəfindən təyin olunan fənlər" bölümündə yer alan fənlər ixtisasların Təhsil Proqramında göstərilən ümumi və peşə kompetensiyaları nəzərə alınmaqla seçilmişdir.

### *3.2.8. Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu*

ATMU-da həm bakalavriatura, həm magistratura ixtisasları üzrə hazırlanmış tədris planlarında həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarı təhsil proqramlarının tələblərinə uyğunlaşdırılmışdır. Belə ki, bir semestrə, tədrisə tam cəlb olunan (fulltime) tələbəyə 30 (tələbənin prerekvizit fənn və ya fənlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər) kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır ki, həftəlik auditoriya daxili saatların həcmi əsasən ümumi həftəlik yükün 50%-dən artıq deyildir.

### *3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı.*

ATMU-da müxtəlif ixtisaslar üzrə Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı rəsmi sayt (https://atmu.edu.az/az/) vasitəsilə təmin olunmuşdur (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111).

Həmçinin ATMU-ya tələbə qəbulunun təşviqat tədbirlərində müxtəlif kollec və ümumtəhsil məktəblərilə görüş keçirilərkən Universitetdə kadr hazırlığı aparılan hər bir ixtisas üzrə əldə olunacaq təlim nəticələri və tələbələrin qazanacağı kompetensiyalar abituriyent və subbakalavrlara təlim şəklində izah olunur, təqdimatı aparılır.

### *3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti.*

ATMU-da Elmi Şuranın 27 dekabr 2022-ci il 3 saylı iclasında təsdiq olunmuş "Təhsil proqramlarının tərtibi, təsdiqi və tədris-metodik təminat haqqında" Qaydalarına (https://atmu.edu.az/upload/files/2023/10/31//-ea9268cb1698753226529754586109O8167.pdf) görə Elm və Təhsil Nazirliyində təsdiq olunan təhsil proqramlarının layihəsinin hazırlanması üzrə Proqram Komissiyasında maraqlı tərəflərin (əmək bazarı nümayəndələri, akademik və inzibati heyət, təhsilalanlar) təmsilçiliyi təmin edilir, təklif olunan təhsil proqramlarının təlim nəticələri ilə proqramda yer alan fənlərin təlim nəticələri uyğunlaşdırırlır. Xüsusilə, "Universitet tərəfindən seçilən fənlər" bölümünə salınan fənlər və onların təlim nəticələri işəgötürənlərlə və digər maraqlı tərəflərlə müzakirə olunaraq təhsil proqramlarına əlavə edilir.

## *3.3 Tədrisin təşkili*

### *3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti*

ATMU-da tərtib edilən **Tədris Planları** (Forma 1) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.1.2.1. bəndinə əsasən ali təhsilin müvafiq səviyyələrində ixtisas (ixtisaslaşmalar) üzrə təhsil proqramlarına uyğun olaraq, tədris olunan fənlərə və auditoriyadankənar məşğələlərə ayrılan saatların miqdarını müəyyən edən əsas tənzimləyici sənəddir. Müvafiq Qərarın 3.2.7.-ci bəndinə əsasən Tədris Planlarında tədris işinin həcmi kredit vahidləri ilə (1 kredit-30 saat) aşağıdakı fəaliyyətlər üzrə müəyyənləşdirilmişdir:

- auditoriya (mühazirə, seminar, praktik məşğələlər, laboratoriya) saatlarının həcmi;
- auditoriyadankənar (tələbənin müstəqil və müəllimin rəhbərliyi ilə sərbəst işi) saatların həcmi;
- təcrübələrin həftəlik həcmi;
- kurs işinin həcmi;
- buraxılış işi, YDA, magistrlik dissertasiyasının hazırlaması və müdafiəsi, layihələrin həcmi və s.

Tərdis Planlarının strukturu AR Təhsil Nazirliyinin 40 nömrəli 21 yanvar 2014-cü il tarixli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənmiş, ATMU-nun Elmi Şurasında təsdiq edilmişdir. Tərtib edilən tədris planlarında tələb olunan struktura əsasən, aşağıdakı bölmələr yer almışdır:

**I.** Tədris prosesinin qrafiki (tədris illəri üzrə nəzəri təlim, imtahan sessiyası, təcrübə, yekun attestasiya və tətilə ayrılan həftələrin sxematik təsviri);

**II.** Tədris prosesinin qrafiki (fənlərin sıra nömrəsi, kodu, adı, kreditin sayı, auditoriyadan kənar saatlar, auditoriya (mühazirə, seminar, laboratoriya) saatları, prerekvizitlik, korrekvizitlik, semestrlərin bölgüsü, həftəlik dərs yükü, təcrübə və yekun attestasiyanın qrafiki);

**III.** Təlimə ayrılan müddət (həftələrin sayı).

Həmçinin bütün səviyyələr üzrə tərtib olunan Tədris planları ATMU-nun rəsmi səhifəsində yerləşdirilmiş, maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-senedler-tedris-planlari-bakalavr).

***3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti***

ATMU-da ixtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri üzrə bölgüsünü əks etdirən **İxtisasın (ixtisaslaşmanın) tədris qrafiki** (Forma 2) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.1.2.2. bəndini rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə Tədris Planlarına müvafiq hazırlanmışdır. İxtisasın (ixtisaslaşmanın) tədris qrafikinin strukturu AR Təhsil Nazirliyinin 40 nömrəli 21 yanvar 2014-cü il tarixli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənmişdir.

***3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti***

ATMU tərəfindən tərtib edilən Tədris Planlarında fənlərin bölgüsü müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə AR Təhsil Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilmiş Təhsil Proqramlarındakı bölmələr üzrə tələb olunan ümumi kreditlərin sayına uyğunlaşdırılmışdır.

Tədris Planlarındakı fənlər vacibliyinə və məzmununun mənimsənilməsi ardıcıllığına görə aşağıdakı 4 qrupa bölünmüşdür:
- məcburi (Təhsil Proqramına uyğun) və ardıcıl (prerekvizit) öyrənilən fənlər;
- məcburi (Təhsil Proqramına uyğun), lakin ardıcıllığı vacib olmayan fənlər;
- ATMU tərəfindən təyin edilən və tələbələrin öz seçimi əsasında öyrənilən seçmə fənlər;
- Təcrübələr və yekun attestasiyalar (Təhsil Proqramına uyğun).

***3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti***

ATMU-da Tədris Planlarında ümumi və ixtisas fənlərinin bölgüsü müvafiq ixtisaslar (ixtisaslaşmalar) üzrə AR Təhsil Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilmiş Təhsil Proqramlarındakı bölmələr üzrə tələb olunan ümumi kreditlərin sayına uyğunlaşdırılmış və fənlərin məcburiyyəti, məntiqi ardıcıllığı nəzərə alınaraq tərtib edilmişdir. Müvafiq tələblərə uyğun olaraq illər üzrə təsdiqlənmiş və qüvvədə olan Təhsil Proqramlarında fənlər arası balans aşağıdakı kimi tənzimlənmişdir:

I. Bakalavriatura üzrə:
- 2014-cü il – humanitar fənlər bölümü (30 kredit), ixtisas-peşə hazırlığı fənləri bölümü (180 kredit), təcrübələr və yekun attestasiya (30 kredit);
- 2020-ci il – ümumi fənlər bölümü (30 kredit), ixtisas fənləri bölümü (120 kredit), ATM tərəfindən müəyyən edilən fənlər bölümü (60 kredit), təcrübələr və yekun attestasiya (30 kredit).

II. Magistratura üzrə:

- 2012-ci il - humanitar fənlər bölümü (14 kredit), ixtisas (ixtisaslaşma) fənlər bölümü (76 kredit), elmi-tədqiqat işləri (30 kredit);

2016-cı il - ixtisas (ixtisaslaşma) fənlər bölümü (60 kredit), elmi-tədqiqat işləri (60 kredit);

***3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti.***

ATMU-da fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi üçün ixtisaslar üzrə kompetensiya xəritələri, AR Təhsil Nazirliyinin Kollegiyasının 2020-ci ildə təsdiq etdiyi Təhsil Proqramlarının Əlavələrinə (1, 2, 3) uyğun olaraq Tədris Planlarında yer alan hər bir fənnə müvafiq sənədlər hazırlanmış və Universitetin Tədris-metodiki Şurasında müzakirə olunaraq, qiymətləndirilərək təsdiq edilmişdir (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111). Müvafiq sənədlər aşağıdakı qruplara bölünmüşdür:

1. Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri cədvəli,
2. Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi,
3. Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları cədvəli.

***3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti***

Universitetin Tədris-metodiki Şurasının qərarına əsasən ixtisasın (ixtisaslaşmanın) Tədris Planında yer alan bütün fənlərin sillabuslarında müvafiq bölmələrin yer almasına kafedralar tərəfindən nəzarət olunur. Hər tədris ilində müəllimlər tərəfindən tərtib edilən sillabuslar kafedralarda fəaliyyət göstərən Fənn Komissiyaları tərəfindən müzakirə edilir, fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi yoxlanılır, uyğun olmayan təlim nəticələri müəyyən edilərsə düzəliş edilərək müzakirə və təsdiq üçün Fakültə Tədris-Metodiki Şurasına təqdim edilir. Müvafiq prosedur ATMU Elmi Şurasının 15.04.2022 ci il 5 saylı iclasında təsdiq edilmiş "İşçi tədris proqramının (sillabus) tərtib olunmasına dair akademik heyət üçün Təlimat"-a (http://atmu.edu.az/upload/files/2023/02/07//-93fb9d4b167577540617679842811017293.pdf) uyğun tənzimlənir. Həmçinin, professor-müəllim heyətinin tədris etdiyi fənlər üzrə tərtib edilən təlim nəticələrinin tələbələrə çatdırılması vəziyyəti öncədən təyin edilmiş qrafiklərə əsasən açıq dərslərdə və komissiya vasitəsilə monitorinqlər aparılaraq qiymətləndirilir, nəticələr kafedra iclaslarında müzakirə olunur.

***3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti***

ATMU-da tərtib olunan Tədris planlarında həftəlik dərs yükünün miqdarı "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 aprel 2010-cu il 75 saylı Qərarının (https://e-qanun.az/framework/19531) 8.7.-ci bəndinə və 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.2.2.-ci bəndinə əsasən tənzimlənir və Universitetdə tələbələrin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi cəmi 45 saat təyin olunur ki, onun da aktiv (auditoriyadaxili) hissəsi ümumi saatların 50 %-ni aşmır.

Semestrlərdə nəzərdə tutulmuş fənlərin sayı isə ixtisasdan və təhsil pilləsindən asılı olaraq əsasən 5-6 ədəd müəyyənləşdirilmişdir. Belə ki, Tədris planları hazırlanərkən semestr ərzindən keçilən fənlərin və sessiyada imtahanların sayının çox olmamasını tənzimləmək üçün fənlər üzrə ayrılan kreditlərin həcmi (əsasən 5-6 kredit) optimallaşdırılmışdır.

Həmçinin, fakültələr üzrə dərs cədvəlləri hazırlanarkən dərs saatlarının həftəlik və günlük bölgüsünə xüsusi nəzarət edilir. Belə ki, gün ərzində tələbələrə ən çox 6 akademik saat həcmində dərslər təyin edilir. Bu zaman tələbələrin vaxtlarının optimal bölünməsi məqsədilə dərslər arası boş saatların olmamasına diqqət edilir.

***3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti.***

ATMU-da tələbənin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər

üzrə müəllimlərin siyahısını əks etdirən **tələbənin fərdi tədris planı** (Forma 4) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.1.2.4. bəndi rəhbər tutularaq hər tədris ilində tələbələr üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında akademik məsləhətçilərin (tyutorlar) köməyi ilə tərtib edilir. Tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən, buraya ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir, öncəki təhsillərində kredit qazandıqları fənlərdən azad edilir. Tələbənin fərdi tədris planının strukturu AR Təhsil Nazirliyinin 40 nömrəli 21 yanvar 2014-cü il tarixli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənir və bir nüsxəsi tələbələrin şəxsi korporativ poçt ünvanlarına göndərilir (ekspertlər müvafiq fakültələrdə sənədlərə baxış keçirərkən tələbələrin FTP-ləri ilə tanış ola bilərlər). Hər tədris ilinin əvvəlində FTP-lər tələbələrin iştirakı ilə tərtib olunur, semestrlər üzrə kreditlərin ümumi sayının 40-ı (30+10) aşmamağına nəzarət edilir.

***3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti***

ATMU-da ixtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən **ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planı** (Forma 3) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.1.2.3. bəndi rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə Tədris Planlarına müvafiq hazırlanmışdır.

İxtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planının strukturu AR Təhsil Nazirliyinin 40 nömrəli 21 yanvar 2014-cü il tarixli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənmişdir (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-11111).

***3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti***

ATMU-da müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən **müəllimin illik işçi tədris planı** (Forma 5) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.1.2.5. bəndi rəhbər tutularaq hər bir ixtisas (ixtisaslaşma) üzrə Tədris Planlarına və tələbələrin fərdi tədris planlarına müvafiq hazırlanmışdır.

Müəllimlərin illik işçi tədris planının strukturu AR Təhsil Nazirliyinin 40 nömrəli 21 yanvar 2014-cü il tarixli əmri ilə təsdiq etdiyi formalara uyğun tənzimlənmişdir. Müvafiq forma hər tədris ilinin əvvəlində kafedra iclaslarında müzakirə olunaraq təsdiq edilir və bir nüsxəsi müəllimlərin şəxsi korporativ poçt ünvanlarına göndərilir.

***3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)***

ATMU-da tədris və öyrənmə mühiti tələbələrin müvafiq təhsil proqramlarında nəzərdə tutulan təlim nəticələrinə yiyələnməyinə cavab verir. Belə ki, ixtisasların təhsil proqramlarında nəzərdə tutulmuş fənlər üçün tətbiq edilən tədris və öyrənmə metodları fənni tədris edən akademik heyətin sillabuslarında aydın şəkildə təsvir edilmişdir. Tədris növləri üzrə təqdim edilən metodlar keyfiyyət təminatı sisteminin bir hissəsi olaraq kafedra iclaslarında, tədris-metodiki şuralarda müntəzəm olaraq müzakirə edilərək innovativ təcrübələrin nəticələrinə uyğun təkmilləşdirilir.

Qeyd edilməlidir ki, Universitetdə tədris olunan kurslar üzrə həm fənlərin məzmununa, həm də təhsil səviyyələrinə uyğun müxtəlif tədris metodlarından istifadə edilir. Belə ki, təhsil prosesində nəzəriyyə və praktik təlim arasında tarazlıq gözlənilməklə bakalavr səviyyəsində daha çox nəzəri biliklərin möhkəmlənməsinə yönəlmiş metodlar (mühazirə, seminar, laboratoriya, kurs işi, praktik tapşırıqlar, rol oyunları və s.) üstünlük təşkil etsə də, magistratura səviyyəsində daha çox elmi tədqiqata yönəlmiş (təqdimat, müzakirə, debat, layihələr, case tapşırıqlar, simulyasiyalar, referat və s.) doktorantura səviyyəsində isə elmi-tədqiqatla yanaşı, sərbəst araşdırmanı təşviq etdirən metodlara (müstəqil iş, problemə əsaslanan tapşırıqlar, hesabatlar, elmi araşdırmalar, məqalə hazırlanması və s.) üstünlük verilir. Bütün qeyd olunan metod və üsullar müxtəlif təhsil səviyyələrində təhsilalanlar arasında ömürboyu təlim konsepsiyasının inkişafına hesablanmışdır.

### *3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti*

Univerisitetdə məsləhət xidməti Tələbə mərkəzli təhsil sisteminin prinsipləri və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 5-ci fəsli əsas götürülərək təşkil edilir. Təşkil edilən əsas məsləhət xidməti Akademik məsləhətçilər (tyutorlar) tərəfindən həyata keçirilir.

Tyutorlar:

- tələbələrin hüquqlarını və akademik maraqlarını qoruyurlar;
- tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim edirlər;
- tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verirlər;
- tələbələrin fərdi tədris planlarının qəbulunu təşkil edir və ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planlarının tərtibində iştirak edirlər;
- tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına yardım göstərirlər;
- yay semestrinin təşkilində iştirak edirlər.

Mütəmadi olaraq qruplarla auditoriyalarda görüşlər keçirilir və fərdi olaraq tədrislə bağlı məsələlər müzakirə edilir. Eyni zamanda korporativ e-mail vasitəsilə tələbələrə lazımi məlumatlar ötürülür və sualları cavablandırılır. Həmçinin imtahanlar öncəsi kafedra müəllimləri tərəfindən də məsləhət saatları təşkil olunur. Bu saatlar müəllimin hər bir fənn Sillabuslarında və dərs yüklərində əks olunur. Semestrin sonunda müəllim fənnlər üzrə imtahanqabağı məsləhətlər keçirir. IV kurs bakalavriatura tələbələri üçün 8-ci semestrdə Yekun Dövlət Attestasiyasına hazırlıq kimi müəllimlərin icmal mühazirələri və məsləhətləri, II kurs magistratura tələbələri üçün isə elmi rəhbərlərlə görüş təşkil olunur, bu görüşlərin qrafikləri hazırlanaraq kafedralarda tələbələr üçün əlçatanlığı təmin edilir.

### *3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti*

ATMU-da 2021-2022-ci tədris ilindən etibarən ATMU-nun “Qiymətləndirmə və imtahan qaydaları əsasnaməsi”nə əsasən imtahanaqədərki qiymətləndirmədə dəyişiklik edilmiş, sərbəst işlərin əlavə qiymətləndirilməsi aparılmasa da, seminar qiymətləndirilməsi zamanı müəllimlər tətəfindən tələbələrin sərbəst işləməsi üçün müxtəlif üsullardan (tapşırıq, qrup işi, case üsulu, layihə hazırlığı, təqdimat, məlumatların analizi və s.) istifadə edilir.

Bu zaman mövzuların hazırlanmasına fənn müəllimləri tərəfindən tələbələrə lazımi dəstək (mövzu ilə bağlı planın tərtibi, ədəbiyyat ilə təmin olunma və s.) göstərilir. Tapşırıqlar seminar dərslərində tələbələr tərəfindən məruzə və ya təqdimat formasında təqdim olunaraq fənn müəllimi tərəfindən qiymətləndirilir. Tapşırıq balları seminar ballarının hesablanmasında nəzərə alınır. Belə qiymətləndirmə olduğu halda onunla bağlı sənədlər (word və ya slayd) müəllimlər tərəfindən toplanılaraq müvafiq kafedrada müəllimlərə ayrılmış fənn qovluqlarında saxlanılır.

### *3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti*

ATMU-da “Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə”yə əsaslanaraq fakültələr və ixtisas kefadralarının birgə təşkilatçılığı ilə istehsalat təcrübəsi prosesi həyata keçirilir.

İstehsalat təcrübəsi haqqında əsasnamə və qaydalar Universitetin Elmi Şurasında müzakirə edilərək təsdiq edilmişdir (https://atmu.edu.az/upload/files/2023/12/08//-16fc18d7170201906111202376010276830.pdf, https://atmu.edu.az/upload/files/2023/12/08//-

37cfff3c170201911844873916710802980.pdf). Tələbələr üçün təcrübə qaydalarına əlçatanlıq təmin edilmişdir. Təcrübə qaydalarına əlavə olaraq təcrübə üzrə sənədlər-müqavilə, qiymətləndirmə blankı və davamiyyət jurnalı da təsdiq edilir.

ATMU-da istehsalat təcrübəsi ixtisasların tədris planlarında nəzərdə tutulan semestrlərdə təşkil olunur. Hər tədris ilinin əvvəlində həmin il üçün istehsalat təcrübəsinə gedəcək tələbələrin siyahısı dekanlıqlar tərəfindən Karyera və kommunikasiya şöbəsinə təqdim edilir. Bu tələbələr ilə əyani görüşlər keçirilir və təcrübə üzrə qaydalar izah edilir. İxtisas profillərinə və tələbə sayına uyğun olaraq hər il sentyabr ayından başlayaraq müəssisələr araşdırılır, danışıqlar aparılır, rəsmi məktublar ünvanlanır, rəsmi məktublara müsbət cavab verən müəssisələrin siyahısı formalaşdırılır. Daha sonra müəsissələrin siyahıları ixtisaslara uyğun tələbələrə təqdim edilir. Tələbələrə təqdim edilən siyahıdan təcrübə müəssisəsi seçmək hüququ verilir. Həmçinin tələbələrin də ixtisasları üzrə təklif etdikləri müəssisələri ilə danışıqlar aparılır. Əgər təklif olunan müəssisə uyğun olarsa tələbəyə sənədləşmə prosesində köməklik göstərilir.

Bütün müssisələr ilə istehsalat təcrübəsi üzrə (yaz semestri başlananadək) müqavilələr imzalanır. Tələbələr təcrübəsini yekunlaşdırdıqdan sonra sənədləri toplanılır, yekun qiymətləndirmə ixtisas kafedralarında aparılır.

ATMU yalnız ölkə daxilində deyil eyni zamanda ölkə xaricində də (əsasən "Turizm işinin təşkili ixtisası" üçün) təcrübənin təşkili prosesini həyata keçirir. Bu prosesdə hər tədris ilinin əvvəlindən başlanılır. Tələbələr üçün ölkə xaricində mümkün olacaq müəssiələr ilə danışıqlar aparılır, onlar universitetə dəvət olunur. Hər bir müəssisə tələbələr üçün təqdimatlarını edir, tələblərini irəli sürürlər. Növbəti mərhələdə tərkibi ATMU və müəssisə əməkdaşlarından ibarət olan komissiyasda müsahibələr keçirilir. Xaricdə təcrübə keçəcək tələbələrin sənədləri hazırlanır və səfirliklərə təqdim edilir. Xaricdə təcrübə keçəcək tələbələrin valideynləri ilə onlayn görüşlər keçirilir, onlara ətraflı məlumat verilir və razılıq ərizələri alınır. Xaricdə təcrübə keçən tələbələrin iş və yaşayış şəraitini yoxlamaq üçün əməkdaşlar ezamiyyətə göndərilmiş, yerindəcə yoxlanış həyata keçirilmişdir: https://atmu.edu.az/az/web/post/754.

Magistratura səviyyəsi üzrə təhsil alan tələbələr isə elmi-tədqiqat və elmi-pedaqoji təcrübəyə cəlb olunur. Bu zaman müvafiq tələbələrə müvafiq ixtisas kafedrası və onların elmi rəhbərləri dəstək verirlər. Hər iki təhsil səviyyəsi üzrə təcrübə işinin təşkili ilə bağlı sənədlər (qiymətləndirmə blankları, protokollar və s.) kafedralarda saxlanılır.

### *3.3.15 Stajkeçmənin təşkili vəziyyəti*

ATMU-da stajkeçmənin təşkilini tənzimləmək məqsədilə "Akademik Heyətin Təkmilləşdirilməsi Proseduru" 22 dekabr 2022-ci ildə təsdiq edilmiş (https://atmu.edu.az/upload/files/2023/10/31//-9b91d2451698748390803626693101195 0.pdf) və büdcə planlaşmasında akademik heyətini təkmilləşdirilməsi üçün illik vəsaitlərin ayrılması nəzərdə tutulmuşdur. Müvafiq prosedur professor-müəllim heyətinin səriştəliyinin artırılmasını, tədrisin keyfiyyətinin yüksəldilməsini və yeni təlim metodlarından istifadə əsasında fəaliyyət göstərməsini təmin edən əsas sənəddir.

Bu məqsədlə akademik heyətin stajkeçmə ehtiyacları müəyyənləşdirilir, ehtiyacın yaranma səbəbləri təhlil edilir, bilik, bacarıq və vərdişlər sistemindəki çatışmazlıqlar müəyyənləşdirilir və onların aradan qaldırılması istiqamətində təkmilləşdirilmə prosesi təşkil edilir. Müvafiq proses nəticəsində müəllim tədris etdiyi fənn üzrə nəzəri biliklərini, metodiki iş qabiliyyətini, qabaqcıl təcrübənin öyrənilməsində yeni təlim üsullarından istifadə bacarıqlarını artırır.

2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə stajkeçmə və ixtisasartırma kurslarında iştirak edənlərin sayı cədvəl şəklində əlavə olunur:

| Tədris ili | Stajkeçmə və ixtisasartırma kurslarında iştirak edənlərin sayı |
|---|---|
| 2017/2018 | 1 |
| 2018/2019 | 13 |
| 2019/2020 | 18 |
| 2020/2021 | 4 |
| 2021/2022 | 8 |
| 2022/2023 | 60 |
| 2023/02024 | 120 |
| **CƏMİ** | **224** |

***3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti***

ATMU-da ixtisaslar üzrə tədris planlarına əsasən tələbələrə kurs işi layihələri verilir, onların mövzuları və rəhbərləri kafedra iclasında və fakültə şurasında təsdiq edilir və kafedrada təşkil olunan komissiya qarşısında müdafiələri həyata keçirilir. Kurs işi mövzuları seçilərkən tələbələrin ixtisaslarına uyğun müasir dövrün aktual məsələlərini əhatə edən və təkrarlanmayan mövzular seçilir. Müvafiq proses "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə" AR Təhsil nazirinin 24.02.1994-cü il tarixli 113 saylı əmrinə (https://edu.gov.az/upload/file/Ali-ve-orta-ixtisas/elmi-metodik-cedvel.pdf) və ATMU-nun "Kurs işlərinin hazırlanması və müdafiəsinin təşkili Qaydaları"-na (https://atmu.edu.az/az/senedler-tedris-metodiki-sobe) əsasən tənzimlənir. Kafedralarda təşkil olunan kurs işinin yerinə yetirilməsi nəzəri və praktik biliklərin daha da dərinləşdirilməsi baxımından müasir elmi ədəbiyyatdan, statistik məlumatlardan, istifadə olunmasını nəzərdə tutur. İxtisasa uyğun olaraq hər hansı bir mövzu üzrə tələbənin müstəqil işi olmaqla, elmi rəhbərin iştirakı ilə yerinə yetirilir və işin yerinə yetirilməsi prosesində tələbənin aşağıdakı qabiliyyətləri müəyyən edilir:

− müstəqil elmi araşdırma;
− nəzəri və praktik materialın təhlili və ümumiləşdirilməsi.

Kafedralar tərəfindən təsdiq olunmuş mövzular tələbələr tərəfindən sərbəst seçilir. Tələbə əsaslandırdığı halda işin mövzusunu özü də təklif edə bilər. Kurs layihəsinin (işinin) və referatların müdafiəsi müvafiq kafedralar tərəfindən müəyyən edilmiş müddətlərdə tələbələrin iştirakı ilə təşkil olunur. Müdafiə zamanı tələbə müdafiə mövzusunun əsas məsələlərini, istifadə etdiyi mənbələr haqqında biliyini, nəzəri müddəaları təcrübə ilə əlaqələndirmək, konkret faktiki materialı təhlil etmək, nəticə və təklifləri formalaşdırmaq qabiliyyətini nümayiş etdirir. Tələbələr tərəfindən təqdim edilmiş kurs işlərinin qiymətləndirilməsi iki hissədən ibarətdir. Birinci (0-50) bal kurs işinin hazırlanma keyfiyyətinə görə, ikinci (0-50) bal kurs işinin müdafiəsinə görə qiymətləndirilir.

***3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti***

ATMU-da buraxılış işi və magistrlik dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili Azərbaycan Respublikasının təhsil nazirinin 1997-ci il 27 yanvar tarixli 54 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində Dövlət Attestasiyası haqqında Əsasnamə" və Azərbaycan Respublikasının təhsil nazirinin 1998-ci il 20 aprel tarixli 202 nömrəli əmri ilə təsdiq edilmiş "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydası haqqında Əsasnamə" ilə tənzimlənir.

ATMU-da Bakalavr pilləsi üzrə kadr hazırlığı aparılan Təhsil planlarına əsasən buraxılış işi ilə yekunlaşan ixtisaslar və magistratura pilləsində ixtisaslaşmalar üzrə (MBA proqramı üzrə "biznes və idarəetmə" qrupuna aid ixtisaslaşmalara da müvafiq şərait yaradılır) təyin olunmuş buraxılış işi və dissertasiya mövzuları kafedra iclaslarında müzakirə olunaraq Fakültə şuralarında təsdiq olunur və mövzu, rəhbər əmrlərinin hazırlanması üçün rektora təqdimat ünvanlanır. Müvafiq mövzular seçilərkən müasirlik, aktuallıq, tədqiqata yönümlülük nəzərə alınmaqla təkrara yol verilmir. Magistrlik dissertasiyalarını müdafiə edən tələbələrin "magistr" elmi-ixtisas dərəcəsini almağını nəzərə alaraq onların təqdim etdikləri işlər plagiatdan keçirildikdən sonra yekun müdafiəyə buraxılır. Bakalavr diplom işinin müdafiəsi üçün hər təqvim ili üçün Yekun Dövlət Attestasiya Komissiyası, magistrlik dissertasiyasının müdafiəsi üçün isə İxtisaslaşdırılmış Şuralar təşkil edilərək rektorun əmri ilə təsdiq edilir.

Məlum olduğu kimi Buraxılış işi və magistrlik dissertasiyası iddiaçının müstəqil elmi və pedaqoji işə hazırlığını nümayiş etdirən, elmi rəhbərin göstəriş və tövsiyələri əsasında işlənmiş elmi-tədqiqat işidir. İxtisas kafedralarında elmi-tədqiqat işi ilə məşğul olan professor-müəllim heyəti tərəfindən buraxılış işi və dissertasiya mövzuları hazırlanır, müvafiq kafedralarda müzakirə olunur və fakültə Elmi Şurasının qərarı ilə təsdiq olunur.

***3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti***

ATMU-da imtahan prosesinin təşkili Təhsildə qiymətləndirmə şöbəsinin koordinasiyası ilə həyata keçirilir. Təhsildə qiymətləndirmə şöbəsi (TQŞ) ATMU Elmi Şurasının 15 fevral 2022-ci il tarixli iclasında təsdiq olunmuş əsasnaməsinə (https://atmu.edu.az/az/tehsilde-qiymetlendirme-shobesi-esasname) uyğun olaraq ATMU-da imtahan sessiyası təşkilinin ümumi koordinasiyasını həyata keçirir. ATMU-da imtahan sessiyasından öncə hazırlıq prosesi Universitet Elmi Şurasında

müzakirə edilir və imtahan sessiyasının təşkili ilə bağlı müvafiq strukturlara tapşırıqlar verilir.

Bundan başqa quruldüğu dövrdən etibarən TQŞ ATMU-da qiymətləndirmə prosesinin təşkilinin rəqəmsallaşdırılması istiqamətində elektron imtahan sisteminin qurulması (Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az)), elektron imtahan otaqlarının qurulması, elektron sual bazasının yaradılması, elektron imtahan sistemində müəllim profillərinin yaradılması, elektron imtahan sistemində tələbə profillərinin yaradılması, elektron imtahan sistemi təlimatının hazırlanması kimi bir sıra işləri (TQŞ-nin iş planlarına əsasən) aşağıda qeyd olunan sessiyalar üzrə yerinə yetirmişdir:

- 2021/2022-ci tədris ilinin yaz semestrinin yay imtahan sessiyası,
- 2022/2023-cü tədris ilinin payız semestrinin qış imtahan sessiyası,
- 2022/2023-cü tədris ilinin yaz semestrinin yay imtahan sessiyası

Qeyd edilən dövrdəki imtahan sessiyalarından sonra TQŞ tərəfindən hazırlanan 2021/2022-ci Tədris İlinin Yaz Semestri Yay İmtahan Sessiyasının Yekun hesabatı; 2022/2023-cü Tədris İlinin Payız Semestri Qış İmtahan Sessiyasının Yekun hesabatı; 2022/2023-cü Tədris İlinin Yaz Semestri Yay İmtahan Sessiyasının Yekun hesabatı ATMU Elmi şurasına və rektoruna təqdim olunmuşdur.

İmtahan sessiyalarının yekun hesabatları AR Elm və Təhsil Nazirliyinə, AR Dövlət Turizm Agentliyinə sirkulyar məktub şəklində göndərilir.

### *3.3.19 Yay semestrinin təşkili vəziyyəti*

ATMU-da yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında Qərarının (https://e-qanun.az/framework/27030) 3.4. bəndinə əsasən tənzimlənir.

Yay semestri yaz semestri başa çatdıqdan sonra nəzəri təlimlər, imtahanlar daxil olmaqla 6 həftə ərzində ödənişli əsaslarla təşkil olunur. Bu zaman yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditlərin cəminin 10-dan artıq olmamasına diqqət yetirilir. Yay semestrində iştirak edəcək tələbələr və onlara tədris aparacaq müəllimlər haqqında təqdimat fakültələr tərəfindən hazırlanaraq əmrləşir.

### *3.3.20 Akademik borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*

Hər imtahan sessiyasının sonunda Təhsildə Qiymətləndirmə şöbəsi tərəfindən göndərilən imtahan nəticələri kafedra iclaslarında, Elmi Şurada müzakirə olunur və fakültələr tərəfindən təqdim olunmuş müvafiq göstəricilər əsasında Elm və Təhsil Nazirliyinə, Dövlət Turizm Agentliyinə təqdim olunması üçün hesabat hazırlanır. Bu hesabatlarda kredit borcu olan tələbələrin müvafiq tədris ili üzrə aşağıdakı göstəriciləri öz əksini tapır:

- İmtahanda iştirak edən tələbələrin sayı;
- İmtahanları müvəffəqiyyətlə verən tələbələrin sayı;
- Akademik borcu olanların sayı;
- İmtahanda iştirak etməyənlərin sayı;
- Müvəffəqiyyət göstəriciləri;
- Keyfiyyət göstəriciləri və s.




**ATMU üzrə kredit borcu olan tələbələrin son 5 tədris illəri üzrə dinamikası (nəfər, bakalavriatura)**




**ATMU üzrə kredit borcu olan tələbələrin son 5 tədris illəri üzrə dinamikası (nəfər, magistratura)**

Qeyd edək ki, COVID-19 pandemiyası dövründə tədris və qiymətləndirmə prosesinin online təşkil olunması kredit borcu yaranan tələbələrin sayında ciddi azalmalara səbəb olmuşdur. Pandemiya şərtlərinin yumşaldılmasıyla tədris və qiymətləndirmə prosesinin təşkilində tədricən pandemiyadan əvvəlki formata keçidin olması kredit borcu olan tələbələrin sayında da artımla müşahidə olunmuşdur. Post-pandemiya dövründə kredit borcu olan tələbələrin sayı pandemiyadan əvvəlki dövrə nəzərən artmış, daha sonra isə pandemiyadan əvvəlki dövrün sayına enmişdir.

***3.3.21 Akademik borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası***

Hər tədris ilinin imtahan sessiyasından sonra fənlər üzrə yaranmış akademik borclar barədə kafedra iclaslarında müntəzəm müzakirələr təşkil edilir, fənlər üzrə keyfiyyət və müvəffəqiyyət göstəricilərinin nəticələri kafedra əməkdaşlarının diqqətinə çatdırılır və problemlərin həlli yönündə təkliflər verilərək qərarlar qəbul olunur.

2022-2023-cü tədris ilindən başlayaraq Təhsildə qiymətləndirmə şöbəsi tərəfindən kafedralardan fənlər üzrə kəmiyyət və keyfiyyət göstəriciləri əldə olunaraq bu istiqamətdə ümumi hesabatlar hazırlanmaqdadır. “2022/2023-cü Tədris İlinin Payız Semestri qış İmtahan Sessiyasının Yekun hesabatı: Kafedralar tərəfindən təqdim olunmuş yekun hesabat sənədləri”, “2022/2023-cü Tədris İlinin Yaz Semestri Yay İmtahan Sessiyasının Yekun hesabatı: Kafedralar tərəfindən təqdim olunmuş yekun hesabat sənədləri” əsasında kredit borcu yaranmış fənlərin ümumi həcminin 2022-2023-cü tədris ili üzrə dinamikası aşağıdakı kimi əldə olunmuşdur:




**ATMU-da kafedralar üzrə 2022/2023-cü tədris ilində kredit borcu yaranmış fənlərin dinamikası (ədəd)**

Qrafikdən göründüyü kimi, tələbələrin 2022/2023-cü tədris ilinin payız semestrində 219, yaz semestrində isə 115 fəndən kredit borcu (tədris ili üzrə cəmi 334 fənn) yaranmışdır. Qeyd edək ki, hər imtahan sessiyasının sonunda kafedra iclaslarında kredit borcu yaranmış fənlərlə bağlı müzakirələr aparılır, keyfiyyət və müvəffəqiyyəti aşağı olan fənlərin növbəti tədris illərində göstəricilərinin artırılması məsələləri müzakirə olunur. Bu məqsədlə fənlər üzrə müvəffəqiyyət və keyfiyyət göstəriciləri aşağı olan müəllimlər arasında təlim prosesinin monitorinqi aparılır, ehtiyac olduqda onların təkmilləşdirilməsi istiqamətində təkliflər irəi sürülür.

***3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti.***

ATMU-da bütün strukturlar üzrə aparılan fəaliyyətə dair müvafiq prosedur sənədlər (qayda, təlimat, prosedur və s.) hazırlanmışdır. Hazırlanan sənədlər "Azərbaycan Turizm və Menecment Universitetinin fəaliyyətinin tənzimlənməsinə dair Daxili Qaydalar və Prosedurlar toplusu" şəklində ümumiləşdirilmiş və özündə 45 adlı proseduru birləşdirmişdir. Bununla yanaşı, hazırlanan bütün sənədlərin siyahısı ATMU-nun rəsmi saytında "Universitet-Siyasət sənədləri-Normativ sənədlər" panelində (https://atmu.edu.az/az/normativ-senedler) yerləşdirilmişdir. Eyni zamanda, saytda hər bir struktura aid panelin "Sənədlər" bölməsində həmin struktura aid sənədlər "pdf" formatında yerləşdirilmişdir (https://atmu.edu.az/az/keyfiyyet-teminati-shobesi-senedler).

Müvafiq prosedur sənədi daxilində ATMU-da tədris prosesilə bağlı tətbiq edilən normaları əhatə edir.

Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi məqsədilə ATMU-da həm daxili, həm də kənar auditlər təşkil edilir. Hər iki auditin aparılmasında AR Təhsil Qanunvericiliyi, ISO9001:2015, ISO21001:2018, TedQual və ESG:2015 standartlarının tələbləri əsas götürülür. Bu zaman auditlərin gündəliyi, planı hazırlanır, audit iştirakçıları müəyyən edilir, həmçinin auditin nəticəsində üzə çıxan uyğunsuzluqlara müvafiq olaraq tədbirlər planı hazırlanır.

### *3.4 Tədris metodları və üsulları*

***3.4.1. Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnalogiyalardan istifadə vəziyyəti.***

Məlum olduğu kimi, Dövlət başçısının 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilmişdir. Sənəddə qeyd olunur ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlılığı təmin olunmalıdır. Məhz bunun üçün ATMU-da təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə prioritet istiqamət kimi qəbul edilir. Universitet hesab edir ki, interaktiv dərslər ilk növbədə təhsilalanın şəxsiyyətinin formalaşmasına yönəldilir. Müəllim idrak fəaliyyətinin əlaqələndiricisi, tələbələrin məsləhətçisi və köməkçisi kimi çıxış edir. Bu baxımdan hər bir ixtisas üzrə Təhsil proqramlarında ümumi və peşə kompetensiyalarının əldə edilməsi məqsədilə yer alan fənlərin mənimsənilməsi üçün nəzərdə tutulan tədris metod və üsulları fərqləndirilir.

Belə ki, Universitetdə tədris olunan kurslar üzrə həm fənlərin məzmununa, həm də təhsil səviyyələrinə uyğun müxtəlif tədris metodlarından istifadə edilir. Belə ki, təhsil prosesində nəzəriyyə və praktik təlim arasında tarazlıq gözlənilməklə bakalavr səviyyəsində daha çox nəzəri biliklərin möhkəmlənməsinə yönəlmiş metodlar (mühazirə, seminar, laboratoriya, kurs işi, praktik tapşırıqlar, rol oyunları və s.) üstünlük təşkil etsə də, magistratura səviyyəsində daha çox elmi tədqiqata yönəlmiş (təqdimat, müzakirə, debat, layihələr, case tapşırıqlar, simulyasiyalar, referat və s.) doktorantura səviyyəsində isə elmi-tədqiqatla yanaşı, sərbəst araşdırmanı təşviq etdirən metodlara (müstəqil iş, problemə əsaslanan tapşırıqlar, hesabatlar, elmi araşdırmalar, məqalə hazırlanması və s.) üstünlük verilir. Bütün qeyd olunan metod və üsullar müxtəlif təhsil səviyyələrində təhsilalanlar arasında ömürboyu təlim konsepsiyasının inkişafına hesablanmışdır.

Fənnlərin tədrisində klassik mühazirə və prezentasiyalarla yanaşı mövzu ilə əlaqəli TedEd (Educational-Təhsil) videolarının təqdimatı, debatlar, beynəlxalq sənədlərin məzmununun təhlili, diplomatik protokol və yazışma ilə bağlı konkret keyzlərin öyrənilməsi kimi, Tərcümə materiallarının təhlili, müqayisəsi, müzakirəsi, Konfrans və çıxışların video materiallarından istifadə əsasında müzakirə və s. metodlardan istifadə olunur.

Universitetin "Turizm işinin təşkili" ixtisası üçün "Resurs mərkəzi" auditoriyasında internet və komputerlə təminat, müasir tələblərə cavab verən elektron lövhə, bunlarla yanaşı, otelçilik

ixtisasında təhsil alan tələbələrə dərslərin daha interaktiv tədris olunması üçün resurs mərkəzində otelin qəbul və qeydiyyat xidmətinin işçi masasına bənzər avadanlığın quraşdırılması, içkilər üçün barın quraşdırılması və barda istifadə olunan avadanlıqların əyani təsviri tələbələrin daha dərindən mənimsəməsinə şərait yaradır.

Mənimsənilməsində müxtəlif proqram təminatına ehtiyac duyulan fənlər digər qurumlarla müqavilələr əsasında birbaşa sənaye müəssisələrində tədris olunur (Qida mühəndisliyi ilə bağlı fənlər, Bronlaşdırma sistemləri, Otellərdə qəbul və xidmət və s.).

***3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti***

"Tələbəyönümlü" və ya "Tələbəmərkəzli" təhsil dedikdə təhsilalanın fərdi bacarığı nəzərə alınmaqla "öyrətməkdən" imtina və "öyrənməyə" keçid kimi başa düşülür. Başqa sözlə "Tələbəmərkəzli" öyrənmə tələbələrə əmək bazarında rəqabətə davamlı, aktiv və məsuliyyətli vətəndaşlar kimi yetişmə fürsətini verir. Müasir təhsil prosesinin məqsədi müəllimdən bilik və bacarıqların tələbəyə köçürülməsi deyildir. Tələbələrin özünüidarəetmə qabiliyyətini inkişaf etdirmək, analitik təhlil, sərbəst düşünmə, nəzəri bilikləri praktiki yollarla dərinləşdirmək, qazandığı bilik və bacarıqları gələcək peşə fəaliyyətlərində tətbiq vərdişlərinin aşılanması ATMU-nun əsas məqsədlərindəndir.

Tədris metodlarında tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları tətbiq edilir. "Düşün, düşüncəni yoldaşınla, sonra qrupla bölüş" prinsipi əsas götürülərək dərsdə iştirak edən tələbələr bütövlükdə müzakirələrə cəlb olunur (qrup halında, komanda halında və s.) – hər bir tələbə müzakirələrdə iştirak edir. Tələbənin aktivliyini təmin etmək üçün müəllimlər müxtəlif üsullara üstünlük verirlər.

Fənnlərin tədrisində və qiymətləndirilməsində, xüsusi olaraq magistratura səviyyəsində, problem suallar və keys araşdırmaların artırılması ilə əlaqədar iş aparılır. Dillərin öyrədilməsində tələbələrin yiyələnməli olduğu danışıq, dinləmə, oxu və yazı bacarıqlarının inkişaf etdirilməsi, xüsusən tələbənin şifahi nitqinin təkmilləşməsinə xüsusi vaxt ayrılır. Tədris prosesi zamanı nəzəri biliklərin verilməsi ilə yanaşı tələbələrin praktiki biliklərə malik olmalarına da xüsusi diqqət ayrılır. Bunun üçün praktiki dərslər müəssisələrdə, elmi-tədqiqat institutlarında, laboratoriyalarda tədris olunur. Bu zaman tələbələri maraqlandıran suallar ətraflı müzakirə olunur. Həmçinin müəssisələrdə yüksək səriştəyə malik təcrübəli işçilər tərəfindən tələbələrə əlavə məlumatlar verilir.

***3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti***

Universitetdə ixtisaslar üzrə bütün təhsil formalarında innovativ, interaktiv və tələbəyönümlü metodlardan istifadə olunur. Keçilən fənlərin təlim nəticələrinə bağlı olaraq müəllimlər tərəfindən bloom taksanomiyasına uyğun şəkildə tədris proqramı tərtib edilir. ATMU-da Blum taksonomiyasına dair akademik heyətə təlim keçirilmiş, onun tətbiqinə dair təlimatın rəsmi sayt vasitəsilə əlçatanlığı təmin edilmişdir (https://atmu.edu.az/upload/files/2023/11/21//-66fae5b0170055322317597780710931230.pdf).

Fənn üzrə tərtib olunmuş sillabuslarda müəllimin təhsil pillələri üzrə hansı metodlardan istifadə olunması qeyd olunur. Həm bakalavr, həm də magistratura pilləsində müxtəlif tədris metodlarından istifadə edərək mövzuların mühazirə, təqdimat, müzakirə və s.formada tələbələrə çatdırılmasını həyata keçirir. Bununla yanaşı fənlərin spesifikliyi nəzərə alınır. Məsələn, Qida mühəndisliyi ixtisasında təhsil alan tələbələr ilə tədris prosesi zamanı hər hansı qida məhsulunun orqanoleptik xassələrinin təyini və keyfiyyətinin qiymətləndirilməsi aparılır. Otelçilik ixtisasında təhsil alan tələbələrin Badamdar Estates Hotel Baku, Excelsior Hotel və New Baku Hoteldə tədris prosesinin həyata keçirilməsi və otelin müxtəlif şöbələrinin iş prinsipi ilə tanış olaraq, bəzi işlərin praktik olaraq yerinə yetirilməsi təmin edilir. Həmçinin, işgüzar oyunlar formasında dərsin aparılması və bu formada keçirilən dərslərdə digər müəllimlərin (prorektor, digər kafedra müəllimləri, kafedranın professor-müəllim heyəti) bu dərslərdə iştirakının təmin edilməsi həyata keçirilir.

***3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti***

Məlumdur ki, daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmaları tədris metodlarının tətbiq edilməsi müəyyən bir məqsədə nail olmağa yardım

edir: Tələbələri öyrənmə prosesinə daha aktiv qoşulmağa və öyrənməni daha maraqlı, effektiv və yaddaşda qalan edəcək şəkildə təşkil etmək. ATMU-da ixtisasdan asılı olaraq aktiv öyrənməni təşviq etmək üçün mövzu ilə əlaqəli Ted Ed (Educational-Təhsil) videolarının təqdimatı, debatlar, beynəlxalq sənədlərin məzmununun təhlili, diplomatik protokol və yazışma ilə bağlı konkret keyslərin öyrənilməsi tələbələrin maraq dairəsini genişləndirir və onların dərsə olan həvəsini artırır.

Həmçinin mühazirə materialından başqa əlavə məlumatların verilməsi tələbələrin dərindən öyrənməsinə kömək olur. Əlavə məlumatların öyrənilməsi zamanı tələbələrdə mövzu haqqında suallar ortaya çıxır. Bu da tələbələrin mövzu ilə bağlı maraqlarını artırmış olur. Tədris prosesi zamanı müəllimlər müxtəlif motivasiya üsullarından istifadə edirlər. Hər hansı situasiyanın keys üzərindən təhlil edilməsi zamanı tələbələrin biliklərinin qiymətləndirilməsi və onların təhsil aldıqları ixtisasın gələcək perspektivləri və əmək bazarında mövqelərinin izah olunması və s kimi üsullarla tələbələr motivasiya edilir. Həmçinin sənaye nümayəndələri ilə tələbələrin görüşünün təşkili, İstehsalat təcrübəsi zamanı yüksək nəticə göstərmiş tələbələrin müəssiələr tərəfindən işlə təmin olunması, onların motivasiya olunmasına səbəb olur. Digər tərəfdən müasir tədris prosesində ən yaxşı vasitələrdən olan multimedia texnologiyaları dərindən öyrənmə, maraqlanma və motivasiyaya səbəb olur. Müxtəlif media faylları - şəkillər, mətn, audio və video fayllarını birgə nümayiş etdirməyə imkan verən müasir informasiya texnologiyalarının (kompüter, proyektor, monitor ekranları və s.) köməyi ilə tədris prosesi təşkil olunur. Bu da mövzunu daha ətraflı açmağa, zəruri obyektləri, prosesləri və ya hadisələri aydın şəkildə təsvir etməyə imkan verir. İşgüzar oyunlar (simulyasiyalar), qrup işləri tələbələrdə tapşırıqların hazırlanması zamanı komandada işləyərək öhdəlik götürmə səriştələrinin formalaşmasına imkan verir və s.

### *3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti*

Tələbələrin fərdi xüsusiyyətlərini nəzərə alaraq tədris prosesində metod və üsulların istifadə olunması zəruridir. Diqqət əksikliyi, nitq qüsurları, hiperaktivlik və digər problemi və məhdudiyyəti olan tələbələrə qarşı fərdi yanaşmaların istifadəsi, o cümlədən, onlar üçün müəllimlər tərəfindən fərdi məsləhətlərin aparılması nəzərdə tutulur. Həmçinin, hər hansı tələbənin mənimsəməklə bağlı tibbi-psixoloji problemi hiss olunarsa, bununla bağlı həmin tələbə Universitetin psixoloquna yönləndirilir, psixoloqun müvafiq rəyi əsasında fərdi tədris metodu müəyyənləşdirilir. Qrupun bilik səviyyəsi və bacarıqları əsas götürülərək tədris materiallarının ağırlıq dərəcəsi və fənnin mənimsədilmə metodlarına əsasən formalaşır.

Ehtiyac yarandıqda müəllimlər belə tələbələrə fərdi qaydada vaxt ayırmaqla və eləcə də dekanlığı məlumatlandırmaqla problemlərin həll edilməsinə çalışırlar.

Hər bir müəllim tərəfindən tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi keçilən mövzuların elmi-praktiki xüsusiyyətlərinə uyğun olaraq seçilir və kafedralar tərəfindən mütəmadi yoxlanılır və nəzarətdə saxlanılır.

ATMU-da “Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı” hazırlanmış və Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmişdir:
https://atmu.edu.az/upload/files/2023/11/15//-d005ce7a170005441438662072710086358.pdf

ATMU rektorunun 30 may 2023-cü il tarixində ATMU-da “Xüsusi ehtiyacı olan təhsilalanların işləri üzrə imtahanın təşkili ilə əlaqədar komissiyanın yaradılması” haqqında 120 saylı əmri verilmişdir.

### *3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti*

ATMU-da müasir təlim texnologiyalarından məqsədyönlü istifadə, fəal/interaktiv metodların düzgün seçilməsi və tətbiqi fənlərin tədrisində mühüm tələb kimi qarşıya qoyulur. Müasir əmək bazarının tələblərinə uyğun olaraq fənlərin tədrisinin forma və metodlarının dərk edilməsində müəyyən düzəlişlər edilir.

Tədrisin metod və vasitələrində müasir informasiya texnologiyaları xüsusi yer tutur. Kompüter və internet texnologiyalarının təsirinin ən nəzərə çarpan təzahürlərindən biri də tədris prosesində interaktiv metodlardan istifadə edilməsi olmuşdur. Kafedralar aktiv və interaktiv təlimlərin təşkilinə və keçirilməsinə nəzarəti artırmaqla tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsini təmin edirlər.

Kafedralarda tədris olunan fənnlər üzrə elektron materiallar bazasının formalaşdırılması,

habelə uiversitetin kitabxana resurslarının rəqəmsallaşdırılması elmi ədəbiyyatla iş prosesini asanlıq və əlçatanlıq baxımdan effektiv edir." Tərcümə" ixtisasında dinləməni inkişaf etdirməyi təşviq etmək üçün maqnitofonlardan istifadə edilir, şifahi nitqi inkişaf etdirmək üçün videoresurslar tövsiyə olunur, Conversation Club təşkil olunur, fənlər üzrə tədris materialları elektron toplanıb sistemləşdirilir, tələbələr üçün əlçatan olması məqsədilə kafedrada və kitabxanada kompüterdə yerləşdirilir. Həmçinin, Universitetin bütün auditoriyaları proyektorlarla təmin olunmuşdur, 2 ədəd interaktiv lövhə mövcuddur.

Həmçinin, pandemiya dövründə də tədrisin fasiləsizliyinin təmin edilməsi məqsədilə akademik heyət üçün onlayn dərslərin keçirilməsi zamanı TEAMS proqramından istifadə haqqında video təlimat keçirilmişdir.

***3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti***

ATMU-da Klassik müəllimyönümlü mühazirələrdən daha çox interaktiv tələbəyönümlü üsulların istifadəsi məsələləri kafedra və fakültələrin Tədris-Metodik Şurasında müzakirə olunur. Eyni zamanda Tədris prosesində innovativ və müasir üsulların tətbiq olunması ilə bağlı mütəmadi olaraq tədris prosesinə cəlb olunan akademik heyət üzvləri tərəfindən elmi-metodiki seminarlar təşkil olunur. Müəllimlər mütəmadi olaraq təhsil prosesində yeni üsul və texnologiyaların tətbiq olunması ilə bağlı yerli və beynəlxalq təlimlərdə iştirak edir.

Eyni zamanda interaktiv öyrənməni təmin etmək məqsədi ilə kafedra müəllimlərinin və əmək bazarından dəvət olunan (ixtisas və ixtisaslaşmaya uyğun) şəxslərin təşəbbüsü ilə tələbələr üçün ənənəvi və onlayn qaydada seminarlar və təlimlər təşkil olunur. Onlayn qaydada olan seminarlar teams platforması üzrərindən keçirilərək qeydiyyatı aparılır.

***3.4.8 Tədris metod və üsullarının dövrü monitorinqi və preventiv tədbirlərin sistematik qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti***

ATMU-da Tədris metod və üsullarının monitorinqi hər semestrdə təşkil olunan kafedra müəllimlərinin açıq dərsləri və fakültənin Tədris-Metodik Şurasının iclaslarında müzakirələr vasitəsi ilə aparılır.

Hər semestr üçün kafedralarda açıq dərslərin qrafiki müəyyən edilir, açıq dərslərdə kafedra əməkdaşları ilə yanaşı fakültə Tədris-Metodik Şurasının üzvlərinin iştirakı təşkil edilir və qiymətləndirilmə aparılır.

Həmçinin professor-müəllim heyəti tərəfindən fənn proqramları, dərslik və dərs vəsaitləri, eləcə də mühazirə materiallarının tərtib olunması və qiymətləndirilməsi "Təhsil proqramlarının tərtibi, təsdiqi və tədris-metodik təminatı haqqında" Qaydaların V-X müddəalarının tələblərinə uyğun olaraq hazırlanır və yoxlanılır: https://atmu.edu.az/upload/files/2023/05/03//-71b9e42f1683100860433227394104052 86.pdf.

Cari tədris ilindən etibarən eləcə də "Təlim prosesinin monitorinqinin təşkili qaydaları"na müvafiq olaraq tədris prosesinin monitorinqi aparılır: https://atmu.edu.az/upload/files/2023/11/21//-fa60438a17005540618699797941062 7162.pdf.

Hər semestrin sonunda ATMU-da "Rəy sorğularının təşkili" proseduruna uyğun olaraq tələbələrin tədris olunan fənnin metoduna dair rəyləri öyrənilir: https://atmu.edu.az/upload/files/2023/03/30//-83ddfbd116801780737245534851025 4203.pdf.

***3.5 Təlim və tədris resursları***

***3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti***

ATMU-da tədrisin elektron idarəetmə sistemi kimi EDUMAN platformasından istifadə edilir. EDUMAN platformasıda "Ultra Technologies" MMC ilə bağlanan müqaviləyə əsasən proqram təminatı və texniki dəstək xidməti dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, soraqça, hesabat, müəllim kabineti və tələbə kabineti işləri üzrə həyata keçirilir. Müvafiq datalar hazırlandıqdan sonra müntəzəm olaraq "tədrisin elektron idarəedilməsi" bölməsi tərəfindən məlumatların yenilənməsi həyata keçirilir.

Təlim prosesinin rəqəmsallaşmasında isə Microsoft TEAMS, Zoom, Moodle platformalarından istifadə olunur.

ATMU-dakı qiymətləndirmə prosesinin təşkilində informasiya kommunikasiya

texnologiyalarının nailiyyətlərindən istifadə edərək elektron imtahan sisteminin qurulması (Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az)), elektron imtahan otaqlarının qurulması, elektron sual bazasının yaradılması, elektron imtahan sistemində müəllim profillərinin yaradılması, elektron imtahan sistemində tələbə profillərinin yaradılması, elektron imtahan sistemi təlimatının hazırlanması kimi bir sıra işlər yerinə yetirilmişdir.

Pandemiya dövründə də tədrisin fasiləsizliyinin təmin edilməsi məqsədilə akademik heyət üçün onlayn dərslərin keçirilməsi zamanı TEAMS proqramından istifadə haqqında video təlimat keçirilmişdir.

Tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlar-slide-show, video dərslər müəllimlər tərəfindən fənn təlim proqramına uyğunlaşdırılaraq tətbiq olunur. Rəqəmsal və texniki xidmətlərin təhsil proqramlarına uyğunluğunun yoxlanılması və ya təmin edilməsi, müəllimlər arasında fənnə aid ehtiyacların müəyyənləşdirilməsi üçün kafedralarda sorğu aparılır, həmin sorğunun təhlili nəticəsində ehtiyac duyulan avadanlıqlar üçün müraciət edilir.

Hazırda elektron tədrisin təkmilləşdirilməsi və bir sıra modulların yenilənməsilə bağlı müzakirələr aparılır.

### *3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti*

ATMU-da tədris prosesinin təşkili üçün 43 otağın hamısı proyektor və internetlə təmin olunub, 2 otaqda ağıllı löhvə mövcuddur. Həmçinin, proyektorlara çıxışı və dərs prosesinin səmərəliliyini təşkil etmək üçün hər kafedra və dekanlıqlarda müəllim-professor heyəti üçün ayrılmış notbuklar və digər avadanlıqlar mövcuddur.

Həmçinin, tələbələrin, eləcə də bütün heyətin istifadəsi üçün "WIFI-zone" yaradılmışdır.

### *3.5.3.Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti*

EDUMAN platformasıda "Ultra Technologies" MMC ilə bağlanan müqaviləyə əsasən proqram təminatı və texniki dəstək xidməti dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, soraqça, hesabat, müəllim kabineti və tələbə kabineti işləri üzrə həyata keçirilir.

### *3.5.4.Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu*

ATMU – da umumi 43 otağın hamısı proyektor və internetlə təmin olunub, 2 otaqda ağıllı löhvə mövcuddur.Tədris prosesində akademik heyətin istifadəsinə verilən texniki avadanlıq sayı aşağdakı kimidir.

- Dillər kafedrası: 10 noutbuk və 8 cd player;
- Menecment kafedrası: 7 noutbuk;
- İqtisadiyyat kafedrası: 4 noutbuk;
- Turizm biznesi kafedrası: 4 noutbuk;
- Mehmanxana və restoran biznesi kafedrası: 4 noutbuk;
- Sosial Menecment Fakultəsi: 5 noutbuk;
- İctimai fənlər kafedrası: 2 noutbuk;
- Beynəlxalq münasibətlər kafedrası: 2 noutbuk;
- Nəqliyyat, İKT və Təbiət elmləri kafedrası: 4 noutbuk.

Bununla yanaşı, elektron materiallar bazasının formalaşdırılması və Uiversitetin kitabxana resurslarının rəqəmsallaşdırılması prosesi davam edir. Tələbələr üçün universitetdə internet əlçatanlığı mövcuddur. Auditoriyalarda internet xidmətinin təmin olunması, noutbuklarla təhcizat əsasında rəqəmsal xidmətlərdən tədris prosesində istifadə olunur. Rəqəmsal və texniki xidmətlər, avadanlıqlarla bağlı ehtiyaclar İnformasiya texnologiyaları (İTŞ) şöbəsi tərəfindən sorğu əsasında toplanılır. Kafedra zəruri hesab etdiyi və ya sıradan çıxmış avadanlıqlar, kompüter, noutbuk, maqnitofon, yeni müəllimlər üçün korporativ mail açılması ilə bağlı problemləri İT şöbəsinə müraciət əsasında həll edə bilir.

Tədris prosesində aktiv öyrənməni təşviq edən texnoloji imkanlar-slide-show, video dərslər müəllimlər tərəfindən fənn təlim proqramına uyğunlaşdırılaraq tətbiq olunur. Rəqəmsal və texniki xidmətlərin təhsil proqramlarına uyğunluğunun yoxlanılması və ya təmin edilməsi, müəllimlər arasında fənnə aid ehtiyacların müəyyənləşdirilməsi üçün kafedralarda sorğu aparılır, həmin

sorğunun təhlili nəticəsində ehtiyac duyulan avadanlıqlar üçün müraciət edilir. Həmçinin, kafedralarda müəllimlərin dərs vəsaitinin elektron forması saxlanılır ki, bu da tələbələrin tədris resurslarına daha rahat əlçatanlığını təmin edir. Eyni zamanda, korporativ elektron poçt ünvanlarının açılması müəllimlərlə tələbələr arasında mobilliyin təşkil edilməsinə kömək edir.

***3.5.5.İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti***

ATMU da aktiv istifadə olunan kompüter sayı 250 ədəddir. Onlardan hər birinin internetə çıxışı mövcuddur. Eyni zamanda tələbələrin imtahan verməsi üçün 100 kompüterlik 2 imtahan zalı fəaliyyət göstərir.

***3.5.6. ATMU-nun auditoriya fondunun (kv.m.) onun tələbə sayına uyğunluğu***

ATMU-da təlim-tədris prosesi iki tədris binasında, eləcə də müqavilə ilə sənaye müəssisələrində həyata keçirilir. Əsas (I) tədris korpusu üzrə auditoriya fondunun dərs prosesi üçün ayrılmış ümumi sahəsi 1431.2 $m^2$ olan 36 sinif otaqlarından ibarətdir. İkinci tədris korpusu üzrə auditoriya fondu ümumi sahəsi 623.4 $m^2$ olan 15 sinif otaqlarından ibarətdir (1 tələbəyə düşən sahə - 0,92 kv.m.).

Fiziki mühitin normativlərə uyğunluğunun təhlili nəticəsində müəyyənləşdirilib ki, universitetdə tədris prosesinin təşkili üçün auditoriya fondunun təşkilində təkmilləşdirməyə ehtiyac duyulur. Mövcud problemi aradan qaldırmaq məqsədilə ATMU-da dərslər növbəli (3 növbə) təşkil olunur, praktik və laborator dərslərin bir qismi birbaşa sənaye müəssisələrində aparılır. Belə ki, “PMD hospitality MMC” ilə ATMU-nun müqaviləsinə əsasən, otelçilik sahəsində New Baku Hotel, Excelsior Hotel Baku, Badamdar Hotel and SPA Baku otellərində dərslər keçirilir. Həmçinin, muzeyşünaslıq, qida mühəndisliyi, bələdçilik və digər sahələrdə müəssisələrdə praktiki dərslər keçirilir. Bunlara nümunə olaraq, Herba Flora, Ordubadi quru meyvələr, Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu, Mikrobiologiya İnstitutu ilə əməkdaşlıqları göstərmək olar.

Həmçinin, qiyabi şöbə üzrə təhsilanların tədris günləri əyani şöbə üzrə təhsilanların imtahan sessiyası ərəfəsinə salınmaqla auditoriya fondundan səmərəli istifadə edilir.

***3.5.7.Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası***

ATMU-da akademik və inzibati heyətin fəaliyyətini təmin edən otaq fondu aşağıdakı kimidir:

- Əsas (I) tədris binası üzrə tədris prosesinin təşkili üçün auditoriya fondu ümumi sahəsi 1027 $m^2$ olan 33 işçi otaqlarından ibarətdir. Onlardan 6-ı akademik (kafedra otaqları), 27-i (onlardan biri rektorun kabineti və qəbul otağı, 3-ü prorektorların, 2-i rektor müşavirələrinin, 2-i dekanların kabinetləri, 2-i dekanlıqlar, 13-ü digər şöbələrin, komendant, psixoloq otağı, anbar otağı və s.) isə inzibati heyətin fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Həmçinin əsas tədris binasında konfrans zalı, kitabxana, oxu zalı fəaliyyət göstərir (ştatda olan 1 müəllim üçün 8,4 kv.m) .
- İkinci tədris binası üzrə otaq fondu ümumi sahəsi 175.8 $m^2$ olan 6 işçi otaqlarından ibarətdir. Onlardan 3-ü akademik (kafedralar), 3-ü isə isə inzibati heyətin (tibb məntəqəsi, dekanın kabineti və dekanlıq) fəaliyyətinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur. Həmçinin II tədris binasında akt zalı, arxiv, TGT otağı da fəaliyyət göstərir.

***3.5.8.Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası***

ATMU-nun Kitabxana-İnformasiya Mərkəzindən oxuculara və akademik heyətə edilən ənənəvi və elektron xidmətin statistikası cədvəldə göstərilmişdir:

| İllər | Əsas korpusun kitabxanasında oxuculara xidmət sayı | 2-ci korpusun kitabxanasında oxuculara xidmət sayı | CƏMİ |
|---|---|---|---|
| **2017** | 98 | 71 | 169 |
| **2018** | 118 | 61 | 179 |
| **2019** | 90 | 90 | 180 |
| **2020** | 71 | 44 | 115 |
| **2021** | 178 | 176 | 354 |
| **2022** | 309 | 113 | 422 |
| **2023** | 478 | 138 | 616 |
| **CƏMİ** | **1882** | **693** | **2575** |

Cədvəldən də göründüyü kimi ATMU-da kitabxana xidmətlərinin artım dinamikası son yeddi ildə 169 vahiddən 616 vahidə artmışdır (3,6 dəfə). 2019-2020-ci illərdə xidmət sayının göstəricisinin azalması pandemiya ilə əlaqəlidir. Nəzərə almaq lazımdır ki, bu göstərici 2023-cü ilin sonunda arta bilər.

***3.5.9.ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası***

ATMU-nun Kitabxana-İnformasiya Mərkəzinə daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası aşağıdakı cədvəldə göstərilmişdir:

| İllər | Dərslik | Dərs vəsaiti | Elektron nəşr | CƏMİ |
|---|---|---|---|---|
| **2019** | 28 | 174 | 0 | 202 |
| **2020** | 110 | 155 | 0 | 265 |
| **2021** | 12 | 9 | 0 | 21 |
| **2022** | 22 | 30 | 0 | 52 |
| **2023** | 6 | 2 | 514 | 522 |
| **CƏMİ** | **178** | **370** | **514** | **1062** |

Qeyd edək ki, 2020-ci ilədək olan dövrdə dərslik və dərslik vəsaitlərinin sayı tədris prosesi üçün kifayət olduğundan, növbəti illərdə artım dinamıkası müşahidə edilməmişdir. Buna mütənasib olaraq post pandemiya dövründə elektron nəşrlərə olan ehtiyac səbəbindən elektron nəşrlərin dinamikası artmaqdadır.

***3.5.10.Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası***

ATMU-nun Kitabxana-İnformasiya Mərkəzində olan tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və dinamikası aşağıdakı cədvəldə illər üzrə qeyd edilmişdir:

| İllər | Azərbaycan dilində | Rus dilində | İngilis dilində | Türk dilində | Alman dilində |
|---|---|---|---|---|---|
| **2017** | 404 | 644 | 35 | 0 | 0 |
| **2018** | 560 | 94 | 0 | 16 | 0 |
| **2019** | 81 | 37 | 4 | 0 | 0 |
| **2020** | 20 | 3 | 38 | 0 | 3 |
| **2021** | 296 | 70 | 5 | 0 | 0 |
| **2022** | 64 | 25 | 0 | 0 | 0 |
| **2023** | 46 | 2 | 0 | 0 | 0 |

Cədvəldən də göründüyü kimi, 2019-cu ilədək ənənəvi formada dəirslik və dərs vəsaitinin artım dinamikası ATMU-da müşahidə edilmişdir. Pandemiya dövründə elektron formalı dərsliklərə və dərs vəsaitlərinə tələbat artdığından ənənəvi nəşrin dinamikası azalmış, elektron kitabxananın bazası zənginləşdirilmişdir. Rus və ingilis dilində olan dərslik və dərs vəsaitlərinin dinamikasının azalması isə Universitetdə müvafiq tədris dillərində tələbə qəbulunun sayının azaldılması ilə əlaqədardır.

***3.5.11.ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası***

ATMU-nun Kitabxana İnformasiya Mərkəzi üçün əldə olunan dərsliklərin və elmi ədəbiyyatların alınması üçün həmçinin elmi bazalardan istifadə üçün ayrılan maliyyə vəsaitinin həcmində artım aşağıdakı kimi müşahidə olunmaqdadır:

- *Cədvəlin birinci stununda göründüyü kimi Universitet tərəfindən dərsliklərə və elmi ədəbiyyatlara əvvəlki illərdə ayrılan vəsait nisbətən üstünlük təşkil edir;*
- *Cədvəlin ikinci stununda göründüyü kimi Universitet tərəfindən elmi bazalara ayrılan vəsait 2017-ci ildə 2000 AZN təşkil edirdisə, 2023-cü ildə bu göstərici 2,5 dəfə artaraq 4958 AZN təşkil etmişdir;*
- *Cədvəlin üçüncü stununda göründüyü kimi Universitet tərəfindən dövri mətbuata ayrılan vəsaitdə 2018-ci ildən başlayaraq artım müşahidə olunmaqdadır;*
- *Cədvəlin dördüncü stununda göründüyü kimi Universitet tərəfindən digər məlumat vasitələrinə yeni, anket, oxucu formasına ayrılan vəsait 2018-ci ildə 150 AZN təşkil edir:*

| İllər | Dərsliklərə və elmi ədəbiyyatlara ayrılan vəsait (AZN) | Elmi bazalardan istifadə üçün ayrılan vəsait (AZN) | Dövrü mətbuata ayrılan vəsait (AZN) | Digər məlumat vasitələrinə ayrılan vəsait (AZN) |
|---|---|---|---|---|
| **2017** | - | 2000 | - | - |
| **2018** | - | 3859 | Qəzet və jurnal-567.85<br>Qəzet və jurnal-582.05 | Anket oxucu forması-150 |
| **2019** | Ensiklopediya (çox cildli)-2440 | 2000 | Qəzet və jurnal-810<br>Qəzet və jurnall-893.60 | - |
| **2020** | - | 2175 | Jurnal-792.80<br>Qəzet-1854.60 | - |
| **2021** | 120 | 3859 | Qəzet-1754<br>Qəzet-717.20 | - |
| **2022** | 300 | 4459 | Qəzet-1622<br>Qəzet və jurnal-807.20 | - |
| **2023** | 150 | 4958 | Qəzet və jurnal-1336<br>Qəzet-115.20 | - |

***3.5.12.Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti***

ATMU-da professor-müəllim heyəti tərəfindən fənn proqramları, dərslik və dərs vəsaitləri, eləcə də mühazirə materiallarının tərtib olunması və qiymətləndirilməsi Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurasında təsdiq edilmiş “Təhsil proqramlarının tərtibi, təsdiqi və tədris-metodik təminatı haqqında” Qaydaların V-X müddəalarının tələblərinə uyğun olaraq hazırlanır.

Eyni zamanda bütün auditoriyalarda proyektorlar, kafedralardakı noutbuklar hər yeni dərs ili üçün yoxlanılır, sazlanır, xarab olanlar yenisi ilə əvəz edilir. ATMU-da son ildə 2 elektron imtahan otağı yaradılmış, Kitabxana elektronlaşdırılmışdır.

***3.5.13.Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti***

ATMU-da tədris olunan fənnlər üzrə elektron materiallar bazasının formalaşdırılması, habelə uiversitetin kitabxana resurslarının rəqəmsallaşdırılması elmi ədəbiyyatla iş prosesini asanlıq və əlçatanlıq baxımdan effektiv edir. Təhsilalanlar üçün əlçatan olması məqsədilə dərsliklərin PDF variantları, sillabuslar, tərcümə materialları semestrin əvvəlində tələbələrə korporaiv e-mail vasitəsilə göndərilir. Hər bir müəllim, tələbə və ayrı-ayrılıqda hər bir qrup üçün korporativ e-mail mövcuddur.

Təhsilalanlar üçün əlçatan olması məqsədilə dərsliklərin PDF variantları ATMU kitabxanasında elektron bazada da mövcuddur. ATMU Ümumdünya Turizm Təşkilatının qoşulmuş üzvü olduğundan təşkilatın kitabxana fonduna giriş icazəsi vardır ki, bu da öz növbəsində resurslardan istifadəyə imkan yaradır. Kitabxananın oxu zalında 30 nəfərlik yer, oxucuların rahat işləmələri üçün 17 kompyuter və bir proyektor istifadəçilərin öhdəsinə verilmişdir. Eyni zamanda bütün kafedralar inzibati heyətin istifadəsinə ayrılmışlar istisna olmaqla tədris prosesində istifadə məqsədilə noutbuklarla (8 kafedrada ümumi 42 ədəd) təmin edilmişdir.

Həmçinin bütün tədris auditoriyalarındakı texnoloji və maddi avadanlıqların bütün təhsilalanlara əlçatanlığı təmin edilmiş, tələbələrin sayına müvafiq olaraq uyğunlaşdırılmışdır.

***3.5.14. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti***

ATMU-da xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı hazırlanmış və Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmişdir (http://atmu.edu.az/upload/files/2023/11/15//-d005ce7a17000544143866207271008 6358.pdf).
Müvafiq plana əsasən vaxtaşırı və ya ehtiyac olduqda aşağıdakı tədbirlərin icrası nəzərdə tutulur:

- Tədris və öyrənmə mühitinin təkmilləşdirilməsi;
- Qiymətləndirmənin təşkilində sağlamlıq imkanları məhdud şəxslər üçün əlverişli şərtlərin nəzərə alınması
- Digər infrastruktur uyğunlaşdırmaları (sanitar qovşaq, parklama, telefon, yeməkxana və s.)
- Dəstək və təbliğat xarakterli tədbirlər.

Daha sonra, ATMU rektorunun 30 may 2023-ci il tarixli 120 saylı əmri ilə ATMU-da “Xüsusi ehtiyacı olan təhsilalanların işləri üzrə imtahanın təşkili ilə əlaqədar komissiya” yaradılmışdır.

Komissiyanın fəaliyyətə başladığı dövrdən etibarən təhsilalan və professor-müəllim heyətindən nümayəndələrin sağlamlıq imkanları ilə bağlı müraciətlərinə baxılmış, müvafiq tədbirlər aparılmışdır.

***3.5.15. Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti***

Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi, tələbələrə daha effektiv öyrənmə təcrübəsi təqdim etmək və tədris prosesini daha səmərəli hala gətirmək üçün əhəmiyyətli bir prosesdir. Bu, təhsil sahəsində inkişafın və tələbələrə daha yaxşı imkanların açılmasının əsasını təşkil edir.

ATMU-da Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi məqsədi ilə auditoriyalarda olan proyektorlar və internet xətləri mütəmadi olaraq yoxlanılır, hər hansı problem olarsa aradan qaldırılır. Bununla yanaşı, müəllimlərin tədris zamanı istifadə etdiyi komputerlərin hamısına baxış keçrilərək demək olar ki, hamısının texniki göstəriciləri yeniləri ilə əvəz olunaraq gücləndirilmişdir. Bu istiqamətdə alınmış avadanlıqların illər üzrə siyahısına aiddir:

- 2017-ci ildə 9 ədəd laptop;
- 2019-cu ildə 6 ədəd proyektor;
- 2021-ci ildə 16 ədəd kompüter;
- 2022-ci ildə 7 ədəd noutbuk, 61 ədəd kompüter, 6 ədəd kompüter (monoblok).

Texniki avadanlıqların alınması Dövlət Satınalma qaydalarına əsaslanaraq Xidmət şöbəsi tərəfindən aparılır. Bu zaman Dövlət Satınalmaları haqqında qanuna əsasən ATMU-da yaradalımış “ATMU-da Dövlət Satınalmalarının həyata keçirilməsi” proseduru hazırlanmışdır (http://atmu.edu.az/upload/files/2023/11/01//-38eb982e169881690541519555210368241.pdf).

Həmçinin dərs prosesində istifadə edilən dərslik və dərs vəsaitlərinin, mühazirə mətnlərinin, sillabus və fənn proqramlarının təkmilləşdirilməsi fakültələrin Tədris-metodiki şurasında, kafedra iclaslarında müntəzəm iclaslarda müzakirə olunaraq həyata keçirilir, təsdiqlənmiş prosedurlar vasitəsilə tənzimlənir:
https://atmu.edu.az/upload/files/2023/05/03//-71b9e42f168310086043322739410405286.pdf

***3.5.16. Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu***

ATMU-da təhsilalanların sosial, mədəni və idman fəaliyyətləri ilə bağlı cari tədris ilinin əvvəlində illik iş planı Universitetin Tələbə Gənclər Təşkilatı (TGT) tərəfindən tərtib olunaraq razılaşdırılma məqsədi ilə dekanlığa təqdim olunur. Tədris ilinin sonunda razılaşdırılmış iş planına əsasən görülən işlərin hesabatı TGT sədri tərəfindən dekanlığa təqdim edilir. Tədbirlərin təşkilində resurs kimi THT-nin büdcəsindən istifadə edilir. Təşkilatçılıq işlərində tələbələrlə bərabər inzibati heyət də aktiv iştirak edir.

ATMU-da tələbələrin asudə vaxtlarının səmərəli təşkilində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun və “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin tələbləri (https://e-qanun.az/framework/39622), “Gənclər siyasəti haqqında” AR Qanununu (https://e-qanun.az/framework/1619) rəhbər tutaraq həyata keçirilir.

Sosial mədəni tədbirlərin təşkili tələbələrin mədəni və fiziki inkişafına şərait yaradaraq dərslərə konsentrasiyasını artırır (https://atmu.edu.az/az/telebe-heyati).

***3.5.17. Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti***

14 fevral 2023-cü il tarixində ATMU-da Psixoloji xidmətin göstərilməsinə dair Əsasnamə təsdiq edilmişdir:
https://atmu.edu.az/upload/files/2023/11/01//-0d736389169881726616766381610989002.pdf

Həmin Əsasnaməyə uyğun olaraq 3 aprel 2023-cü il tarixindən psixoloji xidmət göstərəcək əməkdaş işə götürülmüşdür. Həm Əsasnamə, həm də xidmətin göstərilməsi haqqında qaydalar hazırlanaraq universitetinin rəsmi veb-saytında yerləşdirilmişdir:
https://atmu.edu.az/upload/files/2023/11/01//-8da57fac169881684174485224910075286.pdf

Həmçinin bu xidmətin göstərilməsi haqqında məlumat daimi olaraq sosial şəbəkələrdə rəsmi səhifələrimizdə paylanmaqdadır:
https://www.instagram.com/p/Cq2ptTat52Z/

Psixoloqun fəaliyyətə başladığı dövrdən bu günədək müraciət etmiş 35 tələbəyə psixoloji dəstək xidməti (fərdi seans) göstərilmişdir. Bundan başqa mütəmadi olaraq qruplarla görüşlər təşkil edilmişdir.

### 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

#### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.

ATMU-nun Elmi Şurasının qərarı ilə təsdiq edilmiş "Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" əsasnamə Universitetdə imtahanlara hazırlıq, keçirilmə prosesi üçün vahid qaydaları və onların tətbiqini müəyyən edir: https://atmu.edu.az/upload/files/2022/10/18//-94e4451a1666081987872812767106673O8.pdf

Əsasnamə həmçinin, ATMU-da keçirilən aralıq qiymətləndirmə və imtahanlara hazırlıq mərhələsi, imtahan prosesi, appelyasiya qaydaları, eyni zamanda imtahanların keçirilməsinə məsul şəxslərin səlahiyyət və vəzifələrini əhatə edir.

Qeyd olunanlarla yanaşı, 08.07.2022-ci il tarixli ATMU Elmi Şurasında fənlərin qiymətləndirmə formaları ilə bağlı "Tələbə biliyinin qiymətləndirilməsində izlənməsi lazım olan prosedur qaydalar", "Tələbə biliyinin qiymətləndirilməsində izlənməsi lazım olan qaydalar" sənədləri təsdiqlənmişdir:
https://atmu.edu.az/upload/files/2022/10/18/-83dd3f9f166608196499038434310933290.pdf;
https://atmu.edu.az/upload/files/2023/11/13//-2a3d6d6c169986225068845318210642648.pdf.

#### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

ATMU-da fənlər üzrə aralıq və yekun imtahan sualları fənn müəllimi tərəfindən öncədən verilmiş meyarlar əsasında tərtib edilir. Belə ki, qiymətləndirmələrdə qazanılmış bilik və bacarıqların fənnin mənimsəmə nəticələrinə uyğun olaraq ölçülməsinə imkan verən qiymətləndirmə üsullarından istifadəyə üstünlük verilir.

Müxtəlif qiymətləndirmə formalarından istifadə olunsa da əsas olaraq tələbənin balları kredit sisteminin tələblərinə müvafiq olaraq 100 ballıq şkalaya uyğun aparılır və aşağıdakı kimi bölünür və tələbələr üçün qiymətləndirmə meyarlarının əlçatanlığı təmin edilir:
https://atmu.edu.az/upload/files/2023/06/22//-daaaf136168742031039922217210326011.pdf

| İzahı | Bal | Qiymət |
|---|---|---|
| Əla | 91-100 | (A) |
| Çox yaxşı | 81-90 | (B) |
| Yaxşı | 71-80 | (C) |
| Kafi | 61-70 | (D) |
| Qənaətbəxş | 51-60 | (E) |
| Qeyri-kafi | 0-50 | (F) |

"Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" əsasnamədə göstərilən şifahi, təqdimat (layihə), nümunə iş, laboratoriya, nümayiş, tədqiqat formalarında qiymətləndirməsi təşkil olunan fənlər üçün meyarlar müvafiq kafedralar tərəfindən tərtib olunaraq Təhsildə Qiymətləndirmə Şöbəsinə təqdim olunur.

#### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

ATMU-da qiymətləndirmə ixtisaslar üzrə müxtəlif illərdə təsdiq olunmuş Təhsil proqramlarında qeyd olunan tələblərə və ATMU Elmi Şurasının qərarı ilə təsdiq edilmiş "Qiymətləndirmə və imtahan qaydaları haqqında" əsasnamədə göstərilən qaydalara əsasən yazılı, test, şifahi, təqdimat (layihə), nümunə iş, laboratoriya, nümayiş, tədqiqat və qarışıq kimi müxtəlif formalarda, texnoloji (kompüter, proyektor, maqnitafon, CD player və s.) və ənənəvi (imtahan blankları, test blankları və s.) vasitələrdən istifadə edilməklə aparılır.

Belə ki, qiymətləndirmə formaları fənlərin məzmununa, növünə, təhsil pilləsinə uyğun müəllimlər tərəfindən təyin edilir, bəzən qarışıq təşkil olunur. Məsələn, dil fənləri üzrə adətən bir neçə üsuldan (şifahi, yazılı, test, dinləmə, oxuma və s.) istifadə edilir.

Qiymətləndirmənin müxtəlif formalarda aparılması imtahan sessiyalarına dair cədvəllərdə əks etdirilərək tələbələrin diqqətinə çatdırılır. O cümlədən, imtahan sessiyası bitdikdən sonra Elmi Şuraya TQŞ tərəfindən verilən hesabatlarda ATMU-da qiymətləndirmənin müxtəlif formalarından istifadə olunması vəziyyəti ilə bağlı çatışmazlıqlar və təkliflər öz əksini tapır, şura üzvlərinin müzakirəsi ilə növbəti sessiya zamanı preventiv tədbirlər görülür.

***3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti***

ATMU-da tələbə biliyinin qiymətləndirilməsi zamanı AR Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, AR Prezidentinin fərman və sərəncamları, AR Nazirlər Kabinetinin qərar və sərəncamları, AR Elm və Təhsil Nazirliyinin, AR Dövlət Turizm Agentliyinin əmr, təlimat və Kollegiya qərarları, ATMU-nun Nizamnaməsi, digər müvafiq qanunvericilik aktları, təhsil, elm və innovasiyalar, inzibat-iqtisadi və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ hüquqi aktları, "Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatları" (ESG), ATMU-nun Elmi Şurasının qərarları, rektorunun əmr və göstərişləri, TQŞ-nin əsasnaməsi və "Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" əsasnamə əsas tutularaq qiymətləndirmə proseslərinin təşkili həyata keçirilir.

Tələbənin biliyinin ölçülməsində ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün imtahan kağızlarında və e-imtahan sistemində (Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az)) fənn müəllimlərinin yazılan qiyməti əsaslandıraraq qeyd olunmuş açıqlaması yer alır. Bundan başqa ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün imtahan kağızlarında və e-imtahan sistemində cavabların anonimliyinin qorunmasına diqqət edilərək imtahan işləri kodlaşdırılır. İmtahanlar zamanı prosesin təşkili üçün şəffaflığın təmini məqsədilə İmtahan Qərargahı yaradılır və maraqlı tərəflər üçün (valideynlər, KİV nümayəndələri və s.) "Açıq qapı" günləri təşkil edilir (https://atmu.edu.az/az/web/post/737).

Təhsil alanların şikayətlərinin idarə edilməsi məqsədi ilə ATMU-da təsdiq edilmiş "Müraciətlərin idarəedilməsi" proseduruna uyğun olaraq imtahan nəticələrindən narazı qalan tələbələrin müracətlərinə baxılması üçün Apellyasiya Komissiyası yaradılır, hər hansı imtahan nəticəsi barədə komissiyaya müraciət edildikdə, bir qayda olaraq, müvafiq fənni müraciət edən tələbəyə tədris etməyən və imtahan nəticəsinin qiymətləndirilməsində iştirak etməyən, həmin fənn üzrə mütəxəssis hesab olunan digər fənn müəllimi komissiyanın işinə cəlb edilir:
https://atmu.edu.az/upload/files/2023/11/01//-d8211837169881658572608942410545677.pdf

***3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti.***

Hər tədris ilinin başlanğıcında tələbə rəyləri və təhsildə yenilikləri nəzərə alaraq kafedralarda məlumatlandırma tədbirləri təşkil olunur. Universitet müəllimlərinin iştirakını nəzərdə tutan tədbirdə qiymətləndirmə prosesinin daha səmərəli formada təşkili, təhsilalanların sərbəst öyrənmə istəyinin yaradılması və təlim nəticələrinin ölçülməsi keyfiyyətinin yüksəldilməsi məqsədi ilə tərtib olunan layihə, nümunə iş, laboratoriya, nümayiş, tədqiqat kimi yeni qiymətləndirmə formaları haqqında təqdimatlar yer alır.

Tədris ilinin başlanılmasına hazırlıq və qiymətləndirmə prosesinin təkmilləşdirilməsi məqsədilə aidiyyatı struktur bölmələr, akademik heyət üzvləri, o cümlədən bölmə rəhbərləri ilə keçirilən bu görüşdə fənnin təlim nəticələrini diqqətə alaraq uyğun qiymətləndirmə formasının təhsilalana təklif edilməsinin önəmi vurğulanır (http://atmu.edu.az/az/web/post/571).

Təlim nəticələrinin ölçülməsi ilə bağlı vəziyyət, o cümlədən çatışmazlıq və təkliflər Təhsildə Qiymətləndirmə şöbəsi tərəfindən ATMU Elmi şurasına mütəmadi təqdim edilir və imtahan sessiyalarının yekun hesabatlarında öz əksini tapır.

Müəllimlər tərəfindən təqdim edilən tədris materiallarında tələbələr üçün özünü yoxlama sualları təqdim edilir. Bir çox dərslik və dərs vəsaitlərində də belə özünüyoxlama sualları mövcuddur.

Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşmasıyla bağlı vəziyyəti müəyyənləşdirmək məqsədi ilə tələbə sorğuları keçirilir. Hər semestrin sonunda keçirilən "Fənnin qiymətləndirilməsi sorğu"sunda fənn materiallarının fənnin məzmununu tam mənimsəməyə imkan verməsi, əldə edilmiş bilikləri tətbiq etməyi öyrənməyə imkan verməsi, mövcud biliklərin möhkəmləndirilməsinə kömək etməsi vəziyyəti, qiymətləndirmədə tələbələrin müvəffəq olmasına təsir edən səbəblər və s. ilə bağlı suallar yer alır və nəticələr emal edildikdən sonra Elmi Şuraya hesabat verilir.

***3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti***

ATMU-dakı qiymətləndirmə prosesinin təşkilində informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə edərək elektron imtahan sisteminin qurulması

(Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az), elektron imtahan otaqlarının qurulması, elektron sual bazasının yaradılması, elektron imtahan sistemində müəllim profillərinin yaradılması, elektron imtahan sistemində tələbə profillərinin yaradılması, elektron imtahan sistemi təlimatının hazırlanması kimi bir sıra işlər yerinə yetirilmişdir.

***3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti***

ATMU-da xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı hazırlanmış və Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmişdir (http://atmu.edu.az/upload/files/2023/11/15//-d005ce7a1700054414386620727100863 58.pdf). Müvafiq plana qeyd olunan qrupda yer alan tələbələr üçün vaxtaşırı və ya ehtiyac olduqda tədris və öyrənmə mühitinin təkmilləşdirilməsi, xüsusi qiymətləndirmə üsulunun təyin olunması məqsədilə tədbirlərin icrası nəzərdə tutulur.

Həmçinin, ATMU rektorunun 30 may 2023-ci il tarixli 120 saylı əmri ilə ATMU-da "Xüsusi ehtiyacı olan təhsilalanların işləri üzrə imtahanın təşkili ilə əlaqədar komissiya" yaradılmışdır. Komissiyanın fəaliyyətə başladığı dövrdən etibarən təhsilalan və professor-müəllim heyətindən nümayəndələrin sağlamlıq imkanları ilə bağlı müraciətlərinə baxılmış, müvafiq tədbirlər aparılmış, iclas protokollarında öz əksini tapmışdır.

***3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti***

Universitetdə tələbə biliyinin qiymətləndirilməsi ATMU-nun Nizamnaməsi, ATMU-nun Elmi Şurasının qərarları, rektorunun əmr və göstərişləri, TQŞ-nin əsasnaməsi və "Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" əsasnamə əsas tutularaq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında həyata keçirilir.

Bəzi fənlərin spesifikliyi nəzərə alınaraq qiymətləndimənin ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması üçün "Qiymətləndirmə və İmtahan Qaydaları Haqqında" əsasnamədə (-94e4451a1666081987872812767106673 08.pdf (atmu.edu.az)) qeyd olunduğu kimi ATMU-da imtahanlar yazılı, test, şifahi, təqdimat (layihə), nümunə iş, laboratoriya, nümayiş, tədqiqat və qarışıq kimi müxtəlif formalarda keçirilir.
Ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması üçün imtahan kağızlarında və e-imtahan sistemində (Azərbaycan Turizm Və Menecment Universiteti (moodle.az)) cavabların anonimliyinin qorunmasına diqqət edilərək imtahan işləri kodlaşdırılır.

ATMU-da imtahan sessiyalarının gedişini izləmək məqsədilə "Açıq qapı" günləri keçirilir (https://atmu.edu.az/az/web/post/737). Şəffaflığı qorumaq, neqativ hallara imkan verməmək üçün İmtahan Qərargahına daxil olan hər bir şikayətin, imtahanların təşkilində və gedişində baş verən nöqsanların operativ aradan qaldırılması istiqamətində işlər gedir. ATMU-da imtahan qiymətləndirilməsindən narazı qalan tələbələrdən ötrü Apellyasiya Komissiyasının yaradılır və "Qaynar xətt" gün ərzində açıq olaraq fəaliyyət göstərir.

İmtahan sessiyası sonunda ATMU-da qiymətləndirmənin təşkili ilə bağlı vəziyyət Elmi şurada müzakirə olunur, təklif və iradlar dinlənilir (https://atmu.edu.az/az/web/post/667).

***3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)***

ATMU-da buraxılış işlərinin hazırlanması və müdafiəsinin, Yekun Dövlət Attestasiyasının təşkili AR TN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"-yə (https://e-qanun.az/framework/10328), magistr dissertasiyasının hazırlanması AR NK-nın 12.05.2010-cu il tarixli 88 saylı qərarı ilə təsdiq edilmiş "Magistratura təhsilinin məzmunu, təşkili və "magistr" dərəcələrinin verilməsi Qaydaları"-na (https://e-qanun.az/framework/19534) əsasən tənzimlənir. Bakalavr diplom işinin müdafiəsi və Yekun Dövlət Attestasiyasının təşkili üçün hər təqvim ili üçün Yekun Dövlət Attestasiya Komissiyası, magistrlik dissertasiyasının müdafiəsi üçün isə İxtisaslaşdırılmış Şuralar təşkil edilərək rektorun əmri ilə təsdiq edilir. Dövlət attestasiya komissiyasının və İxtisaslaşmış Şuranın işi haqqında hər il ATMU-nun Elmi şurasında hesabat verilir. Bu hesabatlar yekun attestasiya başa çatdıqdan sonra üç ay müddətindən gec olmayaraq Dövlət Turizm Agentliyinə təqdim olunur.

Son beş ildə Bakalavr pilləsində təhsil alan tələbələrin YDA komissiya üzvlərinin və dövlət

imtahan suallarının təsdiq olunması barədə kafedraların iclas protokollarından çıxarışlar, buraxılış işi və magistr dissertasiyalarının müdafiəsinin təşkili barədə kafedraların iclas protokollarından çıxarışlar, qiymət cədvəlləri kafedrada müfaviq qovluqlarda saxlanılır.

***3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti***

ATMU-da Təhsildə Qiymətləndirmə şöbəsi tərəfindən Elmi Şuraya təqdim olunan imtahan sessiyasının yekun hesabatında bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti ilə bağlı məlumatlar yer alır. Həmçinin, bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə proseslərin təkmilləşdirilməsi üçün akademik heyət üzvləri ilə təlim xarakterli görüşlər təşkil olunmuşdur:
https://teams.microsoft.com/l/meetup-join/19%3ameeting_MzRhYTA4ZWQtNmEyMS00MzVkLThiYzgtNGMwM2MwMzUzOGJm%40thread.v2/0?context=%7b%22Tid%22%3a%229e5546e2-3d5f-4e01-b5be-4d28cda5add4%22%2c%22Oid%22%3a%22bb43fa3b-2cb1-4ede-afb0-3bfb057cda50%22%7d
https://teams.microsoft.com/l/meetup-join/19%3ameeting_MGFmNjM3MDItOGIwOS00YmFhLWJlODUtOTcwYzcwYmQ1NTRi%40thread.v2/0?context=%7b%22Tid%22%3a%229e5546e2-3d5f-4e01-b5be-4d28cda5add4%22%2c%22Oid%22%3a%22ab36e28b-7dba-4bb9-8883-91cf2e428035%22%7d




**Şəkil 3.6.1. ATMU-da bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə proseslərin təkmilləşdirilməsi üçün akademik heyət üzvləri üçün təşkil olunmuş təlimdən görüntü nümunələri**

***3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması***

ATMU-da tədrisin təşkili və tələbənin məzun olması üçün keçməli olduğu tədris prosesi “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na və “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyanın aparılması Qaydalrı”na uyğun olaraq təşkil edilir. Proseslə bağlı tələbələr daimi olaraq məlumatlandırılır.

Bununla bağlı ATMU-nun rəsmi səhifəsində qiymətləndirmə proseduru, qiymətləndirmə və imtahan qaydaları haqqında əsasnamə, qiymətləndirmə qaydaları mövcuddur və əlçatandır. Eyni zamanda Tələbə məlumat kitabçasında sadə və başa düşülən formada öz əksini tapmışdır və müvafiq kitabçanın tələbələr üçün əlçatanlığı təmin edilmişdir (http://atmu.edu.az/az/telebe-kitabchasi).

Həmçinin yuxarıda qeyd olunan təhsil Qanunvericiliyinin müddəalarına və Bolonya prinsiplərinə əsasən Universitetdə fəaliyyət göstərən tyutorlar tərəfindən tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatlar və sənədlər tələbələrə təqdim edilir, tələbələrin fərdi tədris planlarının tərtibi üçün onlara məsləhətlər verilir.

***3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu***

ATMU-da təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin (diplom) verilməsi AR NK-nın 29.04.2010-cu il 82 saylı Qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na (https://e-qanun.az/framework/28204) əsasən həyata keçirilir. Belə ki, hər il yekun attestasiya bitdikdən sonra "tələbələrə diplom verilməsi haqqında" əmr hazırlanaraq onların məlumatları AR ETN-nin dts.edu.az bazasına yüklənir. Müvafiq dövlət təhsil sənədləri ETN-dən təmin edildikdən sonra onların qeydiyyatı, saxlanılması və uçotunun aparılması üçün Tədris-metodiki şöbənin dövlət nümunəli sənədlər üzrə əməkdaşı məsul şəxs təyin edilir. Diplom blanklarının alınması və istifadəsi barədə məlumatlar xüsusi qeydiyyat kitablarında aparılır. Diplomlar kalliqrafik xətlə qara tuşla yazılır, diploma əlavələr kompüterdə çap olunur, diplom blanklarının möhür üçün ayrılmış yerində ATMU-nun möhürü vurulur. Diplom və diploma əlavə və ya onların dublikatları sahiblərinə şəxsən təqdim edilir. Diplomun məzuna şəxsən təqdim edilməsi mümkün olmadıqda, diplom məzunun qanuni nümayəndəsinə və ya məzunun adından çıxış edən digər şəxsə müəyyən olunmuş qaydada tərtib olunmuş etibarnamə əsasında verilir və surəti məzunun şəxsi işində saxlanılır.

AR TN-nin 27.01.1997-ci il tarixli 54 saylı əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında Əsasnamə"-nin (https://e-qanun.az/framework/10328) 16-cı bəndinə əsasən isə istiqamət (ixtisas) üzrə fənlərarası buraxılış yekun imtahanından və ya buraxılış işinin müdafiəsindən qeyri-müvəffəq qiymət alan tələbələrə akademik və natamam ali təhsil haqqında arayış verilir.

### 3.7 Professor-müəllim heyəti

***3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti***

ATMU-da akademik heyətin işə qəbulu ilə bağlı meyarları 2019-cu ildə təsdiq edilmişdir. Müvafiq meyarlarına əsasən akademik heyətin işə qəbulu müsahibə əsasında keçirilir. Müəllim ilk dəfə tədris prosesinə cəlb olunduqda kafedra tərəfindən (tələbələr, yaxud kafedranın professor müəllim heyəti üçün) sınaq dərsi təşkil olunur, dərsi uğurlu qiymətləndirilən müəllim saathesabı qaydada fəaliyyətə başlayır. Sənəddə müəllim vəzifəsini tutmaq üçün namizədlərin hansı meyarlara cavab verməsi öz əksini tapır. Belə ki, saathesabı qaydada işləyən müəllim işlədiyi müddətdə özünü doğrultduqda, açıq dərsləri müvəffəqiyyətlə keçdikdə, kafedra tərəfindən verilən tapşırıqları mütəmadi yerinə yetirdikdə və dərsə davamiyyəti qaydada olduqda həmin müəllimin kafedranın elmi-pedaqoji heyətinə ştat vahidi olaraq daxil edilməsi məsələsi müzakirə olunur. ATMU-nun rektoru tərəfindən "Akademik heyətin işə qəbul müsabiqəsi" komissiyasının yaradılması haqqında 106 nömrəli, 8 may 2021-ci il tarixli əmr imzalanmışdır və akademik heyətin işə qəbulu üçün müsabiqələr keçirilmişdir.

ATMU-da işçilərin seçkili vəzifələrə seçilməsi prosesində şəffaflığın təmin edilməsi məqsədilə həmçinin, Seçim Komissiyası formalaşdırılmışdır (108-k nömrəli, 14 iyul 2023-cü il tarixli əmr). Həmçinin qeyd olunan prosedur qaydalar və müsabiqə elanlarının ictimaiyyət üçün əlçatanlığı təmin olunur. Nümunə olaraq Xalq qəzetində dərc olunmuş 2021/2022-ci tədris ilində akademik heyətin işə qəbulu üçün müsabiqənin elanı və ATMU-nun websaytında paylaşılan elan göstərilə bilər (https://atmu.edu.az/az/web/post/332).

***3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti***

ATMU-da "Təlim ehtiyaclarının müəyyənləşdirilməsi meyarları ilə bağlı Təlimat" 2019-cu ildə, "Akademik heyətinin təkmilləşdirilməsi Proseduru" 2022-ci ildə, "Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları" 2023-cü ildə təsdiq edilmişdir:
https://atmu.edu.az/upload/files/2023/10/31//-6010688816987483592874802771O168330.pdf;
http://atmu.edu.az/upload/files/2023/10/31//-9b91d245169874839080362669310119 50.pdf;
http://atmu.edu.az/upload/files/2023/10/31//-9d684c5816987483309125535581O292718.pdf.

Akademik heyətinin təkmilləşdirilməsi Proseduru təlim ehtiyaclarının müəyyənləşdirilməsini, bu ehtiyacların ödənilməsini və kadr potensialının performansının yüksəldilməsini təmin edən əsas faktorları özündə əks etdirir.

Akademik heyətin təlim tələbatlarının ödənilməsi üçün universitet rəhbərliyi tərəfindən ehtiyaclar üzərində fokuslanır, çətinlikləri müəyyənləşdirir, onun yaranma səbəblərini təhlil

edilərək, ümumi qərara gəlinir. Bunun üçün universitet əməkdaşları universitetlərarası təcrübə mübadiləsinə yönləndirilir, performansının monitorinqi aparılır, inkişaf dinamikası izlənilir.

ATMU-nun akademik heyətinin təkmilləşdirilmə proseduru professor-müəllim heyətinin səriştəliyinin artırılmasını, tədrisin keyfiyyətinin yüksəldilməsini və yeni təlim metodlarından istifadə əsasında fəaliyyət göstərməsini təmin edən əsas sənəddir. ATMU-da inzibati heyətin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün "90 dərəcə" metodundan istifadə edilir. ATMU-nun inzibati işçilərinin 2023-cü ilin sonuna-dekabr ayında 90° qiymətləndirilməsi sorğusu keçiriləcəkdir.

***3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti***

Akademik heyətə interaktiv və aktiv tədris metodlarından istifadənin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi məqsədilə ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin illik təlim planı hazırlanmışdır. Planın daxilində universitetin şöbələrinin, fakültə və kafedralarının heyətinin nəzərdə tutulan təlim və təkmilləşdirilmə kurslarının istiqamətləri barədə məlumatlar öz əksini tapır. Həmçinin, Akademik heyət üçün pandemiya dövründə onlayn dərslərin keçirilməsi üçün TEAMS proqramından istifadə haqqında video təlimat, EDUMAN təhsil platformasında istifadə ilə bağlı təlimlər keçirilmişdir. Moderator üçün TƏLİMAT (1).pdf

ATMU-da akademik heyətinin tədris metodları istiqamətində beynəlxalq təcrübədən yararlanması üçün mübadilə proqramları vasitəsilə mobilliyi təmin edilmişdir. Aşağıdakı cədvəldə müxtəlif tədris illəri üzrə ERASMUS+ mübadilə proqramı vasitəsilə müxtəlif Avropa ölkələrində təlimlərdə iştirak edən akademik heyətin dinamikası barədə məlumatlar öz əksini tapmışdır:

| Tədris ili | Təlimdə iştirak edən akademik heyətin sayı | Proqramın adı |
|---|---|---|
| 2017/2018 | 2 | ERASMUS+ |
| 2018/2019 | 8 | ERASMUS+ |
| 2019/2020 | 19 | ERASMUS+ |
| 2020/2021 | 0 (pandemiya dövrü) | - |
| 2021/2022 | 0 (pandemiya dövrü) | - |
| 2022/2023 | 12 | ERASMUS+ |
| 2023/2024 | 2 | ERASMUS+ |

***3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti***

Azərbaycan Turizm və Mencment Universitetinin struktur bölmələri üzrə işçi heyətinin illik təlim planı 03 may 2023-cü il tarixində rektor tərəfindən təsdiq edilmişdir.

ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin 2023-cü il üçün illik təlim planı rektor tərəfindən təsdiq olunmuşdur. Planın daxilində universitetin şöbələrinin, fakültə və kafedralarının heyətinin nəzərdə tutulan təlim və təkmilləşdirilmə kurslarının istiqamətləri barədə məlumat öz əksini tapır. Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və və digər təlim kurslarında iştirakı vəziyyəti aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| Tədris ili | İxtisasartırma və və digər təlim kurslarında iştirak edənlərin sayı |
|---|---|
| 2017/2018 | 1 |
| 2018/2019 | 13 |
| 2019/2020 | 12 |
| 2020/2021 | 2 |
| 2021/2022 | 8 |
| 2022/2023 | 9 |
| 2023/02024 | 32 |
| **CƏMİ** | **77** |

***3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti***

ATMU əməkdaşlarının müxtəlif beynəlxalq peşəkar proqram və təsisatlarda iştirak etməsilə bağlı aşağıdakı nümunələr göstərilə bilər:

"Azərbaycan, Gürcüstan və Tacikistanda beynəlxalq və ixtisaslararası elmi tədqiqat (TEW-CCA)",

“Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması”, “Azərbaycan əhalisinin sosial rifahı və əhval-ruhiyyəsi” layihələri (2018-2019-cu illər), Azərbaycan Sosiologiya Assosiasiyası, ABŞ-ın Harvard Universitetinin Mərkəzi Avrasiya Tədqiqatlar Mərkəzi və Merivud Universitetinin Yaxın Şərqdə Dövlət İdarəçiliyi və Siyasəti Assosiasiyası (AMEPPA), Ümumdünya Sosiologiya Assosiasiyası.

Müəllimlər həmçinin kafedranın ixtisas profillərinə üyğun bir sıra akademik jurnalların redaksiya heyyətindədir: “Central Asia and the Caucasus Journal of Social and Political Studies (Sweden)”, Revista Gênero e Interdisciplinaridade (Journal of Gender and Interdisciplinarity, (Brazil), “La Revista “Universidad y Sociedad (Kuba)”, “Metafizika” beynəlxalq fəlsəfi və fənlərarası araşdırmalar jurnalı (Azərbaycan), Sosiologiya. Sosial psixologiya. Siyasət elmi araşdırmalar jurnalı (Azərbaycan), Workshop 3 and 4 PICASP: Cultural Hertigae in Educational and Business Strategies. Warsaw, 17-21 aprel 2023-cü il, Meaning in Translation: Illusion of Precision. İnternational Conference. Riga Technical University. Riga, 16-19 may,“Training for trainers life beyond tourism” layihəsi, 2017-ci il.

### *3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti*

ATMU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi ilə bağlı “Akademik heyətin qiymətləndirilməsinə dair Təlimat” təsdiq edilmiş edilmişdir.

Qeyd olunan təlimatda açıq dərslərin ATMU-da akademik heyətin qiymətləndirilməsi məqsədilə tətbiq edilən mexanizm olması qeyd olunur. “Açıq dəslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair Qaydalar” (http://atmu.edu.az/az/insan-resurslari-shobesi-senedler) AR Təhsil haqqında Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

Açıq dərslərin əsas məqsədi Universitetdə akademik heyətə müasir tədris metodları və alətlərinin tətbiqi ilə bağlı metodiki yardımın göstərilməsindən, eləcə də akademik heyət arasında təcrübə mübadiləsindən ibarətdir. Qiymətləndirilmə prosesində tədris şöbəsinin müdiri, kafedra müdiri, dekan və ya dekan müavini, təcrübəli pedaqoji heyət üzvləri iştirak edə bilər.

Qiymətləndirmə prosesi 5 ballıq şkala üzrə aparılır.

Bunlarla yanaşı, cari tədris ilindən etibarən “Təlim prosesinin monitorinqinin təşkili qaydaları”na müvafiq olaraq tədris prosesinin monitorinqi aparılır:
https://atmu.edu.az/upload/files/2023/11/21//-fa60438a170055406186997979410627162.pdf.

### *3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti*

ATMU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü AR NK-nın 06.11.1995-ci il 242 nömrəli Qərarı ilə təsdiq edilmiş “Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə”-yə, (https://e-qanun.az/framework/20842 - 7 nömrəli əlavə), “Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə” AR Təhsil nazirinin 24.02.1994-cü il tarixli 113 saylı əmrinə (https://edu.gov.az/upload/file/Ali-ve-orta-ixtisas/elmi-metodik-cedvel.pdf) əsasən tənzimlənir. Professor-müəllim heyətinin tədris işinin həcminin hesablanması üçün Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş vaxt normativi sənəd kimi qəbul edilir. Hər bir müəllim tərəfindən yerinə yetirilən müxtəlif növ işlərin həcmi təhsil alan kontingentin xüsusiyyətindən (tələbələr, doktorantlar, hazırlıq şöbələrinin, ixtisasartırma fakultəsinin, xüsusi fakultələrin dinləyiciləri, xarici tələbələr), onun tədris, elmi və ya metodiki işdə iştirakından asılı olaraq, həmçinin bu və ya digər iş növünün daha səmərəli yerinə yetirilməsində müəllimini fərdi imkanlarını nəzərə almaqla müəyyənləşdirilir. Ştat cədvəli üzrə işləyən professor-müəllim heyətinin tədris yükü Təhsil Qanununa əsasən minimum 500 saat miqdarında planlaşdırılır ki, onun da 60%-i auditoriya (aktiv-mühazirə, seminar, laboratoriya, məsləhət saatları) 40%-i auditoriyadan kənar (passiv-imtahan saatları, rəhbərlik, attestasiya komissiyasında iştirak, təcrübə rəhbəri və s.) saatlarına ayrılır. Könüllü olaraq tədris yükündən 240 saatdan çox olmamaqla əlavə dərs deyən ştatlı və cəlb olunan müəllimlərin əmək haqqı saat hesabı yolu ilə ödənilir.

Hər tədris ilindən öncəki aprel ayında Tədris-metodiki şöbə tərəfindən Universitetdə təsdiq edilmiş “Fənn təhkimi cədvəlləri”-nə (https://atmu.edu.az/az/tedris-metodiki-sobe-senedler-ders-yukleri) əsasən kafedralar üzrə fənlər bölünərək müvafiq fakültələrə təqdim edilir. Fakültələr tərəfindən müvafiq bölgülər yoxlanılaraq müəllimlər arasında bölgünün aparılması üçün müvafiq kafedralara göndərilir. Kafedralar da öz növbəsində iyun ayının sonunadək müvafiq iclaslarda

şəffaf şəkildə akademik heyətin iştirakı ilə yük bölgüsünü həyata keçirir. Bu zaman ilk öncə ştatda olan müəllimlər nəzərə alınır. Ştatda olan akademik heyətin dərs yükü formalaşdıqdan sonra əlavə cəlb olunan heyət arasında da (əvəzçilər, saathesabı müəllimlər) yük bölgüsü aparılır. Hər hansı fənn üzrə müəllim çatışmadıqda həmin fənn vakant olaraq təsdiqlənir və vakansiyaya çıxarılaraq ATMU-nun saytında Elanlar bölməsində əlçatanlığı təmin olunur (https://atmu.edu.az/az/tedris-metodiki-shobe-elanlar).

Müvafiq prosedurun izlənilməsi, monitorinqinin aparılması və meyarların daha anlaşılan olması üçün daxili "Pedaqoji işçilərin dərs yüklərinin müəyyən edilməsi" Qaydaları hazırlanır.

Kafedranın professor-müəllim heyətinə təhkim olunmuş və müvafiq qaydada təsdiqlənmiş dərs yükləri, təhkim olunmuş fənlərin müəllimlərin ixtisas və elmi tədqiqat istiqamətlərinə uyğunluğuna nəzarət, kafedra əməkdaşları arasında elmi dərəcəyə və elmi ada malik olan şəxslərin tədris metodiki və elmi fəaliyyətinə dair müvafiq hesabatları, akademik heyətin dərs yükünün bölünməsi kafedra iclaslarında, Fakültə Elmi Şuralarda və Tədris-metodiki Şura iclaslarında "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il qərarı, həmçinin ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının Məqsəd 2-nin (Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması) prioritetləri əsas tutulmaqla müzakirə edilir və təsdiqlənir.

ATMU-da fərqlənmə ilə bitirən magistr, doktorant, dissertantlar və eyni zamanda xaricdə təhsil almış peşəkar gənclərlə yanaşı, öz məzunlarımınız işə cəlb olunması daim gündəmdədir. Onların sayəsində fakültələrin kadr heyətinin idarəetmə sistemini təkmilləşdirmək, tədrisin keyfiyyətini yüksəltmək, müasirləşdirmək və bütövlükdə Universitetin hərtərəfli inkişafına yönələn tədbirləri davam etdirmək nəzərdə tutulmuşdur.

### *3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)*

ATMU-da Turizm və qonaqpərvərlik, Biznes idarəçiliyi və Sosial menecment fakültələri üzrə professor-müəllim və tələbə heyətinin sayının nisbətini dair göstəricilər aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**ATMU-da fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti**

| Professor-müəllim heyətinin sayı | Tələbə heyətinin sayı | Nisbət |
|---|---|---|
| *Turizm və qonaqpərvərlik fakültəsi* | | |
| **67 nəfər** | **1148 nəfər** | **1/17** |
| *Biznes idarəçiliyi fakültəsi* | | |
| **39 nəfər** | **425 nəfər** | **1/11** |
| *Sosial menecment fakültəsi* | | |
| **60 nəfər** | **656 nəfər** | **1/11** |

### *3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti*

2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə tədris prosesində iştirak edən 0,5 ştat vahidi əvəzçiliklə və əsas heyətdə işləyən professor-müəllim heyətinin ümumi ştatda olanların sayı ilə müqayisəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**ATMU-da 0,5 ştat vahidi əvəzçiliklə və əsas heyətdə işləyən professor-müəllim heyətinin ümumi ştatda olanların sayı ilə müqayisəsi**

| № | Professor-müəllim heyəti | 2017 2018 | | 2018 2019 | | 2019 2020 | | 2020 2021 | | 2021 2022 | | 2022 2023 | | 2023 2024 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % | nəfər | % |
| **1.** | **Ştatda olanların sayı** | 121 | 65 | 110 | 65 | 123 | 64 | 118 | 65 | 111 | 69 | 115 | 72 | 125 | 75 |
| **2.** | **0,5 ştat əv.sayı** | 63 | 35 | 58 | 35 | 69 | 36 | 63 | 35 | 49 | 31 | 45 | 28 | 41 | 25 |
| **3.** | **CƏMİ** | **184** | **100** | **168** | **100** | **192** | **100** | **181** | **100** | **160** | **100** | **160** | **100** | **166** | **100** |

### *3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi*

ATMU-da kafedralar üzrə bəzi fənlərin tədrisinə kənardan professor-müəllim heyətinin cəlb edilməsi hallarına rast gəlinir. Universitetin profilinə uyğun olaraq, kənardan cəlb edilən professor-müəllim heyətinə müxtəlif otellərdən, turizm agentliklərindən, qida sənayesindən, maliyyə

təşkilatlarından, müxtəlif dövlət qurumlarından, assosasiyalardan, AMEA-nın müvafiq İnstitutlarından, hökümət və qeydri-hökümət təşkilatlarından təcrübəli əmək bazarı nümayəndələri aiddir.

Kənardan cəlb edilən professor-müəllim heyətinə əsasən aşağıdakı hallarda ehtiyac duyulur:

- Peşəyönümlü fənlərin tədrisi zamanı sənaye-tədris əlaqəsinin qurulması;
- Elmi rəhbərlik üçün elmi dərəcəlilərin tədrisə cəlb edilməsi;
- Gənc mütəxəssislərin (doktorant, dissertant) tədris prosesinə cəlb edilməsi;
- İşçi tədris proqramında (sillabusda) nəzərdə tutulan dərsin mövzusundan asılı olaraq "Qonaq məruzəçi"lərin cəlb edilməsi;
- İkili diplom proqramı çərçivəsində xarici professor-müəllim heyətinin cəlb edilməsi;
- Akademik mobilliyin təşkili və s.

***3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti***

ATMU-da qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi məqsədilə rektorun 3-46-3/3-1-232/2023 nömrəli, 21 sentyabr 2023-cü il tarixli əmri ilə differensiallaşdırılmış əməkhaqqı üzrə Komissiya təşkil edilmişdir. Müvafiq Komissiya ATMU-da tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sisteminin formalaşdırılması məqsədilə yaradılmışdır. Differensiallaşmış əməkhaqqı üzrə Komissiyanın ilk iclası 16 oktyabr 2023-cü ildə keçirilmiş, mexanizmin tətbiq edilməsi ilə bağlı komissiya üzvləri tərəfindən təkliflərin hazırlanıb təqdim olunması qərara alınmışdır.

***3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti***

ATMU-da hal-hazırda tədrisə cəlb olunmuş, xaricdə təhsil almış və ştatda olan professor-müəllim heyətinin sayı 18, saathesabıların sayı isə 8 nəfərdir. Onlardan 9 nəfəri Türkiyədə Cümhuriyyətində (Dokuz Eylül, Akdeniz, Süleyman Dəmirəl, Qazi, Mehmet Akif Ersoy, İstanbul Universitetləri, Anadolu universiteti), 7 nəfəri Rusiya Federasiyasında (Lomonosov adına Moskva Dövlət, Povoljsk Dövlət Texnologiya, Omsk Dövlət Bədən Tərbiyəsi, Kazan Dövlət Pedaqoji İnstitutu, Rusiya Federasiyası Prezidenti yanında Dövlət Qulluğu və Xalq Təsərrüfatı Akademiyası), 2 nəfər Böyük Britaniyada (Surrey Universiteti, Qlazqo Universiteti), 2 nəfər İtaliyada (Tuscia Universiteti, Roma la Sapienza Elmlər Universiteti), 2 nəfər Ukraynada (Kiev Dövlət Universiteti, Regionlararası Kadrların İdarəedilməsi Akademiyası), 1 nəfər Yunanıstanda (Makedoniyalı İsgəndər adına Texnoloji İnstitutu), 1 Almaniya Federativ Respublikasında (Rhine-Waal Tətbiqi Elmlər Universiteti), 1 nəfər Macarıstanda (Budapeşt Biznes Universiteti), 1 nəfər BƏƏ-də (Middlesex Universiteti) müxtəlif ATM-lərdən həm bakalavriatura, həm də magistratura pilləsi üzrə məzun olmuşdur. Həmçinin ikili diplom çərçivəsində 14 əcnəbi müəllim ATMU-da tədrisə cəlb olunmuşdur.

***3.8 Tələbəyönümlü tədris***

***3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi***

ATMU-da AR NK-nın 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsilmüəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na müvafiq olaraq hər tədris ili üçün ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki əsasında tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planları tələbələrin iştirakı ilə hazırlanır və təsdiq edilir.

Fənlərin prerekvizitliyi gözlənilməklə, tələbənin fərdi tədris planı müəyyən olunmuş forma üzrə akademik məsləhətçinin (tyutor) köməyindən istifadə etməklə onun özü tərəfindən tərtib edilir.

Tələbələr növbəti tədris ili üçün fərdi tədris planlarını tərtib edərkən ilk növbədə əvvəlki tədris ilindən qalmış akademik borcları olan fənləri qeyd edirlər. Birinci tədris ili üçün tələbənin fərdi tədris planını fakültə (tyutor) hazırlayıb tələbələrə təqdim edir. Növbəti tədris ilində isə tələbə öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir.

Tələbənin fərdi tədris planı tələbə tərəfindən imzalandıqdan sonra sentyabrın 15-nə kimi dekan tərəfindən təsdiq edilir, bir nüsxə tələbəyə verilir, bir nüsxə isə fakültədə saxlanılır.

Təhsilalanlar yay semestrinin nəticələrinə və digər səbəblərə görə sentyabrın 10-a kimi fərdi tədris planında düzəlişlər edə bilirlər.

***3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi***

ATMU-da Birinci tədris ili üçün tələbənin fərdi tədris planını fakültə (tyutor) hazırlayıb tələbələrə təqdim edir. Növbəti tədris ilində isə tələbə öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir. Bu zaman ixtisas üzrə onun seçəcəyi seçmə fənlər akademik məsləhətçilərin köməyi ilə qruplar nəzərə alınmaqla razılaşdırılır.

Tədris planlarında ixtisas üzrə təklif olunan dil fənlərin seçimi tədris ilinin əvvəlində tələbələr tərəfindən aparılır və tələbənin fərdi planında qeyd olunur. Bəzi ixtisaslarda xarici dillər üzrə seçim elektron formada həyata keçirilir. Hazırda universitetin resursları seçmə fənnlər üzrə seçim sərbəstliyinin tam təmin edilməsinə imkan vermir. Elektron universitetə keçid başa çatdıqdan sonra ixtisas üzrə digər fənnlərin seçimi elektron formada təmin ediləcəkdir.

***3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsiplərinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi***

Fakültə üzrə akademik məsləhətçilərin bölgüsü ixtisaslar və onların spesifikası nəzərə alınaraq aparılır. Elektron universitetin bütün modullarına keçid tam təmin edildikdən sonra müəllimlərin tələbələr tərəfindən seçimi nəzərdə tutulur. Qeyri-dəqiq və ədalətsiz seçimin olma ehtimalının yüksək olması, sahə üzrə ixtisaslı kadr potensialının çatışmaması, dərs yüklərinin iyun ayında bölünməsi səbəbindən hazırki dövrdə müəllim seçimi tələbələr ilə yalnız razılaşdırma şəklində aparılır və FTP-lərdə qeyd edilir. Lakin hər hansı müəllimlə bağlı tələbələr tərəfindən narazılıqlar qeydə alınarsa onun əvəzlənməsi və seçilməməsi məsələsinə baxılır.

***3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası***

ATMU-da təsdiqlənmiş "Rəy sorğularının təşkili" prosedururuna əsasən (https://atmu.edu.az/upload/files/2023/03/30//-83ddfbd1168017807372455348510254203.pdf) aşağıdakı istiqamətdə sorğular aparılır:

1. **"Fənnin qiymətləndirilməsi sorğusu".**

Sorğu hər semestrın sonunda aparılmaqla, tələbələrin fənn, onu tədris edən müəllimin istifadə etdiyi metod, təhsilin məzmunu və s. haqqında rəylərinin öyrənilməsinə yönəlmişdir.

2. **"İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu".**

Tələbələrin təcrübə müəssisəsində olan təcrübəsindən nə qədər razı olduğunu, təlimlərin keçirildiyini, nəzəri biliklərinin tətbiqi üçün şərait yaradıldığını öyrənmək üçün həyata keçirilir. Bu sorğu 2020/2021, 2021/2022, 2022/2023-cü tədris illərində aparılıb.

3. **İstehsalat təcrübəsi müəssisəsi üzrə işlə təmin olunması sorğusu"**

Bu sorğu əsasında istehalat təcrübəsi sonunda tələbələrin təcrübə keçdiyi müəssisədə işlə təmin olunub olunmadığını, hansı vəzifəyə işçi kimi qəbul olunduğu öyrənə bilirik. Sorğu 2022/2023-cü tədris ilində keçirilib.

4. **"ATMU məzunlarının təhsil səviyyəsindən məmnunluq sorğusu"**

Məzunların məmnunluq sorğulasunda nə kimi təklifləriniz var, iradlarınız, musbət və mənfi tərəflər kimi bolmələr var ki, qarşı məzunlar tərəfindən gələn təkliflərə və iradlara mütəmadi olaraq baxılır, həmçinin bəzi hallarda əlaqə saxlanılaraq maraqlı təklifin detalları və həyata keçirmək üçün birlikdə iş təklif olunur. 2021/2022 və 2022/2023-cü tədris illərində aparılıb.

5. **"Peşəkar inkişaf imkanları haqqında sorğu"**

Peşəkar inkişaf imkanları haqqında sorğuda tələbələrin daha çox hansı sahəyə maraglı olduqları,hansı sahədə gələcək karyeralarını qurmaq istədikləri barədə məlumatlar toplanır və təlimlər üstünlüklə bu sahələrdə təşkil edilir, peşəkar mütəxəssislər dəvət edilərək master-klasslar təşkil edilir, həmçinin tələbələrin ixtisası üzrə müvafiq müəssisələrə ekskursiya təşkil edilərək, orada iş prosesi ilə canlı tanış olmaq, mühiti görmək, kommunikasiya yaratmaq və müəssisə daxilində təlim keçmək şansı yaradılır (Misal olaraq, All about banking layihəsi və 2023-cü ilin oktyabr ayına planlaşdırılan bir neçə layihə) 2021/2022-ci tədris ilindən bəri mütəmadi keçirilir.

Bununla yanaşı Tələbə Gənclər Təşkilatının irəli sürdüyü yeni təkliflərin həyata keçirilməsi işi il ərzində həyata keçirilir.

Sorğuların nəticələri növbəti ildə bu sahədə görülən işlərdə nəzərə alınır, müvafiq tədbirlər

görülür. Buna misal olaraq "İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu"-nun nəticəsinə əsasən müəssisələrin seçim və yenidən qiymətləndirmə cədvəli hazırlanır. Bu cədvəldə sorğuya əsasən müəssisələr arasında təhlil aparılır və təhlilin nəticəsi növbəti tədris ilində müəssisələrin seçimində tətbiq olunur.

**6. ATMU məzunlarının iş fəaliyyəti ilə bağlı sorğu (məzun bazası üçün)**

Sorğunun məqsədi məzunlarımızın əmək bazarındakı mövqelərini, işsiz məzunlarımızı müəyyən etməkdir. Sorğu 2022/2023-cü tədris ilində keçirilib.

**7. ATMU KKŞ - tələbə və məzunları üçün karyera məsləhəti sorğusu**

Bu sorğunun əsas məqsədi KKŞ tərəfindən həyata keçirilən karyera xidmətlərindən yararlanan tələbə və məzunları aşkar etməkdir. Sorğu 2022/2023-2023/2024-cü tədris illər üzrə keçirilib.

***3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası***

ATMU-da tələbə və məzunların təkliflərinin öyrənilməsilə bağlı müxtəlif istiqamətlərdə sorğular keçirilir. Bununla bağlı məzunların məmnunluq sorğusunda – "nə kimi təklifləriniz var", "iradlarınız, müsbət və mənfi tərəflər" kimi bölmələr var ki, məzunlar tərəfindən gələn təkliflərə və iradlara mütəmadi olaraq baxılır, həmçinin bəzi hallarda əlaqə saxlanılaraq maraqlı təklifin detalları və həyata keçirmək üçün birlikdə iş təklif olunur.

"Peşəkar inkişaf imkanları haqqında sorğu"da tələbələrin daha çox hansı sahəyə maraqlı olduqları, hansı sahədə gələcək karyeralarını qurmaq istədikləri barədə məlumatlar toplanır və təlimlər üstünlüklə bu sahələrdə təşkil edilir, peşəkar mütəxəssislər dəvət edilərək master-klasslar həyata keçirilir.

Bununla yanaşı Tələbə Gənclər Təşkilatının irəli sürdüyü yeni təkliflərin həyata keçirilməsi işi il ərzində həyata keçirilir.

Belə ki, tələbə təklifləri nəticəsində onlara ixtisası üzrə müvafiq müəssisələrə ekskursiyası təşkil edilərək, orada iş prosesi ilə canlı tanış olmaq, mühiti görmək, kommunikasiya yaratmaq və müəssisə daxilində təlim keçmək şansı yaradılır (misal olaraq, All about banking layihəsi - https://atmu.edu.az/az/web/post/735).

***3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə prosesində istifadə edilməsi vəziyyəti***

ATMU-da tələbə rəylərinin öyrənilməsi sorğular vasitəsilə aparılır. Bununla əlaqədar ATMU-da kəmiyyət əsaslı metodlardan istifadə etməklə məlumat toplama üsullarının tənzimlənməsi və prosedurunun mərhələli təsviri üçün "Rəy sorğularının təşkili" (https://atmu.edu.az/upload/files/2023/03/30//-83ddfbd11680178073724553485102542 03.pdf) proseduru hazırlanmışdır. Bu istiqamətdə aparılan sorğular aşağıdaklardır:

1. "Fənnin qiymətləndirilməsi" sorğusu - sorğu hər semestrın sonunda aparılmaqla, tələbələrin fənn, onu tədris edən müəllimin istifadə etdiyi metod, təhsilin məzmunu və .s haqqında rəylərinin öyrənilməsinə yönəlmişdir
2. "İctimaiyyətin məlumatlandırılması" sorğusu – məlumatların paylaşıldığı vasitələrin qiymətləndirilməsinə yönəlmiş sorğudur, tələbələrlə yanaşı, digər respondetlər də sorğuda iştirak edir
3. "ATMU məzunlarının təhsil səviyyəsindən məmnunluq sorğusu" - məzunlarımızın əmək bazarındakı mövqelərini müəyyən etmək, işsiz məzunlarımızı müəyyən etməyə yönəldilmişdir
4. "Peşəkar inkişaf imkanları haqqında sorğu" - tələbələrin daha çox hansı sahəyə maragļı olduqları,hansı sahədə gələcək karyeralarını qurmaq istədikləri barədə məlumatların toplanmasına yönəlmişdir
5. "İstehsalat təcrübəsi üzrə tələbələrin məmnunluq sorğusu" - Tələbələrin təcrübə müəssisəsində olan təcrübəsindən nə qədər razı olduğunu, təlimlərin keçirildiyini, nəzəri biliklərinin tətbiqi üçün şərait yaradıldığını öyrənmək üçün həyata keçirilir.
6. "İstehsalat təcrübəsi müəssisəsi üzrə işlə təmin olunması" sorğusu - tələbələrin təcrübə keçdiyi müəssisədə işlə təmin olunub olunmadığını, hansı vəzifəyə işçi kimi qəbul olunduğunun öyrənilməsinə yönəlib.
7. ATMU-da Tələbə və müəllim məmnuniyyəti sorğuları.

Keçirilən sorğuların nəticələri təhlil edilir, təhsilalanların təklif və şikayətləri ATMU Elmi şurasında və ya müvafiq komissiyada dinlənilməklə icrası mümkün olduğu halda qəbuluna dair qərar verilir.

***3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti***

Təhsil alanların şikayətlərinin idarə edilməsi məqsədi ilə ATMU-da "Müraciətlərin idarəedilməsi" proseduru hazırlanmışdır. Maraqlı tərəflər (tələbələr, valideynləri yaxud qanuni nümayəndələri, əməkdaşlar və s.) müraciət etmək hüququnu sərbəst və könüllü həyata keçirirlər. Yazılı müraciətlər şəxsən və ya nümayəndə vasitəsilə təqdim edilir və ya poçt, telefaks, elektron müraciət (həmin müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilir) formasında qəbul edilir. ATMU-da korrupsiya hallarının araşdırılması halları istisna olmaqla müraciətlərə ən geci 15 iş günü, əlavə öyrənilmə və yoxlanılma tələb edən müraciətlərə isə ən geci 30 iş günü müddətində baxılır:
https://atmu.edu.az/upload/files/2023/11/01//-d8211837169881658572608942410545677.pdf

ATMU-da müraciətə baxılması üçün əlavə məlumatların əldə edilməsi və ya aidiyyəti üzrə sorğu göndərilməsi tələb edildikdə, ATMU rektorunun şəxsinin müraciətə baxılması müddətini ən çoxu 30 iş günü uzatmaq hüququ vardır. Bu barədə müraciət edən məlumat verilməlidir. ATMU-da hərbi qulluqçuların və onların ailə üzvlərinin, şəhid ailələrinin müraciətlərinə daxil olduğu gündən etibarən ən geci 15 iş günü ərzində baxılır. Müraciətlərin idarəedilməsi prosedurunda həmçinin, müraciətlərinə baxılmasının əsas prinsipləri, müraciətlərinə dair tələblər, ATMU-ya daxil olmuş yazılı müraciətlərinin qəbulu, qeydiyyatı və onlara baxılması qaydası, müraciətin baxılmamış saxlanılması, müraciətə baxılması müddəti, müraciət edən şəxlərin qəbul edilməsi qaydası, müraciətlərə baxan zaman ATMU-nun və vəzifəli şəxslərinin vəzifələri, ATMU-ya müraciət edən şəxslərin hüquqları, canlı yayımlanan televiziya və radio proqramları və ya telefon müraciət xidməti vasitəsilə edilən şifahi müraciətlərin xüsusiyyətləri, imtahan nəticələrindən narazı qalan tələbələrin müracətlərinə baxılması qaydaları öz əksini tapır. Həmçinin, ATMU-da Apellyasiya Komissiyası fəaliyyət göstərir. İmtahanların nəticələrindən narazılığı olan tələbələr mövcud Komissiyaya müracət edirlər. Komissiyada tələbələrin iştirakı ilə müracətlərə baxılır, müvafiq qərarlar qəbul edilir, qərarlar təsdiqlənir və müvafiq dekanlıqlara təqdim edilir.

***3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutorlar) mövcudluğu vəziyyəti***

ATMU-da hal-hazırda 3 fakültə üzrə tələbələrin sayına müvafiq olaraq 10 tyutor fəaliyyət göstərir. Onların hər biri Azərbaycan Respublikasının Təhsil Qanunvericiliyini və Bolonya prosesinin prinsiplərini dərindən mənimsəmiş, müxtəlif təlimlər vasitəsilə tədris biliklərini daim inkişaf etdirən və peşə kvalifikasiyasına sahib mütəxəssislərdir.

***3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti***

ATMU tərəfindən bütün müəllimlər, tyutorlar və tələbələr üçün fərdi və qrup e-maillər yaradılır. Eyni zamanda müəllimlər tədris etdikləri fənnlər üzrə tərtib etdikləri sillabuslarda e-maillərini və əlaqə nömrələrini qeyd edirlər. Müəllimlər fənn sillabuslarını, mühazirələri, köməkçi materialları və s. bu e-maillər vasitəsilə göndərirlər, EDUMAN platformasında yerləşdirirlər. Dekanlıq nümayəndələri, həmçinin, tyutorlar tələbələrlə mütəmadi olaraq üzbəüz, onlayn (telefon, e-mail) formada əlaqə saxlayırlar.

***3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti***

ATMU-da sosial həssas tələbələrin tədrisə cəlb edilməsi, maarifləndirilməsi və cəmiyyətlə bağlarının möhkəmləndirilməsi işi "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu, digər qanun və sərəncamların tələbləri və Universitetdə Elmi Şuranın 06 saylı protokolu ilə 28 aprel 2023-cü il tarixində təsdiqlənmiş "Xüsusi ehtiyacları olan şəxslər üçün mühitin təkmilləşdirilməsi üçün tədbirlər planı" əsas götürülərək təşkil edilir və daim nəzarətdə saxlanılır. Hazırda ATMU TGT və THT-nin sədri sosial həssas qrupa aid olan tələbədir.

**3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti**

ATMU-da sosial həsas qrupa aid edilən tələbələrin təhsil prosesində digər tələbələrlə yanaşı bütün xidmətlərə əlçatanlığı təmin edilmişdir.

Eyni zamanda sosial həssas qrupa daxil olan tələbələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədilə "Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 nömrəli Qərarına əsasən aşağıdakı şəxslər təhsil haqqlarının ödənilməsindən azad olunur və müvafiq təqaüdlə təmin edilirlər:

- Şəhid ailəsi statusunu almış ailənin üzvləri
- Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş ali təhsil müəssisələrində əyani formada təhsil alan 23 yaşınadək olan şəxslər
- Məcburi köçkün statusu olan Azərbaycan Respublikası vətəndaşları
- I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar
- Ünvanlı dövlət sosial yardımı alanlar
- Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) və ya qanuni nümayəndələri I və II dərəcə əlil olan şəxslər, işsiz kimi qeydiyyatda olanlar, yaşa görə əmək pensiyaçıları və yaşa görə sosial müavinət alanlar.

Həmçinin, müvafiq qrupda olan tələbələr üçün elektron kitabxana və professor-müəllim heyətinin mühazirə mətnləri hesabına tədris resurslarının əlçatanlığı təmin edilir. Bütün tələbələrin komputer avadanlıqlarından istifadəsinə bərabərhüquqlu şərait yaradılır, ATMU-nun Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi hesabına müxtəlif rəsmi və qeyri-rəsmi tədbirlərdə iştirakına dəstək göstərilir. Tələbələrin işlə təmin olunması üçün iş və karyera imkanları araşdırılır, ehtiyac olduqda onlara tövsiyyə məktubu verilərək dəstək olunur. Mütəmadi olaraq tələbələrin, eləcə də məzunların karyera imkanlarına əlçatanlığının təmin edilməsi məqsədilə karyera yarmarkaları təşkil olunur, e-mail ünvanlarına vakansiyalar haqqında məlumatlar göndərilir.

Əlavə olaraq, sosial həssas qrupa aid edilməyən, lakin sosial-iqtisadi vəziyyəti aşağı olan tələbələrin Tələbə Təhsil Kreditinə müraciət etmələri üçün info sessiyalar keçirilərək dəstək verilir.

**3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti**

ATMU-da təqaüdlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli qərarı ilə təsdiq edilmiş "Doktorantura, ali təhsil, orta ixtisas və ilk peşə- ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə təqaüdlərin təyin olunması və ödənilməsi" Qaydalarına uyğun olaraq verilir. Təqaüdlər ayda bir dəfə ödənilir və tələbələrə təqaüdü ixtisas üzrə təhsil proqramı ilə müəyyən edilmiş müddətdə almaq imkanı verilir. İstehsalat təcrübəsi və tətil müddətlərində tələbələrin işləyib-işləməmələrindən asılı olmayaraq, təqaüd alma hüquqları saxlanılır. Digər qurumlar tərəfindən adlı və məqsədli təqaüdlərin verilməsi üçün tələbələrin iştirakı Universitet tərəfindən dəstəklənir.

## 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi

**3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu**

ATMU-da təhsil proqramlarının yenilənməsi və monitorinqi Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"nın təsdiq edilməsi barədə Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30.09.2022-ci il tarixli KQ-05 saylı Qərarına, Universitetin Keyfiyyət təminatı şöbəsinin, həmçinin, tədris strukturlarının Əsasnamələri və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

Belə ki, ATMU-nun 2022-2026-cı illər üçün Strategiya sənədində 3-cü məqsəd olan "Təhsilin məzmununun müasirləşdirilməsi" bölməsində təhsil proqramlarının monitorinqi təkmilləşdirilməsilə bağlı aşağıdakı strategiyalar nəzərdə tutulmuş və ümumi strategiyanın fəaliyyət planında nəzərə alınmışdır:

– Mövcud ixtisaslar üzrə ali təhsil proqramlarının məzmununun beynəlxalq təcrübə və əmək bazarının tələbləri nəzərə alınmaqla müntəzəm qaydada yenilənməsi

– "Gələcəyin səriştələri" kimi bilinən, beynəlxalq əmək bazarında sürətlə aktuallıq qazanan yüksək əqli, texnoloji, sosial və emosional bacarıqların mövcud təhsil proqramlarına inteqrasiya edilməsi

– Təhsil proqramlarının keyfiyyətinin artırılması

– Xarici və yerli mütəxəssislərin həmmüəllifliyi ilə yeni tədris-metodik vəsaitlərin, təlim resurslarının hazırlanması və onların məzmununun davamlı təkmilləşdirilməsi

Qeyd olunan strategiyaları həyata keçirmək üçün ATMU-da "Təhsil proqramlarının yenilənməsi və monitorinqi" Qaydaları hazırlanmışdır.

### *3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu*

ATMU-da Hər fənn üzrə təlim nəticələri sillabusda qeyd olunur. Müəllimlər fənnlərin keçirilməsi zamanı sillabusda olan bütün məqamların əhatə olunmasına çalışır.Sillabusda qeyd olunan təlim nəticələrinin əldə olunub-olunmaması məsələsi seminar, laboratoriya dərslərdə, tapşırıq qiymətləndirilmələrində, imtahanlarda, performans qiymətləndirmələrdə, həmçinin təcrübə prosesində və Yekun Attestasiyada yoxlanılır.

Bu məsələyə, o cümlədən, kafedra səviyyəsində açıq dərslərin müzakirəsi və fakültələrin Tədris-Metodik Şurasının fənnlərin keçirilməsinə həsr olunmuş metodoloji iclaslarında toxunulur. Kafedralar tərəfindən tədris olunan fənlərin kompetensiya xəritələrində peşə kompetensiyalarına uyğunluğu və bu fənlərin sillabuslarında fənn təlim nəticələrinə uyğun olaraq müəyyən olunmuş mövzular üzrə tədris olunması diqqətdə saxlanılır.

### *3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti*

ATMU-da müvafiq qiymətləndirmənin aparılması üçün "Təhsil proqramlarının yenilənməsi və monitorinqi" Qaydaları hazırlanmışdır ki, 2023-2024-cü tədris ilinin sonunda bakalavriatura üzrə 2020-ci ildə təsdiq olunmuş təhsil proqramlarına əsasən kadr hazırlığı aparılan ixtisaslar üzrə monitorinqin yekunlaşdırılması nəzərdə tutulmuşdur. Müvafiq monitorinq müxtəlif mərhələləri özündə ehtiva edir və hər mərhələnin sonunda hesabatlılıq təmin olunur.

Əldə olunan nəticələr paralel olaraq müxtəlif komissiyalarda (kafedra iclasları, fakültə şuraları, elmi şura, tədris-metodiki şura, keyfiyyət komitəsi, proqram komissiyası və s.) müzakirə olunaraq proses zamanı həllini tapır (tələbə proqnozları optimallaşdırılır, tədris sənədləri təkmilləşdirilir, tədris metod və üsulları uyğunlaşdırılır, kadr potensialı, akademik heyət, maddi-texniki baza təkmilləşdirilir və s.) və daxili keyfiyyət təminatı sisteminə töhfə verməklə yekunlaşır.

Universitetdə həmçinin, təhsil proqramlarının monitorinqinin aparılması məqsədilə daxili və kənar auditdən də istifadə olunmuşdur. Bu məqsədlə İSO21001, İSO9001 və TedQual sertifikatlaşmaları üzrə monitorinqlər təşkil edilmiş və şəhadətnamələr alınmışdır. Gələcəkdə müxtəlif ixtisaslar üzrə proqram akkreditasiyasından keçmək ATMU strategiyasının fəaliyyət planında nəzərə alınmışdır (Məqsəd 3 və Məqsəd 8): https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf.

### *3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti*

ATMU-da Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatları aşağıdakı mərhələləri özündə ehtiva edir:

- Təhsil proqramı üzrə təhsilalanların qəbulu prosesinin hesabatı,
- Təhsil proqramı üzrə tədrisin təşkili üçün tədris sənədlərinin mövcudluğu vəziyyətinin hesabatı,
- Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsullarının hesabatı,
- Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları və maddi-texniki bazanın hesabatı,
- Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi prosesinin hesabatı,
- Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti haqqında məlumat hesabatı,
- Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə

sisteminin hesabatı və s.

Müvafiq hesabatlar mərhələlər üzrə ATMU-nun Elmi Şurasında, Tədris-metodiki Şurasında dinlənilir və qərarlar qəbul edilir.

***3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti***

ATMU-da kadr hazırlığı həyata keçirilən təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi, tələbələrə daha hazırkı iş bazarına uyğun beynəlxalq təcrübə və bacarıqlar təqdim etmək və təhsil sistemlərinin müasir tələblərə cavab verəcək şəkildə inkişaf etdirilməsi Universitetin missiyası, hədəfləri və strategiyasında öz əksini tapmışdır. Bu məqsədlə, təklif olunan təhsil proqramlarının müzakirəsi zamanı proqram komissiyalarının tərkibinə əmək bazarından və istehsalatdan nümayəndələr, digər maraqlı tərəflər cəlb edilir.

Həmçinin, təhsil proqramının yerininə yetirilməsi zamanı əmək bazarı ilə əlaqələr daha geniş və sıx şəkildə qurularaq, müntəzəm tələblərə uyğun yenilənmələr aparılır. Məsələn, Mehmanxana və restoran biznesi kafedrası və Keyfiyyət təminatı şöbəsi ilə birgə 14-15 aprel 2023-cü il tarixində layihə həyata keçirilmişdir. Peşəkar kadrların hazırlanmasında hotel sənayesi tələbatın araşdırılması mövzusu üzrə ATMU və hotel sənayəsi nümayəndələri arasında fokus qrup görüşlər təşkil olunmuşdur. Fokus qrup görüşlərində iştirak etmiş sənaye nümrayəndələri Bakı, Şəki ve Şabran hotellərinin ön büro, satış, marketinq, rezervasiya ve insan resursları şöbələrində çalışan məsul əmakdaşlar olmuşdur. Hotel sənayesi ehtiyaclarının öyrənilməsi istiqamətində aparılmış fokus qrup tedqiqat metodunun seçilməsində məqsəd birbaşa olaraq işəgötürənlər ilə görüşmək və gələcək peşəkar kadrların hazırlanmasında lazım olacaq bilik və bacarıqları sanayə peşəkarları ilə birgə müəyyənleşdirmək idi. Fokus qrupların müzakirəsinin nəticəsi olaraq bəzi fənnlər təhsil proqramlarına salınması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyindən daxil olmuş 19.07.2022-ci il tarixli 03-11-634/15 nömrəli məktubda "Sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi" adlı fənn müxtəlif ixtisasların tədris planlarına salınmışdır.

***3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi***

***3.10.1.Karyera mərkəzinin mövcudluğunun vəziyyəti***

Azərbaycan Turizm və Menecment Universitetinin Karyera və kommunikasiya şöbəsi (KKŞ) 2017-ci ildə ATMU-nun nəzdində müstəqil struktur vahidi kimi təsis olunub, 14 sentyabr 2018-ci ildən fəaliyyətə başlayıb. Şöbə öz fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, ATMU-nun Nizamnaməsi və Karyera və Kommunikasiya şöbəsinin Əsasnaməsi əsasında tənzimləyir. Karyera və kommunikasiya şöbəsi öz fəaliyyətini həyata keçirərkən ATMU-nun digər struktur vahidləri, dövlət və icra orqanları, bələdiyyələr, kütləvi informasiya vasitələri, qeyri-hökumət təşkilatları, turizm şirkətləri, eləcə də beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq edir. Şöbənin fəaliyyəti aşağıdakı rəsmi sənədlər əsasında həyata keçirilir: https://atmu.edu.az/az/karyera-ve-kommunikasiya-shobesi-haqqinda.

Hər tədris ilinin sentyabr ayında növbəti tədris ili üçün şöbəninn iş planı təsdiqlənir. Tədris ili üzrə **görüləcək işlər** 6 istiqamət üzrə bölünür **:**

- Təşkilati işlərə dair;
- "Məzunlarla iş" istiqamətində reallaşdırılan fəaliyyətə dair;
- Tədbirlər, seminarlar və sərgilərin təşkilinə dair;
- Sənaye və tələbələrlə görülən işlərə dair;
- Sosial media və marketinq işlərinə dair;
- 2022-2026-cı illər üçün nəzərdə tutulmuş strateji inkişaf planına aid tədbirlərin icrasına dair nəzərdə tutulmuş fəaliyyətlər.

**Məzunlarla iş qaydaları:** Sənəd 27 dekabr 2022-ci ildə təsdiqlənib. Məzunlarla işin məqsədi universitetlə məzunlar arasında qarşılıqlı faydalı əlaqələrin yaradılması və davamlılığının təmin edilməsi, fiziki və ya hüquqi şəxslər olan universitet məzunları ilə tərəfdaşlığın inkişaf etdirilməsi və universitet məzunlarının karyera inkişafina dəstək verməkdir. "Məzunlarla iş" in əsas vəzifələri aşağıdakılardır:

- Məzunların universitet həyatına cəlb olunmasını təmin etmək;
- Birgə təlim və tədbirlərin, görüşlərin təşkili;
- Karyera məsləhəti və planlamasına dəstək;
- Uzunmüddətli qarşılıqlı münasibətlərin qurulması;

- Universitetin brendinqinin möhkəmləndirilməsi və təbliğat-təşviqat proqramının hazırlanması işinə məzunların cəlb olunması;

- Məzunların önə sürdüyü hər hansı layihə, dərslik və dərs vəsaiti, tərcümə vəsaitləri və s. universitet daxilində tanınması və təbliğ işlərinə dəstək.

**Karyera və kommunikasiya şöbəsinin tədbir və təlimlərinin təşkil edilməsi:**

Hər tədris ili üzrə şöbənin "İş planı"nı əsas götürərək il ərzində bir çox müxtəlif təlim və tədbirlər təşkil edir. Bunlardan bəziləri hər il təkrar olunan tədbirlər, bəziləri isə yeni tədbirlərdir. Hər il təkrar olunan tədbirlərə rəsmi, dövlət səviyyəli bayram və matəm günləri, əmək yarmarkası, maarifləndirmə ideyalı tədbirlər və tələbə və məzunlar üçün üçün təşkil olunun karyera yönümlü təlimlər, ekskursiyalar, müəssisələrə səfərlər, sənaye nümayəndələri ilə ATMU tələbələrinin görüşlərinin təşkili, tələbələrin fərdi və peşəkar inkişafını hədəfləyən təlim və seminarların təşkili, tələbə və məzunların görüşləri, tələbələrin könüllülük fəaliyyətində iştirakının təşviqi, "Məzun günü" tədbirinin təşkil olunması və s. daxildir. Yeni təlim-tədbirlərə isə konfranslar, simpoziumlar, elmi seminarlar, təntənəli açılış və qapanış mərasimləri, turnirlər, olimpiadalar, xüsusi şəxslərlə görüşlər, sənaye müəssisələri ilə "Anlaşma memorandum"u və Əməkdaşlıq müqavilələrinin imzalanması və s. aiddir.

***3.10.2. Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti***

Karyera məsləhəti – ATMU-nun Karyera və Kommunikasiya şöbəsinin tələbə və məzunlar üçün nəzərdə tutulan xidmətidir. Bu xidmətdən bütün tələbə və məzunlar yararlana bilər. Karyera məsləhəti çərçivəsində tələbələrlə təkbətək görüşlərin keçirilməsi nəzərdə tutulur. Görüş tarixi və vaxtı əvvəlcədən müəyyənləşdirilir. Müraciətdən sonra bir həftə ərzində görüş vaxtı təyin edilir. Karyera məsləhəti zamanı tələbə və məzunlara şəxsi inkişaf planının hazırlanması və portfolionun qurulmasına birbaşa dəstək verilir. CV-nin hazırlanması, iş və ya təcrübə proqramlarına müraciətin göndərilməsi, elektron şəbəkələrdə peşəkar profilin qurulması, tövsiyə və motivasiya məktubunun yazılması və s. karyera məsləhəti zamanı müzakirə olunan məsələlər sırasındadır.

İş tapmaqda dəstək və ya karyera məsləhəti almaq istəyən tələbələr və məzunlar universitetin rəsmi saytında yerləşdirilmiş karyera məsləhəti ilə bağlı linkə daxil olaraq qeydiyyatdan keçir və gün təyin olunaraq və ya iş saatları çərçivəsində şöbəyə yaxınlaşaraq, şöbənin məsul əməkdaşları tərəfindən karyera məsləhəti və iş tapmaqda dəstək göstərilir: https://atmu.edu.az/az/karyera-mesleheti.

Karyera planlaşdırma prosesi bir neçə addımdan ibarətdir:

-İlkin olaraq məzunun şəxsi keyfiyyətlərinin, güclü və zəif tərəflərinin, üstünlüklərinin, bilik və bacarıqlarının, maraqlarının, karyera dəyərlərinin qiymətləndirilməsi və ümumi səviyyənin təyin edilməsi;

-2-ci mərhələ olaraq potensial iş yerlərinin və mümkün iş variantlarının araşdırılması. Müxtəlif vəzifələr, irəliləyiş imkanları üçün əmək bazarının araşdırılması. Onlayn araşdırmaya əlavə olaraq, iş haqqında məlumat və məsləhət almaq üçün məzunun maraqlandığı sahəyə aid müəssisə və şəxslərlə müzakirə aparılması, sahənin reallıqları və o sahəyə tövsiyə olunan hazırlıq və tələblərin təyin edilməsi;

-Məzunun maraq və səviyyəsinə uygun bir və ya bir neçə sahənin təklifi və üstünlükləri haqqında ətraflı məlumat paylaşılması. CV-də əskiklərin tamamlanması ilə bağlı sahənin tələblərinə uyğun kursların, təlimlərin və s. məsləhət görülməsi.

-Rəqabətə davamlı, rəsmi CV hazırlanmasında dəstək, həmçinin uğurlu tövsiyə məktubunun yazılması;

-Müəssisə ilə əlaqə quraraq məzun haqqında geri dönüş alınması (feedback).

Karyera və Kommunikasiya şöbəsinin təşkilatçılığı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə il ərzində 1-2 dəfə olmaqla universitetin məzun və tələbələri üçün ölkənin nüfuzlu, tanınmış müəssisələrinin iştirakı ilə əmək yarmarkası təşkil olunur.

- Mütəmadi olaraq, müəssisələr tərəfindən göndərilən vakansiyalar müvafiq olaraq məzunlara göndərilir. Həmçinin əmək bazarı mütəmadi araşdırılaraq hal-hazırkı dövrün tələb olunan iş imkanları, təcrübə proqramları, könüllü fəaliyyət sahələri tələbə və məzunlara təqdim olunur. Məzunların potensialına uyğun olaraq iş imkanları təklif olunur, CV hazırlanması, tövsiyə məktubu yazılmaqda dəstək göstərilir.

- Yalnız ölkə daxili deyil, həmçinin beynəlxalq arenada perspektivli iş imkanları tələbə və məzunlara təklif edilir.

***3.10.3. Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti***

2019-cu ildən etibarən universitetin Karyera və kommunkasiya şöbəsi tərəfindən ATMU məzun bazası hazırlanır. Bu bazada məzunların ad, soyad, ata adı, ixtisas, əlaqə nömrəsi, e-mail ünvanı, məşğulluq vəziyyəti haqqında məlumatlar əks olunur. Məsələn, 2016-2018-ci illərdə ATMU-nun Turizm və Otelçilik ixtisasından məzun olmuş 205 nəfər tələbədən 50% (103nəfər tələbə) Turizm sahəsində, 22 %( 45 nəfər) qeyri turizm, 13% (26 nəfər) təhsilini davam edir, 15% (31 nəfər) isə işsizdir. 2015-2019-cu illər ərzində ATMU-nun bakalavriat pilləsindən 1561 nəfər tələbə məzun olmuşdur. Onlardan 972 nəfər məzun haqqında məlumat əldə edilmişdir.

**2015-2021-ci illər üzrə məzun statistikası**
**(KKŞ-də qeydiyyata alınmış məzunlar, nəfər)**

| İxtisaslar | KKŞ-də qeydiyyata alınmış | İşsiz | Hərbi xidmətdə | İxtisası üzrə işləyən | Magistr təhsili | Başqa ölkədə yaşayan | Qeyri-ixtisas üzrə işləyən | Əlaqə saxlanılma | Şəxsi biznes fəaliyyəti |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Turizm və otelçilik** | **676** | 75 | 52 | 202 | 102 | 134 | 12 | 87 | 12 |
| **Tərcümə** | **141** | 31 | 9 | 11 | 13 | 62 | 5 | 10 | 0 |
| **Menecment** | **268** | 45 | 16 | 98 | 16 | 19 | 7 | 61 | 6 |
| **Marketinq** | **76** | 20 | 6 | 14 | 9 | 22 | 1 | 1 | 3 |
| **Biznesin idarə edilməsi** | **43** | 13 | 5 | 14 | 7 | 3 | 0 | 2 | 4 |
| **Maliyyə** | **54** | 15 | 13 | 6 | 11 | 9 | 0 | 1 | 1 |
| **Muzeyşünaslıq** | **108** | 25 | 12 | 13 | 11 | 32 | 2 | 12 | 1 |
| **Sosial iş** | **117** | 14 | 6 | 14 | 7 | 30 | 1 | 39 | 6 |
| **Qida mühəndisliyi** | **96** | 18 | 4 | 21 | 13 | 21 | 1 | 20 | 2 |
| **Regionşünaslıq** | **59** | 4 | 4 | 1 | 4 | 21 | 2 | 20 | 3 |
| **Beynəlxalq münasibətlər** | **81** | 6 | 0 | 2 | 11 | 28 | 2 | 26 | 6 |
| **Nəqliyyat servisi** | **107** | 6 | 17 | 3 | 12 | 41 | 2 | 21 | 5 |
| **MBA proqramı üzrə** | **48** | 10 | 3 | 17 | - | 15 | 0 | 2 | 1 |
| **Ümumi magistrlar** | **343** | 27 | 10 | 25 | - | 40 | 0 | 239 | 2 |

ATMU-da fəaliyyət göstərən inzibati heyətin 20 nəfəri, akademik heyyətin isə 17 nəfəri ATMU məzunudur. Həmçinin Sənaye ilə əməkdaşlı şəraitində müxtəlif vakansiyalar məzunlara təqdim olunub onların məşulluğuna dəstək göstərilir. Məzunlara CV hazırlanması, və işəgötürənlərlə birbaşa əlaqələndirilməsinə daimi dəstək göstərilir. Müəssisələrin karyera günləri, təcrübə proqramları və könüllü təcrübələr haqqında tələbələr və məzunlar məlumatlandırılır.

2021-ci ildən etibarən məzunlara elektron qaydada sorğular göndərilir və mütəmadi nəzarət edilir və təhlillər yenilənir. “ATMU məzunlarının iş fəaliyyəti ilə bağlı məlumatları (məzun bazası üçün) sorğu”su Universitetin əməkdaşlıq etdiyi və şöbənin vakansiyalar qəbul etdiyi müəssisələrə göndərilən sorğudur. Sorğu bir necə məqsədlə aparılır :

- Məzunlarımız hal-hazırda işləyirmi?
- İşləyirsə hansı sahədə?
- Hansı vəzifədə işləyir?
- İşdən ayırılıbmı və ayrılıbsa hansı səbəbdən?
- Müəssisə yetişdirdiyimiz kadrin potensialından məmnundurmu?
- Müəssisisə yenidən bizimlə əməkdaşlıq etmək və tələbə/məzunlarımızı vacant pozisiyalara cəlb etmək istəyirmi?
- Müəssisədən gələn təkliflər və iradlar.

Sorğunun cavabına əsasən məlumatlar məzun bazasına əlavə olunur və ya məlumatlar yenilənir. İrad və təkliflərə baxılır və üstünlüklə üzərində işlənilir.

***3.10.4.Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti***

ATMU-da məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti onlayn sorğu vasitəsilə həyata keçirilir. “ATMU məzunlarının təhsil səviyyəsindən məmnunluq sorğusu” hər il sonu məzunlara göndərilir, təhlillər yenilənir.

Sorğunun əsas məqsədi məzunların ATMU-da təhsil aldığı müddətdə əldə etdikləri

səriştələrdən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunu müəyyənləşdirilməkdən ibarətdir. Məzunların qeydlərinə əsasən güclü və zəif tərəflərimizi müəyyənləşdirib müvafiq tədbirlərin görülməsi istiqamətində işlərin reallaşdıılması müvafiq plana salınır. Həmçinin təklif və iradlar aidiyyatı şöbələrlə də müzakirı olunur və təhlillər aparılır. Birbaşa müraciətlər olduğu təqdirdə müvafiq şöbələrə məlumat çatdırılır.

### *3.10.5.Məzunlarla davamlı əlaqə sisteminin mövcudluq vəziyyəti*

Məzunlarla iş ilk öncə 2016/2017-ci tədris ilindən başlamışdır. 2010-2015-ci illərdə məzun olan tələbələr ilə əlaqə saxlanılmış, onlar haqqında bir baza formalaşdırılmışdır. Bu bazada 5 il üzrə ümumi 388 məzunun məlumatları toplanmışdır.

| Sıra № | Tədris ili | Bakalavr məzun sayı | Magistr məzun sayı | Ümumi sayı | KKŞ-də qeydiyyatda olan məzunların sayı |
|---|---|---|---|---|---|
| **1.** | 2016/2017 | 357 | 37 | 394 | 206 |
| **2.** | 2017/2018 | 280 | 45 | 325 | 198 |
| **3.** | 2018/2019 | 284 | 81 | 365 | 233 |
| **4.** | 2019/2020 | 427 | 119 | 546 | 297 |
| **5.** | 2020/2021 | 476 | 147 | 623 | 260 |
| **6.** | 2021/2022 | 373 | 96 | 469 | 400 |
| **7.** | 2022/2023 | 374 | 66 | 440 | 60 |

2017-ci ildən Karyera və Kommunikasiya şöbəsi yarandıqdan sonra məzunlar ilə iş bu şöbənin öhdəliyinə verilmiş, bu baza daha da genişləndirilmişdir. Məzunların bazası daim yenilənir və ildə 2 dəfə statistik məlumatlar aparılır.

Məzun bazasının əsas məqsədi məzunlarımızın ümümi məlumatlarını əldə etmək, onlarla ortaq işlər görmək üçün əlaqələr qura bilmək, universitet üzrə işsiz, ixtisası üzrə işləyən, qeyri ixtisas üzrə işləyən, hərbi xidmətdə olanlar, magistraturaya qəbul olanlar, xaricə köçənlər və s meyarların əks olunduğu statistic məlumatları hazırlamaq üçün istifadə etməkdən ibarətdir. Bundan əlavə vaxtaşırı yenilənən baza üzərindən əzunların karyera dinamikasını izləmək mümkündur. Eləcə də məzunlarımızın artıq sənaye nümayəndəsi və sahəsinin mütəxəssisi olaraq universitetə dəvət edərək birlikdə işlər, təlimlərin təşkili və s. kimi fəaliyyətlər üçün məzun bazası böyük rol oynayır.

Məzunlara vakansiyalar haqqında məlumatların göndərilməsi, email vasitəsi ilə sosial şəbəkələrdə ATMU məzunları üçün yaradılmış bağlı qruplarda (məsələn “ATMU Alumni Network” facebook sosial şəbəkəsindəki qrup) həyata keçirilir.

.

## 4. ELMİ TƏDQİQAT

### *4.1 Elmi-tədqiqat strategiyası*

#### *4.1.1 ATMU-nun elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti*

ATMU-nun 2022-2026-cı illər üzrə təsdiq edilmiş Strategiyasında müəyyən edilən məqsədlərdən biri də "Elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsidir. Burada qeyd edilir ki, Universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi elmi-tədqiqat prosesindən müstəqil şəkildə təsəvvür edilə bilməz. Elmi-tədqiqat fəaliyyəti sənaye təcrübəsi ilə birlikdə təhsilin məzmununa təsir edən başlıca amildir. Bu sahədə mövcud olan boşluqlar universitetin fəaliyyətinin bütün tərəflərinə bu və ya digər dərəcədə mənfi təsir göstərir. Elmi-tədqiqat və innovasiya mədəniyyətinin möhkəmləndirilməsi təkcə akademik heyət üzvlərinin və tələbələrin intellektual inkişafına deyil, həm də universitetin müxtəlif elm sahələri üzrə ictimai siyasətə sübut-əsaslı dəstək göstərməsi və universitetin beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılmasına müsbət təsir edə bilər.

Həmçinin ayrıca ATMU-da Elmi-tədqiqat strategiyası mövcuddur. ATMU-nun Elm və innovasiya şöbəsi tərəfindən tərtib edilən, Elmi Şuranın 2023-cü il 14 sentyabr 1№ protokolu ilə təsdiq edilən "Elmi-tədqiqat strategiyası" dır:
https://atmu.edu.az/upload/files/2023/10/23//-aaaccd27169804499493867976710309655.pdf.

#### *4.1.2.Elmi-tədqiqat strategiyasının ATMU-nun missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti*

Elmi-tədqiqat strategiyasında aşağıda qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, bu sahədə uyğunluq müşahidə edilməkdədir:

| ATMU-nun 2022-2026-cı illər üçün Strategiyası | ATMU-nun Elmi-tədqiqat Strategiyası |
|---|---|
| **Missiyamız** ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirmək. | **Missiyamız.** ATMU-nu beynəlxalq əmək bazarında rəqabət qabiliyyətli və cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcək mütəxəssislər hazırlayan ali təhsil müəssisəsinə çevirməkdir. |
| **Hədəfimiz** missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq. | **Hədəfimiz.** Missiyaya uyğun olaraq fərdlərə öyrənmək, dəyişmək və dəyişdirmək üçün zəruri səriştələri aşılayan təhsil, innovasiya və tədqiqat mərkəzi kimi formalaşmaq, Universitetimizin korporativ mədəniyyəti sosial məsuliyyət, dürüstlük, şəffaflıq, hesabatlılıq, rasionallıq, akademik azadlıq, biliyə maraq və yenilikçilik dəyərləri üzərində qurmaqdır. |

Qeyd olunan Missiya və Hədəflərə müvafiq olaraq ATMU-nun 2022-2026-cı illər üçün Strategiyasının 6-cı Məqsədinə (Elmi-tədqiqat və innovasiya potensialının gücləndirilməsi) uyğun olaraq ATMU-nun Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqaməti (hədəfi) əhatə edir:

1. Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək;
2. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi;
3. İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması;
4. Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələr ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması;
5. "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət.

(https://atmu.edu.az/upload/files/2023/10/23//-aaaccd27169804499493867976710309655.pdf)

#### *4.1.3. ATMU-nun elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexazimlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti*

ATMU-nun Elmi-Tədqiqat Strategiyasında indikatorda qeyd olunan məsələlərə dair hədəflər 4.1.2. indikatorunda göstərilən istiqamətlər üzrə öz əksini tapmışdır.

Həmçinin, ATMU-nun Nizamnaməsinə uyğun olaraq Elm və innovasiya şöbəsinin əsasnaməsinin (14 sentyabr 2018-ci il) "Elm və innovasiya şöbəsinin fəaliyyət istiqamətləri" bölməsində elmi-tədqiqat siyasəti ilə bağlı aşağıdakı məsələlər yer almışdır:

**Elmi tədqiqatların təşkili:**

- Elmi tədqiqatların koordinasiyasının həyata keçirilməsi;

• Universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması;

• Təşkilati rəhbərlik, elmi-tədqiqat məsələləri üzrə universitet bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi və bu işlərə müntəzəm nəzarətin həyata keçirilməsi;

• Öz səlahiyyətləri daxilində, universitet rəhbərliyinin kadr hazırlığı və elmi tədqiqat fəaliyyətinə aid qərarlarının icrasında yaxından iştirak.

***4.1.4. Elmi-tədqiqat məqsədlərinin ATMU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu***

ATMU-nun 2022-2026–cı illər üzrə təsdiq edilmiş Strategiyasında müəyyən edilən məqsədlərdən biri də "Elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsi"dir. Burada qeyd edilir ki, universitetdə tədrisin keyfiyyətinin yüksəldilməsi elmi-tədqiqat prosesindən müstəqil şəkildə təsəvvür edilə bilməz. Elmi-tədqiqat fəaliyyəti sənaye təcrübəsi ilə birlikdə təhsilin məzmununa təsir edən başlıca amildir.

Həmin məqsədə müvafiq olaraq Elmi-tədqiqat Strategiyası ATMU-nun 2022-2026–cı illər üzrə Strategiyasına uyğunlaşdırılmışdır:

| ATMU-nun Elmi-tədqiqat strategiyasının əsas hədəfləri | ATMU-nun uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu |
|---|---|
| Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək; | Elmi-tədqiqat fəaliyyətinin institusional inkişafının təmin edilməsi məqsədilə universitetin nəzdində interdisiplinar elmi-tədqiqat mərkəzinin (institutunun) yaradılması; |
| Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi; | Doktorantura səviyyəsində həyata keçirilən proqramların məzmunun təkmilləşdirilməsi;<br>Magistratura səviyyəsində beynəlxalq müştərək proqramın yaradılması;<br>Doktorantura və magistratura tələbələrinin praktiki əhəmiyyətli elmi-tədqiqat fəaliyyətinə cəlb olunması, o cümlədən dissertasiya mövzularının aktuallığının təmin olunması; |
| İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması; | Tədqiqat və innovasiyalar sahəsində universitetin uzunmüddətli inkişaf strategiyasının hazırlanması;<br>Prioritet istiqamətlər üzrə praktiki əhəmiyyətli tədqiqatların aparılması üçün maliyyələşmənin təmin edilməsi; |
| Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələr ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması; | Sifariş əsasında müxtəlif təşkilatlar, o cümlədən, dövlət qurumları, şirkətlər, beynəlxalq təşkilatlar və qeyri-kommersiya təşkilatları üçün tədqiqatların aparılması planlaşdırılır; |
| "Web of Science" və "Scopus" elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət. | "Web of Science" və "Scopus" bazalarında indeksləşən jurnallarda akademik heyət üzvlərinin dərc olunan məqalələrinin sayının artırılması (o cümlədən, ATMU əməkdaşlarının beynəlxalq və yerli tərəfdaş universitetlərin tədqiqatçıları ilə birgə araşdırmalarının təşviq olunması). |

***4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti***

ATMU-nun elmi-tədqiqat və innovasiya fəaliyyəti təlim və tədris prosesinə inteqrasiya ilə bağlı aşağıdakı prinsipə əsaslanır:

• Universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması;

Belə ki, ATMU-da kafedralar üzrə aparılan elmi-tədqiqat işlərinin nəticələri professor-müəllim heyətinin mühazirələrində, praktik məşğələlərində, dərs vəsaitlərində, fənn proqramlarında nəzərə alınır. Bu məqsədlə aparılan tədqiqat istiqamətləri ixtisas kafedralarının tədris prosesi ilə uyğunlaşdırılır.

Həmçinin, kafedralarda hazırlanan magistr və doktorant (dissertant) dissertasiya işlərinin də tədris prosesində istifadə üçün bir nüsxəsi (elektron və çap) kitabxanada saxlanılır.

***4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti***

ATMU-da elmi-tədqiqatla məşğul olan professor-müəllim heyətinin ixtisas profilləri apardıqları elmi tədqiqat işləri ilə uyğunluq təşkil edir. Bu məqsədlə elmi-tədqiqat və innovasiya fəaliyyətinin prioritet istiqamətləri aşağıdakılar müəyyənləşmişdir:

- elmi - tədqiqatların maddi - texniki bazasının inkişaf etdirilməsi;
- dissertant və doktorantlara elmi rəhbərliyin məhsuldarlığının artırılması;
- müasir innovativ iqtisadiyyatın və prioritet elmi istiqamətlərin vəzifələrinə uyğun dissertant və doktorantura üzrə ixtisasların spektrinin genişləndirilməsi;
- beynəlxalq elmi proqramlarda, təcrübələrdə və mütəxəssis mübadiləsində iştirak etməklə xarici ölkələrin qabaqcıl elmi təcrübəsinin mənimsənilməsi;
- yüksək elmi nəticələrin əldə edilməsi məqsədilə professor-müəllim heyəti, tələbə və magistrantlar üçün real həvəsləndirmə sisteminin formalaşdırılması.

***4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti***

Elmi-tədqiqat strategiyası həm yerli, həm də xarici tərəfdaşlar üçün Universitetin rəsmi veb-saytında yerləşdirilmiş, korporativ emaillər vasitəsilə fakültə və kafedralara göndərilmişdir.
https://atmu.edu.az/upload/files/2023/10/23//-aaaccd27169804499493867976710309655.pdf

***4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti***

Elmi-tədqiqat strategiyası ATMU-nun Elmi Şurasının 14 sentyabr 2023-cü il 1 saylı iclasında müzakirə edilməklə təsdiqlənmişdir. Universitetin Elmi Şurasında ATMU-nun struktur rəhbərləri ilə yanaşı, AR Dövlət Turizm Agentliyinin və digər aidiyyatı qurumların nümayəndələrinin, təhsilalanların, professor-müəllim heyətinin təmsilçiliyi təmin olunduğundan müvafiq strategiyanın hazırlanmasında maraqlı tərəflər kimi iştirak etmişdir. Bununla yanaşı, ehtiyac olduqda kənar iştirakçı (qonaq) dəvət olunur.

***4.2 Tədqiqat resursları***

***4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti***

ATMU-da elmi-tədqiqatın koordinasiyası Elm və inkişaf məsələləri üzrə prorektorluğu, Elm və innovasiyalar şöbəsi vasitəsilə aparılır. Həmçinin 2023-cü il 27 mart tarixində “Elmi-tədqiqat Mərkəzinin yaradılması haqqında” əmr verilmişdir.

ATMU-da elmi-tədqiqat işlərinin aparılması üçün büdcə təsnifatında ayrılan vəsaitlər aşağıdakı xərc maddələri üzrə təsnifatlaşdırılır:

- Elmi-tədqiqat fəaliyyəti vasitəsilə əldə olunan gəlirlərin həcmi (patentlərin kommersialaşdırılması və s.);
- Elmi-tədqiqat fəaliyyəti üçün müəssisənin büdcəsindən ayrılan vəsait;
- Elmi tədqiqata ayrılan büdcə vəsaitinin ümumi büdcədə payı;
- Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər;
- ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası;
- Elmi ədəbiyyatlardan və elmi bazalardan istifadə üçün ayırılan vəsait;
- Beynəlmiləşmə siyasətinin icrası üçün ayrılan vəsait (ezamiyyələr);
- Kitabxana resurslarının yenilənməsi üçün (və ya elektron kitabxananın tətbiqi üçün) ayrılan vəsait.

ATMU-nun tədris və təlim prosesi üçün ayrılmış infrastruktur və texnoloji avadanlıqlar elmi-tədqiqatla məşğul olanlar üçün əlçatandır.

***4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti***

Hazırda ATMU-da aktiv elmi-tədqiqatla məşğul olanların sayı doktorant və dissertantlar daxil olmaqla 121 nəfərdir. Onlardan 12 nəfəri professor, 1 nəfəri professor əvəzi, 38 nəfəri dosent, 12 nəfəri dosent əvəzi, 19 nəfəri baş müəllim, 7 nəfəri isə müəllim, 32 nəfəri isə doktorant və dissertantlardır. ATMU-da 2023-2024-cü tədris ili üzrə aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin kafedralar üzrə sayı və müvafiq kafedraların elmi tədqiqat mövzuları 4.2.1 saylı cədvəldə göstərilmişdir. Cədvəldən də göründüyü kimi, ATMU-da 8 kafedra üzrə 222 nəfər akademik heyət (1,0 ş.v, 0,5 ş.v və saathesabı daxil olmaqla) üzvünün 55 %-i aktiv elmi-tədqiqatla məşğuldur:

| № | Kafedralar | Elmi-tədqiqat mövzuları 2023-2024-cü tədris ili üzrə | Kafedranın ümumi əməkdaşlarının sayı | | | | Elmi-tədqiqatla məşğul olanlar |
|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi | 1,0 ş.v. | 0,5 ş.v. | s/h | |
| 1. | Dillər | Turizmin idarə edilməsi sahəsi üzrə zəruri dərsliklərin Azərbaycan dilinə tərcüməsi məsələləri | 46 | 18 | 17 | 11 | 33 |
| 2. | Nəqliyyat, İKT və təbiət elmləri | Kadr potensialının artırılması məqsədilə müasir kompüter texnologiyalarının tətbiqi imkanlarının araşdırılması” | 17 | 7 | 4 | 6 | 8 |
| 3. | Beynəlxalq münasibətlər | Azərbaycan Respublikasının milli inkişafının ölkənin turist potensialına təsiri | 33 | 11 | 19 | 3 | 12 |
| 4. | İqtisadiyyat | Azərbaycanda turizmin maliyyə-iqtisadi potensialının inkişaf etdirilməsi istiqamətləri | 33 | 4 | 17 | 12 | 11 |
| 5. | Mehmanxana və Restoran Biznesi | Dövlət investisiyalarının qonaqpərvərlik sənayesinin təminatının yaxşılaşdırılmasına, etibarlılığına və keyfiyyətinin yüksəldilməsinə yönəldilən siyasətin həyata keçirilməsi. | 18 | 6 | 7 | 5 | 9 |
| 6. | Turizm biznesi | “Dünya ölkələri arasında Azərbaycanın cəlbedici turizm məkanına çevrilməsi perspektivləri" elmi-tədqiqat istiqamətinin “Qarabağ turizm bölgəsi kimi” | 27 | 8 | 10 | 9 | 12 |
| 7. | İctimai fənlər | Qərbi Azerbaycanın turizm potensialının araşdırılması | 24 | 11 | 8 | 5 | 18 |
| 8. | Menecment | Turizm sahəsində strateji idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətləri | 24 | 6 | 12 | 6 | 18 |
| | CƏMİ | | 222 | 71 | 94 | 57 | 121 |

***4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti***

ATMU-rektorunun 2023-cü il 15 sentyabr tarixli əmri ilə Tələbə Elmi Cəmiyyətinin Nizamnaməsi təsdiq edilmişdir. ATMU-da Tələbə Elmi Cəmiyyətinin Elm istiqaməti olaraq hər fakültə üzrə mütəmadi olaraq elmi-tədqiqat işinin aparılması ilə bağlı maarifləndirici seminarlar keçirilir. Bu təlim-seminarların əsas məqsədi tələbələrdə elmi tezislərin hazırlanması və təqdimatı bacarıqlarını formalaşdırmaqdır.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə ATMU-da “Gənc tədqiqatçılar arasında Open Science platformasının təbliği” ilə əlaqədar müntəzəm olaraq elmi seminarlar keçirilir. Həmçinin, ATMU-nun bir qrup bakalavr, magistr, doktorant tələbələri və əməkdaşları “Gənc tədqiqatçılar arasında “Open Science platformasının təbliği” ilə bağlı müxtəlif ali təhsil müəssisələrində keçirilən təlimlərdə iştirak etmişdir.
https://www.youtube.com/watch?v=syR8S4UEoS8

***4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti***

ATMU-nun professor-müəllim heyətinin böyük əksəriyyəti google scholar, Web of Science, Scopuc, Research Gate elmi məlumat bazalarından qeydiyyatdan keçmişdir. Aşağıdakı cədvəldə kafedralar üzrə beynəlxalq elmi məlumat bazalarında qeydiyyatdan keçənlərin sayı öz əksini tapmışdır:

| Kafedralar | Beynəlxalq elmi məlumat bazalarında qeydiyyatdan keçənlərin sayı |
|---|---|
| Nəqliyyat, İKT və təbiət elmləri | 7 |
| İctimai fənlər | 10 |
| Beynəlxalq münasibətlər | 24 |
| İqtisadiyyat | 8 |
| Mehmanxana və restoran biznesi | 11 |
| Menecment | 19 |
| Turizm biznesi | 9 |
| Dillər | 14 |
| CƏMİ | 102 |

***4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti***

ATMU-da fəaliyyət göstərən professor-müəllim heyətinin elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı tədbirlər tətbiq olunur. Qeyd olunana müvafiq olaraq ATMU rektorunun 2018-ci il tarixli, 331 nömrəli “ATMU əməkdaşlarının elmi nəşrlərinin stimullaşdırılması haqqında” əmri göstərilə bilər. Müvafiq əmrə əsasən “Web of Science”, “SCOPUS” platformalarında məqalə çap etdirən hər bir əməkdaşa kateqoriyasından asılı olaraq birdəfəlik mükafat müəyyənləşdirilir. Həmçinin, ETN tərəfindən qrif olunan dərsliklərin və digər

vəsaitlərin çapı üçün müəlliflərə vəsait ayrılır və ya Universitet hesabına çap olunur. Həmçinin, tədqiqatçıların elmi potensialının artırılması məqsədilə müxtəlif proqramlar vasitəsilə beynəlxalq mübadilədə iştirak edənlərin, beynəlxalq konfrans, tədbirlərdə iştirak üçün ezamiyyə olunan əməkdaşların xərcləri ATMU tərəfindən qarşılanır.

***4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası***

ATMU-da elmi-tədqiqat fəaliyyəti Elm və innovasiyalar şöbəsinin koordinatorluğu ilə kafedralardakı professor-müəllim heyəti, eləcə də tədqiqatçılar tərəfindən həyata keçirilir. Ümumiyyətlə, ATMU-da elmi-tədqiqat işlərinin aparılması işinə 2011-ci ildən başlanılmış, 2017-ci ilə isə innovasiya istiqamətində də fəaliyyət daha da genişləndirilmişdir. Hesabat dövründə ATMU-da elmi-tədqiqat fəaliyyəti nəticəsində gəlir əldə edilməmişdir. Gələcəkdə elmi-tədqiqat fəaliyyətinin komersiyalaşdırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və digər əlaqədar danışıqlar aparılır.

***4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti***

ATMU-nun aşağıdakı elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur:

- ✓ AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu;
- ✓ AMEA-nın İqtisadiyyat İnstitutu;
- ✓ AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi;
- ✓ AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu;
- ✓ AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;
- ✓ Bakı Dövlət Universiteti;
- ✓ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti;
- ✓ Azərbaycan Dövlət İqtisad Universiteti;
- ✓ Azərbaycan Dövlət Neft və Sənaye Universiteti;
- ✓ Azərbaycan Dövlət Pedaqoji Universiteti və s.

Bu əməkdaşlıq elmi rəhbərlərin təyin edilməsi, imtahan komissiyalarına üzvlərin müəyyən edilməsi, ilkin müzakirələrin təşkili prosesində aparılır.

Sözügedən müəssisələrdən doktorantlara verilmiş bir neçə razılıq sənədlərini qeyd edə bilərik:

PDF ADNSU.PDF PDF UNEC.PDF PDF BDU.PDF PDF ADPU.PDF

### *4.3 Elmi-tədqiqat fəaliyyəti*

***4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti***

ATMU-da elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi sahəsində Elm və inkişaf məsələləri üzrə prorektorluq, Elm və innovasiyalar şöbəsi fəaliyyət göstərir. Həmçinin 2023-cü il 27 mart tarixində "Elmi-tədqiqat Mərkəzinin yaradılması haqqında" əmr verilmişdir.

Elm və innovasiya şöbəsi ATMU-da Elm və inkişaf məsələləri üzrə prorektorluğun tabeliyində fəaliyyət göstərən struktur bölmədir və bilavasitə universitetin rektoruna tabedir. Şöbə 2018-ci ilin yanvar ayında Doktorantura, Əlavə təhsil, Tədqiqat və inkişaf şöbələrinin bazasında yaradılmışdır. Elm və innovasiya şöbəsinin əsas fəaliyyət istiqamətlərinə elmi tədqiqatların koordinasiyasının həyata keçirilməsi və Universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması daxildir (https://atmu.edu.az/az/elm-ve-innovasiya-shobesi-haqqinda).

Şöbənin Əsasnaməsinin, iş planlarının əlçatanlığı Universitetin rəsmi veb-səhifəsi vasitəsilə tənzimlənir:
https://atmu.edu.az/az/elm-ve-innovasiya-shobesi-esasname;
https://atmu.edu.az/az/elm-ve-innovasiya-shobesi-ish-plani.

Təşkilati rəhbərlik, elmi-tədqiqat məsələləri üzrə universitet bölmələrinin fəaliyyətinin əlaqələndirilməsi və bu işlərə müntəzəm nəzarətin həyata keçirilməsi şöbənin əsas fəaliyyət istiqamətlərinə aid edilir. Həmçinin onu da qeyd edə bilərik ki, müasir dövrdə öz səlahiyyətləri daxilində, universitet rəhbərliyinin kadr hazırlığı və elmi tədqiqat fəaliyyətinə aid qərarlarının

içrasında yaxından iştirak, tələbələrin elmi yaradıcılıq fəaliyyətinin müasir tələblər səviyyəsində təşkili, tələbələrin innovativ fəaliyyətə istiqamətləndirilməsi üçün tədbirlərin hazırlanması və həyata keçirilməsi prosesi Elm və innovasiya şöbəsinin əsas fəaliyyət istiqamətlərindən biridir.

Tələbə layihələrinin gələcəkdə kommersiya istiqamətli hazırlanmasına dəstək tədbirlərinin genişləndirilməsi üçün seçimin, perspektivli layihələrin müsabiqəsinin təşkili, qrant təşkilatlarına və dövlət qurumlarına dəstək üçün müraciətlərin təşkili, universitetdə təhsil, elmi və inzibati fəaliyyət üçün səmərəli idarəetmə sisteminin formalaşdırılması təkliflərini hazırlamaq və onların həyata keçirilməsinə dəstək göstərmək (təlimlər və monitorinqlər təşkil etmək) kimi işlərin icrasını da Elm və innovasiya şöbəsi həyata keçirməkdədir.

"Antiplagiat" sistemi və "Əqli mülkiyyətin qorunması" işinin təşkili şöbənin əsas istiqamətlərindən biridir.

***4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti***

ATMU-da müxtəlif tədris illəri üzrə elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin dinamikası aşağıdakı qrafikdə göstərilmişdir:




**ATMU-da tədris illəri üzrə elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin dinamikası**

Qeyd edək ki, 2023-2024-cü tədris ili yekunlaşmadığından qrafikdə 2 tədbir əks olunmuşdur. Tədris ilinin sonunadək 3 tədbirin də təşkili nəzərdə tutulmuşdur.

***4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti***

ATMU-da müxtəlif tədris illəri üzrə təşkil olunan elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının sayının dinamikası aşağıdakı qrafikdə göstərilmişdir:




**ATMU-da tədris illəri üzrə elmi-tədqiqat xarakterli tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı dinamikası**

Qeyd edək ki, 2023-2024-cü tədris ili yekunlaşmadığından qrafikdə iştirakçıların sayı az əks olunmuşdur. Tədris ilinin sonunadək əlavə 3 tədbirin də təşkili nəzərdə tutulduğundan tədris ilinin yekununadək dinamikanın artması proqnozlaşdırılır.

***4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti***

Elm və innovasiya şöbəsinin tədqiqat fəaliyyəti ilə əlaqədar aşağıdakı qrafikdə illər üzrə elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların dinamikası qeyd edilmişdir:




**ATMU-da tədris illəri üzrə elmi-tədqiqat xarakterli tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı dinamikası**

Qeyd edək ki, 2023-2024-cü tədris ili yekunlaşmadığından qrafikdə iştirakçıların sayı az əks olunmuşdur. Tədris ilinin sonunadək əlavə 3 tədbirin də təşkili nəzərdə tutulduğundan tədris ilinin yekununadək dinamikanın artması proqnozlaşdırılır.

***4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti***

Hazırda ATMU-nun da tərəfdaş olduğu Avropa Birliyi tərəfindən maliyyələşdirilən layihələr aşağıdakılardır:

**Picasp Project - ("Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən Təcrübə Müəssisələri pilot kurslar).**

https://www.picasp-project.eu/about/

*Layihədə iştirakçı ölkələr*: Azərbaycan, Polşa, Litva, Kazaxıstan, İtaliya

*Əsas məqsəd:* yeni tədris metodologiyalarının hazırlanması; Akademik və texniki heyətin mobilliyi vasitəsilə Aİ tərəfdaşları ilə qabaqcıl təcrübələrin mübadiləsinin gücləndirilməsi; Kurrikulumun hazırlanmasında və məzunların yerləşdirilməsində maraqlı tərəflərin iştirakını təmin etmək; Standartların yaradılması və didaktika və davamlılıqda keyfiyyət təminatının təmin edilməsi.

**Engage Project - (Azərbaycanın Ali Təhsilində Davamlı Sahibkarlıq Ekosisteminin Gücləndirilməsi) –** https://engage.edu.az/

https://www.linkedin.com/showcase/engagemdu/?originalSubdomain=az

*İştirakçı ölkələr:* Azərbaycan, İspaniya, Portuqaliya, Polşa, İsveç, Estoniya

*Əsas məqsəd*: Ali təhsil müəssisələrində davamlı sahibkarlıq ekosisteminin gücləndirilməsi

**Ecar Project - (Azərbaycanda Rektorlar Konfransının yaradılması) -** http://ecar.net.az/

*İştirakçı ölkələr:* http://ecar.net.az/partners/

*Əsas məqsəd:* Bu layihənin son məqsədi Rektorlar Konfransının yaradılması vasitəsilə milli universitetlər və qərar qəbul edənlər arasında güclü şəbəkələşməni və əməkdaşlığı dəstəkləməkdir.

***4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti***

ATMU-nun Elm və inkişaf məsələləri üzrə prorektoru, p.e.d., prof. İ.M.Əliyevaya məxsus iki patent mövcuddur:

- Elmi əsər (xarici dillərin tədrisinin metodikasına dair dissertasiya).Qeydiyyat nömrəsi-04/C-7590-14.Qeydiyyat tarixi-02.05.2014-cü il.
- Elmi əsər (Video materiallarının əsasında xarici dillərin tədrisi üçün dərs vəsaitinin hazırlanmasına dair). Qeydiyyat nömrəsi. 04/C-9097-17. Qeydiyyat tarixi-16.06.2017-ci il.




Scan1.PDF Scan10001.PDF Scan10002.PDF Scan10003.PDF

***4.3.7. İnstitusional əməkdaşlığı (milli və beynəlxalq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti***

Həmçinin, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı müqavilənin imzalanması ilə yerli və beynəlxalq turizm təhsilinin incəliklərindən xəbərdar olan mütəxəssislər turizm sektorunun inkişafına töhfə verməkdədirlər.

**_4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti_**

ATMU-nun aşağıdakı elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur:

- ✓ AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu;
- ✓ AMEA-nın İqtisadiyyat İnstitutu;
- ✓ AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi;
- ✓ AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu;
- ✓ AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;
- ✓ Bakı Dövlət Universiteti;
- ✓ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti;
- ✓ Azərbaycan Dövlət İqtisad Universiteti;
- ✓ Azərbaycan Dövlət Neft və Sənaye Universiteti;
- ✓ Azərbaycan Dövlət Pedaqoji Universiteti və s.

**_4.3.9. Tədqiqatçıların beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti_**

10 mart 2020-ci il tarixində Azərbaycan Turizm və Menecment Universiteti “Turizm işinin təşkili” ixtisas proqramı üzrə Ümumdünya Turizm Təşkilatının “UNWTO.TedQual” beynəlxalq keyfiyyət sertifikatına layiq görülmüşdür. Cənubi Qafqaz regionu ali təhsil müəssisələri arasında ilk dəfə olaraq ATMU-nun “UNWTO.TedQual” sertifikasiyası prosesindən uğurla keçməsi Azərbaycanda turizm sahəsində ali təhsilin qlobal rəqabətliliyinin artırılması istiqamətində mühüm nailiyyətdir. “UNWTO.TedQual” Ali Təhsil Müəssisələri Şəbəkəsinə qoşularaq ATMU, akademik heyət üzvlərinin və tələbələrin mübadilə proqramlarında iştirak etmək hüququ əldə etməklə bərabər, həmçinin bilik və təcrübə mübadiləsi fürsətlərindən bəhrələnmək imkanı da qazanıb. 4 sentyabr 2023-cü il tarixində Azərbaycan Turizm və Menecment Universiteti “Turizm və Qonaqpərvərlik” və “Sosial menecment fakültələri” İSO 210001:2018 – Təhsilin idarəedilməsi standartı üzrə sertifikata layiq görülmüşdür.

Həmçinin, ATMU-nun üzv olduğu assossasiya, beynəlxlaq təşkilatlar aşağıdakılardır:

1. Ümumdünya Turizm Təşkilatı;
2. DAAD təhsil şəbəkəsi;
3. GIZ (The Deutsche Gesellschaft für Internationale Zusammenarbeit - Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti);
4. British Council;
5. Dante Alieghieri cəmiyyəti;
6. Lüsern Dünya Turizm Forumu;
7. Ramualdo Del Bianco Fondu və s.

**_4.3.10. Yerinə yetirilən elmi tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti_**

Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin tərtib etdiyi bəzi dərslik və dərs vəsaitləri, monoqrafiyalar, bilavasitə onların elmi-tədqiqat işləri ilə eynilik təşkil edir. Elmi tədqiqat işləri ilə bağlı 2019-cu ildə 32 proqram, 3 dərs vəsaiti, 3 monoqrafiya; 2020-ci ildə 226 proqram, 13 dərs vəsaiti, 3 metodik vəsait, 2 monoqrafiya; 2021-ci ildə 44 proqram, 1 metodik vəsait; 2022-ci ildə 101 proqram, 1 dərs vəsaiti; 2023-cü ildə 85 adda proqram, 2 monoqrafiya, 5 metodik vəsait, 5 dərs vəsaiti hazırlanmışdır.

**_4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti_**

Qeyd edək ki, ATMU-nun əsas elmi nəşri olan “Turizm və qonaqpərvərlik tədqiqatları” beynəlxalq jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.12.2011-ci il tarixli 3507 № ilə qeydiyyata alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə İqtisad elmləri, Tarix elmləri və Sənətşünaslıq üzrə (6219.01-Kulturologiya və onun ümumi məsələləri; 6220.01-Muzeyşünaslıq) “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlərin siyahısı”na daxil edilmişdir. “Turizm və qonaqpərvərlik tədqiqatları” adlı çoxprofilli elmi jurnalda turizm sektorunun müasir inkişaf problemləri və onun sosial-iqtisadi inkişaf ilə qarşılıqlı əlaqələrinin nəzəri və praktiki problemlərinə həsr edilmiş məqalələrə üstünlük verilir. Jurnalda həmçinin sosial-iqtisadi inkişafın digər problemləri haqqında yazılmış orjinal məqalələrin dərcinə də yer verilir. Jurnal Respublikamızda turizmin inkişafına xidmət göstərən xüsusi buraxılışlar dərc etmək hüququna malikdir. Jurnal rübdə bir dəfə çıxır.

“Turizm və qonaqpərvərlik tədqiqatları” jurnalına dünyanın hər yerindən Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr qəbul edilir. “Turizm və qonaqpərvərlik tədqiqatları” elmi jurnalı 2012-ci ildən başlayaraq davamlı dərc olunur. Jurnal spesifikliyi və turizm sahəsinə aid ixtisaslar üzrə elmi araşdırmaların geniş elmi ictimaiyyətə çatdırılmasında faydalılığı ilə seçilir. Onun redaksiya heyətində dünyanın altı ölkəsindən sahə üzrə tanınmış mütəxəssislər təmsil olunub ki, bu həm redaksiyanın xaricdən maraqlı məqalələr almasına, həm də jurnalın Azərbaycandan kənarda yayılaraq tanınmasına kömək edir.Planlı şəkildə hər il Elm və innovasiya şöbəsi tərəfindən “Müasir dövrdə effektiv idarəetmənin problemləri” və “İdarəetmədə multikultural dəyərlər” mövzusunda yerli və beynəlxalq konfranslar təşkil edilir. Məlum olduğu kimi turizm tədqiqatlarına həsr olunmuş çoxsaylı elmi jurnallar aparıcı beynəlxalq nəşriyyatlar tərəfindən çap olunur və bu jurnallar tədqiqatçılar arasında marağa səbəb olaraq yüksək reytinqə malikdirlər.

Bununla belə, konkret regionlar və bu regionlara aid ölkələrin turizm potensialını həm keyfiyyət, həm də kəmiyyətə əsaslanan metodologiyalardan istifadə edərək araşdıran nəşrlərə ehtiyac hiss olunur. Bununla əlaqədar “Azərbaycan Turizm və Menecment Univesitetinin fənlərarası jurnalı”-nın təsis olunması nəzərdə tutulur. Jurnal İsveçrənin Beynəlxalq Akademik Nəşriyyatı olan Peter Lang tərəfindən nəşr olunacaqdır. Jurnalın əsas məqsədi fənlər və sahələrarası mahiyyət daşıyan turizm tədqiqatlarının inkişafına töhfə verməkdən ibarət olacaqdır. Jurnalın yayımı əsasən “Open Access” vasitəsilə və abunəlik yolu ilə həyata keçiriləcək.

### *4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikası*

Qeyd edək ki, ATMU-da fəaliyyət göstərən professor-müəllim heyəti tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index") artım dinamikasında son illərdə inkişaf müşahidə olunmaqdadır. Aşağıdakı qeyd edilmiş cədvəldə 2017-2018-ci tədris ilindən başlayaraq bu günə qədər olan statistik göstəricilər öz əksini tapmışdır.




**ATMU-da tədris illəri üzrə tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin dinamikası**

Qeyd edək ki, 2023-2024-cü tədris ili yekunlaşmadığından qrafikdə istinad edilmələrin sayı az əks olunmuşdur. Tədris ilinin yekununadək dinamikanın artması proqnozlaşdırılır.

### *4.3.13. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti*

ATMU-da kadr hazırlığı həyata keçirilən magistratura üzrə bütün bütün ixtisaslaşmaların tədris planlarında elmi-tədqiqat yönümlü fənlər (elmi-tədqiqat metodları, elmi-tədqiqatlarda ekonometrik təhlil və modelləşdirmə, elmi-tədqiqat təcrübəsi və s.) nəzərdə tutulmuşdur. Bu fənlərin tədrisi zamanı müəllimlər tərəfindən magistrlara elmi-tədqiqat metodlarından istifadə edərək gələcəkdə dissertasiya işinin hansı formada yazılması, həmçinin onların strukturunun müəyyənləşdirilməsi, ədəbiyyatlardan istifadə, nəticə və təkliflərin verilməsi kimi məsələlər izah edilir.

Eyni zamanda Respublikanın digər universitetlərdən fərqli olaraq ATMU-da doktorantura (əyani və qiyabi) və dissertantura təhsil pilləsi üzrə Tədris planları (Forma 1) təsdiq edilmiş və elmi-tədqiqat yönümlü fənlər tədris olunmaqdadır:



***4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti***

ATMU-da akademik heyətin inkişaf bacarıqlarının artırılması ilə bağlı müxtəlif istiqamətli təlimlər keçirilmişdir. Bunlara aşağıdakıları aid etmək olar:

- Orientasiya seminarı (akademik heyət üçün), 2021, sentyabr
- İSO 9001:2015 standartının tətbiqinə dair təlim, 2021, sentyabr
- “Sillabusların dizaynı, təlim nəticələrinin yazılması və qiymətləndirilməsi qaydaları” adlı təlim, 2022, mart
- Yeni akkreditasiya qaydaları barədə təqdimat, 2022, mart
- ATMU-da prosedur sənədlərin hazırlanması adlı təlim, 2023, aprel
- Peşəkar kadrların hazırlanmasında hotel sənayesi tələbatının araşdırılması adlı fokus qrup görüşü, 2022, aprel
- Sənaye nümayəndələri və müəllimlər arasında təlim görüşü (MOOC platformasının ətraflı izahı), 2023, aprel
- Təlim prosesində və nəticələrin qiymətləndirilməsində Blum taksonomiyasından istifadə edilməsi adlı praktiki seminar, 2023, iyun
- “İnstitusional (və ya proqram) akkreditasiyası zamanı Özünütəhlilin aparılması və hesabatının tərtibi qaydaları adlı təlim, 2023, oktyabr
- “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndimə meyarları” adlı təlim, 2023, oktyabr
- “Təlim prosesinin monitorinqi qaydaları” barədə təlim, 2023, noyabr

Eyni zamanda akademik heyətin tədqiqat bacarıqlarının artırılması məqsədilə müxtəlif istiqamətli seminar və konfranslar keçirilir.

***4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu***

Hazırda ATMU doktorantlarından 47 nəfər işə cəlb edilmişdir. Onların adlı siyahısı və vəzifəsi aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**ATMU-da çalışan-doktoranturada təhsil almış əməkdaşların siyahısı**
**2023-2024-cü tədris ili üzrə**

| № | Soyadı, adı, atasının adı | Vəzifəsi | Elmi dərəcəsi |
|---|---|---|---|
| 1. | Əmirova Samirə Sabir qızı | Dillər kafedrası, dosent əvəzi | f.ü.f.d. |
| 2. | Kərimov Aydın Məmməd oğlu | Rektorluq, baş hüquqşünas | Yoxdur |
| 3. | Rəhimova Tili Bayram qızı | İctimai fənlər kafedrası, baş müəllim | Yoxdur |
| 4. | Həbibullayeva Nigar Fikrət qızı | Dillər kafedrası, baş müəllim | f.ü.f.d. |
| 5. | Rəsulova Gülgəz Nizami qızı | İctimai fənlər kafedrası, 0,5 ş.v. baş müəllim | Yoxdur |
| 6. | Salıfov Tural Mahmud oğlu | Mehmanxana və restoran biznesi kafedrası, baş müəllim | sos.ü.f.d. |
| 7. | Sadıqova Ülkər Fərhad qızı | Menecment kafedrası, dosent əvəzi | i.ü.f.d. |
| 8. | Rizayev Alikper Abbas oğlu | Keyfiyyət təminatı şöbəsi, mütəxəssis | Yoxdur |
| 9. | Quluzadə Nisə Fikrət qızı | Dillər kafedrası, baş müəllim | f.ü.f.d. |
| 10. | Bağırlı Aynur Hikmət qızı | Ümumi şöbənin müdiri, Beynəlxalq münasibətlər kafedrası, 0,5 ş.v.ə. dos. əv. | sos.ü.f.d. |
| 11. | Abbasov Xəyyam Hafiz oğlu | Dillər kafedrası, baş müəllim | Yoxdur |
| 12. | Cabbarov Fuad Zeydulla oğlu | Menecment kafedrası, baş müəllim | i.ü.f.d. |
| 13. | Məmmədzadə Vüsalə Vəli qızı | İctimai fənlər kafedrası, dosent əvəzi | s.ü.f.d. |
| 14. | İmanov Tofiq Kamran oğlu | İctimai fənlər kafedrası, baş müəllim | Yoxdur |
| 15. | Əzizova Samirə Səyyad qızı | Turizm biznesi kafedrası, baş müəllim | i.ü.f.d. |
| 16. | Şərifov Rinard Şərafəddin oğlu | Beynəlxalq münasibətlər kafedrası, baş müəllim | Yoxdur |
| 17. | Raşova Firuzə Kamal qızı | Keyfiyyət təminatı şöbəsi, baş mütəxəssis, Mehmanxana və restoran biznesi kafedrası, 0,5 ş.v.ə. baş müəllim | s.ü.f.d. |
| 18. | İmamverdiyeva Çinarə Rüfət qızı | Turizm biznesi kafedrası, müəllim | i.ü.f.d. |
| 19. | Baxışova Şahnaz Natiq qızı | Tədris metodiki şöbə, bölmə rəhbəri, Menecment kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| 20. | Babayeva Səbinə Rafikovna | İctimai fənlər kafedrası, baş müəllim | s.ü.f.d. |
| 21. | Bağırlı Sara Hikmət qızı | Keyfiyyət təminatı şöbəsi, bölmə rəhbəri, Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | c.ü.f.d. |
| 22. | Qənbərova Sənubər İslam qızı | Elm və innovasiya şöbəsi, Elmi məsələlər üzrə koordinator, Beynəlxalq münasibətlər kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| 23. | Məmmədova Fikriyyə Tofiq qızı | Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| 24. | Əliyeva Elnurə Mübariz qızı | Karyera və kommunikasiya şöbəsi, baş mütəxəssis, Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| 25. | Sadıqzadə Liana Elsevər qızı | Tədris metodiki şöbə, Təhsil məsələləri üzrə koordinator, İctimai fənlər kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| 26. | Quluzadə Sabir Bədrəddin oğlu | Sosial menecment fakültəsinin dekan müavini, Menecment kafedrası, 0,5 ş.v.ə. baş müəllim | i.ü.f.d. |

| | | | |
|---|---|---|---|
| **27.** | Əliyeva İlahə Şahin qızı | Biznes idarəçiliyi fakültəsinin dekan müavini,<br>Menecment kafedrası, 0,5 ş.v.ə.baş müəllim | Yoxdur |
| **28.** | Dadaşzadə Sevinc İlqar qızı | Sosial menecment fakültəsinin tyutoru,<br>İctimai fənlər kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **29.** | Ələsgərova Flora Qəməndar qızı | Nəqliyyat, İKT və təbiət elmləri kafedrası, dosent | i.ü.f.d. |
| **30.** | Amanova Şadiyyə Mail qızı | İqtisadiyyat kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **31.** | Əlizadə Leyla Vaqif qızı | Dillər kafedrası, baş müəllim | Yoxdur |
| **32.** | Qəmbərli Bünyamin Nağdəli oğlu | İctimai fənlər kafedrası, baş müəllim | Yoxdur |
| **33.** | Abbasbəyli Səmayə Arif qızı | Tədris metodiki şöbə, mütəxəssis,<br>Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **34.** | Növrəsli Tərlan Növrəs oğlu | Turizm biznesi kafedrası, dosent | s.ü.f.d. |
| **35.** | Məhərrəmov Samir Müseyib oğlu | Rektorluq, rektor köməkçisi,<br>Menecment kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **36.** | Həsənova Gülnar Fazil qızı | İqtisadiyyat kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **37.** | Musa Orxan İsmayıl oğlu | Beynəlxalq əlaqələr şöbəsi, şöbə müdiri | Yoxdur |
| **38.** | Babayeva Ləman Hamlet qızı | İctimai fənlər kafedrası, 0,5 ş.v. müəllim | Yoxdur |
| **39.** | Kələşova Röyə Elbrus qızı | Dillər kafedrası, baş müəllim | Yoxdur |
| **40.** | Hacıyev Camal Cəlil oğlu | İqtisadiyyat kafedrası, dosent | i.ü.f.d. |
| **41.** | Ağazadə Taleh Vidadi oğlu | Menecment kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **42.** | Zeynalova Gülnar Bayram qızı | Sosial menecment fakültəsinin tyutoru,<br>Beynəlxalq münasibətlər kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **43.** | Cümşüdlü Ülviyə Firamil qızı | Turizm biznesi kafedrası, müəllim | Yoxdur |
| **44.** | Əlizadə Aytən Məmmədbağır qızı | Dillər kafedrasının laborantı, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **45.** | Mustafazadə Leyla Şahin qızı | İqtisadiyyat kafedrası, 0,5 ş.v. müəllim | Yoxdur |
| **46.** | Eldarova Həcər Elxan qızı | Tədris metodiki şöbə, şöbə müdiri,<br>Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |
| **47.** | Əsgərova Səbinə İsfəndiyar qızı | Turizm biznesi kafedrası, 0,5 ş.v.ə. müəllim | Yoxdur |

***4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti***

2017/2018, 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti cədvəl və diaqram şəklində hazırlanmışdır.

elmi dərəcəli heyət.pdf

***4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti***

2017/2018 , 2018/2019, 2019/2020, 2020/2021, 2021/2022, 2022/2023, 2023/2024-cü tədris illəri üzrə elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti cədvəl və diaqram şəklində hazırlanmışdır.

elmi dərəcəli heyət.pdf

***4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu***

ATMU-nun elmi tədqiqat strategiyasında qarşıya qoyulan tədqiqat hədəfləri aşağıdakılardır:

1. Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək;
2. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi;
3. İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xərtisənin və bu istiqamətli digər sənədlərin hazırlanmması;
4.Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələr ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması;
5.”Web Of Science” və “Scopus” elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət.

Qeyd olunan hədəflərə uyğun olaraq ATMU-da aşağıdakı istiqamətlər üzrə doktorantura (dissertantura) hazırlığı həyata keçirilir:

| № | Elm sahələri | № | İxtisasın şifri | İxtisasın adı |
|---|---|---|---|---|
| 1. | 53. İqtisad elmləri | 1. | 5304.01 | İqtisadi fəaliyyət növləri |
| | | 2. | 5308.01 | Ümumi iqtisadiyyat |
| | | 3. | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması |
| | | 4. | 5312.01 | Sahə iqtisadiyyatı |
| 2. | 54. Coğrafiya | 5. | 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası |
| 3. | 56. Hüquq elmləri | 6. | 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları |
| 4. | 57. Filologiya elmləri | 7. | 5708.01 | German dilləri |
| 5. | 58. Pedaqogika | 8. | 5802.01 | Təhsilin təşkili və planlaşdırılması |
| 6. | 59. Siyasi elmlər | 9. | 5901.01 | Beynəlxalq münasibətlər |
| | | 10. | 5909.01 | Dövlət idarəçiliyi |
| 7. | 62. Sənətşüşaslıq | 11. | 6219.01 | Kulturologiya və onun ümumi məsələləri |
| | | 12. | 6220.01 | Muzeyşünaslıq |
| 8. | 63. Sosiologiya | 13. | 6307.01 | Sosial dəyişiklik və inkişaf |
| | | 14. | 6310.01 | Sosial problemlər |

Həmçinin, elmi dərəcəli müəllimlərin aldıqları elmi dərəcələr və tədris etdiyi fənlərin siyahısı müvafiq kafedralar üzrə cədvəllər şəklində hazırlanmışdır.

***4.3.19. Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti***

Elmi-tədqiqat işlərinin yekun monitorinqi kafedra iclaslarında, fakültə elmi şuralarında və sonda Elm və innovasiya şöbəsi tərəfindən həyata keçirilir. Hər ilin sonu elmi-tədqiqat işlərinin ümumi nəticələri Azərbaycan Milli Elmlər Akademiyasına və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə təqdim edilir.

***4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili***

ATMU-da doktorantura (dissertantura) dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili aşağıdakı hüquqi-normativ sənədlərə əsaslanaraq həyata keçirilir:

- Elm haqqında Azərbaycan Respublikasının Qanunu; https://e-qanun.az/framework/33488
- Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu; https://e-qanun.az/framework/18343
- Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli "Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə"; https://president.az/az/articles/view/33499
- Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarları; https://aak.gov.az/single/291

Qeyd olunan Qanunvericilik aktları ilə yanaşı, ATMU-da Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili "Elm və İnnovasiya şöbəsinin Əsasnaməsi" və "Doktoranturanın yaradılması, qəbul qaydaları, doktorantura təhsilinin məzmunu və təşkili haqqında Əsasnamə" rəhbər tutularaq həyata keçirilir:
https://atmu.edu.az/az/elm-ve-innovasiya-shobesi-esasname
https://atmu.edu.az/upload/files/2023/10/31//-7c78335a16987437685823621811079934 1.pdf

***4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti***

***4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu***

ATMU-da antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur və bu siyasət STRİKE.PLAGİARİSM proqramı vasitəsilə həyata keçirilir. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu haqqında onu qeyd edə bilərik ki, "Antiplagiat sisteminin ATMU-da istifadəsi haqqında" əmr 2023-cü il 05 aprel tarixli (№ 81) mövcuddur.

***4.4.2 Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu***

Bununla bağlı olaraq həm dissertasiya işlərində, həm elmi metodiki işlərdə, həm də məqalə qəbulu proseduralarında mövcud qaydalara uyğun şəkildə Universitet müvafiq qanunvericiliklə qabaqlayıcı tədbirlər həyata keçirir.

Həmçinin, ATMU-da İşçi Tədris Proqramlarının 4.1.-ci bəndində akademik dürüstlüklə

bağlı aşağıdakı müddəa öz əksini tapmışdır:

Akademik dürüstlük qaydalarına riayət olunması ATMU icmasının bütün üzvlərinin (o cümlədən, tələbələr, akademik heyət, tədqiqatçılar və s.) əsas vəzifələrindən biridir.

Əlavə olaraq, təhsilalanlara "Tələbənin məlumat kitabçası"nda qeyd olunmuş əsas plagiat növlərindən çəkinmələri tövsiyə olunur. Bununla yanaşı, "Antiplagiat sistemi və əqli mülkiyyət üzrə Qaydalar" hazırlanmışdır.

***4.4.3 ATM-in antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi***

ATMU-da antiplagiat sistemi 4.4.1. indikatorunda göstərilmiş STRİKE.PLAGİARİSM proqramı vasitəsilə aparılır. Proqram elmi-tədqiqat işi ilə məşğul olan bütün professor müəllim heyətinin tədqiqat işlərinin, eləcə də, magistrant və doktorantların dissertasiya işlərinin yoxlanılmasında istifadə edilir. Bununla yanaşı, "Antiplagiat sistemi və əqli mülkiyyət üzrə Qaydalar" hazırlanmışdır və prosesin icrasında istifadə edilir.




**ATMU-da son 5 il üzrə antiplagiat sistemindən istifadə dinamikası (sənəd sayı, ədəd)**

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1 İdarəetmə orqanları*

***5.1.1. ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti***

ATMU-nun mövcud bütün strukturlarının rektorun əmri ilə təsdiq olunmuş Əsasnamə, vəzifə təlimatları və illik iş planları mövcuddur. Əsasnamələrdə şöbələrin əsas vəzifələri, idarəetməsinin strukturu və təşkili, funksiyaları, hüquqları və şöbə əməkdaşlarının rəsmi təlimatları əks olunur. Şöbələrin iş planlarında isə strateji inkişaf planına və şöbənin Əsasnaməsinə uyğun olaraq il ərzində görməli olduqları bütün işlər və icra müddəti öz əksini tapmışdır.
Universitetin qeyd olunmuş rəsmi saytında bütün struktur bölmələrinin Əsasnamə və illik iş planları yerləşdirilmişdir (www.atmu.edu.az).




ATMU-nun təşkilat strukturu isə 16 oktyabr 2023-cü ildə yenilərək təsdiq olunmuşdur. Bu struktura əsasən ATMU-da ali idarəedici orqan Elmi Şura, ictimai özünüidarətmə orqanı olan Himayəçilər Şurası, məsləhətverici, istiqamətverici orqan olan Tədris-metodiki və Elmi-metodiki Şuralar, 3 fakültə, 8 kafedra, 12 şöbə fəaliyyət göstərir. Elmi-metodiki və Tədris-metodiki şuralar ictimai əsaslarla fəaliyyət göstərir, onların əsasnamələri və illik iş planları mövcuddur, keçirilən iclaslar protokollaşdırılır:
https://atmu.edu.az/upload/files/2023/11/15//-1a72594817000533649116668241008955 2.pdf.

Əsas idarəetmə orqanı kimi Elmi Şuranın sonuncu Əsasnaməsi DTA tərəfindən 2023-cü ildə təsdiqlənmişdir. Elmi Şuranın üzvlərinin sayı 33 nəfərdir və Şuranın illər üzrə iş planları mövcudur. Elmi Şuranın iş planı hər tədris ilinin ilk Elmi Şurasının iclasında təsdiqlənir. İş planı Elmi Şuranın Əsasnaməsində müəyyənləşmiş vəzifələrə uyğun olaraq tərtib edilir, aylar üzrə məsələlərin müzakirəsini əks etdirir. Elmi Şurada müzakirəsi nəzərdə tutulan məsələlər ATMU publik hüquqi şəxsin Elmi Şurasının idarəedilməsi prosedurunda öz əksini tapmışdır. https://atmu.edu.az/upload/files/2023/11/14//-13d638381699966193419425307110540 64.pdf

***5.1.2. İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti***

ATMU-nun İdarəetmə orqanı olan Elmi Şurasının Əsasnaməsinə uyğun olaraq Şuranın tərkibi 3 illik təsdiq edilir. Elmi Şuranın tərkibinin 3 - 10 %-ə qədəri üç fakültədən hərəsindən bir nəfər olmaqla müəllimlər, TEC, TGT və THT nümayəndələri təmsil olunur və üzvdürlər. Azərbaycan Respublikası Təhsil Nazirinin 10 noyabr 1997-ci il, № 792 nömrəli qərarı ilə təsdiqlənmiş Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamədə ictimaiyyət nümayəndələrinin Elmi Şurada təmsil olunması məsələsi qeyd edilmir. ATMU Elmi Şurasının Əsasnaməsi bu sənədə istinad etdiyi üçün icitmaiyyət nümayəndələrinin üzv kimi təmsilçiliyi nəzərdə tutulmamışdır, lakin qonaq iştirakçı kimi ehtiyac olduqda iştirak edə bilərlər.

***5.1.3. İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti***

ATMU-nun əsas idarəetmə orqanı kimi Elmi Şuranın sonuncu Əsasnaməsi 14 sentyabr 2023-cü ildə təsdiqlənmişdir. Elmi Şuranın üzvlərinin sayı 33 nəfərdir. Elmi Şuranın illər üzrə iş planları mövcudur. Elmi Şuranın iş planı hər tədris ilinin ilk Elmi Şurasının iclasında təsdiqlənir. İş planı Elmi Şuranın Əsasnaməsində müəyyənləşmiş vəzifələrə uyğun olaraq tərtib edilir, aylar üzrə məsələlərin müzakirəsini əks etdirir. Elmi Şurada müzakirəsi nəzərdə tutulan məsələlər həmçinin ATMU publik hüquqi şəxsin Elmi Şurasının idarəedilməsi prosedurunda öz əksini tapmışdır. https://atmu.edu.az/upload/files/2023/11/14//-13d6383816996619341942530711054064.pdf

Digər tərəfdən, Tədris-metodiki şurasının tərkibində 17 nəfər, Elmi-metodiki şuranın tərkibində isə 23 nəfər iştirak edir. Hər bir şuranın iclasları müəyyən qrafik əsasında aparılır, zəruri hallarda növbədənkənar iclaslar keçirilir.

***5.1.4. İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti***

Elmi Şurada Gündəliyin hazırlanması, münasibət bildirilmək üçün üzvlərə göndərilməsi, iclasın təyin edilməsi, iclas bitdikdən sonra ehtiyac olan qərarların ümumiləşdirilərək üzvlərə təqdim edilməsi və icrasına elmi Katib tərəfindən nəzarət edilərək müvafiq jurnalda qeydlərin aparılması istiqamətində işlər təşkil edilir. Bu prosesi özündə əks etdirən prosedur mövcuddur, təsdiqlənmiş, Universitetin saytına yerləşdirilmiş və maraqlı tərəflər üçün əlçatanlığı təmin edilmişdir:
https://atmu.edu.az/upload/files/2023/11/14//-13d6383816996619341942530711054064.pdf

***5.1.5. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti***

ATMU-nun bütün strukturları öz işini qanunvericiliyin tələblərinə müvafiq qurur. Elmi Şuranın iclasları Əsasnaməyə uyğun olaraq, iki ayda bir dəfədən az olmamaqla, zəruri hallarda isə növbədənkənar müəyənləşdirilir. Eyni zamanda Elmi Şura üzvlərinin 2/3 hissəsinin təklifi ilə iclas keçirilə bilər.

Tədris, elmi və tərbiyə işlərinin bütün məsələləri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə sadə səs çoxluğu ilə, professor-müəllim heyətinin, kafedra müdirlərinin, fakültə dekanlarının seçilməsi və geri çağrılması, professor, dosent və fəxri adların verilməsinə təqdimat zamanı isə müəyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul edilir.

Elmi Şuranın qərar çıxarması üçün onun üzvlərinin ən azı 2/3 hissəsinin iştirakı vacibdir. Elmi Şurada iştirak edənlərin ümumi sayının 50 %-dən çoxu müzakirə olunan məsələnin leyhinə səs verərsə qərar qəbul olunmuş hesab edilir. Elmi Şuranın qərarları yalnız ali məktəbin rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Elmi Şuranın sədri Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasını təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir. İcra prosesi barədə müvafiq jurnalda qeydlər aparılır.

Həmçinin, ATMU-nun fakültələri üzrə də Elmi və Tədris-metodiki Şuralar fəaliyyət göstərir ki, onlar da fakültədaxili tədris-tərbiyə prosesində keyfiyyəti və elmi-metodiki təminatı yüksəltməyə xidmət edən tövsiyyə və istiqamətverici orqanlardır.

***5.1.6. İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti***

İdarəetmə orqanları arasında qarşlıqlı əlaqə korporativ emaillər vasitəsilə aparılır. ATMU-nun Ümumi şöbəsi strukturlar arasına sənəd dövriyyəsini sənədlərin scan edilərək emaillər vasitəsilə göndərilməsini həyata keçirir. ATMU strukturları mövcud Strategiyaya müvafiq olaraq hazırda Elektron Sənəd Dövriyyəsi sistemini test rejimində istifadə edir, 2023-cü ilin dekabr ayından isə fəaliyyəti real rejimdə həyata keçirməyi planlaşdırır. Ümumi şöbə sənədlərin qəbulu, qeydiyyatı, rektora dərkənar yazılması üçün təqdimi və müvafiq strukturlara paylanılmasını təmin edir, sənədlərin icra vəziyyəti ilə maraqlanır, icra prosesinin vaxtında təmin edilməsinə nəzarət edir.

İdarəetmə orqanı olan Elmi Şura və digər istiqamətverici-məsləhət orqanları olan Tədris-metodiki, Elmi-metodiki, Fakültə Elmi Şuraları arasında mövcud əlaqə qeyd olunan Şuraların qərarlarının Elmi Şuraya çıxarılması və müzakirəsi vasitəsilə aparılır. Fəaliyyət göstərən Şuraların qərarları Elmi Şurada müzakirə edilir və təsdiqlənir, yaxud öz təsdiqini tapmır. Təsdiq üçün sənədlər Elmi Şuranın katibinə email yaxud ənənəvi qaydada təqdim edilir. Məsələlər Elmi

Şuranın Gündəliyinə qeyd edilir. Bu prosesi əks etdirən sənəd - Elmi Şuranın idarəedilməsi prosedurudur: https://atmu.edu.az/upload/files/2023/11/14//-13d63838169996619341942530711054064.pdf.

**_5.1.7. İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti_**

ATMU-nun təşkilat strukturu 16 oktyabr 2023-cü ildə yenilənərək təsdiq olunmuşdur. Bu struktura əsasən ATMU-da ali idarəedici orqan Elmi Şura, ictimai özünüidarətmə orqanı olan Himayəçilər Şurası, məsləhətverici, istiqamətverici orqan olan Tədris-metodiki və Elmi-metodiki Şuralar, 3 fakültə, 8 kafedra, 12 şöbə fəaliyyət göstərir. Himayəçilər Şurasının tərkibini formalaşdırmaq AR Dövlət Turizm Agentliyinin səlahiyyətlərindədir.

Azərbaycan Turizm və Menecment Universitetinin rektorunun 55-k nömrəli, 17 aprel 2023-cü il tarixli əmri ilə ATMU-nun İşçilərinin Vəzifə Təlimatları təsdiq edilmişdir.
Struktur rəhbərləri məsul olduğu şöbənin əməkdaşlarının vəzifə təlimatlarını tərtib etmiş, daha sonra baş hüquqşünasla razılaşdırmışlar. Hazırlanmış vəzifə təlimatlarına İnsan resursları şöbəsində baxılaraq müvafiq dəyişikliklər edilmişdir. AR-nın Əmək Qanunvericiliyinə uyğun olaraq (https://e-qanun.az/framework/37434) ATMU-nun struktur bölmələri üzrə işçilərinin vəzifə təlimatları təkmilləşdirilərək rektorun əmri ilə təsdiq edilmişdir.

ATMU-nun İşçilərinin Vəzifə Təlimatları yuxarıda göstərilən linkdə qeyd olunan “Təhsil sahəsinə aid olan qulluqçu vəzifələrinin Vahid Tarif-İxtisas Sorğu Kitabçası”na uyğunlaşdırılmış, AR Əmək Məcəlləsinin 57-ci maddəsinə müvafiq olaraq müəyyənləşdirilmişdir:
https://e-qanun.az/framework/46943

**_5.1.8. İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti_**

ATMU publik hüquqi şəxsin Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiqlənmiş ATMU Elmi Şurasının Əsasnaməsinə müvafiq olaraq, Elmi Şuranın tərkibində müvafiq komissiyalar fəaliyyət göstərir. İlin yekunlarında Komissiyaların hesabatlarının dinlənilməsi iş planında öz əksini tapır. Həmçinin, ATMU-da hər ilin sonunda illlik hesabatlar hazırlanır. Hesabatlarda əks edilən məsələlər il ərzində Elmi Şurada müzakirə edilmiş, müvafiq qərarlarla öz təsdiqini tapmış məsələlərdir. Yekunda isə hesabatlar istiqamətlərinə uyğun olaraq AR DTA-ya və AR ETN-nə təqdim edilir.

**_5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti_**

İdarəetmə orqanları öz fəaliyyətlərini ATMU nizamnaməsi və özlərinin əsasnaməsinə uyğun təşkil edirlər. Bütün strukturların fəaliyyətləri hesabatlaşdırılır, illik, yarımillik hesabatlar verilir. Hesabatlar Elmi şurada dinlənilir, müzakirə edilir və fəaliyyətin təkmilləşdirilməsi üçün təkliflər hazırlanır. Bununla yanaşı, ATMU-nun “Azərbaycan Turizm və Menecment Universitetində Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları” ATMU Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq olunmuşdur, inzibati işçilərinin işə qəbul prosesi mövcuddur, proseduru isə təkmilləşdirilir.
ATMU-da inzibati heyətin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün “90 dərəcə” metodundan istifadə edilir. ATMU-nun inzibati işçilərinin 2023-cü ilin sonuna-dekabr ayında 90° qiymətləndirilməsi sorğusu keçiriləcəkdir.

Digər tərəfdən, ATMU-nun Akademik Heyətinin Təkmilləşdirilməsi Proseduru 22 dekabr 2023-cü ildə rektor tərəfindən təsdiq edilmişdir. Onların qiymətləndirilməsi, açıq dərslər, Fakültə Tədris-metodiki şuraları, monitorinqlər vasitəsilə aparılır. Eyni zamanda ATMU əməkdaşlarının təkmilləşdirilməsi məqsədilə təlim ehtiyacları öyrənilir. Bu məqsədlə, ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin 03 may 2023-cü il tarixli illik təlim planı təsdiq edilmişdir.

Həmçinin, ATMU-da idarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi məqsədilə “daxili nəzarət üzrə məsul şəxs” fəaliyyət göstərir.

### 5.2 İnsan resurslarının idarə edilməsi

***5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti***

ATMU-nun inzibati işçilərinin işə qəbul Proseduru hazırda təkmilləşdirilmə prosesi keçdiyi üçün yekunlaşıb təsdiqlənməmişdir. İşə qəbul prosesində əsas məqsəd təşkilati məqsədlərin həyata keçirilməsinə uyğun olan ixtisaslı kadrların vakant vəzifələrə cəlb edilməsi, doğru vəzifəyə doğru resursun seçilməsidir. ATMU-da seçkili vəzifələrin tutulması "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na (https://e-qanun.az/framework/37696) əsasən aparılır.

İşə qəbul metodu seçilərkən mədəni normalar, əmək bazarının vəziyyəti, vakant vəzifənin tələbləri, əməkhaqqı kimi bir çox faktorlar nəzərə alınır. Namizədlər həm universitetin daxilindən seçilə, həm də kənardan cəlb edilə bilərlər. Vakant vəzifə üzrə tələb olunan bilik və bacarıqlar həmin vəzifənin təsdiq edilmiş vəzifə təlimatında öz əksini tapır. İşə qəbul üçün müraciətlərə işə qəbul komissiyasında baxılır. ATMU-da inzibati işçilərin işə qəbulu rəhbər və inzibati-idarə heyətinin ştat cəvəlinin əsasında universitetin rektorunun əmri ilə həyata keçirilir. Vakant vəzifələr üçün elanlar hazırlanır və rəsmi veb-saytda maraqlı tərəflər üçün əlçatanlığı təmin edilir. Nümunə olaraq bir neçə vakant inzibati vəzifə üçün verilmiş elanın linki əlavə olunur:

https://atmu.edu.az/az/it-destek-uzre-mutexessis;
https://atmu.edu.az/az/kicik-server-administratoru;
https://atmu.edu.az/az/web/post/84.

***5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması***

ATMU-nun işçilərinin iyerarxik tabeçiliyi 16 oktyabr 2023-cü il tarixli Universitetin Təşkilati Strukturunda (5.1.1 indikatorda göstərilən) öz əksini tapır.

ATMU-nun akademik və inzibati heyətinin Strategiyaya və maliyyə resurslarına uyğunluğu Strategiyanın Fəaliyyət planına və müvafiq ştat cədvəlinə əsasən tənzimlənir. Belə ki, Strategiyanın fəaliyyət planında icraçılar qismində bütün struktur vahidləri nəzərə alınmışdır.

***5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması***

ATMU rektorunun 3-46-3/3-1-232/2023 nömrəli, 21 sentyabr 2023-cü il tarixli əmri ilə yaradılmış "Differensiallaşmış əməkhaqqı üzrə Komissiya"nın məqsədi Universitetdə tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sisteminin formalaşdırılmasıdır.

Müvafiq Komissiyanın ilk iclası 16 oktyabr 2023-cü ildə keçirilmiş, differensiallaşmış əməkhaqqı sistemi mexanizminin tətbiq edilməsi ilə bağlı komissiya üzvləri tərəfindən təkliflərin hazırlanıb təqdim edilməsi qərara alınmışdır.

Həmçinin, ATMU rektorunun 225-k nömrəli, 28 dekabr 2022-ci il tarixli əmri ilə təsdiq olunmuş ATMU-nun rəhbər və inzibati idarə heyətinin 2023-cü maliyyə ili üçün ştat cədvəlində şöbələrin və işçilərin səlahiyyət həcmindən və məsuliyyət dərəcəsindən asılı olaraq fərqli əmək haqları müəyyənləşdirilmişdir.

***5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması***

ATMU-da 14 sentyabr 2023-cü il tarixində "Azərbaycan Turizm və Menecment Universitetinin əməkdaşlarının motivasiyası" Proseduru ATMU-nun Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq olunmuşdur. Prosedur işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədilə qəbul edilmişdir:
https://atmu.edu.az/upload/files/2023/10/31//-053116551698748213598481590109962244.pdf

***5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti***

"Səmərəliliyin qiymətləndirilməsi Qaydaları" 14 sentyabr 2023-cü il tarixində ATMU-nun Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq olunmuşdur. ATMU-da inzibati heyətin işinin

səmərəliliyinin qiymətləndirilməsi üçün "90 dərəcə" metodundan istifadə edilir. İnzibati işçilərin 2023-cü ilin sonuna-dekabr ayında 90° qiymətləndirilməsi sorğusunun keçirilməsi planlaşdırılır. Gələcəkdə inzibati işçilərin 180° qiymətləndirilməsi sorğusunun keçirilməsi nəzərdə tutulmuşdur. https://atmu.edu.az/upload/files/2023/10/31//-9d684c58169874833091255355810292718.pdf

ATMU-da "Akademik heyətin Qiymətləndirilməsinə dair Təlimat" 2019-cu ildə rektorun əmri ilə təsdiq edilmişdir. Təlimatda açıq dərslərin ATMU-da akademik heyətin qiymətləndirilməsi məqsədilə tətbiq edilən mexanizm olması qeyd olunur. "Açıq dəslərin təşkili, keçirilməsi və qiymətləndirilməsinə dair Qaydalar" AR Təhsil haqqında Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır. Açıq dərslərin əsas məqsədi universitetdə akademik heyətə müasir tədris metodları və alətlərinin tətbiqi ilə bağlı metodiki yardımım göstərilməsindən, eləcə də akademik heyət rasında təcrübə mübadiləsindən ibarətdir.

Qiymətləndirilmə prosesində tədris şöbəsinin müdiri, kafedra müdiri, dekan və ya dekan müavini, təcrübəli pedaqoji heyət üzvləri iştirak edə bilər. Qiymətləndirmə prosesi 5 ballıq şkala üzrə aparılır. Hazırda "Təlim prosesinin monitorinqinin təşkili" qaydalarına müvafiq olaraq akademik heyətin qiymətləndirilməsi üzrə monitorinq həyata keçirilir. (https://atmu.edu.az/upload/files/2023/11/21//-fa60438a170055406186997979410627162.pdf)

### *5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti*

ATMU-nun struktur bölmələri üzrə işçi heyətinin illik təlim planı 03 may 2023-cü il tarixində rektor tərəfindən təsdiq edilmişdir. Planın daxilində universitetin şöbələrinin, fakültə və kafedralarının heyətinin nəzərdə tutulan təlim və təkmilləşdirilmə kurslarının istiqamətləri barədə məlumat öz əksini tapır. Həmçinin, ATMU-nun ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilmiş əməkdaşlarının sayı aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|
| 1 nəfər | 13 nəfər | 18 nəfər | 4 nəfər | 8 nəfər | 60 nəfər | 120 nəfər |

### *5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti*

2023-cü ildə təsdiq olunmuş "Azərbaycan Turizm və Menecment Universitetinin Əməkdaşlarının Motivasiyası Proseduru" hazırlanmışdır. Prosedur işçilərin öz vəzifələrini vicdanla yerinə yetirməsi, əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində həyata keçirməsi, əməyin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması və əməkdaşların maddi və qeyri-maddi maraqlarının artırılması məqsədilə qəbul edilmişdir.

Universitetdə keçirilən tədbirlər rəsmi və qeyr-rəsmi olmaqla 2 yerə bölünür, bunlara korporativ bayram şənliklərinin keçirilməsini, Həmkarlar ittifaqı komitəsinin dəstəyilə ölkəmizin müxtəlif rayonlarına təşkil olunan turları, əməkdaşların yubileylərinin qeyd olunmasını, universitetə gələn yeni işçilərlə tanış olmaq və universitetdən çıxan əməkdaşların yola salınmasıyla bağlı və s. kiçik tədbirlərin keçirilməsi aiddir.

"Azərbaycan Turizm və Menecment Universitetində tədbir və təlimlərin təşkil edilməsi haqqında prosedur qaydaları" 14 sentyabr 2023-cü il tarixində ATMU-nun Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq olunmuşdur. Karyera və kommunikasiya şöbəsi il ərzində müxtəlif təlim və tədbirlər təşkil edir. Bunlardan bəziləri hər il təkrar olunan tədbirlər, bəziləri isə yeni tədbirlərdir. Hər il təkrar olunan tədbirlərə rəsmi, dövlət səviyyəli bayram və matəm günləri, əmək yarmarkası, maarifləndirmə ideyalı tədbirlər və tələbə və məzunlar üçün üçün təşkil olunun karyera yönümlü təlimlər, ekskursiyalar, müəssisələrə səfərlər, sənaye nümayəndələri ilə ATMU tələbələrinin görüşlərinin təşkili, tələbələrin fərdi və peşəkar inkişafını hədəfləyən təlim və seminarların təşkili, tələbə və məzunların görüşləri, tələbələrin könüllülük fəaliyyətində iştirakının təşviqi, "Məzun günü" tədbirinin təşkil olunması və s. daxildir. Yeni təlim-tədbirlərə isə konfranslar, simpoziumlar, elmi seminarlar, təntənəli açılış və qapanış mərasimləri, turnirlər, olimpiadalar, xüsusi şəxslərlə görüşlər, sənaye müəssisələri ilə "Anlaşma memorandum"u və Əməkdaşlıq müqavilələrinin imzalanması və s. aiddir.
https://atmu.edu.az/upload/files/2023/10/31//-48c00ae9169875073146808680010328223.pdf

ATMU-nun Karyera və kommunikasiya şöbəsi tərəfindən 2023-cü il üzrə ATMU-da tədbirlərin keçirilməsi haqqında təqdimat hazırlanmışdır. Nümunə olaraq keçirilən tədbirlərdən 1 neçə nümunənin linki əlavə olunur:

https://unikal.org/news/345191/atmu-telebeleri-xaricde-istehsalat-tecrubesi-kecirler-foto
https://azertag.az/xeber/ATMU_telebeleri_Israilde_istehsalat_tecrubesi_kechecekler-2317613
https://xalqqazeti.com/az/news/113000
https://azertag.az/xeber/Azerbaycan_Turizm_ve_Menecment_Universiteti_emekdasliq_elaqeleri ni_genislendirir-1974596
https://www.unikal.org/news/318624/atmu-da-onlayn-tedbir-kecirildi-foto
https://azertag.az/xeber/20_Yanvar_xalqimizin_huzn_ve_seref_gunudur-1979858
https://xalqqazeti.com/mobile/az/news/94122
https://bit.ly/34vgrPN
https://www.unikal.org/news/320749/azerbaycanda-destinasiya-idareetmesi-movzulu-ilk-derslik-hazirlandi-foto
https://xalqqazeti.com/pdf/8%20fevral%20q%C9%99zet%202022.pdf
https://www.unikal.org/news/323077/atmu-da-tedbir-kecirildi-fotolar
https://azertag.az/xeber/2030621
https://xalqqazeti.com/az/news/96846
https://www.unikal.org/news/323583/atmu-da-tedbir-kecirildi-fotolar
https://azertag.az/xeber/Geleceyini_qur_layihesi_cherchivesinde_novbeti_tedbir_ATMU_da_tes kil_edilib-2034821
https://xalqqazeti.com/mobile/az/news/97066
https://azertag.az/xeber/Turizm_ve_Menecment_Universitetinde_yeni_layiheye_start_verilib-2037653
https://xalqqazeti.com/az/news/101579
https://azertag.az/xeber/Turizm_ve_Menecment_Universitetinde_Career_Advisor_Zone_layihesi _yekunlasib-2122220
https://www.unikal.org/news/324818/atmu-da-xaricde-tehsil-ile-bagli-vebinar-teskil-olundu-fotolar
https://azertag.az/xeber/Turizm_ve_Menecment_Universitetinde_xaricde_tehsille_bagli_vebinar _teskil_olunub-2047121
https://xalqqazeti.com/az/news/97701
https://azertag.az/xeber/Mart_soyqirimi_zamani_minlerle_soydasimiz_qeddarliqla_oldurulub-2072948
https://unikal.org/news/327313/atmu-da-ermeni-soyqirimi-ile-bagli-tedbir-kecirildi-fotolar
https://xalqqazeti.com/az/news/99085?utm=w
https://unikal.org/news/334273/atmu-da-tedbir-kecirildi-fotolar
https://azertag.az/xeber/ATMU_da_Muselman_Serqinde_ilk_parlamentli_respublika_movzusund a_tedbir_teskil_edilib-2154017
https://xalqqazeti.com/az/news/103368
https://xalqqazeti.com/az/news/103371
https://azertag.az/xeber/Bu_il_Turizm_ve_Menecment_Universitetini_18_nefer_iki_diplomla_bitir ib-2200013
https://azertag.az/xeber/Azerbaycan_Turizm_ve_Menecment_Universitetinde_Mezun_gunu-2199953
https://unikal.org/news/338799/atmu-da-mezun-gunu-kecirildi-fotolar
https://xalqqazeti.com/az/news/105460
https://unikal.az/news/349772/atmu-da-anim-gunu-qeyd-olundu-fotolar
https://bit.ly/3DWTIM8
https://xalqqazeti.com/az/news/112457
https://azertag.az/xeber/2309438
https://unikal.az/news/353105/atmu-da-ehmed-cavad-130-il-adli-tedbir-kecirildi
https://azertag.az/xeber/Turizm_ve_Menecment_Universitetinde_Ahmed_Cavad_130_il_movzus unda_tedbir_kechirilib-2342531
https://azertag.az/xeber/Turizm_ve_Menecment_Universitetinde_tedbir_8_Noyabr___Sanli_zefe r_tariximiz-2364692

***5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti***

ATMU-nun inzibati işçilərinin işə qəbul Proseduru hal hazırda təkmilləşdirilmə prosesindədir. İşə qəbul prosesində əsas məqsəd təşkilati məqsədlərin həyata keçirilməsinə

uyğun olan ixtisaslı kadrların vakant vəzifələrə cəlb edilməsi, doğru pozisiyaya doğru resursun seçilməsidir.

İshe qebul prosesi IR 2019.pdf

İşə qəbul metodu seçilərkən mədəni normalar, əmək bazarının vəziyyəti, vakant vəzifənin tələbləri, əməkhaqqı kimi bir çox faktorlar nəzərə alınır. Namizədlər həm universitetin daxilindən seçilə, həm də kənardan cəlb edilə bilərlər. Vakant vəzifə üzrə tələb olunan bilik və bacarıqlar həmin vəzifənin təsdiq edilmiş vəzifə təlimatında öz əksini tapır.

İşə qəbul üçün müraciətlərə işə qəbul komissiyasında baxılır. Azərbaycan Turizm və Menecment Universitetində inzibati işçilərin işə qəbulu ATMU-nun rəhbər və inzibati-idarə heyətinin ştat cəvəlinin əsasında universitetin rektorunun əmri ilə həyata keçirilir. Nümunə olaraq bir neçə vakant inzibati vəzifə üçün verilmiş elanın linki əlavə olunur:
https://atmu.edu.az/az/it-destek-uzre-mutexessis
https://atmu.edu.az/az/kicik-server-administratoru
https://atmu.edu.az/az/web/post/84

***5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti***

ATMU rektorunun 3-46-3/3-1-232/2023 nömrəli, 21 sentyabr 2023-cü il tarixli əmri ilə yaradılmış “Differensiallaşmış əməkhaqqı üzrə Komissiya”nın məqsədi Universitetdə tədrisin, elmi tədqiqatın səviyyəsinin yüksəldilməsi və işçilərin motivasiyasının gücləndirilməsi üçün differensiallaşmış əməkhaqqı sisteminin formalaşdırılmasıdır.

Müvafiq Komissiyanın ilk iclası 16 oktyabr 2023-cü ildə keçirilmiş, differensiallaşmış əməkhaqqı sistemi mexanizminin tətbiq edilməsi ilə bağlı komissiya üzvləri tərəfindən təkliflərin hazırlanıb təqdim edilməsi qərara alınmışdır.

Həmçinin, “Azərbaycan Turizm və Menecment Universitetində Səmərəliliyin Qiymətləndirilməsi Qaydaları” mövcuddur. O cümlədən, ATMU-da inzibati heyətin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün “90 dərəcə” metodundan istifadə edilir. ATMU-nun inzibati işçilərinin 2023-cü ilin sonuna-dekabr ayında 90° qiymətləndirilməsi sorğusu keçirilməsi nəzərdə tutulur.

***5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti***

Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı AR Əmək Məcəlləsinin müvafiq maddələrinə istinad edilir (https://e-qanun.az/framework/46943).

Bununla yanaşı, əmək münasibətlərində ATMU-nun nizam-intizam, etik davranış qaydalarına dair daxili prosedur sənədləri rəhbər tutulur.

## *5.3 Maliyyə resurslarının idarə edilməsi*

***5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu***

ATMU Nizamnaməsi (https://e-qanun.az/framework/51162) onun publik hüququ şəxsə çevrilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 avqust 2022-ci il tarixli, 291 saylı qərarı ilə yenilənmişdir. Mövcud Nizamnaməyə uyğun olaraq maliyyə resurslarının idarə edilməsində aşağıdakılar rəhbər tutulur:

- Universitetin nizamnamə fondu 11 488 507,76 (on bir milyon dörd yüz səksən səkkiz min beş yüz yeddi manat yetmiş altı qəpik) manatdır.
- Universitetin əmlakı nizamnamə fondundan, təsisçinin ona verdiyi digər əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, o cümlədən ödənişli təhsildən əldə edilən vəsaitdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan olunmayan digər vəsaitdən formalaşdırılır.
- Universitetin balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətləri “Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

***5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi***

Maliyyə resurslarının planlaşdırılması zamanı xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur və xərclər proqnozlaşdırılır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Dövlət Turizm Agentliyinə təqdim olunur. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir. Bununla bağlı "Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclərin proqnozlaşdırılması"na dair təsvir edən prosedur sənəd hazırlanmışdır.

***5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti.***

ATMU Strategiyasında illər üzrə nəzərdə tutulan fəaliyyət planına uyğun olaraq tədbirlərin icrası üçün maliyyə vəsaitlərinin ayrılması büdcədə proqnozlaşdırılır. Bu Maliyyə-plan şöbəsinə aid tədbirlərlə yanaşı, digər strukturların həyata keçirdiyi tədbirlərin icrasina büdcə planlaşması ilə aparılır. Bu zaman büdcədə proqnozlasdırma xərc maddələri üzrə təsnifatlaşdırılır. Məsələn, asağıdakı cədvəldə nəzərdə tutulan tədbirlər büdcə planlaşmasında elmi-tədqiqat işləri şəklində göstərilmişdir:

| Ay | Prioritetlər | Tədbirlər | Nəticə göstəriciləri | Əsas icraçı | Digər icraçılar | Məqsəd |
|---|---|---|---|---|---|---|
| **Fevral** | 6.4. Sifariş əsasında müxtəlif təşkilatlar, o cümlədən, dövlət qurumları, şirkətlər, beynəlxalq təşkilatlar və qeyrikommersiya təşkilatları üçün tədqiqatların aparılması | 6.4.1. Universitet tərəfindən icra oluna biləcək tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi və müvafiq maraqlı tərəflərin məlumatlandırılmas | Təsdiqlənmiş tədqiqat istiqamətləri/ mövzulari | Elm və innovasiya şöbəsi | Kafedralar | Məqsəd 6. Elmitədqiqat və innovasiya potensialının gücləndirilməsi |
| Mart | 2.5. Heyət üzvlərinin peşə hazırlığının mütəmadi olaraq ixtisasartırma kursları və təlim proqramları vasitəsilə yüksəldirilməsi | 2.5.1. Heyət üzvlərinin ixtisasar-tırma kursları və təlim proqramlarına cəlb olunması üçün mexanizmin yaradılması | İxtisasartırma kurslara əməkdaşların cəlb olunması ilə əlaqədar mexanizm | İnsan resursları şöbəsi | Keyfiyyət təminatı şöbəsi | Məqsəd 2. Yüksək kvalifikasiyalı kadr potensialının formalaşdırılması |

Bununla yanaşı, büdcə planlaşdırılmasında Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə qanunvericiliyinə müvafiq aparılır (https://e-qanun.az/framework/40412). Hər təqvim ilinin sonunda inzibati və hər tədris ilinin sonunda akademik heyətin ştat cədvəlinin təkmilləşdirilməsi Elmi şuranın qərarı və dərs yükünə əsasən ştat cədvəlində dəyişikliklər aparmaq yolu ilə həyata keçirilir.

***5.3.4 Əlavə maliyyə resurslarının əldə etmək imkanlarının vəziyyəti***

ATMU Nizamnaməsinin 5.11-ci bəndində göstərilir ki, Universitet Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi müvafiq sahibkarlıq fəaliyyəti növləri ilə məşğul ola bilər. Bunun üçün Universitet Agentliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yarada və ya onlarda iştirak edə bilər (https://e-qanun.az/framework/51162). Belə ki, ATMU publik hüquqi şəxs olduğundan sərbəst biznes fəaliyyəti ilə məşğul ola bilər. Hazırda əlavə gəlir mənbələri mövcud olmasa da, gələcəkyönümlü planlarda qrant layihələrindən və digər mənbələrdən maliyyə resurslarının artırılması nəzərdə tutulur. Eyni zamanda ATMU strategiyasında uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi qarşıya qoyulmuşdur: https://atmu.edu.az/upload/files/2023/12/08//-d17e6bcb170203423722585387010554282.pdf.

***5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi***

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasının "Uzunmüddətli maliyyə dayanıqlılığının möhkəmləndirilməsi" adlı məqsədində nəzərtə tutulan məsələlərdən biri "Büdcədənkənar gəlirlərin şəffaf idarəedilməsi sisteminin yaradılması"dır. Bu məqsədlə "Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitlər üzrə gəlir və xərclərin proqnozlaşdırılması" proseduru hazırlanmışdır. Bununla yanaşı, maliyyə resurslarının şəffaf idarəetmə sisteminin bir hissəsi kimi hesabatlılıq təmin edilir. Bununla əlaqədar mütəmadi olaraq ATMU-nun Maliyyə-plan şöbəsi tərəfindən Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinə, ETN-ə maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyəti haqqında hesabat, pul hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat təqdim olunur. Eyni zamanda Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ATMU-nun məcburi köçkün statusu olan tələbələri haqqında illik hesabat təqdim edilir.

***5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu***

ATMU-nun büdcəsinə daxil olan maliyyə resurslarının istifadəsi Nizamnamə rəhbər tutulmaqla rektorun əmri və müqavilələr əsasında həyata keçilir. ATMU-nun maliyyə resurslarından istifadə Nizamnaməyə uyğun olaraq aparılır. Belə ki, Nizamnamənin 5.13 bəndinə əsasən maliyyə resurslarından istifadə universitetin fəaliyyətindən əldə etdiyi vəsait yalnız təhsilin inkişafına, müəssisənin maddi-texniki bazasının inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə, habelə normativ hüquqi aktlarla müəyyən edilmiş digər məqsədlərə yönəldilir (https://e-qanun.az/framework/51162).

***5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu***

ATMU Nizamnaməsinin 4.11.5 bəndinə əsasən, müəyyən edilmiş struktur daxilində Universitetin əməyin ödənişi fondunu, işçilərin say həddini və ştat cədvəlini, habelə Agentliklə razılaşdırmaqla xərclər smetası təsdiq edilir. Bu məqsədlə, hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Dövlət Turizm Agentliyinə təqdim olunur. Xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur, xərclər proqnozlaşdırılır. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir. Prosesin təsviri üçün isə, "Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclərin proqnozlaşdırılması" proseduru hazırlanmışdır.

***5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi***

Maliyyə resursları ATMU-nun Nizamnaməsinə uyğun olaraq Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi tərəfindən təsdiq olunmuş xərclər smetasına əsasən təyinatı üzrə istifadə olunur. Maliyyə məsələlərinin idarə olunması Maliyyə-plan şöbəsi tərəfindən koordinasiya edilir. Şöbə ATMU-nun müstəqil struktur bölməsi olmaqla birbaşa rektora tabedir. Maliyyə-plan şöbəsi Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin müvafiq rəhbər sənədlərinə əsasən ATMU-nun rektorunun əmri və Elmi Şuranın qərarına əsasən yaradılır və ya ləğv edilir. Maliyyə şöbəsinə ATMU-nun rektorunun əmri ilə təyin olunmuş baş mühasib rəhbərlik edir.

***5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti***

ATMU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi Dövlət Satınalmaları haqqında qanuna müvafiq həyata keçirilir. Dövlət Satınalmaları haqqında Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/1079) Azərbaycan Respublikasında dövlət müəssisə və təşkilatları (idarələri), nizamnamə fondunda dövlətin payı 30 faiz və daha çox olan müəssisə və təşkilatlara tətbiq edilir. Həmin qanuna müvafiq olaraq, ATMU daxilində "Azərbaycan Turizm və Menecment Universitetində Dövlət Satınalmalarının həyata keçirilməsi proseduru" hazırlanmışdır. Bununla yanaşı, ATMU-da dövlət satınalmalarını həyata keçirmək məqsədilə 07 iyul 2021-ci il tarixində Tender komissiyası yaradılmışdır. Satınalmaların tənzimlənməsi sözügedən sənədlərə müvafiq olaraq icra edilir.

***5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti***

Azərbaycan Turizm və Menecment Universiteti tərəfindən Tender komissiyası formalaşdırılmış və Qanunun 4-1-ci maddəsinə əsasən cari ilin oktyabr ayının 15-dən gec olmayaraq növbəti il üçün ilkin satınalma planı hazırlanaraq dövlət satınalmalarının vahid internet portalına yerləşdirilmişdir. 2018-ci ildən 2023-cü ilə qədər bu istiqamətdə aparılmış işlərə aşağıdakılar aiddir:

- 2018-ci il ərzində 12 (11 kotirovka, 1 açıq tender) satınalma müsabiqəsi həyata keçirilmişdir, ləğv edilmiş əməliyyat olmamışdır;
- 2019-cu il ərzində 20 (16 kotirovka, 1 açıq tender, 3 satınalma ləğv edilmişdir.) satınalma müsabiqəsi həyata keçirilmişdir, 3 kotirovka ləğv edilmişdir;
- 2020-ci il ərzində 15 (10 kotirovka, açıq 1 tender, 4 satınalma ləğv edilmişdir.) müsabiqə həyata keçirilmişdir;
- 2021-ci il ərzində 14 (13 kotirovka, 1 ləğv edilmiş) satınalma müsabiqəsi həyata keçirilmişdir.

- 2022-ci ildə ərzində 12 (9 kotirovka, 2 tender, 1 ləğv) satınalma müsabiqəsi həyata keçirilmişdir.
- 2020-ci il mart ayından etibarən COVID-19 xəstəliyi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunaraq virusun qarşısının alınması istiqamətində bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq 14 mart 2020-ci il tarixindən sosial izolyasiya qaydaları tətbiq olunmuşdur.

Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara təqdim olunması rüblük və illik həyata keçirilir.

***5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti***

ATMU-da maliyyə hesabatlarının verilməsi müvafiq qanunvericliyə (5.3.12-ci indikatorda adıçəkilən) uyğun olaraq aparılır. Belə ki, ATMU tərəfindən Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinə enerji məhsullarının hərəkəti haqqında illik hesabat, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Əmlak Məsələləri Dövlət Xidmətinə dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında illik xüsusi hesabat forması təqdim edilir.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə muzdlu və qeyri-muzdlu işlə əlaqədar vahid bəyannamə (Vergi, Məcburi dövlət sosial sığortası və işsizlikdən sığorta) əməliyyatları aidiyyəti üzrə təqdim edilir. Bu əməliyyatlara əməkhaqqı, əsas vəsaitlərin uçotu, kadrların uçotu, maliyyə hesabatları, təqaüdün hesablanması, tələbə kontingenti, ödənişli tələbələrin təhsil haqqı və s. aiddir. Bununla yanaşı, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinə, ETN-ə maliyyə vəziyyəti haqqında hesabat, maliyyə fəaliyyəti haqqında hesabat, pul hərəkəti haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat təqdim olunur. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ATMU-nun məcburi köçkün statusu olan tələbələr haqqında illik hesabat. Hesabatların verilməsi qanunvericiliyin, eləcə də sözügedən qurumların tələblərinə müvafiq aparılır.

***5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti***

ATMU-da maliyyə və mühasibat hesabatları Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Mühasibat Uçotu haqqında Azərbaycan Respublikasının Qanununu, Mühasibat Uçotuna dair digər normativ sənədləri, ATMU-nun Nizamnaməsini, ATMU-nun rektorunun əmrlərini və Elmi Şuranın qərarlarını, Maliyyı-plan şöbəsinin cari Əsasnaməsini, Azərbaycan Respublikasının Əmək Məcəlləsini, Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanununu, Sosial Müavinətlər haqqında Azərbaycan Respublikasının Qanununu rəhbər tutmaqla 5.3.11-ci indikatorda qeyd olunan qurumların tələb etdiyi formalara uyğun olaraq hazırlanıb ATMU Elmi Şurasında dinlənilməklə təsdiqlənir və təqdim olunur.

***5.3.13 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu***

Maliyyə resurslarının əldə edilməsi və istifadəsi üzrə daxili nəzarət, məsələlərin həlli Maliyyə-plan şöbəsi tərəfindən aparılır. Maliyyə-plan şöbəsinə baş mühasib nəzarət edir, onunla yanaşı, şöbədə baş mühasibin müavini, aparıcı mühasib, mühasib vəzifələri mövcuddur. Maliyyə məsələlərinin icrası onların vəzifə təlimatlarına müvafiq həyata keçirilir, prosesə nəzarəti şöbədaxili ümumi nəzarəti baş mühasib aparır və o, birbaşa rektora tabedir. Bununla yanaşı, ATMU-da “daxili nəzarət üzrə məsul şəxs” vəzifəsi mövcuddur.

***5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu***

Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit nəzarət tədbirləri Maliyyə nazirliyi və Hesablama palatası tərəfindən aparılır. Prosesin icrası həmin qurumların daxili fəaliyyət planlarına uyğun həyata keçirilir. Ödənişlər ATMU-nun əməkdaşlıq etdiyi bankın müştəri bank xidmətləri vasitəsilə həyata keçirilir. Müştəri bank xidmətlərinə online rejimdə hesablara nəzarət, konvertasiya (nağdsız mübadilə əməliyyatları), əməkhaqqı, təqaüd, plastik kartların alınması və digər ödənişlər aiddir.

***5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti***

ATMU-nun Nizamnaməsinə müvafiq olaraq maliyyə resurlarının əldə edilməsi məqsədilə qrant layihələrində iştirak, müxtəlif istiqamətli ödənişli təlimlərin keçirilməsi, əcnəbi və əlavə təhsil üzrə tələbələrin cəlb edilməsi dəstəklənir. Müvafiq məsələ "Növbəti il üçün büdcə və büdcədənkənar vəsaitləri üzrə gəlir və xərclərin proqnozlaşdırılması" proseduru vasitəsilə tənzimlənir.

## *5.4 İnformasiya idarəetmə sistemi*

***5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, onun hüquqi əsaslarının və reqlamentinin mövcudluğu***

Universitetdə İnformasiya idarə etmə sisteminin struktur bölməsi olan İnformasiya Texnologiyaları şöbəsi iş prosesini ATMU-nun Elmi şurasının 14 sentyabr 2018-ci il (1 saylı Protokol) tarixli iclasında müzakirə edilərək təsdiq edilmiş əsasnaməyə uyğun təşkil edir. Şöbənin illik iş planı və hesabatları mövcuddur. İşçi heyətin iş prosesi vəzifə təlimatlarına uyğun icra olunur. Eyni zamanda şöbə tərəfindən "Azərbaycan Turizm və Menecment Universitetində məlumatların idarəolunması üzrə" təlimatı (https://atmu.edu.az/upload/files/2023/10/31//-c34a7191169874876064406579710466921.pdf), "Əməkdaşın (namizədin) Azərbaycan Turizm və Menecment Universitetinin proqram-aparat kompleksindən gələcək istifadəsi nəzərə alınmaqla heyət sıralarına daxil olması və xaric olunması üzrə" qaydaları (https://atmu.edu.az/upload/files/2023/10/31//-7f848746169874890630074382110718033.pdf), "Azərbaycan Turizm və Menecment Universitetinin kompüter avadanlıqlarında və elektron resurslarda işləmə" qaydaları (https://atmu.edu.az/upload/files/2023/10/31//-7eb532ae169874884145465536511058734.pdf), "Azərbaycan Turizm və Menecment Universitetinin proqram-aparat kompleksinin istifadəsi üzrə" təlimatı (https://atmu.edu.az/upload/files/2023/10/31//-27e8e171169874887984027040010849750.pdf) hazırlanmışdır.

ATMU-nun rəhbər və inzibati-idarə heyətinin strukturunun optimallaşdırılması məqsədilə 15 sentyabr 2021-ci il tarixli, 98-k nömrəli əmri ilə "Tədris metodiki" şöbənin tərkibində "Tədrisin elektron idarəedilməsi" bölməsi yaradılmışdır. Bölmənin fəaliyyəti EDUMAN platforması vasitəsilə tədrisin elektron idarəedilməsi prosesini təşkil etməkdən ibarətdir.

Həmçinin, ATMU-da AR ETN-in elektron idarəetmə platforması olan ATİS bazası ilə də iş prosesi təşkil edilmişdir.

***5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti***

ATMU-da tədrisin elektron idarəedilməsi sistemi olan EDUMAN platformasında "Ultra Technologies" MMC ilə bağlanan müqaviləyə əsasən proqram təminatı və texniki dəstək xidməti dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, soraqça, hesabat, müəllim kabineti və tələbə kabineti işləri üzrə proses gedir. Müvafiq datalar hazırlandıqdan sonra müntəzəm olaraq "tədrisin elektron idarəedilməsi" bölməsi tərəfindən məlumatların yenilənməsi həyata keçirilir. EDUMAN platformasında reqlamentlər əsasən elektron jurnallarda istifadə edilir. Belə ki, dərs prosesi zamanı tələbənin davamiyyətinin qeydiyyatı və qiymətləndirilməsi üçün müəyyən vaxt limitləri qoyulmuş, hər hansı düzəlişlərin edilməsinə yol verilmir. Texniki səhvlər olduğu təqdirdə müəllim bu barədə bölməyə izahat təqdim edir və ehtiyac olarsa düzəlişlər aparılır.

Digər platforma olan ATİS bazası vasitəsilə aşağıdakı funksiyalar həyata keçirilir:

- Bütün təhsil pillələri üzrə tələbə qəbulunun elektron həyata keçirilməsi və elektron tələbə qəbulu üzrə məsul şəxslərin işinə nəzarət etmək;
- Dövlət İmtahan Mərkəzinin protokolları əsasında qəbul əmrlərini sistemə əlavə etmək;
- Baza üzrə məsul şəxslərin sistemə daxil edilməsi və uyğun olan bölmələr üzrə icazəni təmin etmək;
- ATMU üzrə bütün tədris məlumatlarının (fakültə, ixtisas, kafedra, təhsil proqramları, qruplar, tələbələr və s.) sistemə daxil edilməsini təşkil etmək;
- Bütün tədris formaları üzrə tələbə kontingentinin hərəkətinə davamlı olaraq elektron nəzarət etmək (xaric, akademik, bərpa, köçürülmə, qəbul, bitmə əmrlərinin sistemə daxil edilməsi və s.);

- Əcnəbi tələbələrin, əlavə təhsil və doktorantura üzrə təhsil alanların sistemə əlavə olunması və bütün məlumatlarının (şəxsi, qəbul və əlaqə məlumatları) sistemə daxil edilməsi üzrə məsul şəxslərə nəzarət etmək;
- Maliyyə modulu üzrə məlumatları sistemə daxil edən məsul şəxsin işinə nəzarət etmək;
- Fakültələr üzrə fənlərin qrupa və qiymətlərin tələbələrə təhkim edilməsi üzrə məsul şəxslərin işinə nəzarət etmək və yaranan problemlərlə bağlı Azərbaycan Respublikasının Təhsil Nazirliyinə elektron müraciətlər göndərmək.

Müvafiq bazada reqlamentlərin idarəedilməsi AR Elm və Təhsil Nazirliyinin səlahiyyətlərindədir. Bunlarla yanaşı, ATMU-da informasiyanın elektron saxlanılması, təhlükəsizliyi, internet şəbəkəsinin mövcudluğu İnformasiya texnologiyaları şöbəsi tərəfindən təmin edilir. Strukturlararası sənəd dövriyyəsi "Elektron Sənəd Dövriyyəsi" vasitəsilə Ümumi şöbə tərəfindən tənzimlənir.

#### *5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu*

ATMU-da tədrisin elektron idarəedilməsi sistemi olan EDUMAN platformasıda "Ultra Technologies" MMC ilə bağlanan müqaviləyə əsasən müvafiq platformada ümumi idarəçi (admin) və köməkçi heyət (moderator) mövcuddur.

AR ETN-in elektron idarəetmə platforması olan ATİS bazası üzrə də müxtəlif idarəetmə funksiyaları mövcuddur. Bazaya məsul şəxs (admin) təhsil məsələləri üzrə koordinator təyin edilmiş, digər strukturların özlərinə aid dataların sistemə daxil edilməsinə nəzarəti təmin olunmuşdur. Məsul şəxs həmçinin, baza üzrə digər məsul şəxslərin sistemə daxil edilməsi və uyğun olan bölmələr üzrə icazəni təmin etmək səlahiyyətlərinə malikdir.

#### *5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti*

ATMU-da təlim və tədris prosesində tədrisin rəqəmsallaşdırılmasında əsaslı işlər görülməkdədir. Belə ki, tələbələrin istifadəsi üçün WIFI-zone yaradılmış, professor-müəllim heyətinin dərs zamanı istifadəsi üçün kafedralar əlavə notebooklarla və bütün auditoriyalar proyektorla təmin edilmişdir.

Tədris fəaliyyətinin rəqəmsallaşdırılması həmçinin, EDUMAN platforması ilə həyata keçirilir. Yuxarıda da qeyd olunduğu kimi platformada dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, soraqça, hesabat, müəllim kabineti və tələbə kabineti kimi tədris prosesinin bir çox sahəsini əhatə edir. Tədris prosesinin tələbə hərəkəti üzrə rəqəmsallaşması isə ATİS, DTS, tələbə-məzun, TTK və s.bazalar vasitəsilə həyata keçirilir. Təlim prosesisinin rəqəmsallaşmasında isə Microsoft TEAMS, Zoom, Moodle platformalarından istifadə olunur.

#### *5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi*

ATMU-da həmçinin, elektron tədris idarəetmə sisteminin əlçatanlığını təmin etmək məqsədi ilə EDUMAN platformasında akademik heyət və təhsilalanlar üçün ayrı-ayrı kabinetlər yaradılmışdır. Digər tərəfdən, ATMU daxilində internet şəbəkəsinin hər kəs, o cümlədən təhsilalanlar üçün əlçatanlığı təmin edilir. İnzibati otaqlarla yanaşı, auditoriyalar şəbəkə ilə təmin edilmişdir. Kitabaxana İnformasiya Mərkəzində quraşdırılmış və təhsilalanların birbaşa istifadəsində olan komputerlərin internetə çıxışı təmin edildiyindən məlumatların əlçatanlığı təmin olunmuşdur. Strukturlararası informasiyanın ötürülməsində Elektron Sənəd Dövriyyəsi və korporativ-emaillərdən istifadə edilməklə, eləcə də prosesi tənzimləyən Ümumi şöbədən birbaşa sənədi almaqla əlçatanlıq təmin edilir.

#### *5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi*

ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyasında qarşıya qoyduğu məqsədlərdən biri "Rəqəmsal transformasiya"-dır:

Burada, ATMU-nun daxili idarəetmə proseslərinin rəqəmsallaşdırılması, o cümlədən:

• Elektron sənəd dövriyyəsi, kargüzarlıq və arxiv işinin səmərəli təşkili (o cümlədən, vaxtı bitmiş sənədlərin uzunmüddətli saxlanılması) məqsədilə sənədlərin elektron idarəedilməsi sisteminin tətbiq olunması;

• İnsan resursları şöbəsinin işinin optimallaşdırılması və insan resurslarının sistemli idarəolunması məqsədilə vahid elektron platformadan istifadə edilməsi;

• Keyfiyyət idarəetmə sisteminin tərkib hissəsi olaraq datanın sistemli toplanması, təhlili və proqnozlaşdırmanı həyata keçirməyə imkan verən proqram təminatının tətbiqi;

• ATMU-nun vebsaytının məzmun və strukturunun maraqlı tərəflərin ehtiyaclarına uyğun olaraq yenilənməsi;

• Elektron tədris sistemindən istifadə olunaraq (o cümlədən, platformaya yeni modulların əlavə olunması yolu ilə) tədris proseslərinin avtomatlaşdırılması;

• Qiymətləndirmə prosesinin təşkilinin, nəticələrin təhlilinin rəqəmsallaşdırılması;

• Bulud texnologiyaları sistemindən istifadə olunmaqla xidmətlərin rəqəmsallaşdırılması – Heyət üzvlərin və tələbələrin rəqəmsal səriştələrinin inkişaf etdirilməsi kimi əsas prioritetlər müəyyənləşdirilmişdir.

Bütün bunlar ATMU-da ümumilikdə keyfiyyətin, eləcə də keyfiyyət mədəniyyətinin idarə edilməsinə öz töhfəsini verir. İnformasiyanın idarəedilməsi, ötürülməsi, sənəd dövriyyəsinin təmin edilməsi kimi bütün məsələlər keyfiyyətin inkişafına yol açır.

### *5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi*

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun (https://e-qanun.az/framework/18343) 14.17-1-ci yarımbəndinin (Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələri "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmalıdırlar) tələblərini yerinə yetirmək məqsədilə ATMU-nun ETN-in Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminin (https://ali.tmis.edu.az/) müxtəlif portalları vasitəsilə aşağıdakı sistemlərə inteqrasiyası həyata keçirilir:

- Ali və orta ixtisas təhsili müəssisələrinin informasiya sistemi - https://atis.edu.az/.
- Dövlət və təhsil sənədləri (diplom təsdiq sistemi) - https://dts.edu.az/;
- SHƏQ tələbələrin müraciətləri - https://portal.edu.az/;
- Virtual Universitet - https://teams.microsoft.com/;

Digər ATM-lərə və ya digər ATM-lərdən ATMU-ya köçürülmək istəyən tələbələr "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, tibb təhsilinin əsas tibb təhsili və orta ixtisas təhsili üzrə təhsilalanların köçürülməsi sistemi" (https://www.transfer.edu.az/) vasitəsilə transfer olunurlar.

Həmçinin, qeyd olunan qanunvericiliyin 14.18-ci bəndinə (Azərbaycan Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələri qanunvericiliyə uyğun olaraq "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə qoşulmalıdır) müvafiq olaraq Azərbaycan Turizm və Menecment Universitetiinin tələbə-məzun dövlət elektron məlumat sisteminə (http://tmms.gov.az/) və Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına "Təhsil tələbə kreditlərinin verilməsi informasiya sistemi"nə (https://www.e-ttkf.edu.az/) də inteqrasiyası həyata keçirilməkdədir.

Strukturlararası sənəd dövriyyəsini sənədlərin scan edilərək emaillər vasitəsilə göndərilməsi prosesi isə Ümumi şöbə tərəfindən həyata keçirlir. ATMU strukturları mövcud Strategiyaya müvafiq olaraq hazırda Elektron Sənəd Dövriyyəsi sistemini (https://esd.asan.gov.az/signin) test rejimində istifadə edir, dekabr ayından isə fəaliyyəti real rejimdə həyata keçirməyi planlaşdırır.

Digər tərəfdən, ATMU əməkdaşlarının qəbulu və hərəkəti ilə bağlı məlumatların idarəedilməsi Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalı (https://www.e-gov.az/) vasitəsilə aparılır. Əməkdaşların işə qəbulu, səlahiyyət müddətlərinin uzanması, işlərinə xitam verilməsi kimi hallar mütəmadi olaraq portalda qeyd edilir.

Maliyyə resurslarının idarəedilməsində Birbank Biznes Sistemindən (https://www.kapitalbank.az/corporate-banking/client-bank), eləcə də, ATİS-dən istifadə edilir. Onlar vasitəsilə, təhsilalanların ödənişləri, ödəniş məbləğləri, qrafikləri, əmək haqqı ödənişləri, kartların sifarişi, bankla sənəd dövriyyəsi və s. proseslər tənzimlənir.

Həmçinin, vaxtaşırı Əhalinin Əmək və Soisal Müdafiəsi Nazirliyi nəzdində Bakı şəhəri üzrə Fərdi Uçot İdarəsi, Dövlət Statistika Komitəsi (https://stat.gov.az/), İqtisadiyyat Nazirliyi yanında Əmlak komitəsi və Vergi idarəsi ilə hesabatlılıq təmin edilir.

Bunlarla yanaşı, Kitabxana İnformasiya Mərkəzində kitabların elektron dövriyyəsi prosesi "Avtomatlaşdırılmış İrbis 64+" sistemi vasitəsilə aparılır.

***5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti***

Daxili informasiya təhlükəsizliyinin qorunması məqsədi ilə bütün istifadəçilərin ad və soyada uyğun “username”-ləri, eyni zamanda hər ay yenilənən “şifrələmə” sistemi mövcuddur. Həmçinin, istifadəçi məlumatlarının kənardan olan hücumlardan qorunması məqsədi ilə hər iki tədris binasında “firewall”-dan istifadə olunur. Hər iki tədris binasında giriş məhdudiyyəti olan server otaqları mövcuddur. İstifadəçilərin məlumatlarını qorumaq məqsədi ilə hər il yenilənən “Kaspersky antivirus” sistemindən istifadə (müqavilə əsasında) edilir. Daxili şəbəkədən xaricə çıxış zamanı lazımsız portların və veb səhifələrin bloklanması təmin olunub. Bununla yanaşı mütəmadi olaraq log sistemlərinə nəzarət olunur.

***5.5 İctimaiyyətlə əlaqələr***

***5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti***

ATMU-nun rəsmi saytı mövcuddur (https://atmu.edu.az/az/). Saytda universitet haqqında ümumi məlumat, rektorun müraciəti, elanlar, xəbərlər və s. bölmə və panelləri mövcuddur. Sayt Azərbaycan dilində fəaliyyət göstərir, eyni zamanda ingilis dili versiyası mövcuddur. Hazırda ingilis dilli formasının təkmilləşdirilməsi işləri aparılır. Saytın idarəedilməsi və nəzarəti İnformasiya texnologiyaları, Keyfiyyət təminatı və Beynəlxalq əlaqələr şöbəsi tərəfindən aparılır.




***5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti***

Universitetin rəsmi internet səhifəsi işlək vəziyyətdədir. Web saytın ingilis dilində olan versiyası hazırlanmaqdadır. Əlavə olaraq web saytda yeni layihələr üzrə bir neçə bölmənin hazırlanması istiqamətində işlər aparılır. Saytdakı bölmələr yoxlanılaraq yeniləri ilə əvəz olunur. Saytın xəbərlər və elanlar hissəsində məlumatlar mütəmadi olaraq yenilənir. Saytın daim aktiv olması və qüsursuz işləməsi daimi nəzarətdədir. (https://atmu.edu.az/az/).

***5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti***

ATMU-nun rəsmi saytı ilə yanaşı, ictimaiyyətin məlumatlandırılmasında rəsmi sosial şəbəkə hesablarından və KİV-dən istifadə edilir. ATMU-nun sosial şəbəkə hesabları aşağıdakılardır:

İnstagram hesabı: @atmu.official

https://instagram.com/atmu.official?igshid=MmVlMjlkMTBhMg%3D%3D&utm_source=qr

Facebook hesabı: Azərbaycan Turizm və Menecment Universiteti

https://www.facebook.com/atmu.official?mibextid=2JQ9oc

Vaxtaşırı bütün məlumatlar sayt və sosial şəbəkələrdə yerləşdirilir, onların aktivliyi təmin edilir. Bununla yanaşı, ATMU üçün əhəmiyyətli məlumatlar müxtəlif xəbər saytlarında paylaşılır. Onların izlənilməsi üçün rəsmi saytda “Xəbərlər-ATMU KİV-də” keçid paneli mövcuddur:



Vaxtaşırı mühüm məlumatların işıq üzü gördüyü xəbər saytlarına Unikal.az (https://unikal.az/news/404839/atmu-mezunlari-teqaudlu-tehsil-imkanindan-faydalanirlar-fotolar), Azərtac (https://azertag.az/xeber/atmu_da_qida_tehlukesizliyine_dair_tedbir_kechirilib-2803774), Xalq qəzeti (https://xalqqazeti.az/az/tehsil/142784-ruminiya-ile-emekdasliq-genislenir) aiddir.

***5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti***

ATMU-da məlumatların ictimaiyyətə çatdırılması prosesinin tənzimlənməsi üçün "Məlumatların mediada paylaşılmasına dair" təlimat mövcuddur: https://atmu.edu.az/upload/files/2023/10/20//-8ee27941697777796901183731051 1192.pdf.

Təlimatda məlumatın ictimaiyyətə ötürülməsi üsulları, onların məzmununa qoyulan tələblər, hazırlanmasına dair tələblər, məlumatın toplanmasına məsul şəxslərin hüquq və vəzifələrinə dair məsələlər öz əksini tapmışdır. Bununla yanaşı, "Məlumatların mediada paylaşılmasına dair" tədris illəri üzrə fəaliyyət planları mövcuddur.

***5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanı verməsi vəziyyəti***

ATMU-da məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsinin əsas aləti kimi sorğudan istifadə edilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə cari tədris ilində "ATMU-da ictimaiyyətin məlumatlandırılması ilə bağlı sorğu" keçirilmişdir. Sorğu ATMU barədə rəsmi sayt, sosial şəbəkələr, KİV-də məlumatlandırma xidmətlərindən maraqlı tərəflərin məmununluq səviyyəsinin ölçülməklə, fəaliyyətin təkmilləşdirilməsi nəzərdə tutulur. Sorğu yekunlaşmış nəticələrinə dair 01.11.2023-cü il tarixli hesabat hazırlanmışdır.

***5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti***

ATMU-da məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması məqsədilə 02 oktyabr 2023-cü il tarixində "Məlumatlandırma fəaliyyətinin monitorinqi" proseduru hazırlanmışdır. Prosedurda maraqlı tərəflərin məlumatlandırma imkanlarının qiymətləndirilməsi məsələləri əks edilmişdir. Prosedur sənədi ATMU-nun rəsmi sayt, sosial media fəaliyyətinin maraqlı tərəflər tərəfindən qiymətləndirilməsi prosesini tənzimləmək məqsədini daşıyır. Monitorinqin aparılması isə 5.5.5-ci indikatorda göstərilən "ATMU-da ictimaiyyətin məlumatlandırılması ilə bağlı sorğu" vasitəsilə həyata keçirilir.

## 6. İNFRASTRUKTUR

### *6.1 Tədris infrastrukturu*

***6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti***

ATMU-da tədris binalarının və tədris otaqlarının Dövlət standartlarına uyğunluğu vəziyyəti "Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət proseduru" (ATMU-XŞ-P(FMTTN)-01) əsasən mütəmadi olaraq yoxlanılır (https://atmu.edu.az/upload/files/2023/11/01//-9dd30287169881694865523560810024894.pdf).

Cari ilin may ayında keçirilmiş fiziki mühitin normativlərə uyğunluğu təhlil edilmişdir. Buna müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2012-ci ilin 3 avqust tarixli 171 №-li qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi – texniki təchizatına dair vahid normalar, ümumi sanitariya – gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri"nə əsasən uyğunluq mövcuddur.

***6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti***

Kitabxana-İnformasiya Mərkəzi (https://atmu.edu.az/az/umumi-melumat1) – turizm və menecment sahəsində zəngin fonda malik yeganə mərkəzdir. KİM Heydər Əliyev Fondu tərəfindən turizm sahəsinə aid olan 28 adda 29 ədəd, Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən isə 83 adda 420 ədəd bədii kitabla 10 aprel 2007-ci il tarixindən oxuculara xidmət göstərir. Daimi yenilənən KİM-in fondu əsasən Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Avstriyanın Tətbiqi Elmlər Universiteti, Türkiyə Respublikası Boğaziçi Universiteti, Almaniya, İsrail, Portuqaliya, ABŞ-ın və başqa ölkələrin Azərbaycandakı səfirlikləri, BP şirkəti, BMT-nin Azərbaycan Təmsilçiliyi, Ümumdünya Turizm Təşkilatı kimi müxtəlif qurum və təşkilatlardan o cümlədən bir çox siyasət və elm xadimləri, müəlliflər və oxucular tərəfindən kitab və audio vəsaitlər kitabxanaya mütəmadi olaraq hədiyyə olunur.

Bundan başqa, Universitetin professor-müəllim heyəti tərəfindən kitabların yazılması və nəşr edilməsi o cümlədən, yerli və xarici müəlliflər tərəfindən nəşr olunmuş kitabların alınması daimi həyata keçirilir. Hazırda KİM-in inventarında 19440 kitab, 4119 kitabça, 621 audio və video, 197 xəritə saxlanılır. Universitetin Kitabxana prosesləri avtomatlaşdırılıb. Avtomatlaşdırılmış İRBİS 64+ elektron kitabxana sisteminə elektron kataloq, oxuculara elektron xidmət və 2023-cü ildən etibarən elektron kitablar, elektron jurnallar, elektron fənn proqramları və elektron konfrans materialları daxildir. Kitabxananın oxu zalında 30 nəfərlik yer, oxucuların rahat işləmələri üçün 17 kompyuter və bir proyektor istifadəçilərin öhdəsinə verilmişdir. 2023-ci ilin statistikasına əsasən hal-hazırda kitabxananın elektron sistemində 2222 oxucu qeydiyyatdadır.

***6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti***

ATMU-nun Əsas (I) tədris binasında "Turizm işinin təşkili" ixtisası üzrə təlim-resurs mərkəzi mövcuddur. Əlavə olaraq həmin ixtisasın xüsusiyyətlərinə uyğun olaraq mehmanxanalarda, "Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması" ixtisası üzrə muzeylərdə praktiki dərslər aparılır. Belə ki, "PMD hospitality MMC" ilə ATMU-nun müqaviləsinə əsasən, otelçilik sahəsində New Baku Hotel, Excelsior Hotel Baku, Badamdar Hotel and SPA Baku otellərində dərslər keçirilir. Həmçinin, muzeyşünaslıq, qida mühəndisliyi, bələdçilik və digər sahələrdə müəssisələrdə praktiki dərslər aparılır. Bunlara nümunə olaraq, Herba Flora, Ordubadi quru meyvələr, Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu, Mikrobiologiya İnstitutu ilə əməkdaşlıqları göstərmək olar.

***6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti***

ATMU-nun Əsas (I) tədris binasında "Turizm işinin təşkili" ixtisası üzrə təlim-resurs mərkəzi mövcuddur. İkinci tədris binasında isə iki auditoriya kompyuterlərlə təmin olunmuşdur. İmtahanlar həmin auditoriyalarda keçirilir. ATMU-nun peşəyönümlü ixtisasları üzrə praktiki dərslərin keçilməsində 6.1.3 indikatorda göstərilən müəssisələrin otaqları tədris laboratoriyaları kimi istifadə edilir. Həmçinin "Bronlaşdırma sistemləri" fənninin tədrisi müqavilələr əsasında "Global travel services limited" şirkətində aparılır.

***6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti***

ATMU-da istehsalat təcrübəsinin təşkili “İstehsalat təcrübəsi üzrə Əsasnamə”yə əsasən həyata keçirilir. Hər tədris ili üzrə Excell bazaları formalaşdırılır. Excell bazasında tələbənin adı, soyadı, ata adı, qrupu, təcrübə müəssisəsinin adı, təcrübə dövrü və təcrübə qiyməti qeyd edilir.

İstehsalat təcrübə üzrə bazasına əsasən bəzi statistik göstəricələri qeyd edək:

| Təcrübə ili | Xaricdə təcrübə keçən tələbələrin sayı | Ölkə daxilində təcrübə keçən tələbələrin sayı | Cəmi |
|---|---|---|---|
| 2016/2017 | 49 | 79 | 128 |
| 2017/2018 | 61 | 259 | 320 |
| 2018/2019 | 99 | 295 | 394 |
| 2019/2020 | 0 | 411 | 411 |
| 2020/2021 | 0 | 417 | 417 |
| 2021/2022 | 108 | 323 | 431 |
| 2022/2023 | 84 | 348 | 432 |

İstehsalat təcrübəsi üzrə tələbələr ölkədaxili müxtəlif qurumlarda, ölkəxarici isə İsrail, Türkiyə, Rusiya, Bolqarıstan, Çin, BƏƏ-də və yay tanışlıq təcrübə üzrə Şimali Kipr Türk Respublikasında təcrübə keçirlər.

***6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti***

ATMU da distant (məsafədən) təhsil infrastrukturu pandemiya zamanından mövcuddur və onlayn dərslər Microsoft Teams proqramı üzərindən təşkil olunur. Bununla əlaqədar, ATMU-da “Microsoft Teams üzərindən veb görüşlərin keçirilməsi üzrə” təlimat hazırlanmışdır.

***6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti***

ATMU-da Volksvagen Carovella mikroavtobus mövcuddur. Tutumu 8 nəfərlikdir, ezam olunmuş qonaqların istifadəsi üçün nəzərdə tutulmuşdur. Həmçinin, 3 ədəd xidməti minik avtomobili mövcuddur. Ştatda 4 nəfər sürücü var. Əməkdaşların və tələbələrin böyük tədbirlərdə iştirakını təmin etmək üçün çoxtutumlu avtobuslardan istifadə olunması şirkətlərlə bağlanmış müqavilələrə əsasən həyata keçirilir. Universitetin qarajı olmadığı üçün xidməti avtomobillər Olimpiya Kompleksinin duracağında saxlanılır.

***6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti***

ATMU-da tədris infrastrukturundan-auditoriya, kitabxana və imtahan otaqlarından istifadə təhsilalan, akademik və inzibati heyət üçün əlçatandır. Həmçinin, tədris infrastrukturuna ayrılan texnoloji avadanlıqların - kompyuterlərin və proyektorların istifadəsi müəllimlər və tələbələr tərəfindən əlçatanlığı tam şəkildə təmin olunur.

Bütün otaqlarda proyektorlar quraşdırılmışdır. Kompyuterlər isə dərs zamanı fənn müəllimləri tərəfindən dekanlıqdan və ya aidiyyəti kafedradan götürülərək auditoriyada aktiv öyrənməni təşviq etmək üçün tələbələr ilə ortaq istifadə olunur. Hər semestrin əvvəlində bütün avadanlıqlar İT şöbəsi tərəfindən yoxlanılır və tam işlək vəziyyətə gətirilir.

ATMU-nun auditoriyaları tədrisin normal təşkili üçün əlverişlidir və daimi olaraq tələbələrin istifadəsinə açıqdır. Eyni zamanda bütün auditoriyalarda təqdimat formalı dərslərin keçrilməsi üçün texniki vasitələr mövcuddur.

Universitetin kitabxanası tədris edilən fənnlər üzrə fənn proqramları, kitablar və digər yardımçı ədəbiyyatlarla tələbələrin daim xidmətindədir.

***6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti***

ATMU-da xüsusi ehtiyacları olan, həmçinin sağlamlıq imkanların məhdud şəxslərin təhsil almaq və əmək fəaliyyəti ilə məğğul olmaq hüquqlarını digər şəxslərə bərabər səviyyədə təmin edilməsinə, onların təhsili üçün maneəsiz mühit yaradılmasına və münbit şəraitin təmin edilməsinə illik tədbirlər planı xidmət edir. Sağlamlıq imkanları məhdud şəxslər üçün 1-ci tədris binasının 2-ci ehtiyat girişində 1-ci mərtəbəyə daxil olmaq üçün xüsusi qurğunun quraşdırılması nəzərdə tutulmuşdur. həmin şəxslərin dərslərinin  keçirilməsi üçün1-ci mərtəbədə yerləşən 2 auditoriya nəzərdə tutulmuşdur.

**6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti**

ATMU-nun 1-ci tədris korpusunda müqavilə əsasında 60 nəfərlik yeməkxana, 2-ci tədris korpusunda isə 90-nəfərlik bufet fəaliyyət göstərir. Əlavə olaraq yeməkxana kimi istifadə olunan 1 otaq akademik və inzibati heyət üçün, 1 otaq isə təhsilalanlar üçün nəzərdə tutulmuşdur. Yeməkxanaya nəzarət Qida Təhlükəsizliyi Agentliyi tərəfindən aparılır.

**6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti**

ATMU-nun yataqxanası mövcud deyil, lakin təhsilalanların yataqxanaya ehtiyacı olduqda, bağlanmış müqavilə əsasən təmin olunurlar. Bu baxımdan ATMU-nun iki yataqxana ilə müqaviləsi mövcuddur. Bunlar "Sirdaş yurdu" və "Bridge Management (Univerium)" yataqxanalarıdır.

**6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti**

ATMU–nun tələbələrinə və əməkdaşlarına ilkin tibbi yardımın gösrərilməsi üçün universitetin 2-ci tədris korpusunda Tibb məntəqəsi yaradılmışdır. Həmin tibb məntəqəsində tibb bacısı lazım olan xidmətləri göstərir. Əsas tədris binasında ATMU-nu həkimlə təmin etmək üçün rəhbərlik tərəfindən TƏBİB-ə müraciət ünvanlanmışdır.

**6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti**

ATMU-da İT xidmətinin təşkili İnformasiya texnologiyaları şöbəsi tərəfindən aparılır. Şöbə mütəmadi olaraq İKT ilə bağlı yaranmış problemlərin qısa zamanda həll olunmasına xidmət göstərir. İnformasiya texnologiyaları şöbəsi 4 əməkdaşdan ibarətdir: şöbə müdiri, baş mütəxəsis və 2 mütəxəsis. Şöbənin işi 14 sentyabr 2018-ci də təsdiq olunmuş Əsasnaməyə uyğun icra olunur. Şöbənin əsas məqsədi mütəmadi olaraq texnoloji infrastruktura nəzarət etmək, eyni zamanda inzibati və müəllim heyətinin iş prosesində yarana biləcək texniki problemlərin həll etməkdir.

ATMU-nun hər iki binasında mərkəzi server otağı mövcuddur və İT şöbə hər iki tədris binasında serverlərin daim işlək vəziyyətdə saxlanmasına nəzarət edir. İnzibati heyətin mərkəzləşdirilmiş qaydada şəbəkədən istifadəsini, yeni işə başlamış işçilərin kompüter, elektron poçt və domain istifadəçi adı ilə təmin etmək şöbənin əsas funksiyalarındandır. Yeni daxil olan tələbələrə, eləcə də bütün əməkdaşlara korporativ e-maillərin yaradılması işi də İT şöbə tərəfindən aparılır.

**6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti**

ATMU-da fiziki sağlamlıq və təhlükəsizlik tələblərinə uyğunluğun yoxlanılması, çatışmazlıqların aradan qaldırılması və ümumi olaraq keyfiyyətin təkmilləşdirilməsi 28 aprel 2023-cü il tarixli, Elmi şura iclasında 6№li protokolla təsdiq olunmuş "Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət proseduru"nun əsasında həyata keçirilir. İlkin yanğınsöndürmə vasitələrinə nəzarət mülki müdafiə üzrə mütəxəssis tərəfindən mütəmadi olaraq aparılır, texniki baxışı isə hər il lisenziyası olan şirkət tərəfindən həyata keçirilir. ATMU-nun əməkdaşları və təhsilalanlar mütəmadi olaraq yanğın təhlükəsizliyinə dair mövzularda mülki müdafiə üzrə mütəxəssis tərəfindən təlimatlandırılır. Yeməkxanada quraşdırılmış havalandırma (ventilyasiya) sistemi lisenziyası olan şirkət tərəfindən üç (3) ildə bir dəfə təmizlənərək işlək vəziyyətə gətirilir. Xidmət şöbəsinin texniki işlər üzrə mütəxəssisi tərəfindən mütəmadi olaraq həmin sistemin sazlığına nəzarət edilir.

Sanitar gigeyenik qaydalara riayət olunması üçün lazım olan tədbirlər (maarifləndirmə materiallarının və sanitar gigiyenik vasitələrin yerləşdirilməsi və yenilənməsi) ATMU-da Xidmət şöbəsinin əməkdaşı - komendant tərəfindən həyata keçirir. ATMU-da əməyin təhlükəsizlik işi Əməyin təhlükəsizliyi qaydalarına əsaslanaraq Xidmət şöbəsinin müdir müavini tərəfindən müvafiq tədbirlər planına uyğun olaraq təşkil edilir, icra vəziyyəti yoxlanılır və təkmilləşdirilir. ATMU-da təmizlik işlərini müvafiq qrafikə uyğun olaraq komendantın nəzarəti altında xadimələr həyata keçirirlər. Mütəmadi və mövsümi xarakteri daşıyan abadlaşdırma və yaşıllaşdırma işləri bağbanlar tərəfindən komendantın nəzarəti altında həyata keçirilir. Qış fəslində binanın qızdırılması katirovka əsasında qalib şirkət tərəfindən mərkəzi isitmə sistemi ilə həyata keçirilir. Təmir işlərinə başlamazdan əvvəl Xidmət şöbəsinin əməkdaşları tərəfindən universitetin binasına baxış keçirilir.Təmir işlərinə ehtiyac olan sahələr barədə Xidmət şöbəsinin müdiri tərəfindən xidməti məktub hazırlanaraq ATMU-nun rektoruna təqdim edilir. Eyni zamanda tədris ili ərzində hər hansı bir sahədə təmir işlərinə zərurət yarandıqda prosedur həmin qaydada aparılır.

ATMU ictimayətinin, o cümlədən təhsil alanlar, əməkdaşlar və qonaqların ictimai sosial davranış normalarına əməl etməsinə, eləcə də ümumi ərazilərdən istifadə edərkən onların

qorunmasına, uzun müddətli istifadəsinə şərait yaratmasına və hər kəsin bir birinə etik davranış normaları çərçivəsində münasibət göstərməsinə 28 aprel 2023-cü il tarixli, Elmi şura iclasında 6№li protokolla təstiq olunmuş "Azərbaycan Turizm və Menecment Universitetində Ümumi ərazilərdən istifadə qaydaları" xidmət edir.

Aktivlərin və öhdəliklərin inventarizasiyası Azərbaycan Turizm və Menecment Universitetində müvafiq prosedur qaydalarının əsasında 01 iyul tarixdən tez olmamaqla, ATMU-nun rektorunun sərəncamına əsasən aparılır. İnventarizasiyanın aparılması üçün inventarizasiya komissiyası yaradılır.

### *6.2 Elmi-tədqiqat infrastrukturu*

#### *6.2.1. Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti*

Universitetdə Elm və inkişaf məsələləri üzrə prorektorluq, onun tabeçiliyində Elm və İnnovasiya şöbəsi fəaliyyət göstərir. Həmçinin, ATMU rektoru 2023-cü il 27 mart tarixində "Elmi-tədqiqat Mərkəzinin yaradılması haqqında" əmr vermişdir (74 saylı). Hal-hazırda bu sahədə növbəti proseslərin aparılması istiqamətində işlər görülməkdədir.

#### *6.2.2. Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti*

Azərbaycan Turizm və Menecment Universitetində aparılan elmi-tədqiqat işləri daha çox nəzəri məsələlərin həllinə istiqamətlənmişdir. Laboratoriyaya ehtiyac olduqda başqa müəssisələrə (İnstitutlara) müraciət edilir.

ATMU-nun aşağıdakı elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur:

- ✓ AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu;
- ✓ AMEA-nın İqtisadiyyat İnstitutu;
- ✓ AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi;
- ✓ AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu;
- ✓ AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;
- ✓ Bakı Dövlət Universiteti;
- ✓ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti;
- ✓ Azərbaycan Dövlət İqtisad Universiteti;
- ✓ Azərbaycan Dövlət Neft və Sənaye Universiteti;
- ✓ Azərbaycan Dövlət Pedaqoji Universiteti və s.

Həmçinin, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı müqavilənin mövcudluğu ikitərəfli elmi-tədqiqat bazasından istifadəyə imkan verir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## *7.1 Beynəlmiləlləşmə siyasəti*

### *7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğunun vəziyyəti*

"Azərbaycan Turizm və Menecment Universitetinin beynəlmiləlləşmə siyasəti" sənədi Universitetin 2022-2026-ci illər əhatə edən Strateji İnkişaf Planının (SİP) (https://atmu.edu.az/az/inkishaf-strategiyasi) Beynəlmiləlləşmə istiqaməti üzrə nəzərdə tutulmuş strateji hədəflərinə uyğun olaraq hazırlanmışdır.

Siyasət sənədi 2023-cü il 14 sentyabr tarixli Elmi Şuranın 1 №-li protokolu ilə təsdiq edilmişdir. Siyasətdə qarşıya qoyulmuş bütün hədəflər ATMU –nun beynəlxalq əlaqələrini davamlılıq və strateji yanaşmalar istiqamətində təşkil etmək və inkişaf etdirməkdir.

Siyasət SİP-ə uyğun olaraq strateji hədəflərə çatmaq üçün beynəlmiləlləşmə üzrə aşağıdakı prioritet istiqamətləri özündə əks etdirir: (https://atmu.edu.az/upload/files/2023/02/13//-0de5d1a01676275647760124193109939 83.pdf )

1. ATMU-da əcnəbi tələbələr üçün əlverişli təhsil imkanlarının yaradılması;
2. Əcnəbi tələbələrin ATMU-ya cəlb olunması sahəsində siyasətin formalaşdırılması və tətbiqi;
3. Beynəlmiləlləşmə strategiyasının hazırlanması;
4. Beynəlxalq tərəfdaşlarla birgə həyata keçirilən ikili diplom proqramlarının sayının artırılması;
5. Universitetin ali təhsil müəssisələrinin beynəlxalq reytinq sistemlərində təmsil olunması;
6. Beynəlxalq səviyyədə tanınan mütəxəssislərin qatıldığı elmitədqiqat tədbirlərinin təşkili;
7. Beynəlxalq tərəfdaş müəssisələrlə elmitədqiqat sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsi;
8. Beynəlxalq, xüsusilə, Avropa İttifaqı təsisatları tərəfindən maliyyələşdirilən təhsil və tədqiqat layihələrində ATMU akademik heyət üzvləri və tələbələrinin iştirakının təmin edilməsi;
9. Turizm təhsili sahəsində regionun ali təhsil müəssisələrinin çoxtərəfli əməkdaşlıq platformasının yaradılması.

Beynəlmiləlləşmə siyasəti sənədi elm və təhsil istiqaməti üzrə qanunvericiliyə, müvafiq qanunlara və normativ huquqi aktlara, həmçinin Strategiyada qeyd olunan normativlərə, akademik və inzibati heyətin, həmçinin tələbələrin bakalavr və magistratura səviyyəsi üzrə mübadilə proqramlarında iştirakına və əcnəbi şəxslərin Universitetə qəbul qaydalarına əsaslanır.

### *7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti*

Beynəlmiləlləşmə Siyasətinin 4.2.2 bəndinə uyğun olaraq mübadilə proqramları təşkil edir. ATMU-da mübadilə proqramlarının sayının artırılması əsas hədəflərdən biridir. Avropa Birliyinin Erasmus+ mübadilə proqramı, Almaniyanın DAAD mübadilə proqramı, Türkiyənin Mevlana mübadilə proqramı sahəsinin genişlənməsi və təşviqi prosesi ilə həm tələbələrin mübadilə proqramlarında iştirakı, eyni zamanda akademik və inzibati heyətin mübadilə zamanı beynəlxalq təcrübələr əldə etməsinə imkanlar təklif olunur.

Həmçinin Mübadilə proqramlarının bakalavr və magistratura səviyyəsi üzrə qəbulunun təşkili üzrə qaydalar proseduru sənədi vardır və prosesin idarəolunması qeyd olunmuşdur.
(https://atmu.edu.az/upload/files/2023/10/31//-22f272971698741266299659188102899 01.pdf)

Yeni tərəfdaş xarici ali təhsil müəssisələri ilə əməkdaşlıqların təşkil olunması mübadilə proqramlarının təşviqinə və genişləndirilməsinə yol açır.

### *7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti*

Beynəlmiləlləşmə Siyasətinin 4.2.3 bəndinə uyğun olaraq əcnəbi təhsilalanların cəlb olunma prosesi, ATMU-da əcnəbilərin sayının artırılması istiqamətləri ölkələr ( Mərkəzi Asiya, Yaxın Şərq, Pakistan və Çin bazarları istiqamətində) üzrə prioritet istiqamətlər qeyd olunmuşdur.




**ATMU-da təhsil alan əcnəbi tələbələrin ölkələr üzrə göstəriciləri**

Əcnəbilərin qəbulu bakalavr və magistratura səviyyələri üzrə https://portal.edu.az/, qeydiyyat prosesi və sənədləşməsi isə https://atis.edu.az/ sistemi üzərindən aparılır. Buna baxmayaraq müqavilə, DİM, qeyri-DİM və s. kimi qəbul xətti ilə təhsil almaq hüququ qazanmış əcnəbi tələbələrin texniki məsələlər ilə bağlı (miqrasiya kartı, sığorta, yataqxana və s.) müraciətləri Beynəlxalq əlaqələr şöbəsi tərəfindən icra olunur.




**ATMU-da təhsil alan əcnəbi tələbələrin qəbul xətti üzrə göstəriciləri**




**ATMU-da təhsil alan əcnəbi tələbələrin təhsil səviyyəsi üzrə göstəriciləri**

Əcnəbilər arasında turizm istiqamətində təhsil almaq istəyənlər üzrə müraciətlər çoxluq təşkil edir. Həmçinin ingilis dilində tədrisin olması əcnəbilərin cəlbi üçün əsas amil hesab edilir.




**ATMU-da təhsil alan əcnəbi tələbələrin fakültələr üzrə göstəriciləri**




**ATMU-da təhsil alan əcnəbi tələbələrin tədris dili üzrə göstəriciləri**

ATMU-da həmçinin, müxtəlif ölkələrin səfirləri və nümayəndəlikləri ilə görüşlərin təşkil olunması, iki yataqxana ilə müqavilə imzalayaraq əcnəbilər üçün yaşayışın asanlaşdırılması əcnəbi tələbələrin qəbulunda mühüm rol oynayır.

***7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti***

Beynəlxalq akademik heyət üzrə hər tədris ilində İkili Diplom layihəsi (AATP) çərçivəsində ATMU-ya 10 nəfərdən çox akademik nümayəndə səfər edərək, tədrisə cəlb olunurlar. AATP proqramı çərçivəsində təhsil alan tələbələr tədris zamanı beynəlxalq təcrübədən yararlana bilirlər. Eyni zamanda ATMU-dan akademik heyətin beynəlxalq tərəfdaş universitetlərdə tədrisə cəlb olunaraq və eyni zamanda beynəlmiləlləşmə siyasətinin fəaliyyətinə təşviqi formalaşır.

***7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti***

Beynəlmiləlləşmə siyasətinin digər bir hədəfi beynəlxalq tədqiqatçılar çərçivəsində fəaliyyətin genişləndirilməsidir. Bu istiqamətdə əcnəbi doktorantların ATMU-da tədqiqata cəlb olunması (hazırda necə doktorant var say göstərilməli), Şimalı Qafqaz Federal Universitetinin aspirantı ATMU-nun MEhmanxana və Restoran Biznesi kafedrasında tədqiqat işi aparmışdır.

***7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti***

Siyasət sənədində digər bir prioritet istiqamət ATMU-nun üzv olduğu assossasiya, beynəlxlaq təşkilatları sadalayıb illər üzrə göstərə bilərik:

1. 2011-ci ildən ATMU Ümumdünya Turizm Təşkilatına qoşulmuş üzvlük;
2. 2008-ci ildən ATMU DAAD təhsil şəbəkəsi ilə əməkdaşlığı;
3. 2007-ci ildən ATMU və GİZ təşkilatçılığı;
4. 2009-cu ildən ATMU və British Council arasında əməkdaşlıq;
5. 2015-ci ildən ATMU və Dante Alieghieri cəmiyyəti arasında əməkdaşlıq;
6. 2015-ci ildən ATMU və Lüsern Dünya Turizm Forumu arasında əməkdaşlıq;
7. 2016-cı ildən ATMU və Ramualdo Del Bianco arasında əməkdaşlıq.

Beynəlxalq əməkdaşlıqların qurulması Strategiyaya uyğun olaraq ATMU fəaliyyətinin genişləndirilməsində əsas rol oynayan amillərdəndir.

***7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti***

Beynəlmiləlləşmə Siyasətinin 4.2.1 bəndinə uyğun olaraq ikili diplom layihəsi Avstriya Respublikasının İMC Krems Tətbiqi Elmlər Universiteti ilə “Azərbaycan Avstriya Turizm Proqramı Turizm ixtisası” üzrə hər il qəbul prosesi aparılır. Dərslərin böyük bir hissəsi tərəfdaş universitetin müəllimləri tərəfindən aparılılr. Tələbələr təhsilini 1-ci kursda ATMU-da, 2-3-4-cü kurslarda isə AATP proqramı çərçivəsində davam etdirirlər.

Proqram çərçivəsində seçilmiş 2-3 nəfər tələbə 1 semestr Avstriyada təhsil almaq imkanı qazanırlar. Tələbələr proqramın sonunda iki diplom əldə edirlər.

Həmçinin, Türkiyə Respublikasının Eskişehir Osmangazi Universiteti arasında ikili diplom layihəsi 2021-ci ildən etibarən başlamışdır. Hal-hazırda müvafiq layihə Yüksek Öğretim Kurumu tərəfindən təsdiqlənmişdir. Növbəti akademik ildə tələbələrə qəbul edildikdən sonra ikili diplom layihəsi çərçivəsində 1-4-cü kursları ATMU-da, 2-3-cü kursları ESOGU-da təhsil almaq imkanları veriləcək.

Hazırda Türkiyə Respublikasının İstanbul Universiteti ilə magistratura səviyyəsində “Muzeyşünaslıq”, Ege Universiteti ilə bakalavr səviyyəsi üzrə “Menecment” ixtisası üzrə İkili Diplom layihəsi çərçivəsində danışıqlıqar aparılır.

Türkiyə Respublikasının Sakarya Universiteti ilə bakalavr səviyyəsi üzrə “Sosial iş” ixtisası üzrə sənədləşmə işləri aparılmış, hazırda Sakarya Universitetinin senatosundadır.

***7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti***

Beynəlmiləlləşmə siyasət sənədi Strategiya sənədinin illik dövrünə uyğun olaraq hazırlanmış 2023-2026-cı illəri əhatə edir. Yenilənməsi ehtiyacəsaslı təkmilləşdirmə və 2026-cı ildən sonrakı dövr üzrə nəzərdə tutulmuşdur. 2023-2024-cü tədris ili üzrə fəaliyyət planında strategiyaya uyğunluq təşkil etmişdir. Eyni zamanda Beynəlmiləlləşmə siyasətinin icrasına dair fəaliyyət planı hazırlanmaqdadır.

Beynəlmiləlləşmə siyasətinin hesabatlılığı təqvim ilinə uyğunlaşdırılmışdır

## *7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

***7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti***

ATMU-da beynəlmiləlləşmə proseslərinin tənzimlənməsi Strateji inkişaf məsələləri üzrə prorektorluğun tabeliyində olan Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir. Müvafiq şöbənin fəaliyyəti tədris illəri üzrə iş planları əsasında qurularaq illik hesabatları Elmi Şurada müzakirə edilir. Beynəlxalq əlaqələr şöbəsinin strukturunda 1 şöbə müdiri, 1 mütəxəssis, 1 operator təmsil olunur.

***7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti***

Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi BƏŞ-in əsasnaməsi və əməkdaşların vəzifə təlimatlarında öz əksini tapmışdır. Beynəlxalq əlaqələr şöbəsinin qarşısında duran vəzifələr Siyasətdə əksini tapan hədəflərə uyğunlaşdırılmışdır. Siyasətdə göstərilmiş hər bir istiqamət üzrə struktur Strateji inkişaf üzrə prorektorluğunun və Beynəlxalq əlaqələr şöbəsinin idarəetməsindədir.

***7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti***

ATMU-da təhsilalanların kreditlərinin tanınması məsələsinə yanaşma tələbəyönümlüdür. Universitetdə “Beynəlxalq Mübadilə Proqramlarının Təşkili Qaydaları” sənədi təsdiqlənmiş və tələbələr üçün əlçatanlılığı təmin olunmuşdur. Mübadilə proqramı üzrə müsabiqə zamanı təhsilalanların müraciətindən sonra müsahibə əsasında təşkil olunur, 14 meyar üzrə qiymətləndirilmə aparılır. Müsabiqədən uğurla keçən tələbənin 1 semestr üzrə götürəcəyi fənnlər və kreditlər tərəfdaş universitetlə müzakirə olunur. Tələbənin götürəcəyi fənnlər fakültələrə yönləndirilərək fənnin məzmunu və kredit sayına uyğun hazırlanır. Bununla əlaqədar kreditlərin tanınması mexanizmi sənədi mövcuddur və səmərəliliyin artırılmasında rol oynayır.

Növbəti mərhələdə tələbə, ATMU və tərəfdaş universitet arasında Learning Agreement sənədi imzalanır və tələbənin mübadilədə iştirakı ilə bağlı əmr layihəsi hazırlanır. Mübadilədən sonra kreditlərin tanınması üçün transkript müvafiq fakültəyə yönləndirilir və tələbə təhsilinə davam edir**.**

***7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti***

ATMU-nun Beynəlmiləlləşmə siyasəti sənədində hədəflərdən biri əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi istiqamətidir. Mübadilə proqramları çərçivəsində tərəfdaş universitetlərin nümayəndələri dərslərə cəlb olunurlar. Eyni zamanda AATP proqramı çərçivəsində təhsilalan tələbələrə İMC Krems TEU tərəfindən təyin edilmiş əcnəbi professor-müəllim heyəti ATMU-da müxtəlif dərsləri tədris edirlər.

Bu istiqamətdə ATMU-da hər akademik il üzrə 10-dan çox müəllim heyəti səfər edirlər. Pandemiya dövründə müvafiq proseses onlayn şəkildə də davam etdirilmişdir: https://www.facebook.com/atmu.official/posts/pfbid05Wp7G9vQQ9xrVoKkFgHDMcfcoSP4EEU1jz7r7agxyVDREgTBSmQkpV2B42fNwm8Gl.




**AATP proqramı çərçivəsində ATMU-da tədris aparan IMC Krems TEU professor-müəllim heyətinin illər üzrə dinamikası**

Hazırki hesabat dövründə English Assinstance proqramı çərçivəsində ABŞ səfirliyinin dəstəyi ilə 1 nəfər müəllim ATMU-da ingilis dili üzrə tədrisin təşkilini təmin edir: https://www.facebook.com/photo/?fbid=724066429759265&set=a.552001513632425

Erasmus+ müqaviləsi çərçivəsində əcnəbi müəllimlərin tədrisə prosesinə cəlbi həyata keçirilir (https://atmu.edu.az/az/web/post/790).

***7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti***

Beynəlmiləlşmə siyasətində səmərələliyin monitorinqi məqsədilə 2022/2023-cü tədris ilinə qədər dövrün sonunda 1 dəfə olmaqla rəhbərliyə və eyni zamanda Dövlət Turizm Agentliyinə hesabatlar təqdim olunub. Monitorinq zamanı fəaliyyətin tənzimlənməsi məlumatların siyasət sənədi, iş planlarına və strategiyaya uyğun olaraq toplanılması və təhlili ilə aparılır. Beynəlmiləlləşmə siyasətinin mövcudluğu 2023-cü il 14 sentyabr tarixindən etibarən təsdiqlənsə də, həmin dövrə qədər beynəlxalq əlaqələr şöbəsinin fəaliyyəti beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi prinsipləri ilə formalaşmışdır.

Hər tədris ilinin əvvəlində iş planı hazırlanır və ilin sonunda iş planına uyğun olaraq qiymətləndirilir. Plana uyğun olaraq mövcud vəziyyət müzakirə olunur, qeydlər və rəhbərliyin tövsiyələri nəzərə alınmaqla növbəti il üzrə iş planı hazırlanır. Siyasətin həyata keçirilməsində əhəmiyyətli məsələlərin müzakirəsi ATMU Elmi Şurasında səsləndirilir və müvafiq qərarlar qəbul edilir. Beynəlmiləlləşmə siyasətinin icrasına dair fəaliyyət planı hazırlanaraq hər təqvim ilinin sonunda hesabatlılığı təmin olunacaqdır.

***7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti***

ATMU-da təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyətinə xüsusi diqqət yetirilir. ATMU-da ikili diplom proqramları üzrə tədris prosesi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 451 nömrəli Qərarı (https://e-qanun.az/framework/43666) ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliyinin artırılması üzrə Dövlət Proqramı" (https://e-qanun.az/framework/40711) çərçivəsində tərəfdaş universitetlərin ixtisas proqramları və təhsil səviyyələri üzrə seçim qaydaları, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyəlrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" (https://e-qanun.az/framework/27030) nəzərə alınmaqla tənzimlənir.

Tərəfdaş universitetlər ilə proqram uyğunlaşdırılması zamanı ixtisasların dövlət standartı nəzərə alınır və proses bitdikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi məlumatlandırılır.

İkili Diplom proqramları çərçivəsində ortaq tədris planı hazırlanır və fənnlər qarşılıqlı olaraq əvəzlənir. Eyni zamanda hər iki universitetin təlim və tədris prosesinə uyğun olaraq məcburi keçirilməsi olan standart fənnlərin tədrisi tənzimlənir.




**AATP proqramı çərçivəsində ATMU-da illər üzrə qəbul və məzun göstəricisi**

Hesabat dövründə AATP proqramı çərçivəsində ortaq sənədlər hazırlanmaqdadır. Bu sənədlərin vacibliyi ikili diplom proqramı çərçivəsində akademik heyət, tələbələr üzrə qarşılıqlı imkanların dəyərləndirilməsi, tədqiqat, istehsalat təcrübəsi kimi fürsətlərdə tələbə və akademik yönümlü qərarların verilməsidir.

***7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası***

ATMU-da akademik heyətin mübadiləsi proqramları Türkiyə Respublikasının universitetləri ilə əsasən Mövlanə proqramı, Avropa ölkələri ilə həyata keçirilən və Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Erasmus+ proqramı daxildir. Qeyd etmək lazımdır ki, Covid 19 pandemiyası dövründə akademik heyətin mobilliyi üzrə say göstəriciləri aşağı olmuşdur.




**ATMU-da illər üzrə akademik və inzibati heyətin mübadilə proqramları üzrə hərəkətliliyi**

***7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti***

ATMU-da beynəlmiləlləşmə siyasətinin formalaşması və icrası zamanı beynəlmiləəşmə fəaliyyəti üzrə iştirakçıların qarşılıqlı anlayışı, səmimilik, etibarlılıq kimi dəyərlərə önəm verilir. Bununla belə mübadilə prosesi zamanı şəffaf və hərkəsə əlçatamlıq prinsipləri əsasında təşkili təmin olunur. Burada elanların universitetin rəsmi vebsaytında, sosial media hesablarında paylaşılır (https://atmu.edu.az/az/web/post/780 , https://atmu.edu.az/az/web/post/653 ). Müraciət edən akademik heyət üzvlərinin şəxsi işləri tərəfdaş universitetə göndərilərək seçim prosesi həyata keçirilir.İnzibati heyətin mobillik göstəriciləri fəaliyyət istiqamətinə görə müəyyənləşərək aktiv fəaliyyət və səfər sonrası səfər hesabatı şəklində özünü tənzimləyir.

Həmçinin akademik və inzibati heyətin mobillik proqramlarında iştirakını tənzimləmək və hərkəs üçün əlçatan olması baxımından qaydalar sənəd toplusu ATMU-nun akademik və inzibati heyəti üçün əlçatandır.

*7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti*

Mübadilə proqramlarında iştirakçılılığın təmin olunması istiqamətində elanlar paylaşılır və şəffaf formada müraciətlər qeydə alınır (Erasmus+, Mövlanə, MoU).

Mübadilə proqramları nəticəsində ATMU-ya gələn akademik və inzibati heyətin fəaliyyətləri və tədrisə cəlbi fakültə və kafedralarla birgə tənzimlənir.

ATMU tələbələri həmçinin, Erasmus+ proqramı ilə yanaşı Mövlanə proqramının da imkanlarından yararlanmağa malikdirlər. Mübadilə iştirakçısı olmağa haqq qazanmış tələbələr təqaüdlərdən yararlana bilirlər. Həmçinin proqram çərçivəsində yol xərci də qarşılanır.




**ATMU-da mübadilə proqramları üzrə tələbə hərəkətliliyi**

Həmçinin, təlim və tədrisin AKTTS-yə uyğunlaşdırılması müvafiq qanunlar – Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na (https://e-qanun.az/framework/27030) uyğun şəkildə tənzimlənir və tələbələrin mübadilədən öncə və mübadilədən sonrakı fənn əvəzlənməsi müvafiq fakültə ilə birgə aparılır.

*7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti*

ATMU-nun beynəlxalq reytinq cədvəllərində fəaliyyətinin mövcudluğu Beynəlmiləlləşmə Siyasətinin hədəfləri sırasında yer almaqdadır. Universitetdə bu istiqamətdə fəaliyyət 2023-cü ildən etibarən başlamış və bu fəaliyyətin davamlılığı və məqsədyönlülüyü baxımından mövcud akademik il üzrə fəaliyyət planları hazırlanmış və təsdiqlənmişdir.

Xüsusən ATMU-nun ilk hədəfi “Quacquarelli Symonds”(QS) Qlobal Reytinq cədvəlində QS Subject üzrə “Qonaqpərvərlik” Sahəsi üzrə yer almaqdır. Bununla bağlı QS Məsləhət Qrupu tərəfindən keçirilən tədbirlərdə və görüşlərdə mütəmadi iştirak edilir.

Digər istiqamət isə Times Higher Education (THE) Impact Reytinqlərində ATMU-nun təmsilolunma fəaliyyətinin tənzimlənməsidir. Eyni zamanda bununla bağlı keçirilən masterklaslarda və görüşlərdə ATMU üzrə koordinator və nümayəndə heyətinin görüşü tənzimlənir. Qeyd etmək lazımdır ki, THE Impakt Reytinqi 2024-cü il üzrə məlumatlar sistemə daxil edilmişdir.

### *7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

*7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti*

Beynəlmiləlləşmə siyasətinin icrasına və bu istiqamətdə davamlı fəaliyyətin təmin olunması məqsədi ilə maliyyə resurslarının ayrılması mühüm məqamlardan biridir. ATMU-da beynəlmiləlləşmə istiqamətində maliyyə resursları aşağıdakı formada tənzimlənir:

- Akademik və inzibati heyətin təcrübə mübadilə məqsədi ilə ezamiyyələr;
- Beynəlxalq konfransların təşkili, o cümlədən konfranslara dəvət olunan nüfuzlu şəxslərin razılaşdırılmış şəkildə maliyyə xərclərinin qarşılanması;
- Beynəlxalq assosiasiya və təşkilatlara üzvlük haqqı ödənişləri;
- ATMU rəhbərliyi və inzibati heyətinin xarici ölkələrdə keçirilən beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirak xərcləri;
- ATMU-da keçirilən tədbirlər zamanı qonaqların rəsmi ziyafət xərcləri;
- AATP proqramı üzrə müvafiq maliyyə ödənişləri.

***7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti***

Beynəlmilləşmə siyasəti idarəolunması və icrasının həyata keçirilməsi beynəlxalq əlaqələr şöbəsi tərəfindən idarə olunur. Şöbənin strukturu 1 nəfər şöbə müdir (Erasmus+ koordinatoru), 1 nəfər mütəxəssis (Mövlanə proqramı koordinatoru) və 1 nəfər operatordan (AATP koordinatoru) ibarətdir.

Eyni zamanda beynəlmiləlləşmə siyasətinin icrasına uyğun şəkildə müvafiq strukturlar, fakültələr və kafedralarla birlikdə fəaliyyəti tənzimləmək mümkündür. Bu istiqamətdə fəaliyyətin tənzimlənməsinə uyğun olaraq öncədən hazırlanmış fəaliyyət planları üzrə istiqamətlər müvafiq struktur, fakültə və kafedralarla bölüşülür.

***7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti***

Siyasətin icrasına uyöun olaraq müvafiq şöbələr, lazımi infrastuktur ilə təminolunma mövcuddur. İnzibati otaqlar ilə təmin olunmuş hər bir əməkdaş kompüter, printer, skaner və digər zəruri avadanlıqlarla, həmçinin internete çıxış mümkündür. Digər tərəfdən, görüşlərin keçirilməsi məqsədi ilə ATMU-nun iclas otağı mikrofon, ağ lövhə, kompüter və lazımi təchizatla təmin olunmuşdur.

AATP proqramının təşkil olunması ilə bağlı 2 mühazirə (Gənclik korpusu, 2-ci mərtəbə, 204 və 208-ci otaqlar) otağı tam şəkildə Beynəlxalq əlaqələr şöbəsində tədrisin davamlı təmin olunması istiqamətində fəaliyyyət göstərir və otaqlar tədris prosesinə lazımi təchizatlarla təmin olunmuşdur. Həmçinin tədbirlərin keçirilməsi zamanı əcnəbi və ya AATP proqramı çərçivəsində nəqliyyat vasitələrindən istifadə imkanları mümkündür.

Bundan əlavə ATMU-nun psixoloq xidmətlərindən yararlanmaq və elektron kitabxanasından istifadə imkanları vardır. Əcnəbi tələbələrin yataqxana imkanlarından yararlanması üçün ATMU-nun 2 yataqxana ilə müqaviləsi vardır və bu istiqamətdə əlçatanlılıq təmin olunur. Eyni zamanda mübadilə və ya hər hansı proqramla gələn tələbələrdə bu imkanlardan yararlana bilirlər.

***7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti***

Beynəlmiləlləşmə siyasətinin icrasını təqvim ilinə uyğun dövrü müddəti tamamlandıqda təhlil aparılır. Təhlil əsasında beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi həyata keçirilir. Müvafiq qaydada digər strukturlardan (əlavə icraçı mövqeyindədirsə) əldə edilən məlumatlar ilə birlikdə hesabat forması tərtib olunur. Hazırki dövrə qədər beynəlmiləlləşmə siyasətinin mövcudluğu olmasa da görülən fəaliyyətlərin hər bir beynəlxalq sahədə fəaliyyəti əks etdirir. Hazırki hesabat dövründə beynəlmiləlləşmə siyasət sənədi üzrə fəaliyyət planının hazırlanması və bu istiqamətdə təqvim ilinin sonunda hesabatların verilməsi prosesi davam etdirilir.

Bundan öncəki hesabatlar zamanı tamamlanmış, icrası natamam olan və ya icra edilməyən fəaliyyətlər haqqında müzakirə edildikdən sonra, müvafiq istiqamətlər növbəti tədris ilinin fəaliyyət planında öz əksini tapır. Əhəmiyyət dərəcəsindən asılı olaraq struktur ilə bağlı məsələlər, maliyyə və s. Kimi məsələlər Elmi Şuranın müzakirəsinə çıxarılaraq yeni qərarlar vasitəsi ilə qəbul edilir və təsdiqlənir.

Bundan əlavə beynəlxalq sertifikatların alınması ilə əlaqədar monitorinq adi keçən sertifikatların alınması zaman təşkilatlar tərəfindən komissiya heyəti tərəfindən monitorinq olunaraq qiymətləndirilmə aparılmışdır. Burada qiymətləndirilmə nəticələrinin müsbət olması sertifikatların alınması və vaxtının uzadılması istiqmamətində fəaliiyəti özündə ehtiva edir. İSO və TEDQUAL haqqında ətraflı məlumat.

***7.4 Beynəlmiləlləşmə performansı***

***7.4.1 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti***

Beynəlmiləlləşmə siyasəti hazırlanarkən əsaslı şəkildə Strategiya (2022-2026-cı illər üzrə) əsas götürülmüşdür. 2021-2022-ci akademik ilin dövrü hesabatına əsasən analizlər aparılmış və beynəlmiləlləşmə siyasətində yer alacaq əsas hədəf indikatorları ilkin versiyada təhlil olunmuşdur.

Bununla bağlı olaraq mütəmadi olaraq Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları ilə Keyfiyyət Təminatı şöbəsinin əməkdaşları arasında ilkin müzakirələr və təklif aparılmışdır.

ATMU-da fəaliyyət göstərən Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatlarının nümayəndələri, eyni zamanda fakültə dekanları ilə görüşlər keçirilmiş və hədəf indikatorlarının

məqsədi və nəticəsi, eyni zamanda beynəlmiləlləşmə istiqamətində təklif və iradlar dinlənilmişdir. Görüş sonrasında məsələlər təhlil olunaraq SWOT analiz hazırlanmışdır.

***7.4.2 Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti***

ATMU-da beynəlmiləlləşmə siyasətinin prosesi çərçivəsində ehtiyacəsaslı fəaliyyətin tənzimlənməsi və lazımi dəyişikliklərin edillməsi və eyni zamanda Strategiyada qeyd olunan hədəflərə istiqamətlənmiş və təkmilləşdirilmiş siyasət üzrə hədəflərə nail olmaq üçün mütəmadi olaraq Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən izlənilir.

İş planları və fəaliyyət planları dövründə yeni məqsədəuyğun hesab edilən qeydlərin növbəti dövrdə tətbiqinin həyata keçirilməsi əsaslılıq təşkil edir. Yeni hədəflərin seçimi zamanı rəhbərliyin yanaşması və struktur rəhbərləri ilə təkmilləşdirilmə üzrə proses üzərində problem, həllinə gedən yolda təkliflər, məqsəd, məqsədə çatmaq üçün fəaliyyət planı, planın icrası üçün iş bölgüsü, həll variantları, insan və maliyyə resursları zərurilik təşkil edir. Daha sonra nəzarət və hesabat dövründə qiymətləndirilmə aparılır.

## 5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 40 | | | | + |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 13 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **53** | | | | + |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | + |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 31 | | | | + |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 12 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **55** | | | | + |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | + |
| 3.2 Təhsil proqramları | 30 | | | | + |
| 3.3 Tədrisin təşkili | 64 | | | | + |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | + |
| 3.5 Təlim və tədris resursları | 44 | | | + | |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 35 | | | | + |
| 3.7 Professor-müəllim heyəti | 33 | | | | + |
| 3.8 Tələbəyönümlü tədris | 30 | | | + | |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 12 | | | + | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 15 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **297** | | | | + |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 23 | | | | + |
| 4.2 Tədqiqat resursları | 17 | | | + | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 55 | | | | + |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **104** | | | | + |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 25 | | | | + |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 26 | | | + | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 41 | | | | + |
| 5.4 İnformasiya idarəetmə sistemi | 23 | | | | + |
| 5.5 İctimaiyyətlə əlaqələr | 17 | | | | + |
| **İstiqamət üzrə yekun bal** | **132** | | | | + |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 33 | | | + | |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 4 | | + | | |
| **İstiqamət üzrə yekun bal** | **37** | | | + | |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 23 | | | | + |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilati strukturu | 26 | | | + | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 11 | | | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 5 | | | + | |
| **İstiqamət üzrə yekun bal** | **65** | | | | + |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **743** | | | | + |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

**I istiqamət – Strateji inkişaf**

ATMU-nun 2022-2026-cı illər üzrə strategiyasında missiya, strateji baxış, hədəf, prioritetlər müəyyənləşdirilmiş, qarşıya 12 məqsəd qoyulmuşdur. Strategiyanın hazırlanması üçün təhsilalanlar, məzunlar arasında sorğu keçirilmiş, struktruların rəyləri toplanmışdır. Maraqlı tərəflər müəyyənləşdirilmiş, SWOT və PESTEL təhlillər aparılmış, strategiyanın tərtibatı qaydası, SMART məqsədlər müəyyənləşdirilməklə ATMU Elmi Şurasının 15 iyul 2022-ci il tarixli, 07 saylı protokolu ilə ATMU-nun 2022-2026-cı illər üzrə Strategiyası təsdiqlənmişdir.

Strategiyanın icrasına dair məsələlərin izlənilməsi və monitorinqi strukturların iş planları və hesabatlarına müvafiq olaraq aparılır. Bununla yanaşı strukturların strategiyanın icrasına dair fəaliyyətlərinin izlənilməsi üçün "Strategiyanın monitorinq planı" mövcuddur. Cari ilin ilk altı ayı üzrə Strategiyanın monitorinqi aparılmış və yarımillik hesabat təqdim edilmişdir. Ümumilikdə, Strategiyanın icrası və monitorinqi illər üzrə aparılır, nəticələri təhlil edilməklə müzakirəyə çıxarılır. Monitorinqin yekunununa dair hesabatın maraqlı tərəflər üçün əlçatanlığının korporativ e-mail və canlı görüşlər, həmçinin Universitetin rəsmi veb-saytı vasitəsilə təmin edilməyi nəzərdə tutulmuşdur.

**I istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- İlin yekunu üzrə Strategiyanın icrasının monitorinqinin aparılması;
- Strukturların strategiyanın icrasına dair aidiyyəti məsələlərin həllində aktiv iştirakının təmin edilməsi.

**II istiqamət – Keyfiyyət təminatı**

ATMU-da ilk Keyfiyyət Siyasəti sənədi 2018-ci ildə İSO 9001:2015 auditinin keçirilməsi zamanı hazırlanmışdır. Lakin, 2022-ci ilin payızında Ali Təhsil Müəssisələrinin akkreditasiyası meyarları yeni formada təsdiqləndikdən sonra, onun təkmilləşdirilməsinə ehtiyac yaranmış, yeni Keyfiyyət siyasəti sənədi ATMU Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli iclası ilə təsdiqlənmiş və maraqlı tərəflərin də iştirakı təmin edilmişdir. Keyfiyyət siyasəti sənədi təsdiqləndikdən sonra rəsmi veb-sayta yerləşdirilmişdir, sosial media hesabları, korporativ e-maillər, ATMU daxili elektron monitorlar vasitəsilə də maraqlı tərəflərə çatdırılmışdır. Keyfiyyət təminatı Siyasəti sənədində. ATMU-nun tarixi, idarəçiliyi, missiyası, gələcəyə baxışı, hədəf və məqsədləri, dəyərləri, bilik mənbəyi, keyfiyyət mədəniyyəti, keyfiyyət siyasətinin əhatə dairəsi, prinsipləri, keyfiyyət təminatı sisteminin sxem təsviri, resursların idarəedilməsi kimi məsələlər öz əksini tapmışdır. O cümlədən, sözügedən başlıqların daxilində idarəetmədə kollegial orqanlar, strategiya, fakültələr, tədris-köməkçi strukturlar, tərəfdaşlıq və beynəlxalq əlaqələr, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi və hesabatlılığı prinsipi barədə məlumatlar göstərilmişdir.

ATMU-da keyfiyyət təminatına dair Komissiyanın ilk əsasnaməsi 2012-ci ildə yaradılmış, iş planı hazırlanmışdır. Bundan əlavə, yeni meyarlar əsasında həmin komissiyanın əsasnaməsinin təkmilləşdirilməsinə, komissiya üzvlərinin və səlahiyyətlərinin müəyyənləşdirilməsinə ehtiyac olduğundan, Komissiyanın əsasnaməsi artıq yenidən işlənməklə və 14 sentyabr 2023-cü il tarixində Elmi Şurada təsdiq olununmuşdur. Komissiyanın fəaliyyət planı mövcuddur, yeni fəaliyyətə başladığından hesabatlılığı hesabat dövründə təmin ediləcəkdir.

Daxili keyfiyyət təminatı məsələlərinin tənzimlənməsi məqsədilə 2017-ci ildən etibarən Keyfiyyət təminatı şöbəsi fəaliyyət göstərir. Şöbə ATMU-da daxili və xarici audit (İSO 9001:2015, İSO 21001:2018, TedQual), akkreditasiya, monitorinqlərin təşkili, strategiyanın icrasına nəzarət, rəy sorğularının keçirilməsi və s. məsələləri şöbə tərəfindən koordinasiya edilir. Strukturun əsasnaməsi, iş planı, dövri hesabatları mövcuddur.

Strukturlarda keyfiyyətin müşahidəsi sorğular, daxili audit, tədris prosesinin qiymətləndirilməsi və ehtiyacların müəyyən edilməsi ilə aparılır. Nəticədə təlimlərin təşkili, daxili prosedurların hazırlanması, müxtəlif xidmətlərin (psixoloji xidmət) təşkili, praktiki (əyani) dərslərin keçirilməsinə dəstək göstərilir. ATMU-nun ümumi strateji hədəflərinə nail olmaq üçün strukturların iş planlarında həmin məqsədlər öz əksini tapır və hesabatlılıq təmin edilir.

ATMU-da keyfiyyət mədəniyyəti əməkdaşların yalnız öz işlərinin deyil, bütün heyət üzvlərinin işinin keyfiyyətinin qayğısına qalmaq, keyfiyyətin təminatına yönəlmiş fəaliyyətlər həyata keçirmək və

onun səviyyəsinin artırılması istiqamətində digər addımları özündə ehtiva edir. Bu məqsədlə idarə heyəti keyfiyyət mədəniyyətinin təkmilləşməsi üçün daim təlimlər, görüşlər təşkil edir. Keyfiyyət mədəniyyəti ATMU-da rəhbərlikdən akademik heyətədək vəzifəsindən asılı olmadan bütün əməkdaşlara təsir göstərən ortaq dəyər və normaların formalaşdırdığı keyfiyyətyönümlü mexanizm kimi mənimsənilmişdir. ATMU-da keyfiyyət mədəniyyəti maraqlı tərəflərin məmnunluğunun artırılmasına təsir göstərən dəyər kimi qiymətləndirilir. Keyfiyyət mədəniyyətinə əsaslanan dəyərlər Universitetin əməkdaşlarının və struktur bölmələrinin fəaliyyətini tənzimləyən əsas prinsiplərə çevrilmək, universitetin məqsəd və hədəflərinə nail olmasına xidmət etməklə, özündə şəffaflıq, hesabatlılıq, inklüzivlik, maraqlı tərəflərin məmnunluğu kimi prinsipləri ehtiva edir.

**II istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- Strukturlararası keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi;
- Keyfiyyət təminatı üzrə Komissiyanın fəaliyyətinin səmərəliliyinin artırılması.

**III istiqamət – Təlim və tədris**

ATMU-da tələbə qəbulu üzrə sifarişlərin hazırlanması və optimal müəyyənləşdirilməsi məqsədilə “Tələbə qəbulu üzrə proqnoz yerlərinin layihəsinin hazırlanması” proseduru təsdiqlənmiş, qəbulun proqnozlaşdırılmasında əmək bazarı nümayəndələrinin və digər maraqlı tərəflərin iştirakı təmin edilmişdir. ATMU-da tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi nəticəsində 2023-2024-cü tədris ili üçün bakalavriatura üzrə 100 %, magistratura üzrə 98 % nəticə əldə edilmişdir. Həmçinin, Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması məqsədilə “Bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması” Qaydaları təsdiq edilmiş, əlavə (ikinci) təhsilə qəbul olunmuş, köçürülmüş, xaric edilmiş, bərpa olunmuş və akademik məzuniyyətdən qayıtmış tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması AR Təhsil Qanunvericiliyinin tələblərinə uyğun tənzimlənmişdir.

ATMU-da kadr hazırlığının əhatəliliyi Universitetin profilinə uyğun AR-nın ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsindəki 6-7-8-ci səviyyələr üzrə optimal müəyyənləşdirilmişdir. Hazırda Universitetin profilinə uyğun bakalavriaturada (əyani, qiyabi) mövcud 10 ixtisas qrupunun 5-i üzrə 13 ixtisas olmaqla, magistraturada 10 ixtisas qrupunun 5-i üzrə 10 ixtisas, 13 ixtisaslaşma, MBA proqramında “Biznesin idarə edilməsi” ixtisası, Biznesin təşkili və idarə edilməsi ixtisaslaşması üzrə 4 istiqamət, doktorantura (əyani, qiyabi) və dissertanturada 25 elm sahəsinin 8-i üzrə 14 ixtisas olmaqla kadr hazırlığı həyata keçirilir. Həmçinin bir neçə ixtisas üzrə ikili diplom, əlavə təhsil üzrə bakalavr ixtisaslarına qəbul təklif edilir.

ATMU-da tədrisin təşkili AR-nın Təhsil Qanunvericiliyinin tələblərinə və Bolonya prinsiplərinə uyğunlaşdırılmış, hər bir ixtisas (ixtisaslaşma) üzrə Təhsil Proqramlarının strukturuna və Kredit sistemində AR-nın Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuş formalar (ixtisasın (ixtisaslaşmanın) tədris planı; ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki; ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı; tələbənin fərdi tədris planı; müəllimin illik işçi tədris planı) təsdiqlənmiş, təhsil proqramları üzrə qiymətləndirmənin aparılması məqsədilə daxili və kənar auditdən istifadə olunmaqdadır.

ATMU-da bütün təhsil səviyyələri üzrə tətbiq olunan tələbəyönümlü, problemyönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmaları vasitəsilə proqramlar üzrə təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnalogiyalardan istifadə edilir, qeyd olunan metodların qiymətləndirilməsi məqsədilə təhsilverənlərə münasibətdə açıq dərslər, təlim prosesinin monitorinqi, təhsilalanlara münasibətdə rəy sorğularının təşkili, şikayət və təkliflərin idarəolunması, yazılı, test, şifahi, təqdimat (layihə), nümunə iş, laboratoriya, nümayiş, tədqiqat və qarışıq kimi müxtəlif formalarda, texnoloji (kompüter, proyektor, maqnitafon, CD player və s.) və ənənəvi (imtahan blankları, test blankları və s.) vasitələrdən istifadə edilməklə aralıq qiymətləndirmə və yekun imtahanlar həyata keçirilir.

ATMU-da təlimin fasiləsiz və sinxron təşkili məqsədilə tədris prosesinin və xidmətlərinin rəqəmsallaşdırılması həyata keçirilir, ənənəvi dərslərdə auditoriya fondunun tələbələrin sayına uyğunlaşdırılması üçün dərslər 3 növbəli təşkil olunur, praktik və laborator dərslərin bir qismi birbaşa sənaye müəssisələrində aparılır. Həmçinin, tədris prosesinin səmərəliliyinin artırılması üçün professor-müəllim, eləcə də inzibati heyətin səriştələrinin artırılması məqsədilə sistemli təlimlər təşkil edilir, onların öz ixtisas sahələrinə aid yerli və beynəlxalq ixtisasartırma və digər təlim kurslarında iştirakı dəstəklənir.

Tələbələrin dərsdənkənar sosial, mədəni və idman fəaliyyətləri üçün iş planları hazırlanır, təhsilalanların akademik nailiyyətlərinin artırılması, onlarda müsbət davranış modelinin formalaşdırılması, təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması, təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi və ailə-təhsil müəssisəsi münasibətlərinin tənzimlənməsi məqsədilə psixoloji məsləhət xidməti təşkil edilir.

ATMU-da universitetlə məzunlar arasında qarşılıqlı faydalı əlaqələrin yaradılması və davamlılığının təmin edilməsi, məzunlarla tərəfdaşlığın inkişaf etdirilməsi və onların karyera inkişafina dəstək vermək məqsədilə Karyera və kommunikasiya şöbəsi yaradılmış, məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmi qurulmuşdur. Həmçinin, Universitetin məzunlarla davamlı əlaqə sisteminin mövcud olması, onlarla müxtəlif rəy sorğularının aparılması məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən, təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun və təklif olunan proqramların səmərəliliyinin ölçülməsi üçün əsas vasitələrdən biridir.

**III istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- Təhsil proqramlarının monitorinqinin təkmilləşdirilməsi;
- Monitorinqin nəticələrinə uyğun olaraq tədris planlarının yenilənməsi;
- Tədrisin rəqəmsallaşdırılması xidmətinin yüksəldilməsi.
- Tədris infrastrukturunun tələbə sayına uyğun optimallaşdırılması.

**IV istiqamət – Elmi tədqiqat**

ATMU-nun 2022-2026-cı illər üzrə təsdiq edilmiş Strategiyasında müəyyən edilən məqsədlərdən biri də “Elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsidir. ATMU-da Elmi-tədqiqat strategiyası mövcuddur. ATMU-nun Elmi-Tədqiqat Strategiyası aşağıdakı 5 istiqaməti (hədəfi) əhatə edir:

1. Elmi tədqiqatların koordinasiyasını həyata keçirmək; 2. Magistratura və doktorantura təhsil pilləsində tədqiqat mühitinin və kadr hazırlığının təkmilləşdirilməsi; 3. İnnovasiya sahəsində universitetin strategiyasının və inkişaf planının, inkişafın yol xəritəsinin və bu istiqamətli digər sənədlərin hazırlanması; 4. Digər beynəlxalq və yerli ali təhsil və elmi-tədqiqat müəssisələr ilə birgə əməkdaşlıq əlaqələrinin qurulması; 5.“Web of Science” və “Scopus” elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayını hər il artırılması istiqamətində fəaliyyət

ATMU-da elmi-tədqiqatın koordinasiyası Elm və inkişaf məsələləri üzrə prorektorluğu, Elm və innovasiyalar şöbəsi vasitəsilə aparılır. Həmçinin 2023-cü il 27 mart tarixində “Elmi-tədqiqat Mərkəzinin yaradılması haqqında” əmr verilmişdir. ATMU-da elmi-tədqiqat fəaliyyəti Elm və innovasiyalar şöbəsinin koordinatorluğu ilə kafedralardakı professor-müəllim heyəti, eləcə də tədqiqatçılar tərəfindən həyata keçirilir. Ümumiyyətlə, ATMU-da elmi-tədqiqat işlərinin aparılması işinə 2011-ci ildən başlanılmış, 2017-ci ilə isə innovasiya istiqamətində də fəaliyyət daha da genişləndirilmişdir.

Elm və innovasiya şöbəsinin əsas fəaliyyət istiqamətlərinə elmi tədqiqatların koordinasiyasının həyata keçirilməsi və Universitetin elmi fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə elmi tədqiqatların və araşdırmaların nəticələrinin praktikada tətbiqinə nail olunması daxildir. Elmi-tədqiqat işlərinin yekun monitorinqi kafedra iclaslarında, fakültə elmi şuralarında və sonda Elm və innovasiya şöbəsi tərəfindən həyata keçirilir. Hər ilin sonu elmi-tədqiqat işlərinin ümumi nəticələri Azərbaycan Milli Elmlər Akademiyasına və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə təqdim edilir.

ATMU-da antiplagiat və akademik dürüstlük siyasəti mövcuddur və bu siyasət STRİKE.PLAGİARİSM proqramı vasitəsilə həyata keçirilir. Həmçinin, “Antiplagiat sistemi və əqli mülkiyyət üzrə” qaydalar hazırlanmışdır.

**IV istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- Elmi tədqiqat mərkəzinin fəaliyyətə başladılması;
- Elmi tədqiqatların kommersiyalaşdırılması mexanizminin hazırlanması.

**V istiqamət – İdarəetmə sistemi**

ATMU-nun mövcud bütün strukturlarının rektorun əmri ilə təsdiq olunmuş Əsasnamə, vəzifə təlimatları və illik iş planları mövcuddur. Əsasnamələrdə şöbələrin əsas vəzifələri, idarəetməsinin strukturu və təşkili, funksiyaları, hüquqları və şöbə əməkdaşlarının rəsmi təlimatları əks olunur. Şöbələrin iş planlarında isə strateji inkişaf planına və şöbənin Əsasnaməsinə uyğun olaraq il ərzində görməli olduqları bütün işlər və icra müddəti öz əksini tapmışdır. ATMU-nun əsas idarəetmə orqanı kimi

Elmi Şuranın sonuncu Əsasnaməsi 14 sentyabr 2023-cü ildə təsdiqlənmişdir. Elmi Şuranın üzvlərinin sayı 33 nəfərdir. Elmi Şuranın illər üzrə iş planları mövcudur. Elmi Şuranın iş planı hər tədris ilinin ilk Elmi Şurasının iclasında təsdiqlənir. İş planı Elmi Şuranın Əsasnaməsində müəyyənləşmiş vəzifələrə uyğun olaraq tərtib edilir, aylar üzrə məsələlərin müzakirəsini əks etdirir. Elmi Şurada müzakirəsi nəzərdə tutulan məsələlər həmçinin ATMU publik hüquqi şəxsin Elmi Şurasının idarəedilməsi prosedurunda öz əksini tapmışdır.

ATMU-nun inzibati işçilərinin işə qəbul Proseduru mövcuddur, işə qəbul prosesində əsas məqsəd təşkilati məqsədlərin həyata keçirilməsinə uyğun olan ixtisaslı kadrların vakant vəzifələrə cəlb edilməsidir.

Maliyyə resurslarının planlaşdırılması zamanı xərc maddələri üzrə məbləğlər əvvəlki illərlə müqayisə olunur və xərclər proqnozlaşdırılır. Hər il üçün yeni xərc maddələri üzrə smeta tərtib edilir və Dövlət Turizm Agentliyinə təqdim olunur. Cari il üçün hər hansı xərc maddəsi üzrə əlavə vəsaitə ehtiyac olarsa, çatışmayan məbləğ üçün dürüstləşmə verilir. Universitetdə İnformasiya idarə etmə sisteminin struktur bölməsi olan İnformasiya Texnologiyaları şöbəsi iş prosesini ATMU-nun Elmi şurasının 14 sentyabr 2018-ci il (1 saylı Protokol) tarixli iclasında müzakirə edilərək təsdiq edilmiş əsasnaməyə uyğun təşkil edir. ATMU-da tədrisin elektron idarəedilməsi sistemi olan EDUMAN platformasında “Ultra Technologies” MMC ilə bağlanan müqaviləyə əsasən proqram təminatı və texniki dəstək xidməti dərs cədvəli, elektron jurnal, tədris planı, təqvim planı, akademik qrup, fənn kataloqu, fənn üzrə qruplar, fənn üzrə yarımqruplar, tələbələr, arxiv, qaydalar, xəbərlər, sənəd şablonları, akademik təqvim, təşkilati struktur, əməkdaşlar, istifadəçilər, soraqça, hesabat, müəllim kabineti və tələbə kabineti işləri üzrə proses gedir. ATMU-da informasiyanın elektron saxlanılması, təhlükəsizliyi, internet şəbəkəsinin mövcudluğu İnformasiya texnologiyaları şöbəsi tərəfindən təmin edilir. Strukturlararası sənəd dövriyyəsi “Elektron Sənəd Dövriyyəsi” vasitəsilə Ümumi şöbə tərəfindən tənzimlənir. Bunlarla yanaşı, müvafiq dövlət qurumları ilə müxtəlif platformalardan (Ali və orta ixtisas təhsili müəssisələrinin informasiya sistemi, Əhalinin Əmək və Soisal Müdafiəsi Nazirliyi nəzdində Bakı şəhəri üzrə Fərdi Uçot İdarəsi, Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyi yanında Əmlak komitəsi və Vergi idarəsi və s.) istifadə edilir.

ATMU-nun rəsmi saytı mövcuddur. Saytda universitet haqqında ümumi məlumat, rektorun müraciəti, elanlar, xəbərlər və s. bölmə və panelləri mövcuddur. Sayt Azərbaycan dilində fəaliyyət göstərir, eyni zamanda ingilis dili versiyası mövcuddur. ATMU-nun rəsmi saytı ilə yanaşı, ictimaiyyətin məlumatlandırılmasında rəsmi sosial şəbəkə hesablarından və KİV-dən istifadə edilir. ATMU-da məlumatların ictimaiyyətə çatdırılması prosesinin tənzimlənməsi üçün “Məlumatların mediada paylaşılmasına dair” təlimat mövcuddur. ATMU-da məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsinin əsas aləti kimi “ATMU-da ictimaiyyətin məlumatlandırılması ilə bağlı sorğu” sorğudan istifadə edilir, prosesin ümumi monitorinqi isə “Məlumatlandırma fəaliyyətinin monitorinqi” proseduru ilə aparılır.

**V istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- Permormans əsaslı differensial əmək haqqı sisteminin təkmilləşdirilməsi;
- Rəsmi veb-saytın funksionallığının artırılması;
- Səmərəliliyin qiymətləndirilməsi prosedurunun işləkliyinin təmin edilməsi.

**VI istiqamət – İnfrastruktur**

ATMU-da tədris binalarının və tədris otaqlarının Dövlət standartlarına uyğunluğu vəziyyəti “Fiziki mühitin təhlili və təhlükəsizlik proseslərinə nəzarət proseduru” (ATMU-XŞ-P(FMTTN)-01) əsasən mütəmadi olaraq yoxlanılır. ATMU-da tədris infrastrukturundan-auditoriya, kitabxana və imtahan otaqlarından istifadə təhsilalan, akademik və inzibati heyət üçün əlçatandır. Həmçinin, tədris infrastrukturuna ayrılan texnoloji avadanlıqların - kompyuterlərin və proyektorların istifadəsi müəllimlər və tələbələr tərəfindən əlçatanlığı tam şəkildə təmin olunur. Bütün otaqlarda proyektorlar quraşdırılmışdır. ATMU-da Kitabxana İnformasiya Mərkəzi, elektron resurların təminatı üçün İnformasiya texnologiyaları şöbəsi, yeməkxana, psixoloji xidmət mövcuddur. ATMU-nun Əsas (I) tədris binasında “Turizm işinin təşkili” ixtisası üzrə təlim-resurs mərkəzi mövcuddur. Əlavə olaraq həmin ixtisasın xüsusiyyətlərinə uyğun olaraq mehmanxanalarda, “Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması” ixtisası üzrə muzeylərdə praktiki dərslər aparılır. Belə ki, “PMD hospitality MMC” ilə ATMU-nun müqaviləsinə əsasən, otelçilik sahəsində New Baku Hotel, Excelsior Hotel Baku, Badamdar Hotel

and SPA Baku otellərində dərslər keçirilir. Həmçinin, muzeyşünaslıq, qida mühəndisliyi, bələdçilik və digər sahələrdə müəssisələrdə praktiki dərslər aparılır. Bunlara nümunə olaraq, Herba Flora, Ordubadi quru meyvələr, Üzümçülük və Şərabçılıq Elmi Tədqiqat İnstitutu, Mikrobiologiya İnstitutu ilə əməkdaşlıqları göstərmək olar.

ATMU-da aparılan elmi-tədqiqat işləri daha çox nəzəri məsələlərin həllinə istiqamətlənmişdir. Laboratoriyaya ehtiyac olduqda başqa müəssisələrə (İnstitutlara) müraciət edilir. ATMU-nun aşağıdakı elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələri mövcuddur:

- ✓ AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu;
- ✓ AMEA-nın İqtisadiyyat İnstitutu;
- ✓ AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyi;
- ✓ AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu;
- ✓ AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu;
- ✓ Bakı Dövlət Universiteti;
- ✓ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti;
- ✓ Azərbaycan Dövlət İqtisad Universiteti;
- ✓ Azərbaycan Dövlət Neft və Sənaye Universiteti;
- ✓ Azərbaycan Dövlət Pedaqoji Universiteti və s.

Həmçinin, Avstriyanın IMC Krems Tətbiqi Elmlər Universiteti ilə 2007-ci ildə Azərbaycan-Avstriya Turizm Proqramının reallaşdırılması ilə bağlı müqavilənin mövcudluğu ikitərəfli elmi-tədqiqat bazasından istifadəyə imkan verir.

**VI istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- ➢ Müvafiq qurumlarla kampus yaradılması ilə bağlı əlaqələrin intensivləşdirilməsi;
- ➢ İnkluziv tədris infrastrukturunun təkmilləşdirilməsi.

**VII istiqamət – Beynəlmiləlləşmə**

“Azərbaycan Turizm və Menecment Universitetinin beynəlmiləlləşmə siyasəti” sənədi Universitetin 2022-2026-ci illər əhatə edən Strategiyanın Beynəlmiləlləşmə istiqaməti üzrə nəzərdə tutulmuş strateji hədəflərinə uyğun olaraq hazırlanmışdır. Yenilənməsi ehtiyacəsaslı təkmilləşdirmə və 2026-cı ildən sonrakı dövr üzrə nəzərdə tutulmuşdur. 2023-2024-cü tədris ili üzrə fəaliyyət planında strategiyaya uyğunluq təşkil etmişdir. Eyni zamanda Beynəlmiləlləşmə siyasətinin icrasına dair fəaliyyət planı hazırlanmaqdadır. Beynəlmiləlləşmə siyasətinin hesabatlılığı təqvim ilinə uyğunlaşdırılmışdır

ATMU-da beynəlmiləlləşmə proseslərinin tənzimlənməsi Strateji inkişaf məsələləri üzrə prorektorluğun tabeliyində olan Beynəlxalq əlaqələr şöbəsi tərəfindən həyata keçirilir. Müvafiq şöbənin fəaliyyəti tədris illəri üzrə iş planları əsasında qurularaq illik hesabatları Elmi Şurada müzakirə edilir. ATMU-da təhsilalanların kreditlərinin tanınması məsələsinə yanaşma tələbəyönümlüdür. Universitetdə “Beynəlxalq Mübadilə Proqramlarının Təşkili Qaydaları” sənədi təsdiqlənmiş və tələbələr üçün əlçatanlılığı təmin olunmuşdur. İkili Diplom proqramları çərçivəsində ortaq tədris planı hazırlanır və fənnlər qarşılıqlı olaraq əvəzlənir. Eyni zamanda hər iki universitetin təlim və tədris prosesinə uyğun olaraq məcburi keçirilməsi olan standart fənnlərin tədrisi tənzimlənir.

ATMU-da beynəlmiləlləşmə siyasətinin prosesi çərçivəsində ehtiyacəsaslı fəaliyyətin tənzimlənməsi və lazımi dəyişikliklərin edillməsi və eyni zamanda Strategiyada qeyd olunan hədəflərə istiqamətlənmiş və təkmilləşdirilmiş siyasət üzrə hədəflərə nail olmaq üçün mütəmadi olaraq Beynəlxalq Əlaqələr şöbəsi tərəfindən izlənilir.

İş planları və fəaliyyət planları dövründə yeni məqsədəuyğun hesab edilən qeydlərin növbəti dövrdə tətbiqinin həyata keçirilməsi əsaslılıq təşkil edir. Yeni hədəflərin seçimi zamanı rəhbərliyin yanaşması və struktur rəhbərləri ilə təkmilləşdirilmə üzrə proses üzərində problem, həllinə gedən yolda təkliflər, məqsəd, məqsədə çatmaq üçün fəaliyyət planı, planın icrası üçün iş bölgüsü, həll variantları, insan və maliyyə resursları zərurilik təşkil edir. Daha sonra nəzarət və hesabat dövründə qiymətləndirilmə aparılır.

**VII istiqamət üzrə Təşkilat komissiyasının tövsiyyələri aşağıdakılardır:**

- ➢ Davamlı reytinq sistemlərində fəaliyyət istiqamətlərinin genişləndirilməsi;
- ➢ ATMU-ya əcnəbi təhsilalanların sayının çoxaldılması istiqamətində təşviqin artırılması.

**Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

1. Təhsil müəssisəsinin Nizamnaməsi;
2. Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı;
3. Təhsil müəssisəsinin tədris ili üzrə iş planı;
4. Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı;
5. Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla);
6. Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri;
7. Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat;
8. Elmi-tədqiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat;
9. Məzun olan təhsilalanların məşğulluq göstəriciləri;
10. Təlim resursları və tələbələrə dəstək xidmətləri;
11. Təhsil müəssisəsinin maddi-texniki bazası;
12. Təhsil müəssisəsinin sosial-məişət şəraiti;
13. Kitabxana fondunun (elektron daxil) vəziyyəti;
14. Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat;
15. Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat;
16. Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd;
17. Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər;
18. Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərs dənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri;
19. Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti;
20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.